AZƏRBAYCAN

10’2022

1923-cü ildən çıxır

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI

Baş redaktor: İntiqam QASIMZADƏ

Baş redaktor müavini: Südabə AĞABALAYEVA

Məsul katib: Vüsal NURU

Şöbə müdirləri: Məmməd ORUC, Qəşəm NƏCƏFZADƏ, Mübariz CƏFƏRLİ

Redaksiyanın ünvanı: Bakı - Az1000 Xaqani küçəsi, 25 **Telefonlar:** *Redaksiya –* 498-78-10 493-28-32 493-2834 *Mühasibat –* 493-29-41	**Çapa imzalanıb:** 22.09.2022 **Sifariş 2437** Tiraj 500 **Kağız formatı** 70x108 1/16 - 6,5 kağız vərəqi 12 çap vərəqi 16 şərti çap vərəqi	**E-mail:** intigam.gasimzade@gmail.com sudabe334@mail.ru **www.azyb.az** **Qiyməti** **2 manat** **Bakı şəhəri, “Azərbaycan” nəşriyyatının mətbəəsində ofset üsulu ilə çap olunur**

Dərc olunmuş yazılar qəbul edilmir.
Əlyazmalara rəy verilmir və qaytarılmır.
Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

BU SAYIMIZDA:

HÜSEYN CAVİD – 140

HÜSEYN CAVİD.....3
GÜLAY TAHİRLİ – Hüseyn Cavid dramaturgiyası – onun lirikasının davamı və inkişafıdır.....5
ADİL MİRSEYİD – Payız metaforası.....22

POEZİYA

RAFAİL TAĞIZADƏ – Şeirlər.....27
SABİR YUSİFOĞLU – Şeirlər.....40
BƏSTİ ƏLİBƏYLİ – Şeirlər.....111
KƏRƏM KƏLBƏCƏRLİ SARIDAŞLI – Şeirlər.....121

2022 – ŞUŞA İLİ

RÜSTƏM KAMAL – Şuşa ədəbiyyatımızda "meteoroloji mif" kimi.....34

YUSİF HƏSƏNBƏYİN 90 YAŞI

YUSİF HƏSƏNBƏY – Dağıntılar altında (roman) 51

NƏSR

MÜBARİZ CƏFƏRLİ – Kiçik hekayələr.....124
NİZAMİ ƏLİOĞLU – Mələklərlə görüş.....132

YENİ TƏRCÜMƏLƏR

YAPON POEZİYASINDAN – Toki Dzömmaro, Sumako Fukao, Horiquti Dayaqaku, Nisivaki Dzündzaburo, Takahasi Sinkiti, Dzyun Takami, Nakahara Tyuya, Sekine Hirosi – (Tərcümə: Azad Yaşar) 139
AVROPA POEZİYASINDAN – Silvi Mari. Şeirlər – (Tərcümə: Ramiz Abbaslı).....152

ƏDƏBİ SÖHBƏTLƏR

Baş redaktorun profili 156

YAZIÇININ ARXİVİNDƏN

"Ümidinin keşiyində dur, əzizim!".....162

TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

TƏYYAR SALAMOĞLU – Bir romanın izi ilə.....167

İSTİ-İSTİ

VAQİF YUSİFLİ – "Davam edir Nizami".....181

SÖZ XƏZİNƏMİZDƏN

PAŞA ƏLİOĞLU – Tərzi Əfşarın anadilli şeirləri.....185

KİTAB RƏFİ 191

Hüseyn Cavid – 140

MƏNİM TANRIM

Hər qulun cahanda bir pənahı var,
Hər əhli-halın bir qibləgahı var,
Hər kəsin bir eşqi, bir Allahı var,
Mənim Tanrım gözəllikdir, sevgidir.

Gözəl sevimlidir, cəllad olsa da;
Sevgi xoşdur, sonu fəryad olsa da,
Uğrunda mənliyim bərbad olsa da,
Son dildarı gözəllikdir, sevgidir.

Gözəlsiz bir gülşən zindana bənzər,
Sevgisiz bir başda əqrəblər gəzər,
Nə görsəm, hanki bəzmə etsəm güzər,
Həp duyduğum gözəllikdir, sevgidir.

UYUYOR

Əsmə, dur! Əsmə, ey nəsimi-bahar!
Uyuyor, yari-işvəkar uyuyor.
Dalğalandıqca zülfi-zərrintar,
Sarıyor pəmbə hüsnü altın nur.

O gözəl çöhrənin əsiri ikən,
Əcəba, qısqanırmısın bəndən!?
Əsmə, bir dur! Bıraq, bıraq uyusun
Nevbaharın şu nazənin qızını.
Ötüşən quşlar! Iştə siz də susun!
Susun artıq! Şu Zöhrə yıldızını
Seyr edin iştiyaqü həsrət ilə,
Bu gözəl levhə sonra düşməz ələ.
Bu çiçəklikdə, siz əmin olunuz,
Böylə bir gül yetişməmiş əsla.
Kim bilir! Düşsə cənnətə yolunuz,
Bulunur bəlkə böylə bir sima,
Bulunur bəlkə böylə bir afət!
O da şayani-şübhədir, əlbət...
Günəş! Ey xilqətin gözəl gəlini!
Uyuyor iştə nazlı həmşirən!
Sən də dur! Saçma bir ziyalərini,
Sən də bir an için çəkil, gizlən!
Bir az əylən bulutlu dünyadə,
Mane olma bu tifli-nevzadə.
Bəstəri-nazı həp çiçəklərdir,
Oqşayor iştə gül yanaqlarını,
Yeşil otlar öpər dəqiqədə bir
Pəmbə, tombul, lətif ayaqlarını.
Aqışıb ən küçük sular xəndan,
Ninni söylər o şux için hər an.
Uyuyor... bixəbər şu vəlvələdar,
Şu səfasız, vəfasız aləmdən.
Uyuyor... baq nə xoş, gülər yüzü var,
Şaşırır şübhəsiz bu halı görən.
Şimdi rö'yada kim bilir, bu mələk
Hanki aləmdə əylənir gülərək.
Uyuyor... pək sevimli, pək mə'sum,
Bir çocuq ruhi var şu fitrətdə.
Hələ rast gəlməmiş bu taleyi-şum
Böylə bir nazəninə xilqətdə.
Hüsni-mütləq enərsə yer yüzünə,
Qonar ancaq bunun gülər yüzünə.
Uyuyor... Of! Ey bəlalı gönül,
Çırpınıb durma! Sən də sus artıq,
Vurma, sus! Iştə susdu həm bülbül;
Dur, həyatım da getsə, dur azacıq,
Uyuyor çünki aşinayi-xəyal,
Uyuyor çünki qayeyi-amal...

Gülay TAHİRLİ

HÜSEYN CAVİD DRAMATURGİYASI – ONUN LİRİKASININ DAVAMI VƏ İNKİŞAFIDIR

– 1 –

Cavid dramaturgiyasında qoyulan bir çox problemlər başlanğıcını lirikadan götürür. Cavidin dramları bəzi məqamlarda lirikasının davamı və tamamı təsirini bağışlayır.

Hüseyn Cavid üçün heç nə kölgə deyildi, onun əsərlərində heç bir düşüncə əsib-keçən külək, anlıq dalğa təsiri bağışlamır. Hətta əsas mövzunun fonunda olan məsələlər belə illər sonra olsa da, mütləq mərkəzə gəlir, yarım nə varsa, özünəməxsus bir şəkildə tamamlanır, suallar öz cavabını, problemlər bədii həllini tapır. Cavid daim düşünən şairdir, daim axtarışda olan dramaturqdur. Lirikasından dramaturgiyasına gedən yolda bu düşüncə axınını addımbaaddım izləmək mümkündür. O, nəyisə hazır şəkildə oxucusuna təqdim edib bilincaltında “buna inan” demir. Şair hər şeyi oxucusu ilə birlikdə axtarır, sualları cavabsız, cavabları sualsız olmur. Birinci sual verir, cavabı necə tapdı, necə sübut etdi, hansı faktları gətirdi – bunlar hamısı diqqətli oxucunun gözü önündə baş verir. Hüseyn Cavid bir çox hallarda nəticəni görür, lirikasında təsvir edir, sual verir, cavabı, səbəbi isə dramaturgiyasında tapır. Bu ən çox şairin dərinliyə enən düşüncəsindən, həssas ürəyindən qaynaqlanır. Hüseyn Cavid heç nəyin yanından ötüb-keçmir, o, toxunub keçir, nəsnələrin, varlıqların sonuncu hüceyrəsinə qədər görüb keçir. Həmişə görürmü? Əlbəttə ki, yox! Amma görə bilmədiklərini də içində daşıyır, görənəcən axtarır, sorğulayır... Həyatı, həyatdakıları bir kilidli qutu kimi təsəvvür edək. Şair o qutunun içində nələr olub bitdiyindən xəbərdardır. Amma o qutunu açmayınca, dərininə enib hərtərəfli incələməyincə, əlindən buraxan deyil. Hüseyn Cavid lirikası qutunun kilidli halını təsvir edir, qutunun içindəkilərdən xəbər verir. Hüseyn Cavid dramaturgiyası isə qutunun açılmış halıdır, şair-dramaturq artıq hər şeyi göz önünə qoyur. “Göz önünə qoyur” dedim, amma gözlə baxsan, ancaq zahiri görərsən, Hüseyn Cavid hər şeyi həm də ruh önünə qoyur, baxıb daxili görəsən deyə!!!

Şeir janrlar içərisində ən qapalı olanıdır. Qapalılıq sufi poetikasının da əsas prinsiplərindən biri idi. İbn Arabi şeiri "qısa", "öz" olaraq mənalandırıb,

açıqlamaya (bəyan və təfsir) qarşı çıxıb. "Şeir" kəlməsi "şüur" ilə eyni kökdən qaynaqlanır. Şüurda da ibham, yəni qapalılıq olduğuna görə, Allah peyğəmbərinə "Biz sənə şeiri öyrətmədik, bu sənə gərəkməz" deyir. [Yasin, 69] Çünki peyğəmbər açıqlayıcı (mübəyyin) və açıcı (müfəssil) olaraq göndərilmişdi. İndinin özündə də şeir qapalılığını, sirrini, sehrini qoruyur. Heç də hər şeyi şeirdə demək olmur. Bu, həcmin məhdudluğundan deyil, sirrin-sehrin tələblərindən irəli gəlir. İbn Arabinin belə bir sözü var: "Şeir örtər". Əhməd Hamdi Tanpınar da "Mən şeirimdə gizli saxladığım şeyləri hekayələrimdə və romanlarımda açıqladım" – deyir. Bu fikri Cavid əfəndiyə də aid etmək olar, o, sadəcə, Tanpınardan fərqli olaraq, şeirlərində gizli saxladıqlarını dramlarında aşkara çıxarır. Cavid əfəndinin lirikası ilə dramaturgiyası arasında bir körpü var. Körpünün bir tərəfi – lirikada qalan hissəsi bəzən kölgəli, dumanlı ola bilir, dramatik tərəfi isə həmişə aydın görünür. Lirik tərəfdə toxumlar, fidanlar var, dramatik tərəfdə isə qollu-budaqlı ağaclar...

– 2 –

İlk olaraq “Hübuti-Adəm” şeirinə və onun Hüseyn Cavidin bəzi dramları ilə əlaqəsinə nəzər salaq. “Hübuti-Adəm”də şair eşq, gözəllik, ehtiras, tənhalıq, günah, fəlakət..., xoşbəxtlik kimi məsələlərə toxunur. Bu şeir Cavid yaradıcılığında xüsusi yer tutur, çünki bir şeir bir dahinin bütöv yaradıcılığının ipucunu vermək gücündədir.

Əvvəlcə "Hübuti-Adəm" yazıldı, sonra "İblis", sonra da "Peyğəmbər" əsəri, Hüseyn Cavid "Uçurum" faciəsində də yenidən Adəm-Həvva məsələsinə qayıtdı. Görünür, Cavidi dünyanın sadəcə bu günü deyil, gələcəyi deyil, həm də dünəni düşündürmüşdür. Özü də dəfələrlə. Cavid məsələnin kökünə qayıtmışdı, dünyanın bugünkü mənzərəsinin, insanların xislətinin, bir sözlə – hər şeyin səbəbi oradan – günahın ilk işləndiyi yerdən başlanırdı.

Hübuti-Adəm şeiri şairin ilk şeirlər kitabı olan "Keçmiş günlər" (1913) kitabına daxil edilmişdi. Şeirin birinci hissəsi Adəmlə Həvvanın cənnətdə keçən xoş, qəm-kədərdən uzaq günlərindən, cənnətin ümumi təsvirindən bəhs edir. Cənnət deyiləndə gözümüzün önünə ilk hansı gözəlliklər gəlirsə, Cavid onları şeirin birinci hissəsində nəzmə çəkib.

"O bir mə'va ki, pək biganəyiz biz,
Bu torpaqdan uzaq, qəmsiz, kədərsiz."

Bəli, cənnətdə hər şey gözəl idi. O zamana qədər ki, zəbuni-ehtiras ülvi eşqə qalib gəldi. Tanrı insanları cəzalandırıb Yer üzünə göndərdi. Əslində, bütün bəlalar eşqin azlığından, ehtirasın çoxluğundan qaynaqlanmırmı? Hüseyn Cavidin "Hübuti-Adəm"də eskizini çəkib "İblis"də tamamladığı ideyalardan biri, bəlkə də, birincisi məhz bu idi.

"Hübuti-Adəm" şeirinin ikinci hissəsində Allah Adəm və Həvvanı töhmətləndirir, cənnətə layiq olmadıqlarını, oranı tərk etmələrini buyurur, bu, onlara bir pəri vasitəsilə çatdırılır. Adəm necə aldadıldığının, olduğu yerlə getdiyi yerin fərqinə varır. Şeirin sonlarında dünya durduqca Adəm nəslinin bu müdhiş zərbədən qurtulmayacağı, daim inləyəcəyi vurğulanır, narahatlıq, təəssüf içində bu nəticəyə gəlinir ki, Adəmdən öz nəslinə qalan əmanət

fəlakətdir. "Hübuti-Adəm"də bu fikir öncəgörmə, ehtimal təsiri bağışlayır. Şeiri oxuyan oxucu artıq öz zamanından Adəm-Həvva zamanına deyil, Adəm-Həvva zamanından müəmmalı bir zamana baxır. Baş verəcək hadisələrin kədərini, narahatlığını yaşayır, bu narahatlıq sanki min illər, milyon illər çəkir. Bu, Hüseyn Cavid qələminin gücüdür. Oxucunu olduğu zamandan ayırıb şeirin içində, aurasında yaşada bilmək yalnız böyük qələm adamlarına məxsus xüsusiyyətdir. Söz zamana üstün gəlir. "Hübuti-Adəm" şeirində ehtimal olunan bütün hadisələr "İblis" faciəsində, həqiqətən, yaşanır. Bu mənada "İblis" həm də "Hübuti-Adəm"in bədii-fəlsəfi təsdiqidir. Dünyada Adəmlə Həvvanı nələr gözlədiyini Pəri əvvəlcədən xəbər vermişdi. Maraqlıdır ki, "İblis" əsərinin girişində də Mələk obrazı ilə qarşılaşırıq. "Hübuti-Adəm"in Pərisi ilə "İblis"in Mələyi, əslində, eynidir. Onları fərqləndirən tək şey olduqları yerdir, Pəri hadisələrə cənnətdən baxır, olacaqları deyir, Mələk isə hadisələrə dünyadan baxır və olanları deyir. İkisi də təəssüf, dəhşət içindədir. İkisi də bəşərdən narahatdır. Amma Mələyin fəryadı Pəridən daha çoxdur, indiki zamanın gözlə görünən acı gerçəkləri gələcəyin təsəvvür edilənlərindən daha dəhşətlidir... Pəri üzünü bəşərə, Mələk isə üzünü Tanrıya tutur, Tanrıdan imdad diləməkdən başqa çarəsi yoxdur. Dünyanı qan seli bürüyüb, insan evlər yıxır, canlar yaxır...

"Düşün! Naqis bəşər, bir baq nə yapdın!?" ("Hübuti-Adəm")
"Qəhr olmada artıq bəşəriyyət.
Başdan-başa həp yer üzü vəhşət,
İblis ilə həmrəngi-siyasət!" ("İblis")

Adəmin böyük xətasından artıq yüz illər, min illər keçib və Pərinin verdiyi suala Mələk min illər sonra sübutu-dəlili ilə cavab verir...

"Hübuti-Adəm"də belə bir beyt var:

Sən əvvəl xeyrü şərdən bixəbərdin,
Çocuq ruhu ilə bipərva gəzərdin.

Adəm xeyri şərdən ayıra bilməyəndə xeyri şərindən daha çox idi, Adəm xeyri şərdən ayıra bildi (Qadağan olunan şeyi də, hansı varlıqdan ehtiyatlı olmaq lazım gəldiyini də yaxşı bilirdi) və şəri xeyrinə üstün gəldi. "İblis" dramının başlanğıcında da Arif özünü İblisin bəlalarından, fitnələrindən qorumağa çalışır, İblisin şər olduğunu bilir, hər fürsətdə onu rədd edir, itələyir. Sonra onun da ehtirası eşqinə, şəri xeyrinə qalib gəlir. Bəlkə də, bilgi Adəmdən öz nəslinə qalan ən böyük bəlalardan biridir, bəlkə də, Adəm bilməsəydi, etməyəcəkdi... "Peyğəmbər" əsərində peyğəmbərə sual verirlər ki, səndən arif olanlar çox olduğu halda Tanrı niyə məhz səni seçdi? Peyğəmbər cavab verir: "Çünki bən onun aşiqi-divanəsiyim". Bu cavab, əslində, "Hübuti-Adəm"də işaran, "İblis"də alovlanan bir çox məsələlərin həlledici cavabı idi. Adəm də, Arif də, Adəmlər, Ariflər də eşqə sahib çıxa bilmədiklərinə görə uduzdular...

Cavid əfəndi "Uçurum" faciəsində də yenidən Adəm-Həvva məsələsinə qayıdır: "İlk atamız Adəm kibi öncə sapdım, aldandım..." İnsanın irsində, qanında böyük bir aldanış var və həmin aldanış Adəmdən bu günə qədər daim təkrarlanır. "Hübuti-Adəm"də cənnətlə Yer üzünün təzadını, böyük fərqlərini görürük. Cənnətdə gözəllik, qayğısızlıq, ülvi eşq hakim idisə, Yerdə

bunların tamamilə əksinin baş verəcəyi Pəri tərəfindən əvvəlcədən bildirilmişdi. “Hübuti-Adəm” birləşməsi “Adəmin düşüşü” mənasını verir. Yer kürəsi cənnətin uçurumu idi, Adəm cənnətdən uçuruma düşmüşdü. Sonra o uçuruma Cəlal, Anjel düşdü, Cəlallar, Anjellər düşdü. Cəlal da Adəm kimi etdiyi xətanın fərqinə varır, Cəlal da Adəm kimi üzr istəyir. Amma nə fayda? Tanrı mərhəmətlidir, eyni zamanda, ədalətlidir. Əkrəmin Cəlala dediyi “üzrün suçundan betər!” cümləsi bu məqamda yada düşür.

Hüseyn Cavid yaradıcılığında dəfələrlə gözəllik mövzusuna müraciət edir, hətta gözəlliyi özünün Tanrısı hesab edir. Cavidin müqəddəs gözəllik ideyasının əsası məhz “Hübuti-Adəm” şeirində qoyulur. Cənnətdə süs geyimin adət olmadığını, bir tül geydiklərini və iffət sahibi olduqlarını vurğulayır. Şairin gözəllik anlayışı bər-bəzəklə, daş-qaşla, zahiri görünüşlə məhdudlaşmır. Bir tüllə belə iffət sahibi olmaq mümkündür, təki sinəndə ülvi eşq daşıyan ürək və çocuq ruhu gəzdirə biləsən. Hüseyn Cavid “Hübuti-Adəm”dən başlanan bu ideyaya lirikasında da dönə-dönə qayıdır, dramaturgiyasında daha da genişləndirir. Mövzunun qoyuluşu lirikadan başlanır, nəticə hissəsi isə dramaturgiyada verilir. “Peyğəmbər” dramında peyğəmbərin dilindən Şəmsaya ünvanlanan bu misraları Hüseyn Cavidin müqəddəs gözəllik ideyasının yekunu və nəticəsi kimi qəbul etmək olar:

Bən gözəllərdə gözəl ruh ararım,
Ruhu düşkünləri çirkin sayarım.

Şairin “Mənim tanrım gözəllikdir” deyəndə hansı gözəlliyi nəzərdə tutduğunu təxmin etmək olardı, amma əmin olmaq üçün dramaturgiyasına üz tutmaq lazım gəlir.

Hüseyn Cavidin lirik və dramatik əsərləri arasındakı bağlılıqdan danışarkən Şeyx Sənan mövzusuna toxunmamaq olmaz. “Şeyx Sənan” faciəsi “Şeyx Sənan” şeirinin davamıdır. Şeir 1914-cü ildə, faciə isə 1918-ci ildə yazılıb. Görünür, bu illər ərzində Cavid əfəndi Şeyx Sənanı içində gəzdirib, obrazına sadiq qalıb, əhvalatını düşünüb, düşünüb, sonra bu düşüncələr genişlənərək böyük bir dram əsərinə çevrilib, hansı ki, həmin əsər Azərbaycan dramaturgiyasının ən kamil örnəklərindəndir.

Cavid Tiflisdə müəllim işlədiyi dövrdə tez-tez Şeyx Sənan türbəsinə gedərmiş. Şeyx Sənan əhvalatından, türbəsindən təsirlənən şair əvvəlcə “Şeyx Sənan” türbəsi önündə şeirini yazır.

“Nədir mənası eşqin!?” söyləyənlər nerdə? Bir gəlsin,
Görüb qüdsiyyəti-Sən’anı, lal olsun xəcalətdən”.

Eşqin mənası nə idi? Sənan kim idi, niyə müqəddəs idi və onu görənlər niyə lal olmalı idi? Şeirdə Sənanla tanış oluruq, faciədə onu bütün xüsusiyyətləri ilə, sözün əsl mənasında, tanıyırıq. Şeirdən məlum olur ki, Sənan dini, imanı bir mələksimaya satır, “Quran”ı atır və özü bir təriqət yaradır. Kəbəsi daşdan, torpaqdan yox, məhəbbətdən tikilib. Dini-imanı atmasına baxmayaraq, şair Sənanın qüdsiyyətindən danışır, o qüdsiyyət ki, başqalarını xəcalətdən lal eləyir, mələklər göydən enib bu müqəddəslikdən feyz alır. Dini-imanı atmaq heç bu qədər müqəddəs olmamışdı! Faciədə belə bir beyt var:

"Din bir olsaydı, yer üzündə əgər,
Daha xoşbəxt olardı cinsi-bəşər".

O böyük din, şübhəsiz ki, eşq idi. "Hübuti-Adəm"də də Adəmlə Həvvanın faciəsinə eşqi tərk etmək səbəb olmuşdu. Bəşəriyyətdə gündən-günə artan faciələrin, qan-qadanın, ehtirasın dünyanı nə günə qoyduğunu "İblis"də gördük. "Şeyx Sənan" faciəsində Cavid artıq məsələnin həll yolunu göstərir: Eşq – vahid din!

Sözügedən şeirdə Cavid Şeyx Sənanın əsla məhv olmayan, cahan durduqca yüksələn, təravətdən düşməyən xoş bir təriqət qoyduğunu yazır. Dünyada nə qədər köhnələn, məhv olan dinlər var. Hazırkı dinlərin də min illərdən, milyon illərdən sonrakı taleyi bəlli deyil. Amma eşq daimidir, o, həmişə olacaq. Dinlərdən əvvəl də dünya vardı, eşq isə dünya ilə birgə yaranıb.

Hüseyn Cavid lirikasının ən sevilən, ən gözəl şeirlərindən biri də "Get" rədifli qəzəlidir. Məlum olduğu kimi, burada aşiq mələk hesab etdiyi bir tərsa qızına vurulub. Böyük eşqin qarşılığında gördüyü şey vəfasızlıqdır, aşiq bu eşq ucbatından divanə olduğunun fərqindədir. Qəzəldəki tərsa qızı "Şeyx Sənan" faciəsindəki Xumarı xatırladır. Xumardan bəhs ediləndə Sənan onun qadın deyil, mələk olduğunu vurğulamışdı. Eyni adlandırma qəzəldə də var. Sənan Xumarın vəfasızlığından gileylənir, şeirdə də vəfasızlıq ön plandadır. Sənan eşqi üçün dinindən döndü, xaç taxdı, donuz otardı, ağır mənəvi iztirablar çəkdi, eşq uğrunda hər şeydən vaz keçdi. Sonda Platon da, Papas da sözlərindən döndülər, Sənan Xumarın vüsalına Yer üzündə çata bilmədi, İsanın şəfqətindən ona pay düşmədi. Hüseyn Cavid "Anladıq şəfqəti-ayini-məsiha nə imiş!" misrasında sanki bu hadisəyə işarə edir. Həmin misranı böyük dramaturqun yaratdığı obrazlar içərisində sadəcə Şeyx Sənan deyə bilərdi. Qəzəlin sonunda aşiq aləmin səfasından bəhs etməyin mənasızlığını, cahan mülkünün necə viranə qaldığını vurğulayır. Dramda da Sənanın dünya haqqında düşüncələri dəyişmir, aləm ona düşmən kəsilir. Əsərin sonunda Sənanın Xumarla cənnətdə rahatlıq tapdığı ümumun dilindən verilir. Bununla da Cavid aləmin zevqi-səfasının olmadığını bir daha təsdiqləmiş olur. Ümumiyyətlə, Hüseyn Cavidin bir çox əsərlərində vardığı nəticə budur ki, səfa sadəcə Adəmlə Həvvanın həmişə darıxdığı, Sənanın vüsala çatdığı cənnətdədir.

– 3 –

İlk yazılı abidəmiz "Kitabi-Dədə Qorqud"da belə savaş səhnələri var, o zamandan bu zamana kimi elə bir dövr olmayıb ki, müharibə həmin dövr ədəbiyyatının əsas mövzularından biri olmasın. Mövzu dəyişmir, sadəcə tarixə, ictimai-siyasi şəraitə görə hər dəfə yeni ruh, yeni biçim qazanır. Dünya ədəbiyyatında da mənzərə eynidir, Homerin "İliada" və Odisseya"sından üzü bəri müharibə mövzusunda minlərlə əsər yazılıb və yazılmaqdadır. Müharibə Hüseyn Cavid yaradıcılığından da yan keçməyib, şair həm lirikasında, həm də dramaturgiyasında bu mövzunun üzərində dönə-dönə dayanır. Hüseyn Cavidin bəzi obrazları həm özləri ilə, həm də cəmiyyətlə savaşmalı olurlar. Buna nümunə kimi, Afəti, Şeydanı göstərə bilərik. "Öksüz Ənvər" şeirində

doqquz yaşlı uşaq əliyalın, silahsız, dilsiz şəkildə mühitlə savaşır. Onun göz yaşları Topal Teymurun silahından, Yıldırımın ordusundan daha güclü, daha təsirlidir. Bəzi hallarda duyğular obraz səviyyəsinə yüksəlir, onlar da savaşmalı olurlar. Məsələn: "Hübuti-Adəm" şeirində eşqlə ehtiras üz-üzə dayanır.

Müharibə deyiləndə ağla toplar, tüfənglər gəlir, amma Hüseyn Cavid bu məsələyə də, nəinki məsələyə, hətta sözə belə həmişəki kimi öz geniş pəncərəsindən baxır. Şair "Müharibə və ədəbiyyat" məqaləsində yazır: "Bugünkü müharibədə yalnız toplar, tüfənglər deyil, hər məmləkətin ədəbiyyat və fəlsəfəsilə bəslənən beyinlər də ayrıca haizi-əhəmiyyətdir". Rus ədəbiyyatından Lev Tolstoy, alman ədəbiyyatından Fridrix Nitsşeni misal gətirir, – bir sözlə, Frans Kafka kimi, beyinləri savaşa çağırır, qolları deyil.

"Hərb və fəlakət", "Qürubə qarşı", "Kars və Oltu ətrafında səbəbsiz (!) alçaqcasında qətl və yəğma edilən məzlumlar için", "Hərb ilahi qarşısında" kimi şeirlərində, həmçinin dramlarında real hərb səhnələrinin təsvirini və sonrakı təsirini verir. Uzun sözün qısası, müharibə sözün bütün mənaları və genişliyi ilə Cavid yaradıcılığında öz əksini tapıb. Cavid əfəndi Birinci Dünya Müharibəsi, ermənilərin rusların Qarsa, Oltuya hücumları, ermənilərin Bakını taladığı, qırğınlar törətdiyi bir dövrdə (haşiyə çıxaraq onu da qeyd edim ki, 20-ci əsrin əvvəllərində ermənilərin Bakıda törətdiyi qırğınlar, əhalinin başına açdığı bəlalar Məhəmməd Əsəd bəyin “Şərqdə neft və qan” əsərində gözəl əks olunub), rusların yurdumuzda at oynatdığı bir zamanda yaşayırdı. Cavid qanlı müharibənin içində əlində silahla dayanmamışdı, amma müharibələrdəki, davalardakı qanın acısını bütün varlığı ilə hiss edirdi və baş verən amansız hadisələrə biganə qalan vecsizləri qınayırdı. (“Müharibə və ədəbiyyat” məqaləsi)

"Qüruba qarşı" şeirində lirik qəhrəman kədər, dəhşət, sarsıntı içindədir, başqa cür ola da bilməzdi, çünki bütün cahan qətlgah olub, çəmənlər, dənizlər, buludlar – hər yer qandır. Şeirdə bütün bunların səbəbi "Niçin? Ya Rəb, niçin?" deyə Tanrıdan soruşulur, heyrət və dəhşət duyğuları ifadə olunur. Bu şeir mənə məşhur norveçli rəssam Edvard Munkun "Təbiətin bağırtısı" (1893) əsərini xatırladır. Rəssamın gündəliyində qeyd etdiyinə görə, o, bir dəfə dostları ilə gəzəndə günəş batır, göy üzü qan qırmızısına boyanır, Edvard Munk özünü tükənmiş hiss edərək dayanır, şəhərin üzərində qan və dil şəkilli alovlar görür. Dostları gəzməyə davam etsə də, o, yerindəcə qalır və deyir ki, təbiətin içindən keçən sonsuz bağırtını ürəyimdə hiss etdim. Hüseyn Cavid "Qüruba qarşı" şeirində günəşi qəhrindən qızarmış qanlı simaya bənzədir. Cavid mənzərənin şəklini sözlə, Edvard Munk fırça ilə çəkir. Maraqlıdır ki, bir-birindən xəbərsiz bu iki şair, rəssam günəşin batışı yox, günəşin batışına baxış üzərində dayanır. Biri sözlə, digəri fırça ilə Tanrını sorğulayır, qanlı qürub qarşısında heyrətlərini ifadə edirlər. Mövzu qan olanda bütün həssas ürəklər eyni dəhşəti, eyni duyğunu yaşayır. Dostoyevski yaxşı deyir axı: "Bu dünya həssas ürəklər üçün cəhənnəmdir".

Şeirin sonunda harada dirilik varsa, orada mütləq qavğanın da var olacağı nəticəsinə gəlinir, şair bunu hikmət qanunu, məhv olmayan xilqət sirri kimi mənalandırır. "İblis" dramında “Niçin” sualının cavabı artıq tapılır – İnsan

xisləti! İblis istehzalı qəhqəhələrlə insanlardakı hörmət və məhəbbətin doğurduğu ədavətə, ülfətin çevrildiyi vəhşətə acı-acı gülür. Eşqi ehtirasa dəyişən Adəmə cəza olaraq verilən dünyada Adəm övladlarından başqa nə gözləyəsən və ya onları niyə qınayasan ki? Bəli, insan xisləti budur! Yaradılışı budur! 1914-cü ildə ruslar və ermənilər Qarsda, Oltuda qətliamlar törədirlər. Hüseyn Cavid bu hadisəyə də biganə qalmır, "Kars və Oltu ətrafında səbəbsiz (!?) olaraq alçaqcasına qətl və yəğma edilən məzlumlar için" şeirini yazır. Qəhr olub gedən füqəranın, titrəşib çabalayan yavruların ağrısını, acısını bütün varlığı ilə hiss edir. "Onlar sizdən deyilmidir" deyərək bəşəriyyətin sükutuna təəccüblənir, təəssüflənir. Qardaş qanına biganəliyi anlaya bilmir. Nazim Hikmətlə Hüseyn Cavidin görmək istədiyi mənzərə eyni idi. Hüseyn Cavid “Qoca bir türkün vəsiyyəti” şeirində yazır ki, yer üzünü qardaş bilin, insan qanı tökməyin. Nazim Hikmət isə “Yaşamağa dair” şeirində belə deyir:

"Yaşamaq bir ağac kimi tək və hürr,
Yaşamaq bir orman kimi qardaşcasına".

Bəli, belə idi qoca türkün vəsiyyəti! Və bu iki türk, iki bəşəriyyət şairi ulu babalarının – qoca türkün yolu ilə gedirlər – ya qardaşlıq, ya azadlıq! Bircə qan olmasın...

Şeirdə qızılgüllərin hiss edən, danışıb-gülən obraz səviyyəsinə yüksəlməsi və baş verən hadisələrə, insanlara yanaşması, xüsusilə maraqlıdır. Dünyanın bir tərəfində insanlar, körpələr ölür, can çəkişir, işgəncələrə məruz qalır, digər tərəfindəki insanlar isə susur, həyatlarına olduğu kimi davam edirlər. Qızılgüllər onlara – bəşəriyyətin duyğusuz səfillərinə, biganə zalımlarına gülür. Qan axıdılan, qətliamlar törədilən, körpələr öldürülən bir zamanda qızılgüllər "İncil"in həqiqətinə, "Quran"ın hökmünə gülür... Nə "İncil", nə də ki "Quran" insanları xilas edə bilirdi.

"Səyavüş" dramında Səyavüş dünyanı gülünc faciələr səhnəsi adlandırır. Qızılgülün yanaşması ilə Səyavüşün yanaşması eynidir. Normalda faciəyə gülməzlər, ağlayarlar. Amma Cavidin bəzi obrazları faciələrə gülür. Çünki göz yaşı dərketmənin nəticəsidir, nə baş verdiyini görürsən, bilirsən və çarəsizlikdən ağlayırsan. Amma faciələrə gülüş baş verənləri anlaya bilməməkdən doğulur, bu yerdə çarə belə axtarılmır, nə fayda?! Səyavüş həyata niyə "faciələr səhnəsi" deyirdi? Çünki həyatın canlılığını itirdiyinin, səhnə, tamaşa olduğunun fərqinə varmışdı. Bəşəriyyət dərk edilə bilməyəcək qədər dəhşətli durumda idi. Haqq-ədalət məzlumlardan üz döndərib, Şərq də, Qərb də al qan püskürür. Hüseyn Cavid həm lirikasında, həm dramaturgiyasında qüvvət üzərində xüsusilə dayanır.

"Kainatı yaşadan qüvvətdir" ("Kars və Oltu ətrafında səbəbsiz (!?) olaraq alçaqcasına qətl və yəğma edilən məzlumlar için")

"Cihanda haq da, həqiqət də həpsi qüvvətdir". ("Hərb və fəlakət")

"Qüvvətə, altına tabe dünya". ("İblis")

Həyatın dəyişməyən acımasız qanunlarından biri də budur ki, haqq-ədalət heç vaxt məzlumun yanında olmur, qüvvət haradadırsa, haqq da oradadır. Ona görə də Hüseyn Cavid məzlumları mübarizəyə çağırır, göz yaşının bir fayda verməyəcəyini anladır, insanları yas tutmaqdansa nura qarşı qaçmağa,

irəliləməyə səsləyir. Şeirdə belə bir misra var – "Yaşamaq istəsən çalış, çabala". Demək olar ki, eyni misra "İblis" dramında da var. Həmin fikir İbn Yəminin dilindən deyilir: "Yaşamaq istiyormusun, çarpış". Şeir "Bir həqiqət bu – əzməyən əzilir!" misrası ilə bitir. Maraqlıdır ki, həmin fikir "İblis"də də öz əksini tapıb: "Ya əz, ya əzil!"

"Kars və Oltu ətrafında səbəbsiz (!?) olaraq alçaqcasına qətl və yəğma edilən məzlumlar için" şeiri 1914-cü ildə, "İblis" dramı isə 1918-ci ildə yazılıb. Bu, Hüseyn Cavidin öz fikirlərinə yenidən qayıdışı deyil, şairin içində məskən salan həqiqətin bir başqa şəkildə ifadəsidir. İllər keçir, amma şairi narahat edən məsələlər onun ağlından çıxmır. Cavidin narahatlığı bəşəri narahatlıqdır, Tanrının belə unutduğu adamlar, günahsız körpələr, göz yumduğu qanlı səhnələr Cavidin həssas şair ruhunda, duyarlı insan ürəyində dönüb dolaşır...

Hüseyn Cavid "Hərb ilahı qarşısında" adlı şeirində hərb ilahını sırıtan kinli əjdaha kimi təsvir edir. Bu şeirdə kədər, qəzəb, ümid duyğuları hakimdir. Şair qaranlıq gecənin günəşini gözləyir. Hərb ilahının qanlı pərdəni endirməsini, qanlı torpağı tərk etməsini tələb edir, Hərb ilahına qəzəblənir. Şeirdə maraqlı fikirlərdən biri də budur ki, köhnə yurdun köhnə adətinə uyğun olaraq, hər tanrının qan içməyə hüsn-rəğbəti var. Fikrimcə, burada köhnə yurd dedikdə cənnət nəzərdə tutulur. Şair bu fikrində də haqlıdır – dünyanın yaranışından bəri dəyişməyən reallığına işarə edir. "Maral" faciəsində Nadir bəyin Turxan bəylə dialoqunda da bu fikir davam etdirilir. Nadir bəyin fikirlərinə görə, dünya tarixi gözdən keçirilsə, görərik ki, indiyə qədər qansız, müharibəsiz bir dövr olmayıb. Birinci olaraq, tarixi-müqəddəsə üz tutsaq, nə ilə qarşılaşarıq? Qabil kimi cəllad gözümüzün qarşısında dikilib durar. Yenə vərəqlər çevrilsə, yenə qanlı səhifələr göz qamaşdırar. Bəli, köhnə yurdun köhnə adəti...

Şeirin sonunda hürriyyət arzulanır, amma hürriyyət şirin xəyaldan başqa bir şey deyil. "Dünyada varmı hürr, əcəba? İştə bir sual!.." Aid olmadığımız bir yerdə necə hürr ola bilərik ki? "Hübuti-Adəm" şeirində dünyanın Adəmə cəza olaraq verildiyini Cavid əfəndi çox gözəl təsvir edir. Əgər dünya insanlara cəza olaraq verilibsə, deməli, bura bir həbsxanadır. Həbsxanada nə qədər hürr olmaq olar ki? Cavidin bir nida, üç nöqtəsi, əslində, bu sualın cavabıdır. Şair nə qədər romantikdirsə, bir o qədər də realistdir. Nə şirin xəyallarından vaz keçir, nə də acı həqiqəti düşünməkdən... Şairin xəyalına ümidi də var, həqiqət qarşısında qaldırmağa ağ bayrağı da...

"Hərb və fəlakət" (Anadolu həzrətlərinə yardım münasibətilə) şeiri Hüseyn Cavidin irihəcmli şeirlərindəndir. Şeir üç hissədən ibarətdir, şair ruhunun hüzn diyarına uçması ilə başlayır, qızıl qanlar dalğalanır, bəşəriyyət ölümlə pəncələşir, siyasət ərləri qanlı fırtınalardan səadət umurlar. Bütün bu faciələr haqq-ədalət adı ilə pərdələnib: "Fədayi-nəfs edərək haq için qoşar, güləşir". Hüseyn Cavid bu fikri sonradan "Topal Teymur" dramında davam etdirir. Əsərdə Topal Teymurun şair Kirmani ilə maraqlı bir dialoqu var. Teymur yenidən hücuma hazırlaşır, bu dəfə Misir və Şama yürüş etmək istəyir, Şair Kirmani Teymurun bu fikrindən təəccüblənir, deyir ki, axıtdığın qanların izi hələ torpaqdan silinməyib, ovladığın qaplanların dərisi hələ qurumayıb. Teymur şairi tökdüyü qanların yalnız haqq-ədalət naminə olduğuna inandırmaq

istəyir. Şair cavab verir: “Bən qan tökülməkdə hiç bir haq və ədalət görəmiyorum”. “Səyavüş” faciəsində isə bu fikirlər Altayın dilindən deyilir: “Evlər yıqdınız, ədalət! – deyə”. Doğrudan da, bütün müharibələr “ədalət” naminə başlanır, adamlar “ədalət” naminə ölür. Necə də ziddiyyətlidir, necə də dəhşətlidir! Haradasa nəsə səhv düşüb və milyon illərdir bəşəriyyət o səhvin bədəlini ödəyir, hər şey başqa şəkillərdə təkrar olunur, zahir dəyişsə də, mahiyyət dəyişmir. Bəs nə idi o səhv?! “Hübuti-Adəm”i oxumaq kifayət edər...

“Bənim tanrım” şeirində şair hərb və siyasətdən zövq ala bilmədiyini yazır. Çünki onun üçün eşq və məhəbbət məğlubu olmaq hərb və dəhşət qalibi olmaqdan daha böyük zəfərdir. “Topal Teymur” əsərindəki Şair Kirmani Cavid əfəndinin müharibə və siyasət barəsindəki fikirlərinin obrazlaşmış halıdır.

“Hərb və fəlakət” şeirinin ikinci hissəsində Hüseyn Cavid türkün qüdrətini, əvvəlki qəhrəmanlığını göstərir. Bir zamanlar bütün dünya türkün qabağında diz çökərdi, indi isə türkün xanım qızları, yavruları fəlakət qarşısında titrəyir, bir kömək, bir pənahgah arayır, amma fəryadını duyan yoxdur, səbəb kimi mərhəmət göstərilir. Şeirin üçüncü hissəsində həll yolu tapılır, türklər birliyə, ittihada dəvət edilir. Diriliyin birlikdə olması fikri vurğulanır.

Hüseyn Cavidin mərhəmətə yanaşması xüsusi maraq doğurur, özünəməxsusluğu ilə fərqlənir. “Hərb və fəlakət” şeirində türkün qəhrəman tarixinə işarə edir, bir zamanlar kibirli xaqanların (Çin hökmdarları), papaların, xəlifələrin türkə necə diz çökməsini xatırladır. İndi isə türkün övladı torpaq yeyir, ac-biçarə qalır. Şair bütün bunların səbəbini mərhəmətdə görür. Başqa dövlətlər türkə diz çöküb yalvaranda türk mərhəmət göstərir. Amma dünya mərhəmətə hazır deyildi, mərhəmətə mərhəmətlə deyil, şiddətlə qarşılıq verirlər. Beləcə, hər şey tərsinə dönür, mərhəmətdən böyük faciələr doğulur. Şair türkləri dan ulduzundan ibrət alıb oyanmağa, ayılmağa səsləyir. Oyanmaq beyinlə əlaqəli bir hərəkətdir, yatmağın, oyanmamağın səbəbi ədəbiyyatda, demək olar ki, həmişə cahillik kimi göstərilib, tənqid hədəfi beyinlər olub, insanlar maarifə, savadlanmağa, dünyagörüşü qazanmağa dəvət edilib. Amma Hüseyn Cavid oyanmağı beyinə yox, ürəyə bağlayır:

"Azacıq varsa hissü vicdanın,
Qalq, oyan! Sönməmişsə imanın".

Bəli, Hüseyn Cavidə görə, oyanmaq vicdan işi, hiss işi, iman işidir! Şair türklərin oyanmamasını həm də sərxoşluqla əlaqələndirir. İndi sərxoşdurlarsa, deməli, nə zamansa ayıq olublar və yenə də ayıla bilərlər. Məsələn, çox uzağa getməyək, hamımıza yaxşı tanış olan Novruzəlini misal gətirirəm, hansı ki, o da bu xalqın nümayəndəsidir. Novruzəli də yatmışdı, amma onun yatması özündən əvvəlki halqaların davamı idi, yuxu təbiətində vardı. "Poçt qutusu"nun da yazılmasında məqsəd Novruzəliləri oyatmaqdır. Mirzə Cəlil beyinləri oyanmağa çağırır, Hüseyn Cavid isə vicdanı, hissi, imanı... Çünki Cavidin qəhrəmanları özündən əvvəlki halqaların davamı deyildi, əskinə, onlar hansısa halqanı itirmişdilər, yerinə lazımsız mərhəmətlə boyanmış halqa taxmışdılar. Dönüb ulu babalarına baxmaq, kimliklərinin fərqinə varmaq kifayət edərdi. Nura qaçmaq lazım idi, yerində saymamaq, irəliləmək! Buna isə tək beyin yox, həm də vicdan, iman gərəkirdi! Hüseyn

Cavid dünyanın bugünkü mənzərəsinin haradan qaynaqlandığını yaxşı bilirdi, bütün yollar sinələrin altından başlanır! Hətta oyanışa gedən yollar belə...

Hüseyn Cavid "Müharibə və ədəbiyyat" məqaləsində də mərhəmət məsələsinə toxunur. Bildiyimiz kimi, Nitsşe mərhəməti kölə əxlaqının məhfumu hesab edir, hər kəsə mərhəmət etməyi insanın özünə qarşı amansızlığı, zorbalığı kimi dəyərləndirir. Tolstoy Nitsşeni yarımdəli alman, onun fəlsəfəsini isə yandırıcı zəhər adlandırır. Cavid əfəndi Nitsşenin də, Tolstoyun da fəlsəfəsinə yaxşı bələd idi, Tolstoyun Nitsşeni yarımdəli alman adlandırması ilə razılaşmır, Nitsşe fəlsəfəsinin zahirinin batininə bənzəmədiyini qeyd edir. Cavidin fikirlərinə görə, Nistsşenin mərhəməti daha səmimidir, o, Tolstoyun vardığı nöqtəyə daha kəskin və həqiqi addımlarla irəliləyir. Hüseyn Cavidin mərhəmətə yanaşması Lev Tolstoyla Fridrix Nitsşenin yanaşmalarının kəsişmə nöqtəsidir. Hüseyn Cavidin mərhəməti də var, lazım gələndə vurmağa toqatı da. "Azər" poemasında Azər ağlayan, sarışın qızcığaz görür, səbəbini soruşanda qız bir sokaq yavrusu tərəfindən kitabının oğurlandığını, buna görə də ögey anasının onu döyəcəyini deyir. Azər qızcığazı oxşayıb ona pul verir, kitab almağa, biliklərə yiyələnməyə göndərir. Bunu görən başqa bir yaramaz uşaq əl açıb Azərdən pul dilənir. Azər sağlam insanın dilənməsinə təəccüblənir, oğlana məsləhət verir ki, iş tapıb işləsin. Uşaq dilənməyindən əl çəkmir, bu yerdə Azər ona bir toqat vurur. Seyr edənlər Azərə "mərhəmətsiz", "qaba" deyirlər, Azər isə onları kor və abdal adlandırır. Azər mərhəmətsiz olsaydı, qızcığaza da pul verməzdi. O, mərhəmətdən sadəcə olaraq harada istifadə etmək lazım gəldiyini yaxşı bilirdi.

"Bir toqat var, doyurur ac qarını,
Mərhəmət var ki, zəhərlər yarını".

Əgər Azər oğlana pul versəydi, bu gün onun qarnını doyursa da, sabahını zəhərləyəcəkdi, toqatı isə ac qarnını həmişəlik doyura bilər.

Hüseyn Cavid yaradıcılığında mərhəmət özünün ən yüksək zirvəsinə "Ana" əsərində çatır. Oğlunun qatilinə mərhəmət etmək, ələ keçməsinin qarşısını almaq, çıxış yolu göstərmək, sadəcə, böyük bir ürəyin, fövqəlinsanın işi ola bilərdi. Lev Tolstoyun "Dirilmə" əsərində belə bir fikir var ki, sən əgər, sadəcə, öz övladını sevirsənsə, bu, əsl valideyn sevgisi deyil, əsl valideynlik bəşəriyyətin digər uşaqlarını da öz övladın kimi sevə bilməkdir. Tolstoyun bu fikrinə Səlma ana obrazı çox uyğun gəlir, hətta oğlunun qatilinə belə "oğlum" deyə xitab edir. Bu baxımdan Səlma ana, əslində, bəşəriyyətdəki bütün uşaqların anası səviyyəsinə yüksəlir. Onu da qeyd edim ki, xalq yazıçısı Elçin "Sübh şəfəqinin işığı" ("Ədəbiyyat və incəsənət", 1982) adlı məqaləsində Cambatista Ciraldi Çintionin "Ekatommiti" kitabının altıncı novellası ilə Hüseyn Cavidin "Ana" əsəri arasındakı əlaqədən bəhs edir, fərqlilikləri, paralellikləri göstərir. Hər iki əsərin mövzusu, demək olar ki, eynidir. Maraqlıdır ki, Səlma ananın başına gələn hadisələr Liviya ananın da başına gəlir, o da oğlunun qatilinə mərhəmət edir, ən böyük fəlakət qarşısında belə böyükürəklilik nümayiş etdirir.

Yuxarıdakı nümunələrdən gördüyümüz kimi, Hüseyn Cavid həm şeirlərində, həm dram əsərlərində, həm də poemasında mərhəmət üzərində

dayanır. Elə məhfumlar var ki, onlar, sözün əsl mənasında, gözəl səslənir, sözün sehrinə aldanıb gedirik, hər kəs tərəfindən gözəl qələmə verilən, yaxşı hesab edilən o məhfumlar böyük fəlakətlər doğura bilər. “Hərb və fəlakət” şeirində mərhəmətin fəlakətə səbəb olmasını, böyük, güclü bir millətin övladlarını ağlar qoymasını, “Azər” poemasında gələcəyi dəyişdirə biləcək önəmli faktor rolunu oynamasını, “Ana” dramında isə mərhəmətin heyrətamiz, qarşısında səcdə ediləcək, müqəddəs ucalığa yüksəlişini gördük.

Cavid əfəndinin baxış bucağı genişdir. Fərqli-fərqli əsərlərdə eyni mövzuya müxtəlif cür yanaşmaq, dərinliyi ilə araşdırmaq, təqdim etmək, adi bir məfhumu belə hər üzü ilə göstərə bilmək asan iş deyil. Ən böyük ədəbi bacarıqlardan biri də göstərə bilməkdir, amma əsl məharət göstərməkdə deyil, görməkdədir. Görməkdə isə izah oluna bilməyən, mistik nələrsə var...

– 4 –

Hüseyn Cavid daha çox eşq-məhəbbət, romantika, dərin duyğular şairi kimi anılır. Onun yaradıcılığı, xüsusən də, lirikası sadəcə bunlarla məhdudlaşmır, şeirlərində, dramlarında elmə münasibət özünü göstərir, insanları maarifə, mədəniyyətə, elmə çağırır. Şair "Elmi-bəşər", "İştə bir divanədən bir xatirə", "Hacı Zeynalabidin Tağıyevin yardımı münasibətilə", "Növhə", "Qoca bir türkün vəsiyyəti" kimi şeirlərində elmin üzərində dayanır, sonradan bir sıra dram əsərlərində bu mövzuya yenidən toxunur. Hüseyn Cavidin elmə sevgisi o qədər böyükdür ki, bu, adi bir istək, maraq halından çıxıb ilahilik qazanıb. Odur ki, şair elmi "ən gözəl yari-füsunkar", "həmdəmim", "tək bir munisim" adlandırır, uğrunda başdan keçməyə belə hazır olduğunu bildirir.

Hüseyn Cavid “Növhə” şeirində elm, maarif mövzusuna toxunur, millətin halına acıyır, bu şeir, sözün əsl mənasında, ürək yanğısı ilə yazılıb. Başqa millətlər öz hüququna çatır, hürriyyət axtarır, maarif kəsb edir, lakin bizdə belə deyil. Cəhalət, qəflət əsas səbəblərdən biri kimi göstərilir. Məktəb açmaq, elm, hünər, kamal sahibi olmaq arzulanır. Şeirdə həm də vətən dilinin qayğısı çəkilir, şairə görə, hansı aqili danışdırsan, təsdiq edər ki, hər millət öz müddəasını vətən dilində tapıb. Vətən çocuqlarına əvvəlcə vətən dili öyrədilməlidir. Millətin inkişafı üçün dil ən önəmli məsələdir, ona görə də bütün bu problemləri həll etməyə öncə vətən dilindən başlamalıyıq. Şeirin əvvəllərində problem qoyulur, təsvir olunur, sonra çıxış yolları göstərilir. Məsələn: məktəblər açmaq. Məktəblər olmalıdır, orada cannisar müəllimlər çalışmalıdır. Şairin cannisar – canını qurban verən, özünü fəda edən sözünü işlətməsi bir daha onun incəliyindən, hər şeyin dərininə getməsindən xəbər verir. O zamanlar müəllim bu qədər çox deyildi ki, cannisar olanlar seçilsin, hətta seçim olmayan zamanda belə, müəllimin cannisarlığı şərt kimi qoyulur, çünki əksinin faydasız olacağını şair yaxşı bilirdi. “Öksüz Ənvər” şeirində qəddar müəllim obrazı ilə rastlaşırıq. Əvvəl çalışqan şagird, sinif birincisi olan Ənvər son zamanlarda dərslərinə hazır gəlmir, bir həftə isə dərsləri tamamən buraxır. Müəllimin toqatları, təhqirləri səngimək bilmir, şagirdini “çapqın”, “yaramaz” adlandırır. Ənvər yaramaz deyildi, öksüz idi, anasının günlərlə

xəstə yatması, sonra da ölümü, təbii olaraq, onu dərindən yaralamışdı. Əgər Ənvərin müəllimi cannisar olsaydı, onu toqatlamaq, təhqir etmək yerinə baş verənlərin səbəbini öyrənməyə çalışardı. Deməli, müəllimlikdə cannisarlıq, ən azı, bilik qədər önəmlidir...

"Növhə" şeirində belə bir misra var: "Seyr etdik elmsizliyin axır vəfasını". Doğrudan da, bu şeiri oxuyan zaman həm də elmsizliyin vəfasını seyr etmiş oluruq. Şair deyir ki, cəhalət aləmi artıq bitib, indi maarif əsri, səadət zamanıdır.

Hüseyn Cavid Hacı Zeynalabdin Tağıyevin yardımı münasibətilə yazdığı şeirində onun elmə, mədəniyyətə xidmətlərindən söz açır. Bildiyimiz kimi, böyük xeyriyyəçimiz qızları təhsilə cəlb etmək üçün məktəblər tikdirmişdi, şair də oxumağın qadınlar üçün hər şeydən vacib olduğunu vurğulayır, Hacı Zeynalabdin Tağıyevi elmin hamisi adlandırır. O zaman Tağıyev Məhəmməd Tağı Sidqinin başçılıq etdiyi məktəbə yardım üçün pul göndərir. M.T.Sidqi Hüseyn Caviddən bu münasibətlə şeir yazmağını xahiş edir, o isə ustadının sözünü yerə salmır, şeirin sonunda Sidqini ustad, özünü isə ən kiçik şagird kimi qələmə verir. Şair yazır ki, Qafqaz xalqlarının elm öyrənməyə daha çox ehtiyacı var, xarici millətlər daim hərəkətdədir, bizə isə ancaq baxmaq qalıb, müsəlmanın ümidi elə ah-vayadır.

Bəli, Hüseyn Cavidin fikirləri indi də aktualdır. Qərb mədəniyyət, maarif cəhətdən Şərqi çox qabaqlayıb. Lakin əvvəldənmi belə idi? Yox! Qoca türk vəsiyyətində mərd atalarının yalnız igidlikdə nam almadığını, ta əskidən onlarda elm, hikmət həvəsi olduğunu xatırladır. Doğrudan da, əzəldən bəri türkün mədəniyyəti tarixləri günəş kimi parıldadıb. Şərq fəlsəfəsi, mədəniyyətini bir kənara qoyaq, elə ədəbiyyata nəzər salmaq kifayət edər. İngilislərin xalq dastanı "Beawolf" səkkizinci əsrdə, ispan dastanı "La Cid" on birinci əsrdə, rusların xalq dastanı "İqor polku haqqında dastan" on ikinci əsrdə formalaşmağa başlayıb, bizim "Kitabi-Dədə Qorqud"umuz isə yeddinci əsrdə. Demək olar ki, hər şey Şərqdən, türkdən başlanıb, bəs sonra Qərb niyə önə keçdi?! Cavid əfəndinin dediyi kimi, çünki biz durub baxdıq, onlar irəlilədilər...

Hüseyn Cavid müasirliyin tərəfdarı idi, əsərlərində cəhalətə qarşı çıxır, özü də Avropada olmuşdu, müasirliyin canlı şahidi idi. Cavid əfəndi Avropanı hər cəhəti ilə təqdim edir. Məsələn, "Azər" poemasında Azər Şərqlə Qərbi müqayisə edir. Və yaxud "Uçurum" faciəsində Uluğ bəy Avropanı belə təsvir edir ki, orada işıq da var, zülmət də, səfahət də var, fəzilət də. Firəng elləri əmelləri soldura da bilər, bəsləyə də bilər. Bəs nə etməli? Cavabı müəllif özü verir: "Haqqı tapmalı, mətin olmalı, nura qoşmalı". Əli bəy Hüseynzadə ilə Hüseyn Cavidin bir çox fikirləri kimi, müasirləşmək barədə fikirləri də üst-üstə düşür. Əli bəy Hüseynzadə türklük və islam dairəsində tərəqqi istəyirdi. Türklərə və müsəlmanlara tərəqqi etməyi arzulayırdı, firəngləşməyi, irtidad etməyi yox! Bunun nəticəsini Cəlalın timsalında "Uçurum" faciəsində görürük, Uluğ bəy də bu məsələni çox gözəl açıqlayır. Gənclik fransızlaşandan bəri türk övladı uçuruma yaxınlaşdı, sərxoşluq, iffətsizlik bütün gəncləri zəhərlədi, qəhrəman Oğuzların, böyük Ərtoğrulların xələfləri azğınlaşdı, Avropadan fəzilət, hümmət yerinə çürük züppəlik aldılar.

Hüseyn Cavidin bir məktub münasibətilə qardaşına ithaf etdiyi "Elmi-bəşər" şeiri, adından da bəlli olduğu kimi, bu mövzuda yazılıb. Şairin necə çalışqan, zəhmətkeş olduğunu keşməkeşli ömründə yazdığı bu qədər əsər, əsərlərindəki fəlsəfə (hansı ki, o bilikləri öyrənməyə nə qədər əmək sərf etmişdi), elm yolunda çəkdiyi əzab-əziyyət sübut edir, eyni zamanda, həyat yoldaşı Mişkinaz xanımın, qızı Turan Cavidin onun haqqında yazdığı xatirələrdən öyrənirik. Cavid əfəndi həyatını arzusunda olduğu kimi, vətənə xidmətə – elmə, ədəbiyyata sərf etmişdi. "Elmi-bəşər" şeirində də gecəsini gündüzünə qatan şair əsas məqsədinin kəsbi-irfan, fəzilət üçün çalışmaq olduğunu qısa şəkildə bildirir. Bu qədər çalışmağın nəticəsi isə heçlikdir! Dəniz tapmaq həvəsi ilə səraba aldanmaq, dərin fəzalara uçmaq istərkən yorulmaq – elm belə bir uçurumdurmu?.. Elmi daim yeniləşən, dəyişən, bu gün həqiqət, sabah yalan ola bilən məhfum kimi təqdim edir: Elmi-bəşər – daim artan şübhələr, tərəddüdlər...” Şair elmə atılan hər addımı cəhlə doğru addım kimi qiymətləndirir. Elm gündən-günə inkişaf edir, yenilənir, bəs bu inkişaf bəşəriyyətə nə bəxş edir? Bu sualın cavabını “İblisin intiqamı" dramında tapmaq olar. Əsərdə Natella ilə Kastilyonun dialoqu sanki haqqında danışdığımız şeirin sözünə qüvvət verir. Elm yeri gələndə müqəddəs yar da olur, hərdən cəhalət qədər uğursuz və iyrənc də ola bilir. Natella zəhərli qazlar kəşf edən, yandırıcı makinalar yaradan alimlərə üsyan edir. Kastilyo alimlərin bir çox kəşflərinin bəşəriyyəti qorxunc fəlakətlərə, umulmaz vəhşiliyə sürüklədiyinin fərqindədir. Elm bu qədər inkişaf etməsəydi, bəlalar da bu qədər dəhşətli olmayacaqdı... Elm dərin fəzalar, dəryalar qədər müqəddəsdir, həm də bəşəriyyəti məhvə sürükləyən uçurumdur.

Hüseyn Cavid yaradıcılığında uçurum bir çox insanın, bir çox məfhumun gəlib çıxdığı son nöqtədir. Adəmdən Marala, Şeydaya, Şeyx Sənana, Arifə qədər Cavid qəhrəmanlarının böyük əksəriyyətinin yolu uçurumdan keçir, daha doğrusu, gəlib uçurumda dayanır. Bunları Cavidin yanaşdığı, haqqında danışdığı mövzulara da aid edə bilərik, çox uzağa getməyək, elə yuxarıdakını götürək – elm. Hüseyn Cavidin uçurumu ilə uçmağı, nuru ilə alovu arasında çox incə bir cizgi var. Uçurumun kənarındasan, qanadlarını açıb yuxarıya – uçmağa da gedə bilərsən, nura yüksələrsən, uçurumdan aşağı atılıb alovda yana da bilərsən. Bu, hər şeyə aiddir, hətta müqəddəs, toxunulmaz hesab edilən məfhumlar belə uçurum da ola bilər, uçmaq da. Məsələn: Afətin, Anjelin, Cəlalın eşqi uçurum idi, Şeyx Sənanın, Xumarın eşqi uçmaq... Aldandıqlarına görə türklərin mərhəməti uçurum idi, Azərin, Səlma ananın mərhəməti uçmaq... Yandırıcı makinalar ixtira edən alimlərin elmi uçurum idi, Azərin elmi uçmaq...

“Səyavüş” dramında rəqqasə şarqı söyləyərkən belə bir ifadə işlədir: “İblis ilə tanrının öpüşdüyü bir gün”. Hüseyn Cavid yaradıcılığında hətta Tanrı ilə İblis də öpüşə bilir, zidd qütblər bir-birinə yaxınlaşıb qucaqlaşır, cinayətlə mərhəmət, alovla nur, uçmaqla uçurum üz-üzə dayanıb qollarını açа bilir. Nə qədər qucaqlaşırsansa, qucaqlaş, kiməsə yapışıb bütünləşmək olmur, mütləq bir aralıq qalır. Hüseyn Cavidin qəhrəmanları məhz o aralıqda, o incəlikdədir. Kiçik bir büdrəmə qəhrəmanı uçurumdan ata, qanadların azacıq

açılması qəhrəmanı uçmağa yüksəldə bilər... Hüseyn Cavid yaradıcılığında hər şey bu qədər incə, hər şey bu qədər dərindir!

Hüseyn Cavidin "Bakıda" adlı şeiri dialoq formasında yazılıb, Balaxanı neft mədənlərinə gedərkən Məsudla Şəfiqə arasındakı əks etdirir. Şəfiqə uzaqdan gördüyü mənzərəni ormana – sərvistana bənzədir, mənzərənin gözəlliyinə heyran qalır, hər baxışda qəlbinə bahar sevinci dolur. Məsudun bu şəhərdə çiçəkli bağçadan əsər olmadığını deməsinə təəccüblənir, onu məzəmmət edir. Şəfiqə nə qədər romantik, sevincli olsa da, bir həqiqət var ki, həqiqətin üzü gülümsəməz, ağlayar. Uzaqdan sərv kimi görünənlər, əslində, ətrafa kirli rayihələr saçan sisli abidələr – çamurlu buruqlar imiş. Bu hissə mənə Məmməd Arazın "Qar" şeirini xatırlatdı. Şair deyir:

"Uzaqdan baxıram, ağappaq, təmiz,
Yaxına gəlirəm, qurd düşüb qara".

Mövzu, üslub fərqinə baxmayaraq, hər iki şairin çatdırmaq istədiyi mesaj, demək olar, eynidir. Yaxına gəlib baxırsan ki, uzaqdan tərtəmiz görünən qarı qurd basıb, kənardan şairanə, sevimli görünənlər, əslində, orman deyil, sisli abidələrdir. Bunu həyatda çox şeyə şamil etmək olar: Gözəllik uzaqlıqdadır və ya uzaqlıq gözəllikdir.

Məsud Şəfiqəyə bildirir ki, orada çiçəkdən, sərvdən iz yoxdur, zift axıb hər yeri göl-göl edib, hər tərəf bataqlıqla doludur. Və ən pisi, burada insanlar kor bir ümidə bağlanıb yaşamaq üçün nə qədər zülm çəkirlər. Şəfiqə bu mənzərəni görmək istəmir. Həqiqət xəyalın yanında həmişə çirkin görünür, bəlkə də, bu səbəbdən o, sona qədər getmədi, hələ olanları görməmiş, könlündə gizli şüvən baş qaldırmışdı, görməyə tab edərdimi, bəlli deyil... Şəfiqə deyir ki, məişət bəlası həyatı məhv edəcək. Bu cümlə artıq Hüseyn Cavidin gələcəkdə yazılacaq böyük əsərinin qığılcımı idi. "Şeyda" pyesi (1917) məişət bəlasının insanların başına nələr açdığından, hansı faciələrə səbəb olduğundan bəhs edir. "Bakıda" şeirində neftçilərin məşəqqətli həyatının narahatlığı ifadə olunursa, "Şeyda" dramında mühərrirlərin ağır yaşam tərzləri, eyni zamanda, mübarizələri əks etdirilir. Fərqli peşələrdə çalışmalarına baxmayaraq, bu insanları birləşdirən əsas ortaq cəhət məişət bəlasıdır. Hər iki əsərdə hadisələr Bakıda baş verir. Şəfiqə kədərli ailələrin, intizar içində qalanların dərdini çəkir, düşünür ki, onlar "sönüb gedər, yaşamaz, cümlə kainata küsər". Biz şeirdə məişət bəlasını onu yaşayanların deyil, izləyənlərin dilindən görürük. "Şeyda" pyesində isə hadisələri birbaşa məişət bəlasının qurbanları danışır. Şəfiqə işçiləri görməməsinə baxmayaraq, düşüncəsində haqlı idi, bu düşüncələr dramda artıq canlanır, elə əsərin baş qəhrəmanı Şeyda cümlə kainata küsmüşdü, hətta özünü dərviş adlandırırdı.

Hüseyn Cavidin də bəzi qəhrəmanları mühitin qurbanı olur, əzilir, istismar edilir, amma Mirzə Cəlilin bir çox qəhrəmanlarından fərqli olaraq, onlar bunun fərqindədirlər və mübarizə aparırlar. Lakin mübarizə yolları düzgün deyildi. Bu oyanış istəyinin özü belə, bir sözlə ifadə etsək – fərqindəlik o dövr cəmiyyəti üçün böyük, ciddi hadisə idi. Oyanma ehtiyacını obrazın özü hiss edir, haqqı, hüququ üçün çarpışır. Şeydanın yazdığı marşda mühərrirlər özləri özlərinə “Qalq! Oyan!” deyirlər.

Həm "Bakıda" şeirində, həm də "Şeyda" pyesində Məsud obrazı var. Aralarında bu qədər parallellik, bənzərlik olan bu iki əsərdə eyniadlı obrazın olması, məncə, təsadüf deyil. Maraqlıdır ki, fərqli əsərlərdə yer alan bu obrazın xarakteri də, demək olar, eynidir. Şeirdən tanıdığımız qədərilə, Məsud hər şeyin fərqindədir, həm də hər kəsi anlamaq bacarığı var. Məsələn, Şəfiqəyə qarşıda nələr olduğunu, neft buruqlarını, neftçilərin çətin həyatını səbirlə anladır. Ən ağır həqiqətləri dilə gətirərkən belə, Məsudun nitqində bir aramlıq hiss olunur. Bu da reallıqları bilib, çətin də olsa, qəbul etməkdən qaynaqlanır. Məsudda həm qayğıkeşlik, narahatlıq, həm də sanki sehrli bir soyuqluq var. Soyuqluq adiləşən bilgidən, narahatlıq ürəyin fəryadından qaynaqlanır. "Şeyda" dramında Məsud "Bakıda" şeirində olduğu kimi, hadisələrə uzaqdan baxıb təhlil edən deyil, birbaşa hadisənin içində olan adamdır. O, baş mürəttib vəzifəsində çalışır. İstər hadisənin içində olsun, istərsə də kənarında, Məsud elə həmin Məsuddur. Şəfiqə uzaqdan neft buruqlarını görüb sevincək, həyəcanla Məsuda göstərirdi. Məsud nə edirdi? Həyəcansız, sakit-sakit Şəfiqəni ilğımın düz yanına gətirirdi. "Şeyda" faciəsində birinci mürəttiblə Məsudun dialoqu Məsudla Şəfiqənin dialoqunu xatırladır. Birinci mürəttib arqadaşlarına üz tutub həyəcanla, təəccüblə Yusifdən danışır: "Allah, Allah, bu nə hal, bu nə qiyafət!?" Məsud isə cavab cümləsinə belə başlayır: "Sən nə zənn etdin, paşam?" Ardınca da Yusifin altı ildir, məhbəsdən fərqi olmayan mətbəədə çalışdığını xatırladır. Yəni o səbəblərdən bu nəticələrin doğulması normaldır. Birinci mürəttibin qeyri-adi şəkildə təqdim etdiyi hadisəni Məsud çox adi qarşılayır... İkinci mürəttib Yusifin heç olmasa bir qədər parası olmasını arzulayır, Məsud laübalı (etinasız) deyir ki, mürəttibdə paramı bulunur? Mürəttiblər Qara Musanın bundan sonrakı halını soruşurlar. Məsud acı təbəssümlə Məcid əfəndinin (mətbəə müdiri) Qara Musanın olub-qalan evini də əlindən alacağını və əsl fəlakətin bundan sonra başlayacağını biıdirir. Doğrudan da, elə olur, Məcid əfəndi Musa kişinin evini zorla əlindən alır. Məsudun acı təbəssümü ətrafındakıların şirin xəyallarına verilən cavabdır. Məsud həqiqətin adamıdır, həqiqətə isə acı təbəssüm etməkdən başqa nə etmək olar ki? Bəli, Məsud həmin Məsuddur, həqiqət isə həmin həqiqət...

Şeirlə faciə arasındakı heyrətamiz əlaqələr, paralelliklər bunlarla yekunlaşmır. "Bakıda" şeirinin, demək olar ki, hər misrası "Şeyda" pyesindəki hadisələrin işarəsini verir. Düşünürəm ki, bu şeiri oxuyan, amma "Şeyda" pyesini oxumayan diqqətli oxucu orada nələr baş verəcəyini əvvəlcədən təsəvvür edə bilər. Paralelliklər o dərəcədə güclüdür.

Həmin mistik işarələrdən biri – "Onların əcəl qapısı!" Şəfiqə zavallı, bədbəxt adamları düşünür, zift axan quyuları onların əcəl qapısı adlandırır. Keçidlər, bənzətmələr, doğrudan da, möhtəşəmdir. Sərvlər – neft buruqları – məzar daşları... Bu üç birləşmə arasında kədər dayanıb, sərvdən məzar daşına gedən yol... Yaşılın qaraya qayıdışı... Bu qədər bənzərlik və bu qədər ziddiyyət... Cavid burada uçurum adı çəkmir, amma dibinəcən hiss etdirir. Sərv əvvəlcə kirli rayihələr saçan neft buruğuna çevrilir, sonra da qara məzar daşına. Qriqor Zamzanın kədərinin iyi gəlir... Bu, təkcə göylərə ucalan sərvin enişi deyil, həm də romantikanın realizmlə görüşündə qırılan qanadlarıdır. O

demək deyil ki, romantizm realizmə təslim olur. Əsla! Qırılan qanadın özündə belə bir yüksəliş var. Düşünürəm ki, Cavid bu şeirində onu romantik, modernist, nihilist, dekadans kimi qələmə verib çərçivələrə salanlara cavab verir. Hüseyn Cavidin ümumi yaradıcılığını bir kənara qoyaq, təkcə bu şeiri götürmək kifayət edər. Məsud realizmin, Şəfiqə romantizmin nümayəndəsidir. Və Cavid əfəndi heç bir qəhrəmanını haqsız, zəif çıxarmır. Yeri gələndə Məsud Şəfiqəyə, Şəfiqə də Məsuda haqq verir. Sonunda hər ikisi eyni sual qarşısında cavabsız qalırlar. Bu məqamda Məhəmməd Füzulinin "Rindü-Zahid" əsəri yada düşür. Məscidin öz yeri, meyxanənin öz yeri... Hüseyn Cavidin əsərlərində yuxarıda sadaladığım "izm"lərin hamısı var. Digərlərini görməzdən gəlib, böyüklüyü sadəcə bir "izm"lə çərçivələmək nə dərəcədə düzgündür? Hüseyn Cavid yer üzünü vətən bilən böyük türkdür – azərbaycanlıdır, həm də dünyalıdır. Bir ölkənin sərhədlərinə, bir cəmiyyətin qanunlarına, hətta müqəddəs dinin hüdudlarına sığışmayan şairi hansısa "izm"ə aid etmək sadəcə ədalətsizlikdir!!! Və illərdir, ədəbiyyatşünaslıq bu tipli suallar üzərində dayanır: “Hüseyn Cavid modernistdir, yoxsa romantik?”, “Hüseyn Cavid nihilistdir, yoxsa dekadans” və s. Hüseyn Cavid dahidir, dahilərin isə çərçivələri olmur! “Knyaz” pyesində Antonun dediyi kimi: “Bəncə hər çərçivə dar bir zəncir”.

Qayıdaq həmin işarəyə – “onların əcəl qapısı”. "Şeyda" əsərində də eyni durumla qarşı-qarşıyayıq. Hadisələr formasını dəyişsə də, mahiyyətini dəyişmir. Neftçilərin əcəl qapısı neft buruqları idisə, mühərrirlərin əcəl qapısı da mətbəə idi. Qara Musanın saqat qalması, altı ilini məhbəsdən fərqi olmayan mənhus mətbəəyə qurban verən qardaşı Yusifin ölümü, Şeydanın həbsxanada (hansı ki, günahsız olduğu halda orada yatırdı) “Roza”, “Roza” – deyə sayıqlayaraq canını tapşırması – bütün bunların səbəbi həmin insanların iş yerindən – mətbəədən qaynaqlanırdı. O insanlar buraya yaşamağa – çörəkpulu qazanmağa gəlmişdilər, haradan bilərdilər ki, yaşamaq üçün gəldikləri bu idarələr onların ölüm səbəbi olacaq.

Bura qədər toxunduğumuz bütün mövzularda Cavid əfəndinin hərtərəfli yanaşmasını, divarların sadəcə bu üzünü deyil, o üzünü də göstərdiyini açıq-aydın gördük. Eyni şey hazırda təhlil etdiyimiz əsərlər ("Bakıda", "Şeyda") üçün də keçərlidir. Bu zəhmətkeş insanlar ağır məşəqqətlərə dözməli olurlar, hətta "Şeyda"da daha da irəli gedib inqilab fikrinə düşürlər və nəhayət, əcəl qapısından keçib ölürlər, ya da yavaş-yavaş öldürülürlər. (Qatillik elə sinəyə atəş açmaq, boğaza bıçaq dirəmək deyil ki.)

Hüseyn Cavid sadəcə bunları əks etdirməklə kifayətlənməyib. Önəmli bir məsələ daha var: Həmin zəhmətkeş adamların cəmiyyətə faydası... Məsələni şeirdə Məsud izah edir. Deyir ki, bu nəşəsiz, müzlim aləmdən evlər ziyalanır, cahan rövşən olur. Zift axan quyular həm də səadət mənbəyidir. Təzada diqqət edək: Şəfiqə quyuları "əcəl qapısı" adlandırır, Məsud isə "mənbəyi-səadət..." Hüseyn Cavid yenə zidd qütbləri qovuşdurur...

Neftçilər olmasaydı, işıq başda olmaqla, bir çox gözəlliklər də olmazdı. Məşəqqətdən gözəllik doğulur... Bu, Hüseyn Cavidin bir çox əsərində belədir. Cavid yaradıcılığının özünəməxsus, bənzərsiz xüsusiyyətlərindən biri də gözlənilməz böyük çevrilmələr, əks qütblərin vəhdətidir. Gözəllik çoxdur,

amma kimin üçün? Suala Şəfiqə cavab verir: sərvət içində yaşayıb kədərin nə demək olduğunu bilməyən zənginlər üçün. Fəqirlərsə zəhərli qazlar udur, nəmli yerlərdə çürüyürlər... Şəfiqənin "Haqqü mə'dələt nerdə?" sualı cavabsız qalır...

Dramda isə Şeyda mürəttiblər ilə dialoqunda zəhmətkeş əllərin bəşəriyyət üçün əhəmiyyətindən danışır: "Bu gün yer yüzünün bütün səadət və fəlakəti yalnız o əllərə baqıyor". Yenə ziddiyyətlər – səadət və fəlakət... Eynən "Bakıda" şeirində quyulara münasibət kimi – həm əcəl qapısı, həm də səadət mənbəyi... O əllər çalışmasa, bəşəriyyət şaşırar, bütün dünya hərəkətsiz qalar. Çalışanda da özləri qurbana çevrilirlər, həyatlarından, rahatlıqlarından məhrum olurlar. Şeyda çıxış yolunu mübarizədə görürdü. Üsulları yanlış olsa da, cəhdin özü belə təqdirə layiqdir.

Hüseyn Cavid "Knyaz" dramında da işçilərin həyatına, onların hansı haqsızlıqlara uğramasına yer ayırır. Həm "Şeyda"nın, həm də "Knyaz"ın işçi qəhrəmanları "Haqq verilməz, alınar" düşüncəsindədirlər və haqlarını almaq üçün mübarizə aparırlar. İşçilər sözünü birbaşa knyaza deyir. Kiminin su problemi var, kimisi zirzəmilərdə nəm havanı sovurmaqdan xəstə olub ("Bakıda" şeirində Şəfiqə də bunu vurğulayır), kimisi də vergilərin ağırlığından şikayət edir.

Məşəqqətdən gözəllik doğulması hadisəsi burada da var. Zövqün, həzzin arxasında ağır əzablar dayanır, amma zənginlərə zövqdən, fəqirlərə əzabdan pay düşür. Altı qız-oğlan atası olan adamı tütün fabrikası məhv edib, o, üzünü ətrafındakılara tutub deyir ki, sizin zevq alıb içdiyiniz o tatlı siqar bu cigərdən süzülən qanla qoqar. Dolayı yolla insanlar başqalarının cigər qanından zövq alırlar. Bu işçinin də əcəl qapısı tütün fabrikasıdır...

Əsərdə birinci işçinin dilindən deyilən aşağıdakı misralar sanki "Bakıda" şeirində, "Şeyda" faciəsində baş verənlərin səbəbinə işıq tutur.

"Yara, başdan-başa hər yer yaradır,
İştə, bunlar, sizi bunlar yaşatır".

"Hərb ilahı qarşısında" adlı şeirində Cavid əfəndi yazırdı ki, hər tanrının qan içməyə hüsn-rəğbəti var. İnsanlar da başqalarının yaralarından güc alıb onlarla yaşayırlar. Tanrının belə qan içməyə hüsn-rəğbəti varkən, insanın insanın yarası ilə yaşaması təəccüb doğurmur. Yenə "İblis" yada düşür: İnsan xisləti!..

Adil MİRSEYİD



Payız metaforası

...Neçə gündür dənizdən əsən külək "ötən yayın son nəğməsini" oxuyur.

Hər il payızın əvvəllərində harasa uzaqlara getmək istəyirəm.

Hər il payız gələndə Səttar Bəhlulzadənin, İsaak Levitanın mənzərələri yadıma düşür.

Hər il payız gələndə sevdiyim şairlərin sevib unutduğum misraları yaddaşımda cücərir.

Mən fəqət hüsnü-xuda şairiyəm,
Yerə enməm də səma şairiyəm.

24 oktyabr Hüseyn Cavid Əfəndinin anadan olduğu gündür. İstiqlaliyyət küçəsi ilə üzüaşağı addımlayıram. İstiqlaliyyət küçəsi qələbəlikdir – insan və maşın qələbəliyi. Və mənim bu payız qələbəliyim indi sanki tənha bir kamançadır – içimdə hüznlü bir payız melodiyası səslənir.

Ustadım Nazim Hikmət 1957-ci ilin mayında Varnada məmləkət həsrətilə ürəyinin param-parça olduğu günlərdə Qara dənizin sularına pıçıldayırdı:

Ürək deyil bə, çarıqmış bu,
camış gönündən,
təpər ha babam təpər
paralanmaz, təpər daşlı yolları.
Bir vapur keçər Varna önündən,
iy Qara dənizin gümüş telləri...

Nazim Hikmətin səsi hələ də Qara dənizin qəlbində əks-səda verir. Nazim məmləkəti Türkiyəyə, yeddi təpəli şəhərə – İstanbula qovuşamayana qədər onun səsi Qara dənizin qulaqlarında səslənəcək...

Ağacların yarpaqlarına sarı dən düşüb. Göy üzündə buludlar kövrəlib. Havada yağış qoxusu var. Buludlarda, ağaclarda, dənizdə payız. Mənim qəlbimdə də payızdı.

Bir zamanlar mənə elə gəlirdi ki, guya yer üzündə bütün şairlər eyni ulduz altında doğulurlar. 80-ci illərin ortalarında şair qardaşlarımdan birinə (Vaqif Səmədoğluya) ithaf etdiyim şeirin misraları içimdə səslənən payız melodiyasına qarışır;

eyni ulduz altında doğulmuşuq bəlkə biz
eyni ulduz altında
doğulduğumuzdandı yəqin
hara getsək qəlbimizdə güz
aydınlıq girdi araya
duz basdı köhnə yaraya
bu dünyanın yollarında
vaxtsız qocaldı ürək
mən də yalnız uşaqlarla
dil tapıram sənintək.

İstiqlaliyyət küçəsində axşam qələbəliyi. Cavid Əfəndi bu küçədə yaşayıb, sağlığında səhər-axşam bu küçədən keçib işə, teatra gedərdi, axşamlar bu küçəylə evə dönərdi. Yaşadığı binanın qarşısında bir anlıq ayaq saxlayıb göy üzünə baxardı və öz-özünə pıçıldayardı:

İnsan ömrü dalğa kimi keçər, gedər,
Hər gələn bir sevgi ilə köçər, gedər...

Bəlkə mən də Nazim Hikmətlə, Cavid Əfəndi ilə eyni ulduz altında doğulmuşam. Bəlkə elə ondandı hara getsəm, harda olsam, bütün fəsillərdə könlümdə payız havası var.

Bu gün Hüseyn Cavid haqqında söz deməkdən zor bir şey yoxdu mənimçün. Bu, çox ağır, çox ağır bir məsələdir.

Mən Cavid Əfəndinin şeirlərini yaşaya bilərəm, Cavid Əfəndinin payızında şeir yaza, rəsm çəkə bilərəm, amma yalnız Hüseyn Cavid Cavid Əfəndi ola bilər.

Bu, əski bir həqiqətdir – müstəbidlər şairləri anlamırlar, anlayantək ölümünə fərman verirlər.

Böyük şairlər ən parlaq ulduzların altında gələcəkdə başlarına gələcək faciələrlə doğulurlar. Böyük şairlər zamansız və məkansız olurlar. Zaman böyük şairlərin barmaqları arasından axıb gedir. Böyük şairin ruhu zamana və məkana sığmır. O, kosmik varlıqdı.

...Hüseyn Cavid bağında şairin abidəsi ətrafında göyərçinlər uçuşur. Göyərçinlər şairi ziyarət edirlər.

Yarpaqlar tökülür payız bağında
başımın üstündə ala buludlar
sönür gözlərimdə dəli sevdalar
solur ürəyimdə böyük umudlar
içimin işığı çıxır üzümə
solur üzümüzün işığı solur
daha qınamıram baxtı taleyi
baxıram ömrümə gözlərim dolur
ürəkdə bu boşluq nədir görəsən
nədir alnımdakı qırışlar nədir
yanan yarpaqların acı tüstüsü
cavabsız suallar qəlbimi didir

uçub gedən quşların yuvaları
boş qalıb könlümüın budaqlarında
kəşmir şamı kimi yumşaq bir axşam
yarpaqlar tökülür Cavid bağında

* * *

Anna Axmatova haqlı olaraq yazırdı ki, XX əsr Puşkinin xeyrinə işləyir.

Bu gün zaman Hüseyn Cavidin xeyrinə işləyir. İndi Hüseyn Cavid zaman dışında yaşayır. O, əbədiyyətlə üz-üzə dayanıb.

* * *

Düşünürəm ki, bizim hamımızın taleyində 37 kabusu dolaşır. Bir zamanlar pencəklərinin döş ciblərində, ürəklərinin başında "allahsızlıq bileti" gəzdirən şairlər, yazıçılar, alimlər vardı, onların canfəşanlığı sayəsində əlifbalar dəyişdirildi, qəbiristanlıqların yerində parklar salındı, pavlik morozovlar və onların övladları mənsəb sahibi oldular. Kremlin zamanı 37-ni göstərirdi...

Cavid Əfəndi zamandan qabaqda idi. Zaman şairin arxasınca gəlirdi. Bu gün də şair zamanın fövqündədir. O, öz yerində dayanıb, bir gerçək şair harada ola bilərsə, Cavid Əfəndi də orada durub. Şair öz yerində, məqamında, şair məqamında dayanıb dünyaya baxır. Əlahəzrət Zaman onun ayağına gəlir.

Cavid Əfəndi Zamanın Mövlananın, Füzulinin, Hafizin və Üzeyir bəyin ayağına gəldiyini görmüşdü.

O, eşqin, ilahi eşqin mənasını bilirdi. O, Əfəndi idi, şairimizin Əfəndisi, vicdanımızın Əfəndisi. Cavid Əfəndi zamanın vicdanıdır.

Bundan böyük bir rütbə, bundan da böyük bir Tanrı hədiyyəsi olarmı?

Mən 50-ci illərin əvvəllərində doğulmuşam, amma mən də, mənim mənsub olduğum ədəbi nəsil də 37-nin qurbanlarıyıq...

* * *

Turan xanımın – Turan Cavidin atası haqqında yazdığı xatirələrini oxuyuram. Etiraf edim ki, yaşa dolduqca memuar ədəbiyyatına marağımız artır.

İçimdə sızlayan bir nisgil yaşayır. Ağrının iliyini sora-sora Cavidin ev muzeyinə yollanıram.

Bir vaxtlar Turan xanımın kabineti olmuş otağın qapısı yarıaçıqdır. Bir vaxtlar bu otaqda Azər Turanla, Çingiz Ələsgərli ilə Turan xanımın çayını içmişik. Turan xanımın evdə öz əliylə bişirdiyi şirniyyat uzun-uzadı söhbətlərimizi dadlandırıb. İndi Turan xanımın kabinetinin qapısını döyməyə əlim gəlmir.

Turan xanım – pəncərədən otağa düşən ilıq payız günəşinin şəfəqlərinə bürünmüş mələk kimi bir qadın.

Turan xanımın sağlığında bəzən mənə elə gəlirdi ki, o, heç vaxt gülümsəməyib, ya da çoxdan gülümsəmədiyindən təbəssümü yadırğayıbdı.

Turan xanım da payız adamıydı, Cavid payızında yaşamağın nə olduğunu ondan yaxşı heç kim bilmirdi.

Bəlkə mən haçansa Hüseyn Cavidin portretini çəkəcəyəm. Bir dəfə teatrşünas və dramaturq Çingiz Ələsgərli ilə bu barədə söhbətimizdə şairin gözlərində payız olmalıdı demişdim. Hüznlü, məhzun və məsum, eyni zamanda, romantik bir payız – Cavid payızı.

Dün bir quş gördüm yaralı,
Uçmuş yurdundan aralı.
Dişlədi köksünü çalı,
Söylədi sanki hər halı;
Vəhşi qartal qıydı bana,
Vətən, ah sevgili ana!
Mənim könlüm hər qulbəyə
Nəşə sərpən atəş deyil.
Mənim eşqim hər kölgəyə
Gülümsəyən günəş deyil.
Ağ yelkənlər qanad açar,
Süzüb naz ilə uçar.

* * *

Cavid Əfəndinin hənüz çəkmədiyim portreti. Şairin harasa uzaqlara, məchulluqlara baxan gözləri. Bu gözlər adamın qəlbinə nüfuz edir, bu gözlər adamın içini görür. Düşünürəm ki, əgər öz içlərini olduğu kimi görə bilsəydilər, insanların çoxu ağlını itirib dəli olardı. "Əsiri olduğum bir şey varsa, o da həqiqət və yenə də həqiqətdir" – bu, Cavid Əfəndinin sözləridir.

Həqiqətə və yenə də həqiqətə əsir olan bir şairdən xoşbəxt adam olarmı bu yer üzündə?!

* * *

Rəssam Nəvai Məmmədoğlunun emalatxanasındayam, yağlı boya və tütün qoxusu bir-birinə qarışıb. Nəvai Türkiyənin İzmir şəhərində açılacaq sərgiyə hazırlaşır. Divar boyu irili-xırdalı tablolar düzülüb. Rəssam narahatdır. Sentyabr ayında Rssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda rəssamın fərdi sərgisində uğurla nümayiş etdirilmiş əsərlər hələ də gözlərim önündədir. O sərgidə rəssam mənim də portretimi sərgiləmişdi, mənim portretim şair Oktay Rzanın və aktyor Yaşar Nurinin portretləri ilə yanaşı asılmışdı. Təəssüf ki, mən o sərginin açılışında iştirak edə bilməmişdim. İndi əlimə fürsət düşmüşkən, rəssama təşəkkür edirəm.

Rəssamın "Kapadokiya" silsiləsindən olan əsərləri fantastik ovqatıyla yadda qalıb. Bir də payız mənzərələri diqqətimi çəkdi – rəssamın emalatxanasına payız gəlmişdi. Amma Nəvai Məmmədoğlunun payızı əsla Levitanın payızına bənzəmirdi – rənglər daha şux, daha əlvan, daha istiqanlıydı.

Emalatxananın pəncərəsindən düşən gün işığında tablolardakı rənglər sanki rəqs eləyirdi və mən rənglərin melodiyasını eşidirdim. Mən bu əsrarəngiz melodiyanı Səttar Bəhlulzadənin, Anri Matissin, Klod Monenin tablolarına baxarkən də eşitmişəm.

Klod Monenin "Sərv ağacları" adlı bir tablosu var, tabloda rüzgar ağacların budaqları ilə oynayır. İmpressionist ruhlu mənzərədə külək

böyük bir ustalıqla fırçaya alınıb. Adama elə gəlir ki, tablodan külək əsir. Bir dəfə Monenin emalatxanasına gəlmiş rəssam Edqar Deqa bu tablonu görəndən sonra özünəməxsus bir yumorla – bağışla, dostum, mən gedim, külək çox bərk əsir, soyuqlamaqdan qorxuram – deyib.

Nəvai Məmmədoğlunun payız tablolarına baxanda bu əhvalatı xatırladım...

* * *

1923-cü ilin aprel ayında Hənəfi Zeynallı Maarif Evində etdiyi məruzədə deyirdi: "Peyğəmbərin özünün təsvir etdiyi parça Cavidə nə qədər yakışıyor. Guya ki, Cavid burada kəndi-kəndini anladır".

Şairəm, bəslədiyim sidqü-səfa,
Çırpınıb izlədiyim nuri-dəha.
Daima ruhumu oxşar cəbərut,
Şerü-ilhamımı dinlər məlakut.
Mən fəqət hüsnü-xuda şairiyəm,
Yerə enməm də səma şairiyəm.

...Payız. İstiqlaliyyət küsəsi. Bir zamanlar Cavid Əfəndinin yaşadığı bina...

* * *

Bakıda caz festivalı. Bu gün festivalın yeddinci günüdür. Allah sənə rəhmət eləsin, Vaqif Mustafazadə.

Pəncərədə payız impressionist rəsmlər çəkir. Payızın barmaqları dəcəl uşaq barmaqlarına bənzəyir – payızın barmaqlarında rəng ləkələri var.

Fəvvarələr çiçəkləyir payız bağında.

Diksindim birdən-birə telefonun səsindən. İndi dəstəyi götürmək, telefonla danışmaq, kiməsə bir xoş söz demək işgəncədir mənimçün.

Düşünürəm ki, çox uzaqmı bu pəncərə önündə, bu şəhərə, bu mənzərəyə baxa-baxa bir səfil rəssam kimi öləcəyim gün.

Sabah yağacaq yağış bu gündən döyür mənim pəncərəmin şüşəsini...

payız kökdən düşmüş pianinoda
yazmadığım şeirlərin havasını
bəstələyir
yayda gördüyüm yuxular
payızda gerçək olur
yayda gözlədiyim məktub
payızda gəlib çıxır
o məktuba durnalarla
cavab göndərməliydim
dünən axşam uçub getdi
son durna qatarı da
uçub getdi bircə lələk salmadan
yalnız durna lələyiylə yazıla bilər indi
payızın kökdən düşmüş pianinoda
bəstələdiyi musiqinin şeirləri...

Rəfail TAĞIZADƏ

DƏLİ SAKİNİYƏM DİVANƏ EVİN

Ağdamda evini axtaran anaya

Mən sənin dərdinəm, göz yaşlarınam,
Sürünən ayağın, əsən əlinəm.
Ümidi qeyb olan, gümanı itən,
Çoxdan axtardığın həmin dəliyəm.

Dəli sakiniyəm divanə evin,
Gömülən daşlar da mənimtək xəstə.
Əlinin izini tapa bilməyən,
Hör məni o sökük bünövrə üstə.

Sovulan həyatda nə həyət-baca...
Darvaza yerində yulğunlar bitib.
Xatirə xəyalı yediyi gündən
Mənim varlığımın mənası itib.

Axtarıb evini tapa bilməmək
Dünyanın ən ağır yaşam səhnəsi.
Evin sökük daşı çağıra səni,
Aza tərəddüddə bir “həə” kəlməsi.

Yolun, yolağan yox, izin tapıla,
İtən çəpərlərdə həyətlər olmur.
Divarsız evlər də boş qəbir kimi,
İçinə girirəm, ...dolmur ki, dolmur.

RUHUMDASAN

Səssizlikdə səsini eşidirəm
pıçıltılarında,
əlin əlimə,
yanağım yanağına, ... dodağına toxunmasa da.
Sən mənim içimdəsən.
Qəlbin qəlbimə toxunur,
fikrin düşüncələrimə.
Hər gün səndən keçib gedirəm
sabahkı günlərimə.
Üzümə doğan günəş sevincindi,
gözümdən süzülən yaş kədərin.
Sən payıza daha çox bənzəyirsən,
sevdiyim payıza.
Bəlkə sənsən payızı mənə bu qədər sevdirən.
Sən ətrini kiməsə verməz
payızda yaz qoxulu gülsən.
Dəyiş həyatın rəngini
fərqlilik ən böyük gözəllikdi.
Sən, payız və həyat...

***

kimi özünü həyata uyğunlaşdırır,
kimini həyat özünə.
kimi cərgəni düzəldir,
kimi düzən verir.
gəlmək hələ yerində olmaq deyil.
ya sən həyatın nəbzini tutacaqsan,
ya həyat sənin.
özünü tanıt,
oturacağın yeri göstərəcəklər sənə.
səmtinə işarə verən,
çiyninə əl qoyan tapılar.

boş yuva hamıya aid deyil,
qurduğundu sənin.
komanın ev, evin koma olması
içindəki varlığın işığından bəlli.
nizamlar pozulanda qarışıqlıq başlar.

biz düzəni sevərik,
həyat pərakəndəliyi.

***

Bülbüllər yalandan pıçıldamaz güllərə,
küləklər yarpağı yalandan tərpətməz,
insanlar bir-birinə diqqətlə baxmaz,
deyəsi, verəsi nəyisə olmasa.
Hər şey qarşılıqlıdı.
Səsə səs vermək də,
Baxışla gülmək də...

İTİRMƏK İSTƏMƏDİYİN İTƏNLƏR

Özgə ola bilməz sevdiklərin...
Olanlar varlığınla yaşar,
unudulmaz.
Yalan deyil həqiqətlər.
İtirmək istəmədiyin itənlər
gecə kimi görünər sənə,
qaranlıqda siluettək.
Yaddaşdan pozulmaz,
xatirələrdən silinməz,
hardansa sönük işığı gələr sənə sarı.
Əlləri əlləri kimi,
gözləri gözləri kimi,
sənə baxan baxışları
canlı,
olduğu kimi.

Qovuşmaq istədiyin
ağ-qara xatirələrin
ən yaxşısı da
ağırdı.
Çünki keçmişdi...

BƏNZƏRSİZ SEVGİ

Sən bir bahar qönçəsi,
nəfəsin tər, ruhun tər,
səni sevən oldumu
heç mən sevdiyim qədər?

Nə gül belə sevildi,
nə dənizdə ləpələr,
yolları eniş-yoxuş,
xırda, yastı təpələr.

Uzaqlarda yaxınlar,
yaxınlarda uzaqlar,
olanlar itən yerdə
bizi kimlər qucaqlar?

Yad yollara iz qoyan
izinə iz qoydumu?
Tapdığın itirənlər
ayrılıqdan doydumu?

Sən bir bahar qönçəsi,
nəfəsin tər, ruhun tər,
səni sevən oldumu
heç mən sevdiyim qədər?

* * *

Nə ömür gözləmir, nə zaman durmur,
olanlar əllərdən sürüşüb düşür,
arzular ürəkdən küsüşüb düşür.
İtir olanların, olacaqların,
itir səndən sonra qalacaqların.
Hanı qazancların, hanı uğurun?
Bu dolu dünyadan əliboş getmək
uğursuz gedişdi.
Hardasa uzaqda
bizi gözləyən
yaralı ilantək bir yol qıvrılır.

Hardasa təpənin o biri üzündən
bir pöhrə boylanır kötüyün üstə.
Hər şeyi təzədən başlamaq üçün...

VAR KİMİ

o sən sən deyilsən,
bu mən mən olam,
daha o baxışla
yumşalam, dolam.

elə boşalmışam,
elə yorğunam,
bilmirəm harada
bitəcək yolam.

əlin əllərimdə
əsər, qorxuram,
gülüşüm dodaqda
küsər, qorxuram.

baxışın yaş olub,
süzər, qorxuram,
ürəyim dözməyib,
düşər, qorxuram.

gəl, elə beləcə
qalaq bar kimi,
şəkil yaddaşında
olaq var kimi.

QƏLƏBƏ YOLÇULARI

Şəhid Cavid və Çingiz Məmmədovlar qardaşlarının anası Faya xanımın dilindən

Bir sükutda iki qəm,
Qəminə qurban olum.
Gözüm qarası şəhid,
Cəminə qurban olum.

Gəlib məni yoxlayan,
Daha məni yoxlamır,
Alıb məni qoynuna,
Öpüb, daha qoxlamır.

Boş qalıb solum-sağım,
Üşüyür yanaqlarım.
Hara uçub getdiniz,
Siz, qoşa qanadlarım?

Həsrət qaldığım baxış,
Uzaqdan baxır mənə.
Arzuma qovuşaram,
Kaş bircə kərə dinə.

Çin oldu istəyiniz,
Sona yetdi arzular.
Siz, ey Vətən sevdalım,
Qələbəyə yolçular.

SƏMA ADAMI

səmaya dikilən baxışlarınla
sev göy üzünü,
bulud çadırın olsun,
külək yelpənəyin.
səsin qatarlanan durna səsi...
sən dupduru –
yanaqlarından təbəssüm yağır,
gözlərindən sevgi,
qanadlan səma adamı,
qanadlan göyə sarı.

SIĞINIB QALIRAM XATİRƏLƏRƏ

Sən ey sökük şəhər, dağılan kəndim!
Bu dərdə sığınan, bu dərddən qaçan
ruhlar yerə enir, ah göyə qalxır.
İtənim, ötənim özgələr kimi
mamırlı daşların altından baxır.

Xatirə daşlaşıb divar dibində.
Məni boş gilizin baxışı vurur
evlərin, həyətin həndəvərində.
Yolları kol basıb, cığırlar itib,
düşüb yaddaşımın qalıq izinə
gündüz qaranlıqda gedən kimiyəm.
Səni xatirələr yaşadar ancaq.
Yolumuz sorulub, məhləmiz itib.
Qonşular eviylə köçdü dünyadan.
Mən də bu səhrada sərsərlər kimi
tutub xatirələr barmaqlarından
öpüb uçuq daşı, evi gəzirəm.
Yarımçıq divara daş düzə-düzə
yoxluqda özümə bir ev tikirəm.
Suvağı tökülmüş, boyası solmuş,
səni yaşadası, məni dirildən,
səndən mənə qalan xatirə evi.
Sahibi yoxlardı, qonağı ruhlar.
Uşaq yelləncəyi bulud qolunda,
gülüşü küləklər qanadlarında.
Adamsız yerlərdə sevinclər olmur,
bu uçuq evlərə baxışlar dolmur.
Sanki əsrlərdən qalıb bu yerlər?
Bəlkə də yüz ildi qocalmışam mən,
yurdumdan uzaqda çoxalmışam mən.
Nə bir ağac qalıb əsa edəsən,
nə bir qəbir qalıb, açıb girəsən.
Hara sığınasan özündən başqa?
Nə bir doğma qalıb, nə simsar qalıb,
bizi keşmişlərlə qoşa saxlaya,
baxıb halımıza bizi ağlaya.
Doğma torpaqlara sürtüb üzümü
təsəlli tapıram varlıq adında,
bu yerdə, bu yurdda qalmaq adında.

Bizə qalanlarsa xatirələrdi,
olanla yoxluğun aralığında.
Yarı uşaq kimi, yarı gənc kimi,
yaşadım dediyim, yaşam dediyim.
Sığınıb qalıram xatirələrə.
Sən ey uçuq şəhər, dağılan kəndim!!!

Rüstəm KAMAL

Şuşa ədəbiyyatımızda "meteoroloji mif" kimi

Ciyərdə nəfəsdir,
damarda qandır,
Ruha qanad verən sirli məkandır...
Anar

Şuşa xalqımızın düşüncəsində yalnız bir şəhərin adı deyil, bir simvol-mifdir. 270 il bundan öncə Pənahəli xan tərəfindən Qala kimi binası qoyulmuş və qəribədir ki, tez bir zamanda simvollaşa bilmişdir. Tari-xi-mədəni və coğrafi yaddaşımızda Təbriz, Gəncə, Naxçıvan, Bakı kimi, Şuşa da ortaq mifoloji, metafizik məkanlar sırasına daxil olmuşdur.

Rus ədəbiyyatşünası və semiotiki Y.M.Lotman qeyd edirdi ki, şəhərin çert-yojdan, qazıntılardan fərqi ondadır ki, "bu (şəhər), canlı orqanizmdir. Elə ki onu anlamağa cəhd edirik, bu zaman şüurumuzda hansısa üstün strukturu – deyək ki, Puşkin Peterburqunu, "Tunc atlı" Peterburqunu, Dostoyevski Peterburqunu və yaxud zamanımızın Peterburquna qururuq. Biz hansısa bir zaman nöqtəsini götürürük. Amma bu, prinsipcə reallığa adekvat olmur. Hətta şəhər müəyyən edilmiş ciddi hərbi plan üzrə tikilsə belə, reallıqda olduğu kimi həmişə özünə bərabər deyil. O, hansı baxış bucağından baxmağımızdan asılı olaraq dəyişir" (10). Yaddaşımızda Şuşanın neçə obraz variantı mövcud-dur: Vaqifin Şuşası, Üzeyir bəyin Şuşası, Xan qızının Şuşası. Şuşaya yalnız tarixi fəlsəfənin bir kateqoriyası kimi deyil, metafizik məkan kimi baxmalıyıq.

Hava və iqlim yalnız meteoroloji araşdırmanın obyekti deyil, həm də ədəbi-bədii və tarixi refleksiya mövzusudur. Azərbaycan ədəbiyyatında "meteoroloji kodu"nun öyrənilməsi bəzi geopoetik mətləblərə də aydınlıq gətirə bilər.

Şuşa Azərbaycanın nadir şəhərlərindən biridir ki, onun semiosferasında – mənalar dünyasında landşaft – topoqrafik xüsusiyyətləri ilə yanaşı, meteoroloji amillər də əhəmiyyətə malik olub, bu şəhərin "görünməzliyini görümlü" edir.

Şuşanın havası və iqlimi XVIII əsrdən başlayaraq, Azərbaycanın və şəhər tarixinin mühüm bir obrazına çevrilir, "Şuşa mifi"nin əsas tərkib komponentlərindən biri də "meteoroloji kod" yer tutmağa başlayır. "Meteoroloji kod" deyəndə mövsümi və ya gündəlik atmosfer hallarını, iqlim hadisələrini nəzərdə tuturuq. Demək olar ki, bütün mətnlərdə Şuşa havasının əsrarəngizliyi, təkrarsızlığı qabardılır.

Hava Şuşa semiosferasında gərəkli işarələrdən biridir. Şəhər peyzajının təsvirində cəlbedici üstünlüyə malikdir. Şuşa peyzajının və ya meteoroloji mifinin bütöv obrazı aşağıdakı amillərdən təşkil olunur:

- havanın (buludlu, yağmurlu) dəyişkənliyi;
- havanın ideal, yüksək xüsusiyyətə malik olması;
- havanın pozitiv estetik xarakteri.

Qarabağ xanlığının tarixindən bəhs edən əsərlərdə – "Qarabağnamələr"də Şuşanın iqlimi və havası haqqında geniş məlumatlar verilmir. "Qarabağnamə" müəllifləri yalnız hadisələrin mistik-macəra effektini gücləndirmək üçün bəzi meteosituasiyaları istər-istəməz xatırlamalı olublar. Məsələn, Mirzə Adıgözəlbəy yazır: "Və çün o vaxtda yaz fəsli idi. Arazın suyu daşıb həddən ziyadə olmuşdu. İbrahim xan belə səlal gördü ki, əgər rus qoşunu ilə Qarabağ qoşunu gedib Xudafərin körpüsünü kəssələr, dəxi qoşun körpüdən keçməsə, qeyri yerdən keçmək məqbul olmaz. Bir-iki ay təxir olar" (6). Əlbəttə, tarixi salnamədə peyzaj motivinin qabardılmasına ilk növbədə janrın tələbləri imkan vermirdi.

Tarixdən məlumdur ki, Ağa Məhəmməd şah Qacarın Şuşanın təslim olmasının bir səbəbi də 1797-ci ildə Qarabağda baş verən quraqlıq və əhalinin dəhşətli aclığı olmuşdur. "Əhalinin çoxu bir tikə çörəkdən ötrü Şəki, Şirvan, Qaradağ və başqa yerlərə dağılıb, pis vəziyyətə düşmüşdülər. Qarabağda o qədər adam qalmamışdı ki, Şuşa qalasını saxlaya bilsin" (6). İnsafən, "Qarabağnamə" müəlliflərində bu quraqlıq hiperbolik üslubda qeyd olunur. Quraqlığın miqyası o dərəcəyə çatır ki, "dənli bitkilər gözəllərin mişk iyli xallarından da əziz tutulurdu".

Salnaməçi gürcülərin Qacar ordusu tərəfindən qəfil yaxalanmasını da hava şəraiti ilə əlaqələndirir: "Təsadüfən o gün hava tüstü və tozdan elə tutuldu ki, adamlar bir-birini görə bilmirdilər. Mustafa xan öz qoşunu ilə qabağa yeridi. Qızılbaşlar yolu tanımadıqlarından nəhəng dağın üstündən aşdılar. Hava buluddan və tozdan təmizlənən kimi valinin əsgərləri gördülər ki, qızılbaşlar şəhərin yuxarı hissəsindən keçib onların arxasını kəsmişdir. Axırda çarəsiz qalıb geri qayıtdı və İraklı xan öz imarətinə gəlməyə imkan tapmadı" (7).

Mirzə Adıgözəl bəy də Qacarın Tiflisə hücumunu təsvir edərkən həmin "meteo situasiya"nı vacib süjet hadisəsi kimi təhkiyəyə daxil edir. Janrın fəlsəfəsinə uyğun olaraq, salnamədə tarixi hadisə ilə təbiət hadisəsi uzlaşdırılır. "Birisi dəxi zəxmdar olub gün məğribə yetişib, hava artıq soyuq oldu. Ramazan və orucluq ayı idi. Yer dəxi qar idi. Çox məğşuş oldular ki, soyuğun çoxluğundan əlləri iş tutmaq müşkül idi. Naçar həmin yerdə bir kiçik dağın üstə qarın içində

yerbəyerdən tökülüb, yüklərini açdılar və şübhə kimi burada qalıb, sübh tezdən köçmək binası etdilər ki, dala qayıtsınlar".

Əhməd bəy Cavanşirin də "Qarabağnamə"sisalnamə silsiləsində yeganə əsərdir ki, Şuşanın metaforik obrazına rast gəlirik. Nostalji duyğular necə güc gəlibsə, Əhməd bəy Cavanşir "Qarabağ xanlığının 1717-1805-ci illərdə siyasi vəziyyətinə dair" adlı tarixi oçerkində Qacarın ölümündən bəhs etdiyi yerdə təhkiyəsini birdən dayandırır, Şuşanın landşaftı və təbiəti haqqında lirik ricətlərini oxucularla bölüşür. Bu şəhərin landşaft obrazı da, meteoroloji obrazı da ona şəcərə tarixinin unudulmaz xatirəsi kimi maraqlı, xanlığın şərəfli və faciəli tarixi qədər vacib və sirli idi. "Ağa Məhəmmədxanın pişxidməti öz hökmdarının yataq otağına qayıdana qədər Şuşanın mənzərəsinə bir nəzər salaq, onu tarixi və topoqrafik cəhətlərdən təsvir etməyə çalışaq. Dumanlı havada səhərin hər hansı bir yerindən şimala, şimal-şərqə və şimal-qərbə nəzər salan adam belə gözəl bir mənzərədən valeh olur: burula-burula qalxan dumanlar və qara buludlar gah Qarabağ dağlarının qara zirvələrini və ağaran Qafqaz dağlarını dövr eyləyərək onların başına dolanır və onlara toxunub dağılır, gah da anlığa onların qabağını örtür.

Bu gözəl mənzərə Krım yarımadasına gəmidən tamaşa etmiş olan bir müşahidəçiyə onun gördüyü mənzərəni xatırladır. Fırtınalı gündə daim köpüklənib coşan ağ ləpələr sanki gəmini öz ağuşunda sıxıb əzmək istəyirmiş kimi, gah üfüqü görməyə imkan vermir, gah da gəmini göylərə qaldırır və Ayıdağ, Çatır-dağ və Krım yarımadasının başqa zirvələri göz önündə canlanır. Şimal-şərq tərəfdəki qayalı dağlar öz kənar çıxıntı və bürcləri ilə taclı başını qürurla yüksəldən əfsanəvi nəhəngləri xatırladır" (1).

Məlum hərbi-siyasi, iqtisadi səbəblər, ədəbi-bədii sistemdə janr üzündən XVIII əsr Azərbaycan poeziyasında Şuşa peyzajına o qədər də ciddi diqqət yetirilmir. Təbiət təsvirlərinin yer aldığı epik janrlara tələbat azalır, lirik janrların (qəzəl, müxəmməs, gözəlləmə) funksionallığı genişlənir.

Yeri gəlmişkən, bir cəhəti vurğulamaq istərdik: maarifçi-realist nəsrimizdən fərqli olaraq, poeziyamızda və lirik nəsrimizdə qış arxetipi neqativ məna daşımır.

"Duman"dan sonra Şuşanın "meteoroloji mifi"ni yaşadan təbiət hadisələrindən biri də qardır. "Qarın dizə qədər yağması" motivi ədəbiyyatımızın "Şuşa mətni" üçün səciyyəvi haldır – Molla Pənah Vaqifdən İlyas Əfəndiyevə qədər, demək olar ki, Azərbaycan ədəbiyyatının nümayəndələri Şuşanın qış günlərini, qış gecələrini təsvir etmək üçün bu motivdən istifadə etmişlərMolla Pənah Vaqifin qoşmasında təsvirə baxaq:

Ay ağalar, sizə bir ərz eyləyim:
Bu gün qar yağıbdır, dizə çıxıbdır.
Bir gözəlin həsrətini çəkərdim,
Təzə-təzə gəlib bizə çıxıbdır. (8).

Xalq yazıçısı İlyas Əfəndiyevin "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı"nda bir cümləyə diqqət yetirək: "Hacılar da dizə qədər örtülü olan uzun qış

gecələrində bir-birinə qonaq gedib, "Şahnamə"dən, Sədinin macəralı həyatından, qadınları günahlarını öyrənib yazma cəhdindən söhbət edirdilər" (12).

"Şuşa qarı" arxetip kimi "yuxu mətni"ndə də iştirak edir. Görkəmli şair, publisist, tərcüməçi İntiqam Qasımzadə 29 il sonra Şuşa səfəri ilə bağlı qələmə aldığı "Şuşanın dolayları" adlı son dərəcə maraqlı və poetik məqaləsində bir yuxusunu yada salır: " İkinci yuxudan sonra yuxuda gördüm ki, babamın ömrümdə olmadığım, uşaq vaxtı yalnız uçuq divarlarını gördüyüm evində xəstə yatıram, sübh tezdən ayılmışam, bir yüngüllük hiss edirəm canımda, bədənim də bumbuzdur. Əynimdə yataq paltarı, durub pəncərəyə yaxınlaşdım. Hər tərəf süd kimi ağappaq idi, möhkəm qar yağmışdı. Armud ağacı da büsbütün qara bürünmüşdü, ürəyim armud istədi. Yadıma düşdü ki, anam deyərdi: "Daşarmudu ilk qar yağanda yığıb yeyərlər; onda şipşirin, həm də sulu olur. Uşaqlıqda biz səhər-səhər gedərdik ağacın altına, görərdik ki, qarda çoxlu çuxurlar var; tökülən dəymiş armudların çuxurlarıydı – əlimizi o çuxurlara salıb yığardıq armudları"... Mən də qapını açıb həyətə çıxdım. Anam tez üzünü görmədiyim babamın kürkünü gətirib çiynimə atdı. Armud ağacının altına getdim; həqiqətən də, qarda xeyli çuxur vardı. Əyildim, bir-bir bu çuxurlardakı armudları yığmağa başladım. Elə bu vaxt ayıldım; bumbuz idim. Başımın ağrısı da keçib getmişdi. Canımda bir yüngüllük hiss edirdim.." (11).

Qarlı hava Şuşa tarixinin və peyzajının ən yaddaqalan hadisəsidir. Belə qarlı havalardan biri məhz Vaqif məqbərəsinin açılışı günündə baş verir. Bu gün də həmin hadisənin ağlı-qaralı kino və fotokadrlarına baxanda həmin hadisə Şuşaya qar yağması fonunda insanda fərqli ovqat yaradır. Xalq şairi Nəriman Həsənzadə bu münasibətlə "Xarıbülbül" poemasını yazır. Çünki həmin gün Şuşaya qarın yağmasında mistik bir işarənin olmasına inanır.

Qarın belə yağdığını
görməmişdim,
qarda belə "sel" axını görməmişdim.
Qar tökürdü Göy-Yer üstə, –
varaq üstə
dodaq üstə,
şeir üstə,
kirpik üstə
eynək üstə...
Çiçək, çiçək,
çiçək üstə!
Hava qarala bilmirdi,
Qarabağda ağ gecəydi,
Allah, Allah, o necəydi?!
Şuşa sanki heykəl idi,
qar altında

Hərəmiz bir qartopuyduq,
qarlı alqışlar altında.
Molla Pənah şairlərin yaşıdıydı,
Şuşalılar Şuşadaydı. (3).

Duman Şuşanın havası və landşaftı üçün səciyyəvi gündəlik təbiət hadisəsidir. Xan Şuşinskinin oxuduğu mahnının ilk misrası "Şuşanın dağları başı dumanlı" yaddaşımızda həmin hava ovqatına kökləyirMəhz duman şəhərin metaforik obrazını yaratmağa qadirdir. Təsadüfi deyil ki, Əhməd bəy Cavanşir dumanlı Şuşanı qaynayan mis qazana bənzədir. "Cənub tərəfdən, Kirs dağından Şuşaya bir nəzər saldıqda ətəklərində bu şəhərin yerləşdiyi alınmaz qaya ilə şəhərin yarımdairəvi görünüşü duman arasından, içərisində maye qaynadıldığına görə buxarlanan nəhəng mis qazanı xatırladır" (1).

Bütün bədii mətnlərdə duman Şuşanın əsas atributudur. Elçinin hekayələrindən biri "Şuşaya duman gəlib" adlanır. Ə.Haqverdiyev "Uca dağlar başında" hekayəsində Şuşanın meteoroloji təqdimatını "duman" ilə başlayır: "Şəhər tamam qışı və baharın yarısını qara, dumana bürünmüş keçirib; axırda bu qara çadırşəbi atıb gözəl bir nazənin sənəmtək surətinin parıltısını aləmə salıb, tamam yay istirahəti arzusunda olan isti yerlər əhalisini öz ağuşuna alır" (2).

Şairlər şəhərin gözəlliyini vurğulamaq üçün daim duman motivinə müraciət edirlər. "Duman" motivi sanki şairə, yazıçıya poetik fiqurların (metafora, təşbeh, epitet və s.) fəal işlənməsinə geniş imkanlar verir. VaxtiləXalq şairi Fikrət Qoca Şuşa dumanını belə görmüşdü:

Dumandan sıyrılıb qalxır qayalar,
Dumandan tökülüb qalır çiçəklər. (9).

Şuşanın səmimi peyzaj obrazlarından biri Xalq şairi Mirvarid Dilbazinin "Şuşa" şeirində (1958) şəhərin "duman məqamı" ardıcıllıqla təqdim edilir:

Ağ duman bürüdü dərəni, dağı,
Gizləndi dağların gözəli Şuşa!
Meh vurub uçurdu o ağ duvağı,
Göründü şairin öz eli Şuşa!

Buludlar dayanıb qabaq-qabağa,
Şimşək alovunu çəkəndə dağa,
Çökən qaranlığı bağçaya, bağa
Nə gözəl dağıtdı yaz yeli, Şuşa! (9).

Xalq şairi Nəbi Xəzri "Vaqifi gördüm" şeirində "duman"ı Şuşanın vacib peyzaj elementi kimi poetik mətnin strukturuna daxil etməli olur:

Qalxır Daşaltıdan sərin dumanlar,
Səhər... Cıdır düzü, Şuşa dağları. (9).

Ə.Haqverdiyev Şuşanın havasını uşaq qəlbinə bənzədirdi: "...havası məsum uşaq qəlbitək ipək" (2). Maraqlıdır ki, 1947-ci ildə Şuşanın havası xalq şairi Rəsul Rzada da oxşar metaforik təəssürat yaratmışdı:

Burda hava körpə uşaq kimidir,
Gah tutulur, gah ağlayır, gah gülür.
Burda səhər buludların döşündən
Qayalara qızılgüllər tökülür.

Göylərində at oynadır şimşəklər,
Bir an olur gur yağışı, dolusu.
Əlvan çiçək xalıları yamacda,
Baş qaldırır nərgiz, gözü dolu su. (9).

Bu şəhərin qarı da, yağışı, dumanı da onun poetik-simvolik obrazını dəyişir. Yalnız insan deyil, bu zaman bütövlükdə şəhər "katarsis" keçirir. İnsan da, şəhər də Tanrıya bir az yaxın olur:

Gecə ağ yağışda durulanıbdı,
Gecə dağ mehində qurulanıbdı.
Daranıb, bələnib işıqlarına,
Taxıb qarmağını göy tağlarına
Bir çılçıraq şəhər, bir qəndil şəhər,
Hər evi bir qızıl qərənfil şəhər. (4).

Bu qısa "meteoroloji" təhlildən göründüyü kimi, Azərbaycan ədəbiyyatında Şuşanın havası fiziki kateqoriyalıqdan çıxıb, metafizik məna kəsb edir. Bu, həm də onun mistik aurasını anlamağa imkan verir...

Ədəbiyyat

1. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının siyasi vəziyyətinə dair (1747-ci ildən 1805-ci ilə qədər) // Qarabağnamələr. Bakı: Yazıçı, 1989, s.157-190.
2. Haqverdiyev Ə. Seçilmiş əsərləri. İki cilddə, II cild. Bakı: "Lider nəşriyyat", 2005, s.220-229.
3. Həsənzadə N. "Xarı bülbül" (Şuşada şeir axşamı) // Həsənzadə N. Seçilmiş əsərləri. 7 cilddə. Poemalar. 2-ci cild. Bakı: "Prometey", 2010, s.387-394.
4. Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı: "Lider nəşriyyat", 2004, 224 s.
5. Mir Mehdi Xəzani. Kitabi-tarixi-Qarabağ // Qarabağnamələr, II kitab. Bakı, Yazıçı, 1991, 201 s.
6. Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr, I kitab. Bakı, Yazıçı, 1989, 4-102 s.
7. Mirzə Yusif (Nersevov) Qarabaği. Tarixçi-safi // Qarabağnamələr, II kitab. Bakı, Yazıçı, 1991, s.94-204.
8. Molla Pənah Vaqif. Əsərləri (şeirlər). Bakı: Yazıçı, 1988, 192 s.
9. Şuşa nəğmələri. I cild. Bakı: "Şuşa" nəşriyyatı, 2001.
10. Город и время: Интервью с Ю.М.Лотманом // Метафизика Петербурга.СПБ., 1993.
11. İntiqam Qasımzadə. Şuşanın dolayları // "Azərbaycan" jurnalı.-2021.- №6-7.
12. İlyas Əfəndiyev. Xanqızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı // Əfəndiyev İ. Seçilmiş əsərləri. Üç cilddə, I cild. Bakı: "Avrasiya-press", 2005, 280 s.

Sabir YUSİFOĞLU

BİZİMDİR

Dadaloğluna, Şəhriyara

Mənim dostum, bu ağrı da keçəcək,
O buludlar gözümüzdən içəcək,
O çəməni nəvəmiz də biçəcək,
Yaşıllar da, solanlar da bizimdi.

Mənim dostum, bu bəladan çıxanda,
Sarı günəş göy çəməni yaxanda,
Qara əncir döşlərini sıxanda
Saçlarını yolanlar da bizimdi.

Kənd qızları kənd toyunda oynaya,
O tərəfdə plov bişə-qaynaya.
Əl çalmaqdan, göz baxmaqdan doymaya,
Gedənlər də, qalanlar da bizimdi.

Mənim dostum, o yerlərdən keçəndə,
O bulağı ovuclayıb içəndə,
Uşaq kimi qanadlanıb uçanda
Gözlərinə dolanlar da bizimdi.

Çiynimizdə gün fırlanar, il keçər,
Keçdiyimiz körpülərdən el keçər.
Aramızdan kölgə keçər, sel keçər,
Doğrular da, yalanlar da bizimdi.

Mənim dostum, sən bilirsən, bilirəm,
O günlərçün səndən betər ölürəm.
Yuxumda da gündə yüz yol gəlirəm, –
Olmayanlar, olanlar da bizimdi...

AXI O, YAŞAMAQ ÜÇÜN ÖLÜRDÜ

Nə vaxtdı mən sənsiz yaşamıram ki,
səni görmək üçün vaxt öldürürəm.
Yer ilə,
Göy ilə
Sənin aranda
bir canı üç yerə tən böldürürəm.

Çıxıram əlimdən,
işdən,
dünyadan,
sıfırdan çıxılan bir ədəd kimi.
Çıxıram sənin də fləşkartından,
Sabir Piri kimi, bir Məbəd kimi.

Yandırıb gedirəm məktublarını,
səndən bir xatirə, bir iz qalmasın.
Sənli şəklimi də at zibilliyə, –
ömründə lazımsız priz qalmasın.

Ağ-qara şəklimi çəkər bu torpaq,
çəkər adımı da bir daş-tərəzi.
Çəkər hamımızı o daş sırası,
çəkər kəndin, ömrün günbatan üzü.

Ölməmişəm, ancaq, ölmək üzrəyəm,
özün Allahından soruş, sən Allah:
"Axı o, yaşamaq üçün ölürdü,
onu mən öldürdüm, yoxsa Sən, Allah?!"...

ÖMRÜ DƏ GÜN-GÜN XƏRCLƏYİB

Ölümünə yeyib-içdik
bu ömrün də sağlığına, –
götürüb yazdım şeirimi.

bu Vətəni səngər-səngər,
ömrü də gün-gün xərcləyib,
itirib yazdım şeirimi.

səs batırır bu bataqlıq,
meşədə nə itim azıb, –
oturub yazdım şeirimi.

lap köhnə kişilər kimi;
qələmimi öz qanıma
batırıb yazdım şeirimi.

yeyilib gedən dilimi
dişlərimin arasından
ötürüb yazdım şerimi.

ANLARSAN TƏKLİYİNİ

Yavaş-yavaş anlarsan,
anlarsan təkliyini.
Çəkib evin küncünə,
ağlarsan təkliyini.

Hamıdan damla-damla,
gün-gün, il-il çıxarsan.
Heç nə yerinə dönməz –
ilan dili çıxarsan.

Uzaq da qaçar səndən,
yaxın da qaçar səndən.
Dərmanlar ovuc-ovuc, –
yuxun da qaçar səndən.

Tutub güzgü önündə
danlarsan təkliyini.
Divarlar soyuduqca
anlarsan təkliyini.

Nə sevib sarılmağa,
nə də ürək qırmağa...
O da yığışıb gedər,
gedər
gedər-gəlməzə,
sənsə şam yandırmağa...

DƏYƏRİ YOXDU

Hayıf alın tərimə,
pulun dəyəri yoxdu.
Sağ tərəfdən baxt batıb,
solun dəyəri yoxdu.
Nə gözəl; arsız olmaq,
vəfasız, yarsız olmaq.
Ərsiz, arvadsız olma, –
dulun dəyəri yoxdu.
Düz yolnan gedər olsan,
düzündə hədər olsan,
az...
çox...
nə qədər olsan, –
yolun dəyəri yoxdu!..
Bu sümüyə dirənən
bıçağı da dünəndən
çıxarmışam bazara,-
Alın!-
Dəyəri yoxdu!..

BİR DOSTA

Quraqlıq vaxtında dəmyə torpağa
səpilən dən kimi bitdin, bilirəm.
Nə işıq gələnə, nə it hürənə –
Dərdin bol yerinə getdin, bilirəm.

Bilirəm, ölürsən yaşamaq üçün,
yaşaya bilmirsən istədiyintək.
Qaydası dəyişkən oyundu ömür,
xəbərin olunca o da bitəcək.

Əlin aşağıdı, başın yuxarı,
imkanın arzunun boyuna çatmır.
Könlündən keçənlər əlindən uzaq,
Əlində olanlar könlünə yatmır!

– "Kimin adamısan,
adamın kimdi!? –
Qapılar, suallar üstünə gələr".
– Allah adamıyam, titrəyər dilin,
mənim adamım da ALLAHdı elə!

Göydə Allahdan da nəsə ummağa,
nəsə istəməyə üzün gəlmir heç.
Canından, nəfsindən keçdin rahatca.
..Bax, bu da o körpü, –
dur, ehmalca keç.

QƏLBİM SINIB DEYƏSƏN

Nə əlimdə daş-kəsək,
nə hürən o itlər var.
Nə arx boyunca keçən
sınıq-salxaq qatarlar.

Yenə bir səs-səmir yox,
yenə sakitçilikdi.
Üstündən illər keçən
ömrüm çilik-çilikdi.

Qapım-bacam bağlıdı,
köhnə divar –
yerində.
Bəlkə çıxıb gələsən
batan günün birində?..

Heç kim düşmür yadıma
axı…
yenə niyə SƏN?!
Qapımı aç, soyuqdu –
qəlbim sınıb deyəsən...

SEVDİYİMİZ ŞƏKİLLƏR DƏ KÖHNƏLİB

Daha yorğun ürəyim
həmənki vuran deyil.
Daha köhnə sevdalar
təzəsin quran deyil.

Daha SƏN də köhnəsən
nəvələrin gözündə.
Mən də çıxıb gedirəm,
üzündəki izimdən.

Daha
yaman köhnəlib
sevdiyimiz şəkillər.
Daha yaman qocalıb
keçdiyimiz o illər...

GÖY ÜZÜNDƏN QOPAN DAŞ PARÇASIYAM

Ömrün təqvimində zorla yer tutub,
Özünü öldürür ölməli illər.
Nə qədər günlərin korluğun çəkdim,
onu o günləri korlayan bilər.

Heç öz gözümə də yaxşı dəymirəm,
gör özgə gözündə nə gündəyəm mən!
Allah, tanımadın; əzab dalınca
Bura göndərdiyin o bəndəyəm mən?!

Göy üzündən qopan daş parçasıyam,
Allah, öz başıma düşərəm birdən!
Bu bəxt ki məndə var, hardan nə gəlsə,
elə qəşəng tutur durduğum yerdən.

Dalınca bu qədər döyüb-söyürəm,
bəs niyə ölürəm bir nəfəs üçün.
Bilən var, mənimki yaşamaq deyil,
elə vurnuxmaqdı boş həvəs üçün.

Ömrün səhvlərini düzəltmək üçün
əlavə vaxt vermir bu ömrü yazan.
Məni cənnətinə aparar hansı;
bu kilsə zəngləri, ya gələn Azan?!

ÖMRÜN PAYIZ ÇAĞINDA

Dişlərim də tir-tir əsir,
bişmiş sözüm də çiy çıxır.
Daha ayaq izlərimdən
gül-çiçək yox, çəlik çıxır.

Dostlar da seyrəlir bir-bir,
boşluqda sıxılır adam.
Düz yolun düz ortasında
sürüşüb yıxılır adam.

Dünənə ayağım çəkmir,
eynəyim düşmür sabaha.
Solan kitab arasında
darıxan məktubam daha.

Bir Kefli İsgəndər tapıb,
dedim: açaq başımızı?!
Göydən daş tökənə şükür,
gedib açaq başımızı.

ŞƏHİD MƏZARITƏK SIZILDAYIRAM

Bu gün də ömrümdən keçdi güllətək,
yenə dəliliyi tutub dərdimin.
Nə qadın sığalı, nə dava-dərman...
tanımır, yaddaşı itib dərdimin.

Mənə gələn dərdin ömrü uzundu,
Nə köhnə ili var, nə təzə ili.
Qaçaqmalçılıqla keçirdim yenə,
o astar üzündən bu üzə ili.

Şəhid məzarıtək sızıldayıram,
nə bir dost səsləyir, nə ölmüş anam.
Nə ölüm sevgisi çıxır canımdan,
Nə də yaşamaqdan bezib doyanam.

Görür öz işini divar saatı,
nə ili hərləyir, nə aya baxır.
Gör bizim saatı neçəyə qurub,
Bəlkə tələsən var, kimsə darıxır?!

ÇEVRİLƏRİK SOYUQ KÜLƏ

Heç kim, heç nə qalmayacaq, –
heç xatirəmiz də belə!
Çərşənbə tonqalı kimi
Çevrilərik soyuq külə!..

Üstümüzdən illər aşar,
qar-qış keçər üstümüzdən.
Zəmi-zəmi, çəmən-çəmən
dünya biçər üstümüzdən.

...Heç mən də şeir yazmıram, –
uzağı, daş pıçıltısı.
Allah, yenə Sən bilərsən,
bu küləkdi, ya atılmış
bir qadının hıçqırtısı...

DÜNYANIN YANAĞINDAN

Heç də yaxşı deyiləm,
pis də deyil işlərim.
Dünyanın yanağından
Alma kimi dişlədim.

Ölmüş vicdanın belə,
qəbrinə and içirlər.
Ucaboy qapılardan
İməkləyib keçirlər...

Hər şey var, kimsə artıq.
Yenə nəsə çatışmır.
Ömür boyu udduğun
son nəfəsə çatışmır!..

Çetdim, səngərlər boyu
oynayan güllələrin
havasını çalmağa.
Cetdim, qara günlərin
halvasını çalmağa!..

SƏNSƏ ELƏ DARIXIRSAN

Qadın üçün darıxırsan,
Xanım üçün darıxırsan,
"heç darıxmıram" desən də,
canım üçün, darıxırsan.

Səhər yuxuna çən düşür,
şeh düşür uzaq illərə.
Ağlayırsan dəryaz üstdə
yıxılıb gülən güllərə.

Çox vaxt heç bilmirsən niyə,
nədən belə darıxırsan.
Darıxmalı bir ölüm var,

bir də qadın.
Ayrı heç nə! –
sənsə elə darıxırsan.

BIR İŞIĞIN QARASINA

Hər gün ölüb gedirəm də
bir işığın qarasına.
Hər gün dönüb sarılıram
bir ümidin yarasına.

Heç yaşamağım da gəlmir,
nə də ölmək istəmirəm.
Nə dərdimi, sevincimi
daha bölmək istəmirəm.

Dizlərindən güllələnən
Boz Qurd kimi qıvrılıram.
Bayrağımı qaldırıram
buludlara aram-aram.

Bu saralmış heyvaların
işıqları korun yanır.
qız-gəlinin yanağından
“qan yağmır”...
göz yaşı yağır...

DAŞIB GEDİRƏM DƏNİZƏ

Ürəyimə dəniz düşüb,
düşüb gedirəm dənizə.
Darıxıram, bu şəhərdən
daşıb gedirəm dənizə.

Göydən bir qız əl eləyir,
çaşıb gedirəm dənizə.
Taleyimin qolu üstdən
aşıb gedirəm dənizə.

...Üzündən-gözündən öpüm,
hamıdan yaxınım dəniz.
Yosun-yosun saçlarına
gözümlə toxunum, dəniz.

Sinəndə gəmi yellənir,
göy dodağında – Aydan iz.
Sən quruma, gözümüzün
yaşını qurut, ay dəniz!..

...Ürəyimə dəniz düşüb,
düşüb gedirəm dənizə.
Bu dünyanın qolu üstdən
aşıb gedirəm dənizə.

DAŞA VERDİYİM BU ÖMRÜ

Nə verim Allahdan alım,
boşa verdiyim bu ömrü.
İki yol dalbadal qalım
beşə verdiyim bu ömrü?!

Hər gün yır-yığışı gələn,
dərd dolu qırışı gələn.
Buludu, yağışı gələn
tuşa verdiyim bu ömrü.

Azın, çoxun da şax gəzsin,
gəzir,
cibimi şah gəzsin.
Kəsir,
yenə Allah kəssin
daşa verdiyim bu ömrü...

Yusif HƏSƏNBƏY

DAĞINTILAR ALTINDA

♦ *Roman*

Həyatımda parlaq izləri qalıb məhləmizdəki uşaq bağçamızın. Məni dikəldib, tərbiyəsinin işığıyla gecənin qaranlığında da ən uzaq məsafələrdən görünən eləyibsə, atdığım addımın düşəcəyi yeri əvvəlcədən görə bilirəmsə, əl tutmağın, yardımçı olmağın ehtiyaclarıyla yaşayıramsa, həmin o bağçanın dayələrinə, müəllimlərinə də minnətdar olacam ömrüm boyu.

Anam məktəbdə tarixdən dərs deyirdi. Səhərlər evdən bir yerdə çıxırdıq. Bağçaya çatanda boynumun, yaxamın düymələrini yaxşı-yaxşı bağlayır, mənə "hı" elətdirib burnumu sildirir, papağımı başıma kip oturdub, üzümdən öpür, qapıdan həyətə ötürürdü.

Bağçaya gələn hər uşaq ya bir dəstə gül, ya bir yarpaq, ya da heç olmasa, bir neçə yaşıl ot gətirməliydi.

Qapıda bizi müdir müəllimə qarşılayırdı. Biz əllərimizi stolun üstünə qoyurduq. O, dırnaqlarımızı təmiz görəndə qımışır, ağzımızı açıb parıldayan dişlərimizi ona göstərəndə "Belə ha! Bax, bu sayaq səliqəli görüm sizi həmişə", –deyib, üzümüzə gülürdü. Müdirə saçları pırtlaşıq qızları o ki var danlayırdı. –Sovxalarını niyə daramamısan? Hörüklərinin ortasında lent niyə yoxdu? Ayaqqabıları çirkli oğlanların əlinə bir taxta parçası verib: – Çıx çölə, o palçıqları rədd elə, – deyə təpinirdi.

Müdirə dabanlarını şaqqıldada-şaqqıldada, uzun çənəsini irəli verib nəğmə-rəsm müəlliminə yaxınlaşdı. – Ay Əşrəf hanı? Bəs Sənubər nöş gəlmir? Xəstələnməyib ki?

– Xeyr, müəllimə! Dünən top kimiydi. Tapşırdım ki, bir şəkil çəksin. O da rəngli karandaşlarla iki sərçə çəkdi. İkisi də qırmızı.

Müdirə duruxdu. Alt dodağı üst dodağının altında itib batdı. Qaş-qabağını salladı:

– Sən rəssamsan, gözün itidi. Bu yaşa çatmısan, qırmızı sərçə görmüsən heç?

– Hardadı? Sərçə kül rəngi, boz olur! Çil-çil də olur.

– Bəs soruşmadın ki, sərçələri niyə belə qırmızı çəkdin?

– Əvvəl cavab vermədi. Sonra qorxa-qorxa dedi: – Ay müəllim, yataq otağımızda çarpayının başına bağlanan şarlar qırmızıdı. Döşəməmiz qırmızıdı. Yeməkxanada fincanlar da qırmızıdı. Mən sərçələri də qırmızı görürəm. – Sonra qolumdan çəkə-çəkə məni pəncərənin qabağına gətirdi. – Bax, o nar ağacı qırmızı paltar geyinib. O paltarın boynundakı, yaxasındakı narlar qırmızı düymələrdir, – deyəndə qurudum qaldım. Ay anam, ay bacım, ay Zərnigar xanım. Səttar Bəhlulzadənin fantaziyasından da itidi Sənubərin fantaziyası!

– Bəs sən uşağa başa saldın ki, nəyə görədi ətrafdakı o qırmızılıq?

– Bəli! Başa saldım ki, dövlətimizin bayrağı qırmızıdı, o bayraq da Moskvada Kremldə dalğalanır. O bayrağın nuru da bürüyür ölkəmizin hər yerini. Sən də, bağçamızın uşaqları da o nur içində ağıllı, tərbiyəli böyüyürsünüz.

– Sağ ol, Əşrəf müəllim! Yaxşı başa salmısan. Bəs harda qaldı bu qız?

Müdirə özünə yer tapmırdı. Əllərini ovuşdura-ovuşdura ora-bura boylanırdı.

Rəngi qaçmış Sənubər qapıda göründü. Tez-tez udqunur, tövşüyürdü. Özünü boğub təntiyən nəfəsini dərməyə çalışdı. Sifətinə dağılmış saçlarını boynunun ardına atdı.

Müdirə çiynini çəkə-çəkə Sənubərə yaxınlaşdı. Əllərini belinə qoyub xeyli susdu. Sonra da əyilib altdan-yuxarı Sənubərin gözlərinə zilləndi:

– Gecikmisən! Səbəbini bilmək istəmirəm. Bu barədə hələ sonra danışarıq! Əlində bir gül, heç olmasa yarpaq, heç ot da görmürəm. Hanı bəs? Sən səliqəli, intizamlı, tərbiyəli qızsan. Yoldaşların gül-çiçəklə gəliblər bu gün də. Odur, cərgəyə düzülüb səni gözləyirlər. Onlar Lenin babanı salamlayıb, büstünün qarşısındakı vazaya gül qoyacaqlar. Axı, uşaqlar Lenin babanı canlarından artıq istəyirlər. Ancaq sən bu gözəl tədbirə həm gecikirsən, həm də gül gətirmirsən!

Sənubər qurumuş, ətli dodaqlarını dilinin ucuyla isladır, birçəyindəki salxım saçlarını dartışdırır, inadla susurdu. Ayağının birini götürüb, birini qoyan müdirə qeyzləndi:

– Bu gün gül gətirməməyini necə başa düşüm, ay qız? Belə çıxır ki, sən Lenin babanı çox istəmirsən?!

– Yox! Mən Lenin babanı çox istəyirəm. Özü də lap çox. – Sənubər sinəsini irəli verib, pəncələri üstə qalxaraq, əllərini yanlara açdı: – Bax, lap bu qədər çox istəyirəm, – dedi.

– Bəs gül hanı?

– Gətirirdim. Ancaq külək əlimdəki gülləri vurub apardı! İndi, elə bu saat gətirərəm, – deyib qapıya tərəf yüyürdü. Mən cərgədən çıxdım. Qollarımı yanlara açıb qabağını kəsdim:

– Onun gülləri bizdədi, – xorla qışqırdılar uşaqlar. “Cırcırama” Roza, yumru Tofiq, höcət Elxan, Süleyman da biri-birini itələyir, Sənubərə yaxınlaşırdılar. Gül dəstəsi gətirən bir çiçək ayırırdı, bir gül gətirən bir neçə

ləçək qoparırdı gülündən. Yarpağını iki yerə bölən Gülzar bir parasını Sənubərin ovcuna qoydu.

Müdirə Zərnişan xanım örpəyinin ucunu doluxsunmuş gözlərinə yaxınlaşdıraraq qəhərli, ağrılı səslə:

– Ay Əşrəf, gör zəhmətimiz necə bar-bəhər verir. Məni, bax, elə bu uşaqlar qocaldır. Noolar ki? Amma aralarındakı qardaşlığı, birliyi görəndə bilsən necə cavanlaşıram!

Sənubər cərgəmizə qoşuldu... Gül qoydu mərasimdən sonra. Xor müəllimi əlini qaldırdı. Musiqi səsləndi. Müdirə bir addım irəli gəlib komanda verdi. "Addımlarla marş!" Xor müəllimi dirijor əllərini oynatdı və biz sevimli:

Azərbaycan elində, –
Qızıl bayraq əlimdə!
Çalışırıq, vuruşuruq
Lenin baba yolunda.

mahnımızı oxuya-oxuya yeməkxanaya gəldik.

Yumru Tofiqlə "Cırcırama" Roza üz-üzə oturmuşdular. Ağ xalatlı dayə çömçəni qazanda hərləyib Tofiqin boşqabını firniylə doldurdu. Roza o boşqabı Tofiqin qabağına çəkdi və qaşıqla qarışdıra-qarışdıra, üfürə-üfürə firnini soyutmağa çalışdı. Sonra dayə Rozaya: – Bunlar da noğul payın, – deyərək, qabağına dörd dənə yaşıl noğul qoydu. Roza "ah, noğullarım gör necə işıqlıdı, gör necə parıldayır" deyə yerində oynadı. Dayə gözlərini bərəldib Rozaya baxan Tofiqə: – Darıxma, yumru balam, indi sənin də payını verəcəm, – deyərək nəlbəkiyə dörd dənə ağ noğul qoyub getdi.

* * *

Şair dostumla Yazıçılar İttifaqından çıxıb yolun o biri tərəfinə keçhakeçdə qara «Volqa» səkiyə yaxınlaşdı və biz ayaq saxladıq.

Maşının arxa qapısı ağır-ağır, can çəkə-çəkə açıldı. Bu da içəridəkinin ağırbatman, nüfuz, səbr sahibi olduğunu göstərirdi. Bəli! Əlbəttə! Mən gümanımda yanılmamışdım. Nəhayət, qapı taybatay oldu. Marağımıza səbəb sərnişin, elə bizim doğmamız, irili-xırdalı şair və yazıçılarımızın qayğıkeşi, ordenlisinə, ordensizinə də əl yetirən el ağsaqqalı, təkcə doğma vətənimizdə deyil, çoxmillətli Sovet məkanında saysız-hesabsız oxucu auditoriyalarının rəğbətini qazanmış, nüsxələri əl-əl gəzib, təkrar-təkrar oxunan "Gələcək gün" romanının müəllifi, xalq yazıçısı, Respublika Ali Sovetinin sədri Mirzə İbrahimov maşından çıxdı.

Səliqə-sahmanına söz ola bilməzdi. Şalvarındakı ütü qatları sınmamışdı. Şax-şümal idi. Elə bil maşında dizlərini büküb oturan heç o deyildi. Çəlimsiz, incəbədən olduğuna görə pəncəyi əyninə kip oturmur, bir çiyni əyiləndə o biri çiyni yuxarı dartınırdı. Sinəsindəki deputat nişanı, döş cibindəki qələmin sancağı da zoğalı rəngdəydi. Alnının üstündəki, ənsə ətrafındakı zil qara saçlarında daraq dişlərinin izi görünürdü. Bizə şirin-şirin baxır, dodaqları səyriyirdi. Asta, ehtiyatlı addımlarla səkiyə qalxdı. Gözlərini qırpa-qırpa qarşısında duranları tanımağa çalışdı.

– Salam, ay Qabil müəllim! Salam, xoş gördük! – deyərək Qabilin qolundan tutdu.

Mən əlimi irəli uzadıb, iki addımla Mirzə müəllimə yaxınlaşdım. Qov kimi yüngül, nəm əlini ovcuma götürüb, adımı söyləyəndə, – Ehtiyac yoxdur, – deyərək sözümü ağzımda vurdu. – Səni yaxşı tanıyıram! Axırıncı plenumda Rəsul Rza poeziyamızda yeni görüm, yeni duyum, yeni ifadə məsələlərindən danışanda sənin şeirlərindən nümunələr gətirdi. Bəzilərini oxudu.

O şeirlərin yazılmasına səbəb hadisə belə baş vermişdi:

Moskva altındakı "Peredelkino" yaradıcılıq evində bir qadının məkrinə düşdüm.

Yaradıcılıq evinin direktoru Qalina Sergeyevna sənədlərimə baxa-baxa: – Sizin Rəsul Rza da burdadır. Darıxmazsınız, – dedi.

– Harda qalır? Yenə ikinci mərtəbədə? Kitabxananın böyründəki otaqda?

– Yox! Sizinlə qonşuluqda! Bir qonşunuz da erməni yazıçısı Hamo Sağiyandır. Qızını da gətirib özüynən. 21-ci otağı vermişəm onlara.

Rəsul Rza Azərbaycan şeirini trafaret çərçivədən çıxarıb, uçuşlarına geniş meydanlar verən yenilikçi, ictimai-tənqidi fikirlərini özünəməxsus cəsarətlə, yeni formalarda ifadə edən novator şair idi. Nə zamansa barəmdə çox nüfuzlu tribunada fikir söyləyib, məni plenum iştirakçılarına təqdim edəcəyini ağlıma gətirməzdim. Ancaq Allah qismət elədi.

Otağım isti, işıqlı idi. Yuyunub darandım. Əyin-başımı səliqəyə salıb dəhlizə çıxdım. Boynu, sinəsi daş-qaşlarla cilvələnən, bir alışdım-yandım xanım məni görcək: – Ax, ax, ax! Vot eto mujçina! Hincanım bəs, ay mamacan! Hinc lyav en dığa mart! – Gözünü gözümə zilləyərək: –Tues super dığa! Bizim Sasunsi David kimi qaxraman! – deyərək əlini mənə tərəf uzatdı.

– Adım Sedadır. Armyankayam mən, – dedi.

Ürəyimdə yüngül, isti bir dağıntı duydum. "Nə qədər ki, at belinə çıxmayıb bu dağıntı, qayıt bu yoldan! Ancaq qorxusu yoxdu! İradəm, gücüm çatar, tamahımı boğaram. Nəfsimin "mən", "mənim" viruslarının əsiri olmaram heç vaxt!" – dedim özüm-özümə. Qırmızı barmaqlarının ucundan tutdum. Adımı eşitcək: – Necə? Necə? Bay! Xan! Qospodin? Znaçit Aristokrat, Centlmen! – Qoluma girib, şişman döşlərini sinəmə dayadı. – Davay poyedim Moskvu, vozmi taksi. – Cavab gözləmədən: – Yeliseyevskom maqazine kofe-konyak stasalım! – Gözlərini süzür, xumar baxışlarıyla məni dəmə çəkir, yeməli, xurma dodaqlarıyla şirnikləşdirirdi. Namusa boğulmuşdum, "yox" deyə bilmirdim, kişiyəm axı! "Hə" də, necə deyim? Moskvanın mağazaları canavar kimi açıb ağzını. Milyonları tək boğazına udsun. Amma mən duruş tuta bilərəmmi? O, bir addım irəli gəlib, boynumda gəzdirdi yumşaq əllərini. Belə çılğın hərəkətləriylə nə demək istəyirdi? Bilmirəm. "Amma mən nəfsimi boğaram. Aramızdakı insani münasibətləri qoruyar, dağıntılara yol vermərəm" – düşünürdüm.

– Təklifiniz ürəyimcədi. Özünüzü mənə etibar etdiyinizə görə çox sağ olun! Sizi bağrıma basıram, – deyib biləyindən tutdum. Dartınıb əlimdən çıxmağa səy göstərmədi. Bizə sarı gələn, alnı şapka günlüklü taksini dayandırdım.

"Qızıl Meydan"dan keçirdik. Maşını saxlatdım.

– Gəl düşək! Mavzoleydə Lenin babanın, Stalin babanın da məzarına gül qoyaq.

Oçen xoroşo! – dedi. Düşdük. Movzoley, – özülü torpağın dərin qatlarına oturulmuş dağ kimi nəhəng və əzəmətli görünürdü. “Bu Movzoleyin təməli xalqın ürəyindədir” düşündüm. Dördbucaqlı binanın küncləri yaxşı yegələnmiş ülgüc kimi itiydi. “Paxıl gözlər, düşmən nəzərləri yaxın düşməsin mavzoleyə!”

“Qızıl meydan”a Lenin və Stalinlə görüşə gələn al, yaşıl, qırmızı paltarlı insan cərgələrinin sonu görünmürdü.

– Lenin babanı çox istəyirsən? – Gözləyirdim ki, bizim o uşaq bağçamızdakı Sənubər kimi Seda da döşünü irəli verəcək, pəncələri üstə qalxıb, qollarını yanlara açacaq: – Çox! Lap çox! – deyərək atılıb-düşəcək. Ancaq belə olmadı.

– Koneçno! Ya v qazete “Leninskaya znamya” korrektor.

– Uşaq bağçasına getmisənmi?

– Çe! Çe! Detskiy yasli, detsad v naşem Armenii çika! Netu! Arvadlar işdə olanda uşaqlar – dığaneri küçədə “Kazaki razboyniki”, znaçit, “qaçaq-qaçaq” oynayırlar. – Vəssalam! Evi yıxıldı valideyinlərin. “Uşaqlıqda “qaçaq-qaçaq” oynayan, böyüyəndə yol kəsən, terrorçu olar yəqin” düşündüm.

– Bəs pioner düşərgələri, pioner lagerləri varmı sizdə?

– Znaçit, asma, düşərik koslagerlər! – Ha! Ha! Haskanumem. Laqer znaçit detskaya koloniya? Detskaya koloniya mnoqo! Yerevane sem ştuk. Ermyedzine desək?

– Sən hardan bilirsən bunları? Olmusan koloniyalarda?

– Ha, ha metağanım. Podruqam Yerevandakı koloniyada yatırdı. Ona baş çəkməyə gedəndə üç-dörd gün qalırdım yanında. Hinç lyava en koloniya ay dığa martıs! Axçılar, dığalar bir yerdə. Narkotiki, vodki bez draxma, znaçit havayı. Kayfuy skolko xoçeş!

Soyuq tər basdı məni. “Atı atın yanına bağlayarsan, rəngini götürməsə də xasiyyətini götürür. Çörək çərəyə baxır, rəng alır” deyib atalarımız.

Mərkəzi univermağa gəldik. “Qızıl, əntiq əşyalar” şöbəsində barmağını vitrindəki büllur sırğaların üstünə qoyaraq: – Ey, bek, pisatel, bax, smotri hinlyv –deyərək uşaq kimi atılıb-düşdü. Gözləri böyümüşdü. Bəbəkləri qığılcım püskürən Benqal şimşəkləriydi. Əlini vitrin şüşəsinin altına uzadırdı. Bu nədi? Zavallının qanında qaynayan nəfsin, tamahın “mən, mənim” virusları ağlımı başımdan çıxarıb. Neyləyim, çıxış yolu birdi. Sedanı virusların cəhəngindən qurtarmalıyam. Dirsəyindən yapışıb qolunu çəkdim. Məni qaşqabaqlı görən Seda qolunu boynuma dolayıb, üzümdən öpdü. Təndir kimi yanan içərilərimdə sərin mehlər əsdi. “Yaman yerdə günüm axşam oldu! Sırğaları birtəhər alaram! Bəs sonra Bakıya hansı pulnan qayıdım” – düşündüm yazıq-yazıq. “Əşi, yox ey! Oturuş-duruşundan imkanlı qıza oxşayır! Boş əlnən univermağa kim girər?” Sırğanın birini əlimə götürdüm. Yarpağın ucundan sallanıb, boynu get-gedə nazikləşən böyük bir damlaya bənzəyirdi. Bu üzündən baxanda o biri üzü aydın görünürdü. – Əlbəttə, sırğaların tacındakı al yaqutlar rənginizi bir az da açar – dedim. Alt-dan-altdan mənə baxa-baxa əllərini gödəkcəsinin ciblərində, yaxasında çox gəzdirdi və birdən ayağını yerə çırpdı. – Tfu, çort! Kak mne ne vezyot!

Hincanım bəs, baxtı çones! – deyə hönkürür, dərisini soyurlarmış kimi, sızıldayırdı.

Mən biganə qala bilməzdim bu dağıntı önündə. Qıza yardımçı olmalıydım:

– Sizə nooldu birdən?! – O, dərindən ah çəkdi, kəsilə-kəsilə: – Ox batdı yadıma. Kaşelokumu götürmədim. Draxmalar, rubllar, mnoqo dollarlar "Peredelkino"da qalıb. Zərər çopis! Siz, bek, centlemen ter Avetik İsahakyan bizə bir kömək matağnım. Sonra axça, rubl verərəm. Siz axı, bek, centlemen dığa martıs!

– Əlbəttə! Narahat olmayın. Avetik İsahakyan deyə bilmərəm, amma bəyəm! Centlemendən min qat artıq kişiyəm – deyib, kassaya yaxınlaşdım. Sonra bu xanım bir yay eynəyi istədi. Aldım. Ətriyyat şöbəsində "Şanel", "Fidji" ətirlərini görüncə, ağzının suyu axdı. Qolumdan sallaşdı. Anamı-atamı söyə-söyə onları da aldım. Bir neçə üzü ilan naxışlı corabı, alt tuman köynəklərini də əl çantasına yerləşdirdim. Taksiylə "Yazıçılar" restoranına gəldik. Xanım konyaklı qəhvə istədi. Mən dolu badəmi çəkdim başıma. Bir şampan şərabı, bir də bir "Moskva" tortu götürüb "Peredelkino"ya qayıtdıq. Taksinin haqqını ödədim və ikicə rubl qaldı əlimdə.

Xanımın otağına gəldik. Ayın-oyunla dolu çantanı dolabın böyrünə söykədim. Üstündə qızın kaşelokunu gördüm, eynim açıldı, gözümə işıq gəldi. Dinmədim. Haqq-hesab söhbətinin yeri deyil. Üzü gülürdü. Şövq dolu gözləri qaynayırdı. "Aldığım hədiyyələri halal edəcəyəm. Qoy sevinsin! Pul əl çirkidi. Onu həmişə qazanmaq olar! Amma bir ürək sevindirmək, küskün bir ruhu qanadlandırmaq fürsəti bir də nə vaxt çıxacaq uğuruma?"

Şampan butulkasının tıxacına toxunan kimi yerindən qopdu. Qədəhləri doldurdum. Birdən ağlıma qəribə bir fikir gəldi. Axı, mən sosialist yönlü bir neçə şairin əsərini dilimizə çevirmişəm. Moskvadakı "xarici komissiya" şöbəsindən məni Avropa ölkələrinə ezam edəcəklər. Avropada da gərək özünü mədəni aparasan. Bəzi adət-ənənələri öyrənəsən. "Bruderşaft" haqda məlumatım vardı. Bəlkə elə burada o "Bruderşaft" üsulundan istifadə eləyim? Əlimi Sedanın çiyninə qoyaraq: – Sizdən xahiş edirəm! Gəlin, üzüzə durub "Bruderştaf"la içək bu şərabları! Düşündüm ki, məni "aristokrat", "centlemen" adlandıran, geyim-kecimiylə, kofe-konyak içməyiylə də avropalıya oxşayan Sedanın ürəyincə olar təklifim. – Kaşelokunuz da itməyib. Baxın, tumboçkanın üstündədi – dedim. Kaşelok sözünü eşitcək çırpınıb çıxdı əlimdən. Üzü kif atmış bozlamac çörəyi kimi bozardı.

– Podless! Ya uliçnaya?! Yes qaxbe! Məni kimə oxşadırsan! – Şan dığa şutara. –Yığışdır baraxlolarını, rədd ol burdan! Məsələ qəlizləşdi. "Bu necə olur axı? Heç nə başa düşə bilmirəm. Yazıq, məsum, eyni zamanda doğmalaşmağıyla da məni heyran eləyən Seda birdən-birə dəyişib, ilan kimi məni çaldı. "Sənə bu da azdı. Ürəyinin qapıları darvaza kimi açıqdı. Yolu keçən burulur içəri. Eybi yoxdu. Ağlını başına cəm elə! Cəngiyə baş qoşmaq ağılsızlıqdı. "Paltomu götürüb otaqdan çıxdım. Nəyim vardı, xərcləmişdim. Halal xoşu! Sabah "Sovetski pisatel" nəşriyyatına gedərəm. Təzə çapdan çıxan kitabımın qonorarını alaram. Çalışıb bu hadisəni də unudaram. Bundan belə biz də ehtiyatlı dolanarıq" – deyə özümü sakitləşdirdim.

Qapımın ağzındaydım. Paltonun cibində açarı axtardım. Yoxdu. Pencək, şalvar ciblərimin astarını üzə çıxartdım. Açarı tapmadım. Univermaqda, restoranda da əlimi cibimə salmışam dəfələrlə. Bəlkə orda düşürtmüşəm? Ancaq yox. Taksinin haqqını ödəyəndə cibimdəydi. İndi neyləyim? Bu gecə hardasa yatmalıyam, elədimi? Bəs harda? Bəlkə, Rəsul müəllimin yanında? Qonşu qapıya yaxınlaşdım. Amma Rəsul müəllimi də narahat eləmək istəmirəm. Axı, o da gecənin bir aləmində düşünmək, yazmaq istəyəcək. Mənim xoruldamağım da var axı. Başqa çıxış yolu da yoxdu". Saçlarıma əl çəkib, qalstukumun düyməsini hülqumumun üstünə oturtdum. Qapını iki barmağımla iki dəfə taqqıldatdım. İçəridən səs çıxmadı. Neyləyim? Bəlkə elə Sedanın otağında düşürmüşəm açarı? Soruşum. Bir yerdə axtaraq. Açarı tapsam, kopoyoğludu bir saniyə orda qalan. Geri qayıtdım. Qapını iki barmağımla iki dəfə taqqıldatdım. Səs yoxdu. İki yumruqla döydüm.

– Açın qapını. Mən açarımı itirmişəm. Otağınızda harasa düşüb yəqin!

– Sən bek yox, xuliqansan!

"Yox! Bu qaraçıdan mənə hay olmayacaq. Xain xoflu olar. Qapını açmayacaq. Bəlkə taksiyə oturum, gedim Moskvaya? Bəs hansı pulnan? Ümid Sedayaydı ancaq. Yenə, yalvar-yaxar eləyim, görək noolar? – Sən Allah, aç qapını! Xahiş eləyirəm. Yalvarıram. Axı, biz dostuq. Açarımı axtaraq, əgər tapılmasa, portmanatınızdan mənə 25 manat borc verərsiniz. Taksipulu!

– Çe, çe! Çika! Portmanetimdə də draxma, rubl çika! Siz məni zorramaq istəyirsiz. Siz xuliqansınız. Milisiya çağıraram!

"Suda batan öz qollarına güvənməlidi" deyib atalar. Xeyli düşündüm, xırdaladım! Təzə, "xoruz səsi" eşitməyən şeirlər yazmalıyam. Rəsul müəllimə amma oxuyaram. Sevinər, günahlarımı bağışlayar. O gecə birnəfəsə bir neçə şeir yazdım. Səhəri gün utancaqlığın, qorxunun da daşını atıb, Rəsul müəllimin qapısına yaxınlaşdım. Özümü yığışdırıb, dərindən bir-iki nəfəs ötürüb, taqqıldatdım qapını.

– Gəl içəri! – dedi, mülayim, mehriban səs. Ürəkləndim. Qapını özü açdı. – Gəl, gəl! Xoş gəlmisən! Bəs hardasan neçə gündü? Bu ara-bərələrdə də görmürəm səni heç!

İçərilərimdə titrətmə vardı. Başımı qaldırıb üzünə baxmağa cəsarətim çatmırdı. Utanırdım! Tutulduğumu başa düşdü. Məni vəziyyətdən çıxarmaq üçün araya söz qatdı. – Bu evin hər tərəfi meşəlikdi. Burda dincələnlərin çoxu, mən də şam yeməyindən sonra yaşıl xiyabanlarda gəzişirik. Bəzi quşlar, sərçələr də civildəyir, ağaclarda yem axtarırlar. Dələlər budaqdan-budağa atılır, qaçdı-tutdu oynayır, şənlənirlər. Bəziləri xiyabana düşür, məzlum-məzlum gəzişənlərə yaxınlaşır, əllərini irəli uzadır, biz də cibimizdə gətirdiyimiz bulka, peçenye qırıntılarıyla onları yemləyirik. Bütün canlılar diqqətə, qayğıya möhtacdır. Amma gənc şairlər daha çox. – Əlinin arxasıyla masanın üstündəki kağızları kənara itələdi. – Amma səni o xiyabanda görmürəm. Haralardasan bəs? Yaradıcılıq evində nəyə qarışıqdı başın?

– Rəsul müəllim, bir-iki şeirim var. İcazə verərsiniz...?!

– Hə! Əlbəttə! Bunu bayaqdan de da! Dodaqları qaçdı. – Köhnə palan içi sökməyəcəyik burda. Heyif deyilmi! Amma Maksim Qorki yazıçılara

tövsiyə edir ki, mayalarını qorusunlar. Yəni ehtiraslarını yazmağa sərf eləsinlər. Bənd olma olub-keçənlərə də! – Yazı masasının arxasına keçdi. – O stulu gətir qoy altına, otur yanımda, – dedi. Bükülü vərəqləri cibimdən çıxartdım.

– Evdən gətirmisən? Redaksiyalardan geri qaytarılanlar cəsarətli, tünd olduqlarına görə çap olunmurlar bəzən. Heylə şeirlərə həvəslə qulaq asaram!

– Təzə yazmışam. Özü də hələ nədi, nə döyül bilmirəm. Bunlara şeir deməyə də çətinlik çəkirəm! Amma, əziyyətsiz, asan yazdım.

– Hansı rayondansan?

– Qubadanam.

– Hə! Bağlar şəhərindən! Sən bilərsən. Yaxşı yetişmiş alma dərilində budaqdan tez qopur. Bəzən özü düşür yerə. Səni içəridə danışdıran yaxşı danışdırıb. Söz də bulaq kimi axıb. Qulaq asıram. Di başla!

Kağızların üzünə baxmır, şeirlərimi əzbərdən deyir, tutuquşu kimi cahbıldayırdım. Gözaltından ustada da baxırdım hərdən! Barmaqları ilə masanı taqqıldatmır, sakit, diqqətlə qulaq asırdı. Birdən dodaqlarının qaçdığını gördüm. Ürəkləndim bir az da! Cilovsuz, dördnallı çapan kəhəri saxlamaq olar?

Susamışam, mənə su verin, içim!
Dənizləri,
Kəhrizləri,
Başıma çevirin, içim!
Quruyan dodaqlarımla bulaqları qurudum,
Mənə su verin,
Heç olmasa bir qurtum, bir udum!
Çırmanıb çaylardan keçmişəm,
Heyif, heyif, o sular?!
Ayaqlarıma dəyib o sular!
Daş atıb, bulandırmışam
Neçə duru kəhrizi!
Mən nə qədər dəcəlmişəm, pismişəm, –
Bulaq üstdən qoparmışam
Bənövşəni, nərgizi!
Susamışam, mənə su verin içim!
Dənizləri, kəhrizləri
Başıma çevirim içim!
Yadıma gəlmirdi bir saat qabaq, –
Nə çay, nə bulaq,
Nə kəhriz!
Ancaq dara düşəndə
Xilaskarı düşünürük biz.

Ömrü boyu darlıq dağıntılarıyla üz-üzə gəlib Rəsul müəllim. Ancaq heç vaxt qabaqdan qaçmayıb. Dağıntı yaradanı “qamçılayan”, – onu ziyanlı fəaliyyətlərdən uzaqlaşdıran şeirlər yazıb. Amma o “atasını yandıran” şeirlər də

ürəkdən yanğı istəyir. Dağıntının mahiyyəti, cəmiyyət üçün nə qədər zərərli olduğu aşkarlandıqca ehtizaza gəlib şair ürəyi. İçərilərindən üzə çıxan qırmızı zolaqlı alov dilləri soyuyub, bürüşüb, sifətdə qırışlara çevrilib. Qan qırmızı qızartılar yanaqlarında şaxələnib, göz qapaqlarının, burun pərlərinin həndəvərlərindən oxlar, nizələr kimi şığıyıb, çənəsinin altında, hülqumunun üstündə oraq kimi əyilib. Şair biganə qala bilmir günü-gündən artan dağıntılara. Kolxozun fermasında bir dana xəstələnir. Rayon başbilənləri əl-ayağa düşürlər. Bakıdan "təcili yardım" maşınında adlı-sanlı həkimlər gəlir. Bahalı, "importnı" dərmanları şirin südə qatıb danaya can-amanla içirtirlər. Yan-yörəsini yorğanlarla basdırıb, aspirinli otlarla tərlədib, sağaldırlar. Ancaq danaya baxan sağıcının balaca qızı kimsəsiz otaqda can üstədir. O yazığı itirib-axtarmır heç kim! Dana tezliklə sağalır. Ancaq sağıcının qızı baxımsızlıq üzündən ölür. Əlbəttə, bu dağıntılı hadisə də həyəcansız yazılmır. Qırışlar artır.

– Çox ciddi məsələlərə toxunmusan! Gözəl şeirlər yazmısan, – dedi. – Sərbəst deyil! Heç hecalı da deyil. Əşi, nəyimizə gərəkdi hecası, vəzni? Bədiidi. Obrazlıdı. Hər nədisə, təzə şeirdi. Bəs sən bu çağa kimi harda itib-batmısan? Gözəl şairsən. Amma mən səni tanımamışam!

– Ayıb oldu, Rəsul müəllim, – dedim.

– Təki inəyim südlü olsun, vurub sərnici dağıtsa da, ziyanı yoxdu.

– Çox utanıram, xəcalət çəkirəm!

– Əşi, bənd olma! Təki sən belə şeirlər yazasan. Yaradıcılıq evini dağıtsan da, gözüvün üstündə qaşın var demərəm. Bakıya qayıdan kimi şeirlərin bir nüsxəsini mənə verərsən!

– Baş üstə, – deyib otaqdan çıxdım. Dəhlizdə özümdən xəbərsiz atıla-düşə, oynaya-oynaya gedirdim. Bir neçə həftə keçdi. Bakıya qayıtdım. Bir gün də Yazıçılar İttifaqında növbəti plenuma yığışdıq. Rəsul müəllimim "Ədəbiyyat və incəsənət" qəzetində çap olunmuş, gənclərin yaradıcılığından bəhs edən "Qayğı sözü və qayğının özü" məqaləsi ətrafında müzakirələr gedirdi. O, təmkinlə sözə başladı: – Bir də axı, gənc oldu, ya yaşlı yazıçı oldu, nə fərqi, əsəri orijinal, təzə, cazibədardısa, o haqda niyə danışmayaq. Yazıçılar İttifaqının qarşısında, dəhlizlərində bir cavan oğlanı tez-tez görürdüm. Nə yazıb-yazmadığını da bilmirdim. Ancaq təzə şeirlərini göstərdi mənə. Oxudum, sevindim! İstəyirəm siz də sevinəsiniz!

Səhranın dərdi
Özü qədərdi!
Səhradan keçənlər
Gəldi-gedərdi!

Şeirlər oxunduqca alqışlar güclənirdi. Ustadın həyatımda dönüş yaradan bu çıxışından sonra bütün bağlı qapılar üzümə açıldı.

İndi də Mirzə İbrahimovla görüşdüyümüz zaman: – Səni tanıyıram. Rəsul Rza şeirlərindən nümunələr oxuyub bizə, – deyəndə, o tarixi plenumu nəzərdə tuturdu.

Kəmhövsələ Qabil ətəyimi dartışdırıb özünü irəli verdi:

– Sənə nə var ey, ay Mirzə müəllim! Xoşbəxtsən vallah! Paxıl deyiləm ey! Ancaq adam sənin kimi olmaq istəyir də! Respublika Ali Sovetinin

sədrisən! Üçdüymə, dörddüymə dövlət telefonları əlinin altında, katibələr də nə desən "baş üstə" deyib, başına dolanırlar. Yuxarılarda da, – deyə, əlini "Dağüstü park" səmtinə uzadaraq: – Bəli, o yuxarılarda da böyüklü-kiçikli hamı sənə hörmət göstərir. Lap əcəb eləyirlər! Çox yaxşı eləyirlər! Halaldı, vallah! Axı, sən «Gələcək gün» kimi dünyaya səs salan romanın müəllifisən. O əsər xala xətrin qalmasın, elə-belə yazılan əsərlərdən deyil ey! Şedevrdi! Unikaldı! Güclüdü! Cəsarətlidi! Zülmün, istibdadın məngənəsində sıxılanları üsyana qaldırmaq cəhdləriylə müasir, həm də aktualdı. Bəxtəvərsən! Yoxsa, mənim kimi lüt-üryan şair kimə lazımdı? Nə ad-sanım var, nə vəzifəm, nə maşınım, nə katibəm. Bir həsir, bir də bir Məmmədnəsirəm, – deyib başını aşağı saldı.

Mirzə müəllim ayaq saxladı. Əlini Qabilin çiynində gəzdirə-gəzdirə: – Səni belə gileyləndirən səbrsizliyindi. Məsəl var, deyir "Xəstə tələsməklə armud yetişmir". Hər şeyin vaxtı var. Ruh düşgünlüyünün ötəri olduğuna arxayınam mən. Sən şairsən, özü də günortadan sonrakılardan yox. Sənətə ruhən, qəlbən bağlılığın sənə hər şey verəcək! Ancaq tələsmə! Şərəfli bir yolun başlanğıcındasan. Biz sənin istedadına bələdik. Şeirlərində həyat səhnələri canlıdı, hərəkətlidi. Özünü ələ al! Sən hələ Ali Sovetin deputatı da ola bilərsən. Ümidvaram ki, yaxşı əsərlərin Dövlət mükafatına layiq görülər, oxucuların sevimlisi olarsan!

Mirzə müəllimin peyğəmbərliyi Qabili ala buluda qaldırmışdı. Özündən bixəbər Qabil sağ ayağının ucuyla səkinin asfaltını dağım-dağım eləmişdi. Sükutu Mirzə müəllim pozdu:

– Mən tərifi xoşlamıram, yalandan heç kəsi tərifləmirəm, – deyə qalstukunun düyməsini sıxıb, qamətini şaxlandırdı. – Sənin "Mehparə" adlı poemanı "Azərbaycan" jurnalından mənə göndəriblər ki, tanış olum, rəyimi yazım.

Qabil diksindi. – Nə? Kim verib? Nə vaxt veriblər? – Yığılıb, balacalandı. – Hə, necədi? Mirzə müəllim, xoşuna gəlirmi? Bəyənirsiniz? Sujeti qondarma deyil ki? Hadisələr, epizodlar təbii, canlıdı! Dili də kaloritli xalq dilidi də!

Bülbül kimi cəh-cəh vuran, aşıb-daşan Qabil birdən məzlumlaşdı. Çiçək üstə çırpınan arı gözləri büzüldü. Kəkələyə-kəkələyə: – Elə gecəm olub ki, altı misra yaza bilmişəm. Səhəri oxuyub iki sətrini saxlamışam ancaq! Əsərin ilk oxucusu sizsiz, Mirzə müəllim. Mən bilmək istəyirəm ki, nə yazmışam? Bir isti, işıq varmı əsərin canında?

– Qabil, – dedi Mirzə müəllim təmkinlə: – Sənin Mehparənin məhəbbəti bugünkü Sovet gənclərinə xas böyük, saf, ülvi məhəbbətdi. Leyli məhəbbətidi. Hərçənd Leylini ərə verirlər, İbn Salama gedir. Ancaq Leylini öldürən Məcnunun həsrətidi. Deyirəm ki, bəlkə elə buna görə də Leyli eşqi bəşəri eşqdir. Ancaq, Qabil, sən mənim qılığıma girib, saqqızımı oğurlayırsan ki, mən də redaksiyanın sirrini açım!

– Yaxşı da, Mirzə müəllim, daha heç nə soruşmayacam. Ancaq yek kəlmə, – əsər çap olunar, ya yox?! Bilmək istəyirəm inkişaf eləyirəm heç? İlham varmı məndə? Ürək yanğım oxucunu da yandırarmı? Sən əsərimə pisdi desən də inanmayacam!

Mirzə müəllim susur, gülümsəyirdi. Qabilin şıltaqlıqlarına heç kim dözə bilməzdi. Ancaq Mirzə müəllim Allah adamıdı.

– Sənin narahatlığını başa düşürəm. Əsərdəki hadisələr çevik, dinamikdir. İnsanlar bu günün insanlarıdı. Doğrudu, bu mövzuda Səməd Vurğunun bir poemasını oxumuşuq. Ancaq, nolsun ki, eyni mövzuda yüzlərlə əsər yazıla bilər.

Çiçəyi çırtladı Qabilin: Göz qapaqlarını yuxarıdan basan qırışları qayıdıb yerinə oturdu.

– Rəyi yazmısan da, hə, Mirzə müəllim? Bəlkə verəsən mənə, çatdırım redaksiyaya!

Qabil Mirzə müəllimi divara dirəmişdi. Lakin çox mədəni, təmkinli, dözümlü Mirzə müəllim də daşdan deyildi. Sifətindəki anadangəlmə təbəssüm, heyranlıq rayihələri də əriyir, solğunlaşırdı. Rəngi qaçmış dodaqları gah büzüşür, gah üst-üstə oturub yumrulanırdı. O, kirpiklərini qırpmadan məchul bir nöqtəyə baxır, hərdən çiynini də atırdı. Qabil peyğəmbər misallı bir insanın mələk ruhunda dağıntılar, çöküntülər yaradırdı.

Özümü saxlaya bilmədim. – Qabil, daha bəsdi! – dedim. – Kişini əldən salmışıq.

Qabilin bir az çaş gözləri indi əsaslı çəpləşdi.

– Noolsun ey! Əl tutmaqdan, həyan olmaqdan heç bilirsən necə zövq alır o? Bir nida qopdu ürəyimin başından.

“Bəs mən də o, əlsiz-ayaqsızlardan biriyəm. Xəstə anamla kirəçiyəm. Maaşım da dərmana, həkimə çatmır. Bəlkə Mirzə müəllim prezidiumun üzvü kimi məsələ qaldırsın! Yox! Nəfsimin “mən”, “mənim” viruslarını məhv eləməliyəm içərilərimdə. Olmaz! İttifaqda ev növbəsi gözləyənlər də ağır külfət sahibidirlər. Yox, belə haram yollarla ev istəmirəm. Qoy mənə görə İttifaqımızın nizam-tərəzisində dağıntılar baş verməsin! Əzabı da məni ömrüm boyu sarsıtmasın!

Qabil qolunu qolumdan çəkib çıxartdı. – Belə fürsət bir də nə vaxt düşəcək? – O, Mirzə müəllimə yaxınlaşdı. – Ağsaqqalımızsan. Xiffət eləyərəm, yorğan-döşəyə düşərəm fikirdən. Bayaq eşitdirdiniz ki, sən gələcəkdə deputat da ola bilərsən. Bəlkə o “gələcəyi” yaxınlaşdıraq bir az! Gəlim yanınıza. Ərizəmin üstünə daşdan keçən bir dərkənar yazın! Sonra da anketimi doldursunlar. Adımı da salsınlar namizədlər siyahısına. Seçki də baş tutar yəqin! Mən o deputatlardan əksiyəm bəyəm?! Axı, onların hamısı öz xeyrinə danışandı. Biri qardaşına vəzifə, o biri anasına torpaq sahəsi istəyir.

Ağzı köpüklənə-köpüklənə danışan Qabilin qanında qaynayan tamahın, nəfsin “mən”, “mənim” virusları mələk ürəkli şairi buynuzlaya-buynuzlaya uçuruma aparırdı. “Virusların” ilan dişləriylə sancılan Qabil get-gedə qızışırdı:

– Ay Qabil, – dedi Mirzə müəllim, təmkinlə: – Seçki prosedurları Mərkəzi Seçki Komissiyasının səlahiyyətindədir. Savadından, milliyyətindən asılı olmayaraq, hər bir vətəndaş deputat seçilə bilər. Amma hər deputat da şair ola bilməz. Mən sənin kimi gözəl sənətkarı itirmək istəmirəm. Komissiyanın

sədrinə tapşıracam, ərizəni qəbul etməsin. Səni seçkilərə buraxmasınlar, – deyib bizdən uzaqlaşdı.

Bu görüş Mirzə İbrahimovla mənim üzbəsurət ilk görüşüm idi və belə qənaətə gəldim ki, böyük yazıçı mifoloji peyğəmbər, övliya deyil, ancaq böyük ürək sahibidir.

Cibimdə möhürü at nalı diplomla iş axtarırdım. Az-çox yaxın bildiyim rəislər üzümə gülə-gülə qapıları arxamca bağlayırdılar. Nəhayət, baxtım açıldı. Bakı şəhərindəki Voroşilov rayonunun (indiki Səbail) Komsomol Komitəsində işə düzəldim. Amma «düzəldim» deyib də yekəxana danışığıma görə oxucudan üzr istəyirəm. Mən kiməm, nəçiyəm? Belə ağız-burun bəhəm eləmişəm ki, işə düzəldim özümü? Bəh! Bəh!

...Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tələbəsiydim.

Yataqxananın on altı çarpayılıq otağında biz – eyni kursun uşaqları, bir-birimizə can deyib, can eşidirdik. Bəzən rayondan bir məktub alanın qanı qaralırdı. Biz dərhal, kimin qulpundan nə çıxdı, bir yerə toplayıb onu evlərinə yola salırdıq. Kənddən qayıdanı üzügülər görəndə, başına topalaşır, gətirdiyi çantanı masanın üstünə ağzıaşağı çevirib ev nemətlərindən şirin-şirin yeyir, zarafatlaşırdıq.

İnstitutun birinci mərtəbəsində "Əmrlər, sərəncamlar, göstərişlər" yapışdırılan divarda bir elan oxudum.

"Sabah axşam akt zalında gənc şairlərlə görüş keçiriləcək". Bəh-bəh, nə gözəl! Amma bəs mən neyləməliyəm? Əlimi əlimin üstünə qoyub sakit otura bilmərəm. Məni Qubada şair kimi tanıyırlar. Yer göyə birləşsə, tufan-zəlzələ qopsa da, o məclisdə şeir oxumalıyam.

Ustad Rəsul Rza "Lenin" poemasından ən gözəl parçaları burada oxumuş, poeziya həvəskarları Səməd Vurğunun "Zəncinin arzuları" şeirini bu zalda dinləmişdilər. Mən də gözəl bir şeir yazaram. Bu fürsəti əldən vermərəm. Allah qoysa, odlu misralarımla o akt zalını «bombardman» elərəm. Gurultulu alqışlar səsimi batıracaq, gözəl-göyçək qızlar məni gül-çiçəyə tutacaqlar. Ən əlası da odu ki, məni yaxın buraxmayan, forsundan cırılan o çil-çil qız da başıma dolanacaq! "Dayan bir görək! Arxı tullanmamış bərəkallah istəmə! Şeir yazmaq halva yemək deyil. Gərək oturasan, düşünəsən, ilham oyana. Deyirlər ki, Aşıq Ələsgər yarım saat, bəlkə bir saat sazının avazına isinişib handan-hana sifəti qızarandan, alın qırışlarından tər süzüləndən sonra misraların axarı başlanıb. Harda yazacam şeiri? Torpağı münbit, günəşi, suyu bol olmasa, çiçək açılarmı? Ayağını yerə nə qədər istəsən, dirə! Söz ki gəlmədi, özünü assan da, şeir yazılmayacaq" – düşünür, üzülürdüm.

Gecənin yarısıydı. Uşaqların çoxu şirincə yatırdı. Oyaq olanların bəziləri kitab oxuyurdu. Birdən otağın o başında yorğanının qatlarını açan, qabağından yeməyən, özünü hamıdan güclü hesab eləyən, hamının gözü qabağında kürəklərini oynada-oynada gəzib, muskullarını şişdirən Kamalın nağara gumbultulu səsi eşidildi: – Qurtardı, işıqları söndürün, yatışaq. İşıqlar sönməsə, kökündən qıracam məftilləri. – Bəlkə... qorxa-qorxa dinlənim. – Bəlkə, söndürməyək, hələ bir-iki saat da yansın! Təbim gələr, bir şeir yazaram. Sabahkı poeziya məclisində...

Elə bilirdim ki, xahişimi eşidən yarıyuxulular da yerlərindən qalxıb üstümə cumacaq, məni qucaqlayıb, üzümdən-gözümdən öpəcəklər. Qəhvə fincanları düzüləcək yan-yörəmə. Xoruldayanların böyrünü dümsükləyib, səslərini kəsəcəklər. Lampa söndürülməyəcək. Mən də sabahkı məclisdə şeir oxuyacam. Nüfuzum, hörmətim bir az da artacaq institutda. Dostlarımın bu alicənab hərəkəti müəssisə və əmək meydanlarında "Biri hamının, hamı birinin naminə" çağırışına tam cavab verərdi.

Otağın ortasına üzümü tutub var səsimlə: – Noolar, ay Kamal, ay qardaş, bəlkə o lampa yansın bir-iki saat. Sabah mən də guruldayım o tribunada!

– Xeyr əşi! – Balışını yumruqlaya-yumruqlaya yumşaldıb, çarpayısının yuxarı başına söykədi çolaq İsmayıl. – Mən soğan başı deyiləm burda. Otaq növbətçisiyəm. İşıq sönməlidi. Nədi, istəyirsən ki, işıq düşsün gözümüzə, sonra traxoma olaq, nə var-nə var, sən şeir yazacaqsan? O da, Allah bilir, şeir olacaq, yoxsa meyir!

– Bir az qabiliyyətli danış, – dedim. Növbətçi İsmayıl yerindən qalxdı. Əlini az qala gözümə soxacaqdı. – Ə... Çox savadsızsan, vallah! İnsan aclığa, susuzluğa dözər bir müddət. Ancaq yuxusuzluq adamı dəli eləyər. Bunu özümdən demirəm. Mendeleyevin kitabından oxumuşam.

Gopa basırdı çolaq İsmayıl. Bu da özünü dərin savadlı, masştablı dünyagörüşlü göstərib, başqalarından seçilmək cəhdiydi. Söndürün lampanı, vəssalam! "Söndürün!" "Söndürün!" Yer-yerdən bağırdılar o biri uşaqlar da. "Üzünüz niyə döndü birdən? Bəlkə can üstəyəm, bir qaşıq su istəyirəm? Hanı bəs həmrəyliyimiz? Dostluğumuz elə buracandı? Kəlməbaşı "can" deməyiniz də yalannanmış?" Gileylənir, daş dəyən ayı kimi donquldanırdım. Şeir yazılmayacaq, cəhənnəmə-gora yazılmasın! Mən də çıxmaram o tribunaya. Bu ağrı-acılara birtəhər dözərəm. Ancaq dözülməz olan bu çörək, parta dostlarımın harayıma hay verməməsiydi. Soyuq baxışları ürəyimin başında tapança kimi açılır, ayaqlarımın altında bomba kimi partlayırdı. Bizə dərs deyən professorlar, akademiklər də mühazirələrin şirin yerində haşiyə çıxaraq: – Ay uşaqlar, Vətəni xoşbəxt görmək istəyiriksə, gəlin hər birimiz insanlar arasında dostluq, bərabərlik, həmrəylik toxumları səpən rəncbərlərə çevrilək, – deyirlər. Amma nooldu, qoçu Kamal, çolaq İsmayıl da belə qiymətli tövsiyələri bu qulaqlarından alıb, o biri qulaqlarıyla çölə atmasaydılar. Qanlarında qaynayan yekəxanalığın, forsun, fasonun "mən", "mənim" virusları acı dillərivlə məni sancmazdı, yolumda dağıntılar yaratmazdılar.

Səhərlər uşaq bağçasına gələrkən bir çiçək, ya bir yarpaq, ya bir neçə yaşıl ot gətirməyi öyrədən müdirə, Əşrəf müəllim də bizə birgə yaşamağı öyrədirdilər. Rozanın yaşıl noğullarını oğurlayan yumru, Tofiqin "mən", "mənim" viruslarının başını üzür, onun cəmiyyətin sağlam üzvü olmasına çalışırdılar.

Otağın uzaq, qaranlıq küncündə üzünü divara çevirib kitab oxuyan Elbəyi yerindən qalxdı. Kitabı büküb çolaq İsmayıla yaxınlaşdı. İsmayıl daz idi. Başında nişanə üçün bir dənə tük yoxdu. Ancaq əliylə başını sığallayırdı həmişə!

– Əşi, – dedi qalın bas səsilə, – Ay balam, yatmaq istəyən yatsın da! Bəs göz qapaqları nəyə görə verilib insana? O qapaqları bağlasın, işıq düşməsin gözlərinə. Bunu eləyə bilməyən, qoy üzünə dəsmal atsın. Yorğanını çəksin başına, yatsın da.

– Axı, pioner düşərgələrində, məktəbdə, evimizdə də bizə öyrədiblər ki, birinin dediyi o birinin boğazından keçməlidi.

– Bunu başa düşdüm. Amma mən burda nəçiyəm bəs? Otaq növbətçisiyəm. Nizam-intizam yaratmalıyam. İşıq sönməlidi, – şəlpə ayağını yerə çırpa-çırpa gəlib Elbəyiyə çatanda əllərini belində çarpazladı çolaq İsmayıl. İsmayılın ayağı uşaq vaxtı futbol oynayanda sınmışdı. Türkəçarə həkim pəncəsini topuğuna düz oturtmamış, pəncə də əyri bitmişdi. Əsəbləri zədələnən İsmayıl tələbə yoldaşlarıyla dolanmır, heçin-puçun üstündə mübahisə törədir, dalaşırdı. İsmayılın davası dünyaynandı! Allahnandı! “Adamların hamısı şax, düz yeriyir. Amma o, bir yanı üstə gəzməlidi? Hadisə baş verəndə gərək ətrafdakıları əl-ayağa düşüb, dünyanın ən təcrübəli həkimlərini gətirəydilər üstünə. Ancaq insanlar biganə oldular. O da biganə olacaq hamıya qarşı! Paxıllığın, xudpəsəndliyin qanında qaynayan “mən”, “mənim” virusları onu qıcıqlandırır, yoldaşlarını da sancmağa vadar edirdi. İsmayılın qəddarlığı bu otaqda, işıq məsaməsində də özünü göstərirdi. “Yaxşılığa yaxşılıq” bu gün adi normadı həyatımızda. Düşünürdüm ki, mən də, onun tələbə yoldaşları da İsmayılın yamanlıqlarına yaxşılıq eləməklə onu virusların cəhəngindən qurtarmalıyıq.

Dolabların kölgəsində yırğalanan Elbəyi açıqlığa çıxdı.

– Noolar e..! Qoy yansın da işıq, – dedi. – O da tək özüçün yazmır ki? Hamıçin yazır. Biz kömək eləsək, yaxşı çıxar şeiri, dillərə düşər! Bizim Aşıq Ələsgərsayaq, o da! İranda, Türkiyədə Azərbaycanın adını qaldırar!

Eşitdiklərimə sevinirdim. Axı, Elbəyi indi tək məni müdafiə eləmir, ümumiyyətlə, yaradıcı adamlara qayğıdan, hörmətdən danışırdı. Tələbə yoldaşlarını dostluğa, qardaşlığa, həmrəyliyə çağırırdı.

– Gözümüzün qabağında suda batır, boğulur biri. Əlindən tutub onu quyudan çıxartmalıyıq? Elbəyinin bəbəklərində qığılcımlar parlayır, pörtmüş yanaqlarından qan damırdı. O, “mən”, “mənim” viruslarına ciddi müqavimət göstərir, çolaq İsmayılın, qoçu Kamalın hikkəli tələblərini qırmağa çalışırdı. “Yəqin o da uşaq bağçasında dayələrdən, pionerlər evində baş dəstə rəhbərindən yaxşı tərbiyə görüb” – düşünür, uzaqdan-uzağa onu bağrıma basırdım. Sevincək olmuşdum. Özümü saxlaya bilmədim.

– Balaca olanda uşaq bağçasına getmisənmi? – soruşdum.

Elbəyi soyuqqanlılıqla cavab verdi:

– Kəndinizdə uşaq bağçası yoxdur. Analar tarlalarda alaq eləyəndə uşaqları dallarına sarıyırdılar. Ancaq dədəmin fermasının yanında bir-iki alaçıq qoyub pioner lager açmışdılar. Dədəm məni də aparıb qoymuşdu ora:

– Pəh! Pəh! Nə gözəl! Səhərlər şeypur səsinə oyanırdız, eləmi?!

– Şeypur nə gəzir?! Ferma doqqazının dirəyində bir dəmir parçası vardı. Onu döyəcləyəndə naxırçılar, çobanlar, sağıcılar da qaranəfəs doluşurdular fermanın həyətinə. Biz də yataqdan qalxıb düzülürdük cərgəyə.

Pioner baş dəstə rəhbərimiz çox diribaş oğlandı. Dedi gəlin elə idman hərəkətləri eləyək ki, cəmiyyətə də xeyri dəysin. Bizi həyətin o başındakı odun xarasının yanına gətirdi. Üst paltarlarımızı soyundurdu. Özü də qurşaqdan yuxarı əynində nə varsa çıxarıb tulladı o yana! Baltanı götürüb düşdü xaranın canına. Yandan baxanda dağ çapan Fərhada oxşayırdı. Biz də dəhrəylə, çapacaqla, qiyməkeşlə odunları paraladıq. Sonra odun parçalarından şələlər bağlayıb qoydu çiynimizə. – Gedin, Vətən müharibəsindən qayıtmayanların evlərinə aparın şələləri, – dedi. – Soyuqlar düşəndə cəbhədən qara kağızları gələn kişilərin övladları soyuqdan donmasınlar. – Çox insan adamdı dəstə rəhbəri. Biz də tapşırıqlarını həvəslə yerinə yetirirdik. Taxıl biçini vaxtı buğda zəmisinə gətirirdi bizi.

– Ayaqlarınızın altına baxın! Görün nə qədər sünbül var yerdə. – Birini götürüb iki əlinin içində ovuşdurdu. Ovcundakı kəhrəba buğdaları bizə göstərərək: – Qurban olum bərəkətinə, – dedi. – Bunun bir loxması dağ aşır. Qədrini bilməliyik. Səməd Vurğun belə yerdə deyib:

Havayı düşməsin torpağa bir dən!
Çörək bol olarsa, basılmaz Vətən!

Biz də “ura”, “ura” qışqırır, kombaynın dalına düşüb, topladığımız “başaq”ları kolxozun anbarına təhvil verirdik.

Uşaqların çoxu ortada gəzir, hay-küyə dözməyən, yuxusu qaçmış bəziləri də çarpayılarının küncündə büzülüb oturmuşdular. Bir otaqda, xoşbəxt bir ailə kimi mehriban yaşamalıydıq. Axı kəndlərimizdə, şəhər və qəsəbələrdə, zavod və fabriklərimizdə kommunizm quruculuğu get-gedə güclənirdi. Biz də o quruculuğun öncüllərindən olmalıydıq. Baykal-Amur, Abakan-Tayşet, Ural-Sibir magistralları boyu qəsəbələr, şəhərlər salınırdı. Qazaxıstanın xam torpaqlarını aclıq çəkən Afrikanın, Hindistanın çörək təknəsinə, ərzaq anbarına çevirməliydik.

– Ay uşaqlar, – dedim. – Yataqxanamızla üzbəüzdə Mebel fabrikinin altındakı bir yazını oxuyuruq gündə neçə dəfə: “Hamı birinin, biri də hamının naminə!” Göydəndüşmə, hərcayi deyil. Mənası dərindi. İlk dəfə bu çağırışı qusarlı balası Sovet İttifaqı qəhrəmanı Mirzə Vəliyevdən eşidiblər döyüşçü dostları. Düşmən tankıyla üz-üzə duran rota komandiri Mirzə, qranat topasını belinə bağlaya-bağlaya, “Geri çəkilməyəcəyik! Çəkilsək, arxamızdakı məktəblər, uşaq bağçaları, hospitallar, zavodlar, fabriklər alt-üst olar! Ey döyüşçü qardaşlarım, gəlin biri hamının, hamı da birinin naminə vuruşaq” – deyərək tankın altına atılıb! O qəhrəmanla aramızda bir oxşarlıq da var.

Xəstə anasından məktub almışdı İsmayıl. Çox məyus olduq. Amma hamımız biri naminə qəpik-quruşlarımızı yığıb, İsmayılı kəndə yola saldıq. Biz bu ənənəni davam etdirməliyik. İmkan verin bu işıq yansın bir saat, – dedim.

– Saqqızımı oğurlayıb, qılığıma girməyə çalışmayın! Bəsdi, gəlin yataq, – dedi İsmayıl! Və divarda qaralan, doymuş zəliyə oxşayan düyməni basdı. İşıqlar söndü.

Çarpayım dəhlizə açılan pəncərənin altındadı. Yerimə girdim. Ancaq ilan vuran yatdı, mən yata bilmədim. Elə hey yerimdə qurcuxurdum. Kəndimizin

dağları, dərələri gözümə dolmuşdu. At-araba işləyən dağ yolu. Bulaqdan qayıdan çiyni sənəkli, onikitaxta tumanlı gəlinlər, qızlar... Yamac döşündə quzuların muncuq boyunbağısı. Nə illah eləsə də, ipini çəkib danasını həyətə sala bilməyən, yun papağının tükləri gözünü tutan məktəbli-çobanın da gələcək taleyi mənə rahatlıq vermirdi.

Yerimdən qalxıb paltarımı geyindim. Sakit bir guşə lazımdı. – Hara gedim? Aha, tapdım! Mətbəx əsl mən istəyəndi. Gecə vaxtı kimə gərəkdi? Soyuq olsa, sobaları yandıraram. Ancaq tez də söndürürəm, çünki dəm qazı təmiz deyil, boğucudu. Yan-yörəyə boylandım. İztirablarım, təşvişlərim yoxa çıxdı. Odur, bax, dəhliz necə də işıqlıdı. Vaxt itirmək olmazdı. Deməli, dəmir çarpayı altımda yaylı kreslo, pəncərəmin taxçası da yazı masam olacaq. Dəhlizdən içəri doluşan lampa işığı otuz günlük bütöv Ay işığından bir az tünd idi. Dəftəri ortadan iki yerə ayırdım. Əlimin dabanıyla basıb, yastılandırdım. Neçə-neçə illərin yazmaq həsrətlisi qələmim kağız üzərində atılıb-düşür, sətirlər bir-birinin belinə çıxır, atılan nöqtələr, vergüllər də hara gəldi düşürdü. Düşünüb-daşınmağa ehtiyac yox idi. Gözümün qabağından kino lenti kimi keçən səhnələri heç nə dəyişmədən kağıza köçürürdüm.

Mən şeir yazırdım. Eşitmişdim ki, bu, iynə ilə gor qazmaq kimi çətin bir işdi. Amma mən çətinlik çəkmirdim. Qələmim daha dərin qatlara işləyir, sətirlərin axını güclənirdi.

Səhər gec oyandım. Dərsə geciksəm də, fikir yoxdu! Sinifkom Tomasdan bugünkü bir qoşa saatın icazəsini almışdım.

Otaq sakit idi. Başımı qaldırıb yan-yörəyə göz gəzdirdim. Qapı cırıltıyla açıldı. Qrup yoldaşım Elbəyi çayniki tumboçkanın üstünə qoydu. Başa düşdüm ki, o da dərsə getməyib, indi çay içməyə hazırlaşır. Elbəyi dinc adamdı. Ancaq küt, savadsızdı xeyli. O, təkcə bizim qrupun yox, beş qrupu birləşdirən patokun ən zəif tələbəsiydi. Ancaq səmimiliyinə söz ola bilməzdi. Məşğələlər zamanı bəzi müəllimlər onu sorğu-suala tutur, danışdırır, elə bil uşağa dil açmağı öyrədirdilər. Son vaxtlar bir az dirçəlmişdi… Onu lağa qoymaq istəyənləri, dolayanları sərt cavablarla susdururdu. Ancaq bu gün dərsə getməyən Elbəyi nizam-intizamı pozmuş, qayda-qanuna təpik atmışdı.

– Dərsə niyə getməmisən, Elbəyi?

– Dişim ağrıyır. Nədi ki, yəni bir gün dərs buraxsam, dünya dağılacaq?

– Yox, dünya dağılmayacaq. Ancaq sənin bu gün dərs buraxmağın institutda bəzi dağıntılara səbəb olacaq.

– Necə? Nə danışırsan? – Gözləri kəlləsinə çıxdı Elbəyinin! Yumruğu havada oynadı.

– Bura bax! Mənə görə dağıntı olacaq? Bu dağıntı söhbətini başa düşmürəm. Bəlkə savadsızam, ona görə. Cəmi səkkiz sinif bitirmişəm.

– Bəs ardını niyə oxumadın?

– Kəndimiz dağın kəlləsindədi deyin, müəllim gəlmir ora! İki müəllimimiz vardı. Biri qıraqdan gəlməydi. Şaxta diş donduranda riyaziyyat müəllimimiz nazik paltarda, yaxası açıq gəlirdi məktəbə. İstilər düşəndə Vəlvələ çayının qırağında dərs keçirdi bizə. Özü suda uzanır, biz də qıraqda məsələ-misal həll eləyirdik. Sonra onu qovdular kənddən. Dedilər ki, dəlidi. O biri də

müəllimlik oxumamışdı. Qonşu kənddə onuncunu qurtarmışdı. Ədəbiyyat, tarix, coğrafiya, idman, rəsmxətt, xor, əmək dərslərindən əla yazırdı hamımıza. Sonra o da ali təhsil almağa getdi. Məktəbi bağladılar. Ferma müdiri dədəm hirsli gəldi bir gün. "Danışmışam Bakıdakı böyük bir adamnan. Razılığını almışam. Gedib oturacaqsan dəniz qırağındakı müəllimlik institutunda. Yaxşı-yaxşı oxuyub, qayıdarsan bura. Müəllimlik eləyərsən. Yoxsa yerindən duran uşağını götürüb gəlir üstümə ki, bunu da çobanlığa götür. Ferma ştatında yer yoxdu. Məktəb işləsə, uşaqlar dərsə gedər, özlərinə gün ağlayar, mənim də baş-qulağım dincələr. Dədəm göndərdi, mən də gəldim bura. Heç kimnən işim yoxdu. Amma sən deyirsən dağıntı yaradıram. Hanı burda dağıntı? Kəndimizdə həftələrlə dərsə getmədim. Heç nə olmadı. Necə başa düşüm? Yəni burda dərs buraxan dağıntı yaradır?

Elbəyi əlindəki stəkanı taburetkanın qırağına qoydu. Sonra ağlına nə gəldisə: – Ha...ha...ha...hiii... Qəşş elədi, uğunub getdi. – Bura bax, elə danışırsan ki, bişmiş toyuğun gülməyi gəlir. Mən zəlzələyəm bəyəm yer-göyü alt-üst eləyim, ya bəlkə bombayam?

– Yox, nə zəlzələ, nə də bombasan. Sən qrup yoldaşım Elbəysən. Amma bu gün dərsə getməməyin dağıntı törədəcək!

– Bəsdi də! İki ayağını bir başmağa dürtmə də! Tutuquşusan sən, ya söz qədrini bilən şair? Nə vaxt, harda olacaq o dağıntı?

– Əvvəlcə bizim dekanlığımızda, sonra rektorun kabinetində!

– Boy! Boy! Başıma daş! Dədəm eşitsə, gəlib qayışını açacaq! Bəs neyləyim? Bəlkə gedim dərsə?

– Yox! Gecikmisən! Sənə bu gün qayıb yazacaqlar. Dekanımız Sədi müəllim səni qabağında oturdub, o ki var danlayacaq! Ağzından gələni döşəyəcək cəmdəyinə! Sən heç, dağ adamısan! Heç vecinə də almayacaqsan bu dağıntını. Amma onun əsəbləri oynayacaq, qan vuracaq başına, sağ-solunu dəyişik salacaq o qocaman müəllim! Ürəyi şişəcək o yazığın.

– Allah eləməsin. Belə bilsəydim, diş də, lap baş da cəhənnəmə deyib dərsdən qalmazdım.

– Dayan, bu hələ hamısı deyil. Dərs buraxanların siyahısını rektora çatdıracaqlar. O da Sədi müəllimi dirəyəcək divara.

– Sənin tələbən dərs buraxıb, institutda dağıntı yaradır. Bəs hara baxırsan? Bu tərbiyəsizliyin qabağını niyə almırsan? Yüksək maaş verdirərəm sənə. Amma işləməknən aran yoxdu. Mənim başımı qapazlı eləyirsən. Bəs o kommunist partiyasının kinişkasını niyə gəzdirirsən cibində. Səni partiyadan qovduracam. İki infarkt keçirən Sədi müəllimi qoltuqda çıxaracaqlar rektorun kabinetindən. Törətdiyin dağıntının acı nəticəsi sənə tövbələtmə verməlidi.

– Verdi, özü də lap betərindən. Dədəmi üzüqara eləmərəm. Bundan sonra bir dənə də dağıntı yaratmaram. Əgər yaratsam, dədəm kopoyoğlu olsun! Ölərəm, ancaq dağıntıya yol vermərəm, Əsmər anamın canı haqqı.

– Bilirsənmi, təhsilə çox ciddi baxılır ölkəmizdə. Vətəndə kommunizm qurulur. Savadlı, bilikli olmalıyıq hamımız. Böyük Leninin "Oxumaq, oxumaq, bir də oxumaq" tövsiyəsi hamımızın qulağında sırğa olmalıdı.

– Hə, sırğadı, vallah. Kommunizm ölkənin elektrikləşməsidi deyib yoldaş Lenin. Onu yaxşı tanıyıram mən. Kənd Sovetinin divarında şəklini görmüşəm. Bir qolunu irəli uzadıb, şapkası da o biri əlində dümbəkinin üstündədi. Gülməyimi gücnən saxladım: – Hə, özüdü ki var, – dedim.

– O Leninin sözündən sonra kəndimizdəki dəyirman elektriknən işləyir. Əsmər anam elektrik maşınıyla paltar yuyur. Samovarımız, ütümüz də elektriknən işləyir. İnək sağmaqdan biləklərim qırılırdı. Allah canına dəyməsin o Leninin.

– Ə...ə... Vladimir İliç Lenin rəhmətə gedib çoxdan!

– Bilirdim ey, yadımdan çıxıb. Hə, Allah atasına rəhmət eləsin! Dədəm ferma müdiridi. Naxırçılar da fermanın ən südlü inəklərini salırlar həyətimizə. İndi kim sağsın bunları? Anam aşağı düşmür neçə illərdi. Həmişə boğazdı axı! Başımı narazılıqla buladım:

– Elbəyi, qadınlar boğaz yox, hamilə olurlar.

– Hə, dədəm hamilə anama barmaq silkələyib tapşırıb ki, həyətə düşməyəsən. Nərdivanın ayaqları oynayır, pillələri də laxlayır. Yıxılarsan, qarnındakı da ölər, sən də ölərsən! Anam da qorxur. Ölməkdən yox ey, dədəmdən qorxur. Həyətə düşmür. Neyləyim? Vedrəmi götürüb düşürəm həyətə. Leninin elektrik əmzikləri işləmir hərdən.

– Bax, elə buna görə də elektrikdən, texnikadan başı çıxan intellekt olmalıyıq hər birimiz. Amma sənin intellektində bir az çatışmazlıq var.

– Canın sağ olsun, şair, qəm eləmə! Bir ölümə çarə yoxdu! Pulun başının altında, ixtiyarındadı hər şey. Dədəmə xəbər göndərərəm, fermanın cöngələrindən bir-ikisini satdırar. Dediyin o İntepetdi, nədi, ondan beş-altısını alıb göndərər bura.

– Yox, savad, dünyagörüş alqı-satqıynan düzəlmir. Bu gün dərsə getsəydin, bir-iki təzə söz eşidər, elmi məlumatlar qazanardın. İntellektin də xeyli təkmilləşərdi.

– Yaxşı, yaxşı! Qarışqanı fil eləmə! Öz gözündə tiri görmürsən, başqasının gözündə tük axtarırsan! Bəs sən niyə getməmisən dərsə?

– Mən sinifkom Tomasdan icazə almışam! Fikir yoxdu. Qrup yoldaşlarım ətraflı yazırlar leksiyaları. Birindən götürüb oxuyaram! – Dərin fikrə getdi Elbəyi. Handan-hana:

– Heyranam sənə vallah, necə çətinliyə düşsən, çıxış yolu tapırsan! Gecə nəsə yazırdın. Bir şey çıxara bildinmi?

Nə yazdığımı, nə hasil etdiyimi tam anlaya bilmirdim. Ancaq onu bilirəm, sevinirəm ki, fikir təzədi, orijinaldı. Çeynənmiş, sürtülmüş ifadələr də yoxdu burda. Amma görəsən, oxucuların xoşuna gələcəkmi yazı tərzim. Axı, sakit, ahəstə bir söhbətdi. Gurultu, hay-küy də yoxdu… Ancaq tribunada əllərimi irəli-geri ata-ata, bağıra-bağıra oxumalıyam şeirimi. Yoxsa əl çalmazlar. Biabır olaram. Bir ürəyim deyir ki, bir daş altda, bir daş üstə qoyub heç kəsə göstərməyim, cırım tullayım zibil qutusuna? Ancaq yox, həyəcanlar, bağırtılarla doludu misralar. Təhsildən evlərinə əliboş qayıdan tələbələrin iztirablarını yazmışam mən.. Xəcalət yükünün ağrıları dözülməzdi.

– Aya, ay Elbəyi, soruşursan ki, nə yazmısan?! Düzü-doğrusu, orasını yaxşı bilirəm ki, Səməd Vurğunların, Rəsul Rzaların, Süleyman Rüstəmlərin dizini yerə vurmamışam. Ancaq şeir tələbələrin bir problemi barədədir. Oxusam, qulaq asarsanmı? Yaxşı-yaman bir söz deyərsən də mənə.

– Hə! Oxu, qulaq asım. Bir söz nədi, bəlkə o yazdığın məni dingildətdi, mən də bir yox, beş söz deməli oldum. Oxu da! Heykələ dönmüsən ey! Noolub axı? Di başla görək… – Dəftəri gözümə yaxınlaşdırıb oxumağa başladım…

Bir neçə sətirdən sonra gözaltı Elbəyiyə baxdım. O, ağzına apardığı stəkanı nəlbəkiyə qoydu. Əlinin arxasıyla yağlı, pendirli çörəyi kənara itələdi. Elbəyinin özünü yığışdırıb, diqqətini toplamağı uğurumdan xəbər verirdi. Ancaq sevinmək tez idi hələ. Elbəyi coddu, kaldı, köntöydü həm də. Onun zövqü də etalon ola bilməz, – deyə özümü üzhaüzdə, əllərini bir-birinə çırpıb qaqqanaq çəkdi.

– Hə! Uşaq tərpənişindən bildirir gələcəyini. Çox gözəldi vallah! Bizim Aşıq Ələsgər tərzində yazılıb! O, başına gələnləri yaza-yaza başmaqçı olub. Gözəldi dədəmin canı haqqı! Çünki orda həyat var. Həm də doğru-düzgündü. Orda tələbələrin keçirdiyi xəcalətlər görünür. O Nəsrullah dədəmin canı haqqı, hamının ürəyindən tikan çıxaracaq bu şeir, – deyərək çayından bir qurtum ötürüb, sözünü davam etdirdi: – Elə ki, semestr qurtarır, biz kəndimizə getməyə hazırlaşırıq. Ancaq əliboş necə çıxaq yola? Böyüyə də, uşağa da gərək bir hədiyyə aparasan. Əlbəttə, canla-başla! Bəs anası ölmüş pulu hardan alaq? Beləcə özünü üzə-üzə, ürəyini yeyə-yeyə qapıdan içəri girirsən. Balacalardan biri şalvarının balağından yapışır, barmaqlarını sovura-sovura gözləyir ki, cibindən bir konfet çıxa! Evin gəlini ətir şüşəsi gözləyir. Nənənin, babanın da gözü çamadandadı. Bax, elə bu xəcalət yükü hamımızın belini qırır. Sən bütün tələbələrin yarasına neştər vurursan. Bu şeir birinci yeri tutacaq! Dədəmin canı haqqı, düz sözdü bu söz! Capını ləngitməzlər, – deyərək əlimi mazollu-düyünlü ovucları içində bərk-bərk sıxdı.

Akt zalında iynə atsan yerə düşməzdi. Taburetkalarla gələn katibələr, ağ xalatlı laborantlar da skamyalar arasındakı keçidlərdə özlərinə yer düzəltmişdilər. Açılışın zəngi çalındı. Zala qaranəfəs girənlər pəncələri üstə əyilə-əyilə irəliləyir, zalın o biri başında topalaşırdılar.

Mən tədbirdən xeyli əvvəl, professorlar otağında İsmayıl Şıxlıya yaxınlaşıb bu şeir gecəsində mənə də söz verməsini xahiş etmişdim. Və indi də birinci sırada dərnək rəhbəriylə üz-üzə oturmuşdum. Yerimdə elə hey qurcuxur, özümü ona göstərməyə çalışırdım. Yumoristik, satirik, oynaq şeirlər daha yaxşı qarşılanırdı. Mətbuat səhifələrində imzası tez-tez görünən şair Sərdar Əsəd, hələ bir misrası belə mətbuatda çap olunmamış Məmməd İbrahimov (Məmməd Araz), şair ləzgi Nemət, Həmzə Dağlı, Səfər Ucarlı və ədəbiyyat dərnəyinin başqa üzvləri də Kommunist partiyasına, Sovet dövlətinə, dahi Leninə, ölməz Stalinə həsr etdikləri mədhi, pafoslu şeirlərini oxuyurdular.

Aparıcı Tofiq Bayrama söz verdi. O, yerindən sıçrayaraq altındakı stulu xüsusi bir ədayla kənara itələdi. Əllərini ölçə-ölçə xitabət kürsüsünə yaxın-

laşdı. Başını tez-tez irəli, geri atır, gah əyilib tribuna içində itir, gah boy verib dikəlirdi. Lirik, "Ay anam Bakı" şeirini də həyəcanla, bağıra-bağıra oxuyurdu.

Şeir dağ çayının gurultularıyla alqışlandı.

Gecənin sonunda İsmayıl Şıxlı ayağa qalxıb tamaşaçılara təşəkkürünü bildirəndən sonra: – Bəlkə aranızda bir söz demək, öz şeirini oxumaq istəyən varsa, buyursun səhnəyə, – deyəndə, yerimdən sıçradım. Səhnə pilləkənlərini haçalayıb xitabət kürsüsünün arxasına keçdim. Yerimdə donub sakitliyi gözlədim. Qapıya – çıxışa tərəf gedənlər yerlərinə qayıdırdılar. Ayağa duranlar oturacaqları şappıldadıb otururdular. Araya sakitlik çökdü. Şeirimi tələsmədən, asta-asta, əzbərdən söyləyirdim. «Qolum üstdə pencəyim, əlimdə də çamadan, geniş kənd küçəsiylə gedirəm yavaş-yavaş, gün batır, qaralır qaş», O nəhəng zalda milçək uçsaydı, vızıltısı eşidilərdi. Zaldakılar elə bil hipnoz olmuşdular. Bir hənir, tərpəniş yox idi. Dinləyicilər oturduqları yerdə sanki şairi daha yaxından görmək, daha yaxşı eşitmək üçün irəli əyilir, köndələn vəziyyətə düşürdülər. Mən şeirimi bitirəndə zal uğuldadı. Elə bil dağ çayı qabağına qatdığı nəhəng daşları sahillərə çırpır, ətrafdakı qayalar bu sədaları əks etdirirdi. Şeir həyəcanlandırmışdı hamını. Yataqxana yoldaşlarımın «bir də», «bir də» bağırtıları məni göylərə qaldırırdı. Aşağıda, – ikinci sıradakı çolaq İsmayıl yerindən qalxıb, əllərini bir-birinə çırpa-çırpa, ayağını şappıldada-şappıldada tribunaya yaxınlaşdı: – Bağışla, səni başa düşməmişəm. Bir sözün iki olmayacaq heç vaxt. İşıq səhərəcən yanacaq otağımızda, – deyib yerinə qayıtdı. Kamal keçidin ortasındaydı. Muskullarını oynatmırdı. Həmişəki nağara gurultusu səsində mülayimlik vardı. – Haracan desən, varam səniynən! Sən çox ağıllı, şirin şairsənmiş. Gözünün üstündə qaşın var deyə bilməz sən heç kim. Bu yollarda yanında olacam daim, – dedi. Dönub İsmayıl Şıxlıya baxdım. Yəni "neyləyək?" O, əllərini bir-birinə çırpa-çırpa: – Oxu, bir də oxu şeirini, – dedi.

İntellekt olmasa da saf, üzüyola, büllur Elbəyinin peyğəmbərcəsinə «Şeirin birincilik qazanacaq» hökmü təsdiqləndi. Görüş başa çatdı. İsmayıl müəllim gülə-gülə əlimi sıxaraq: – Papaq altında oğlanlar varmış! Mən dərnəkdə sənin mülahizələrinə fikir verirdim. Axı, şeir yazmayan şeir haqda belə səlis, dəqiq danışa bilməz. Torpaq altında qaynayan bulaq gec-tez üzə çıxmalıdı. Belə də oldu. O şeirin üzünü köçürüb mənə verərsən, – deyə əlavə etdi.

İsmayıl Şıxlı uca boylu, enlikürək kişiydi. İri addımlarla yeriyəndə xırman vəlləri çiyinləri yerindən oynayır, qaməti ləngər verir, uzun qolları avar çəkirmiş kimi bükülür, açılırdı. Qıvrım, qara saçları canlıydı. Pırpız dururdu. İkinci Dünya müharibəsində hərbi xidmətini şərəflə başa vurmuş, tərxis olunduqdan sonra müəllimlik işini davam etdirmək üçün dogma instituta qayıtmış, doktorluq dissertasiyasını müdafiə etmişdi. O, yaşından xeyli cavan görünürdü. Dörd il tələbəsi oldum. Amma bir dəfə də olsun üzünü tüklü, şalvarlarını qırışlı görmədim. Ayaqqabıları da kremli, parıltılı olurdu həmişə. İnstitutda dəhlizin o başında görünəndə, foyedə gəzişən qızların, gəlinlərin çiçəyi çırtlayırdı.

Subay idim. Dəliqanlı vaxtımdı. Şeytan qılığıma girir, saqqızımı oğurlayır, ruhumu dingildədirdi. Adətən, belə səhnələrlə üzləşərkən, düz, təmiz qalmaq

istəyəndə “lənət şeytana” deyirik. Həcc ziyarəti zamanı zəvvarlar “Mina” deyilən yerdə şeytana daş atırlar. Məhv etmək üçünmü? Yox! Yaranmışı öldürmək ağır günahdı. Məhv etmək istəsəydilər, bomba, ya bir neçə “ballistik” raket buraxardılar. Sadəcə, şeytanı daş-qalaq eləyib, “ayıb olsun, utan, yerə gir, bəd əməllərdən əl çək” deyib, tərbiyələndirməyə çalışırlar. Amma ruhumun oynayan, əqlimin başımdan çıxan vaxt “lənət şeytana” demərəm əsla, məni hədəqədən çıxaran nəfsimin, tamahımın “mən”, “mənim” viruslarını içimdə məhv elədim. Dağıntıya yol verməzdim. Amma nə gizlədim və niyə gizlədim ki, xəyallarım məni məndən alırdı.

Kaş sənin yerinə olaydım, ay İsmayıl müəllim! Baş verəcək əyintiləri, dağıntıları da vecimə almazdım. Axı, normal insanam. Dəmirdən döyülməmişəm. Duyğularım, duyumlarım oynaq, qabarıqdı. Özümü dağadaşa salmaz, elə buradaca üzüntülərdən canımı qurtarardım. Dəhlizlərdən əl-ayaq çəkiləndən sonra bunların ən gözəlinin əlindən tutub «quşbazlar məhləsi» deyilən yuxarı mərtəbəyə aparar, belinə sarmanar, sinəsinə yaxşı-yaxşı əl gəzdirərdim. Ooof! Öldüm, ay Allah, deyə geri çəkilmək istəyəndə mən əndamından ikiəlli yapışıb özümə pərçimləyər, gözlərindən öpər, başını sığallayardım. Qanımda qaynayan “mən”, “mənim” viruslarının feilinə düşdüyümü bilsəm də “Eh, cəhənnəmə, noolar, olar” deyib azman fəaliyyətimi davam etdirirəm. Cavanam, ağlım dabanımdadır. Nəfsim ağlımı üstələyə bilər. Amma sonralar, ömrümün axırına kimi bu qəbahətin əzabını çəkirdim! Amma kifayət qədər həyat təcrübəsi olan, ətəyində namaz qılmalı, küçədə, bayırda da abır-həyayla davranan İsmayıl müəllim, ona dikilən xumar baxışları görməməzliyə vurur, iradəsinin qılıncıyla qanında qaynayan nəfsin, tamahın “mən”, “mənim” viruslarının buynuzlarını qırırdı. Ülvi, iç dünyasının saflığını qoruyur, özünü də dağıntılardan uzaqlaşdırırdı.

Təntənəli “şeir gecəsinin” söz-söhbəti bitmək bilmirdi. Oxunmuş əsərlər yataqxana həyətində, dərs otaqlarında da saf-çürük edilirdi. İnstitutun ikinci mərtəbəsində qrup yoldaşlarım mənə ruh verirdilər. Birinci şeirimdi?! Yaxşı yol açmısan özünə! –Yataqxanadakı lampoçkalar gecə səhərə kimi yanacaq, – dedi çolaq İsmayıl. – Daha nəyə məəttəlsən! Yaz, yarat da, şücaətini göstər, bizi də sevindir, – deyərək əlini ikiəlli sıxdı Kamal.

Tənəffüsə çıxmışdıq. İsmayıl müəllimin bizə sarı gəldiyini görüncə, özümüzü yığışdırıb kənara çəkildik. O, yanımızda ayaq saxladı: – Salam, ay gözəl şair, – dedi! – Yaxşı ki, rastlaşdıq! Yazıçı dostlarım keçən axşam bizə gəlmişdilər. İsa Hüseynov dinc oturmadı. Masanın siyirtməsindən sənin əlyazmanı çıxarıb oxumağa başladı. O biriləri də, – şair Böyükağa Qasımzadə, tənqidçi Əhəd Hüseynov, şair Əli Kərim də nəfəslərini gizlədib qulaq asdılar. Sən bir yolunu sal Yazıçılar İttifaqına! «Azərbaycan» jurnalının redaksiyası üçüncü mərtəbədədir. Utanma, heç nədən çəkinmə! Şair Böyükağa Qasımzadə şeir şöbəsinin müdiridir. Onunla görüş! Gör nə deyir!

Görüntüdümü bu, yoxsa həqiqətdi? Gözlərimə inana bilmirdim! Heç ağlıma gəlməzdi ki, haçansa bir gün o mötəbər, əlçatmaz “Azərbaycan” jurnalının qapısını aça bilərəm. Belə xoşbəxtliyi mən yuxumda da görə bilməzdim. Belə çıxır ki, şeirləri dillər əzbəri Səməd Vurğunların, Süleyman Rüstəmlərin,

Rəsul Rzaların – at oynatdıqları cıdırlarda mən də meydan sulayacağam. Atam deyil, qardaşım deyil mənə belə can yandıran, sadəcə, müəllimimdi. Həyan olmaq, əl yetirməklə də hamının hörmətini qazanan xoşbəxt insan idi İsmayıl Şıxlı. O, uzaqlaşır, ora-bura qaçışan tələbələrin arasında gözdən itirdi. "Kişiyə heç "çox sağ ol" da deyə bilmədim. Eyib oldu" düşündüm.

İllər keçəcək, İsmayıl müəllimlə yubiley tədbirlərində, təqdimat mərasimlərində, ədəbi-bədii gecələrdə də tez-tez görüşəcəyik. Şüvəlandakı yaradıcılıq evində özümü saxlaya bilmədim: – Ay İsmayıl müəllim, institutda gözəl-göyçək qızlar sizə aşiq olurdular. Bir könüldən min könülə vurulurdular. Ancaq siz biganəlik, soyuqluq göstərirdiniz. Ayıb olmasın, Siz asket deyilsiniz ki? – Dodağı qaçdı İsmayıl müəllimin. – Sevgidir, yalnız məhəbbətdir həyatın cövhəri, deyib Səməd Vurğun. Mən duyğulanmasam, sevməsəm, necə yaza bilərəm. Ancaq mən müəlliməm, əlimdən bir xəta çıxsaydı, tələbəmin üzünə necə baxardım, – deyə gülümsündü. Başa düşdüm ki, o, özünü virusların "dağıntılarından" qoruyur.

Redaksiyanın qapısını qorxa-qorxa taqqıldatdım. – Kimdi ordakı? Buyursun gəlsin içəri görək! – dedi qalın, qeyzli səs! Soyuq tər basdı məni. Belə hökmlə, ədayla danışan bir nəfər ola bilərdi "Azərbaycan" jurnalında, o da redaktor Əli Vəliyev. Sözü daşdan keçən, hər yerdə, həmişə ağır oturub batman gəlməyi xoşlayan Əli Vəliyev vaxtilə Mərkəzi Komitənin "Kommunist" qəzetinə rəhbərlik etmiş, qanun-qayda güdən adamdı. İçəri keçib, masa arxasında oturan İsa Hüseynovla üz-üzə durdum. Onun sağ əli mişar daşına oxşayan dördkünc, hündür əlyazmanın üstündəydi. Növbəti vərəqi masanın üstünə qoyub gözdən keçirtdi. "Eh, rəhmətliyin oğlu, bu mənzərələri əvvəlki səhifələrdə yazmısan da" deyib vərəqin üzünə çalan-çarpaz bir xətt çəkdi. Sağ tərəfində oturan Əli Kərim xırda barmaqlarını çənəsində gəzdirir, gözü gözümə baxsa da, məni görmürdü. Çox güman ki, yazmaq istədiyi təzə şeiriylə əlbəyaxadaydı. Şair Böyükağa Qasımzadə qalın bir kitabı varaqlayır, qarşısındakı kağıza nəsə yazırdı. Sivri burnu, iti çənəsi sifətinə uzunsovluq verir, ağ şanı gözlərinin işıqları çöhrəsinə yayılır, onu gülərüz göstərirdi. Pencəyinin düymələri açıq, boynu qalstuksuzdu. Böyükağa müəllimin, – 41-45-ci illər müharibəsinin iştirakçısı, rota komandiri bu şairin, rəsmiyyətdən çox uzaq, sadə, rahat bu qələm sahibinin oxucular arasında xüsusi hörməti vardı. Böyükağa müəllimin şeirlərində tankların uğultusunu, açılan bombaların nidalarını eşitmək olardı. O, lirik şeirlərində insanları sülhə, əmin-amanlığa çağırır, qan-qadaya nifrət hissləri aşılayırdı. Böyükağa Qasımzadənin ən böyük uğuru, onun Azərbaycan ədəbiyyatı tarixində yerini müəyyənləşdirən Məhəmməd Füzulinin "Yeddi cam" poemasının, Mirzə Fətəli Axundovun "Puşkinin ölümünə Şərq poeması"nın dilimizə tərcüməsi oldu.

Realist ədəbiyyatımızın banisi Mirzə Fətəli Axundovun Ümumdünya Sülh Şurasının qərarıyla keçirilən 150 illik yubileyi ərəfəsində ədibin "Puşkinin ölümünə Şərq poeması" əsərinin dilimizə tərcüməsi gündəmə gətirildi. Yubiley komissiyası tərəfindən elan olunmuş müsabiqədə birinci yer heç kimə verilmədi. O zaman 1937-ci ildə AZİ-nin ikinci kurs tələbəsi olan gənc şair

Böyükağa Qasımzadənin tərcüməsi qalib elan olundu. Əsəri o dövrün daha bir neçə tanınmış şairi də tərcümə etmişdi.

Cəfər Xəndanın tərcüməsində əsər, əruz vəzninin oynaq-ritmik bölgüsündə tez əzbərlənir, yadda qalırdı.

Gözlərimdən yuxu qaçmış, məni boğmaqda xəyal,
Düşünən beynimi sarmış yenə bir qəmli sual,–
Niyə susmuş o çəmənlər ki, ötüşmür quşlar?
Yoxsa gözlərdə dərin, pərdəli bir hikmət var!

Şeirin bölgüsü, ahəngdarlığı, şaqraq ruhu könül şuxlandırır, az qala qol götürüb oynayasan! Bəs hanı yoxluğun, faciənin hüzn, kədər motivləri. Baş vermiş hadisə, – böyük şairin ölümü əsər müəllifini sarsıdır. Təəssüf ki, Cəfər Xəndanın tərcüməsində çox vacib olan bu üzüntü görünmür. Nəticədə poemanın estetik-ideya qayəsi dağıntılara məruz qalır.

Fars dilində yazmağı, oxumağı da mükəmməl bilən şair Cəfər Xəndan Nizami Gəncəvinin qəzəllərini dilimizə çevirərək ümumiyyətlə tərcüməçilik yaradıcılığında şedevrlərə nail olmuşdur. Əsərlərin nikbin ovqatı, lirik qəhrəmanların duyğuları incəliklərinə qədər qorunmuşdur. Hər şeir öz musiqisi, axıcılığı ilə ürəklərə yağ kimi yayılır, asan əzbərlənir. Tərcüməçi şair dilimizə çevirdiyi qəzəllərdə sözlərin axıcılığına, sətirlərarası oynaq, ritmik intonasiyalara geniş meydan verir, şeirlər nəğmə kimi səslənir. Təsadüfi deyil ki, milli musiqimizin banisi Üzeyir Hacıbəyov Cəfər Xəndanın tərcüməsində "Sənsiz", "Sevgili canan" şeirlərinə ölməz mahnılar bəstələmişdir.

Şair Böyükağa Qasımzadəni fərqləndirən cəhət göz önündədir. O, əsərin ruhundakı qəm motivlərini qoruyub saxlamış, orijinaldakı dəqiqliyi ön plana çəkmişdir. Böyük itkidən gələn kədərin ağrı-acıları oxucularda mərhum rus şairinə sevgi, məhəbbət oyadır:

Gözlərimdən yuxunu qovaraq için-için,
Qaranlıq bir gecədə qəlbimdən sordum neçin
Gülşəninin bülbülü unutdu nəğməsini,
Bəlağət tutin kəsdi incə dilbər səsini!
Söylə, söz düzmək yolun bağlandı neyçin, nədən?
Nə oldu xəyal qasidin dayandı gedişindən?

Etik-estetik normalara böyük hörmət bəsləyən Böyükağa müəllim müəllifin üslubunu qorumaqla orijinaldakı fikirləri tam dolğunluğuyla ifadə etmişdir...

– Adım Yusif Həsənbəydi, – dedim. Diksinən kimi oldu İsa Hüseynov.

– Hə? İsmayıl Şıxlının tələbəsi. Çox gözəl! Bəs bunu bayaqdan niyə bildirmirsən? – Böyükağa müəllim başını qaldırdı. – Bəs orda niyə durmusan, ay gözəl oğlan? Gəl otur yanımda. Şeirinə yüngülcə əl gəzdirib çapa hazırlamışam. Gərək bir yerdə baxaq? Bəlkə heç xoşuna gəlmədi. Bəlkə deyərsən ki, düzəlişlərlə razı deyiləm. Buna haqqın var?! Sorasını özün bilərsən!

– Bax, burdakı, – deyərək barmağıyla üç misranı göstərib oxudu. Həmkarlarından bir qədər yaşlı olsa da, eynək taxmırdı. Bəbəkləri almaz parçaları kimi parıldayırdı.

– Bax, bu misralar, mənə elə gəlir ki, mətləbdən uzaqlaşdırır bizi. Ancaq özün bilərsən aaa! Bir də diqqətlə oxusan, görəcəksən ki, hədəfdən uzaqlaşdırır burdakı fikirlər bizi. Ancaq dolğun, bomba misralardı. Gələcəkdə kitabını hazırlayanda bunları da gərək elə işləyəsən ki, sujeti gücləndirsin. Təbrik eləyirəm səni! Çox rəvan, axıcıdı şeirin. Yox, güc işlənməyib bunun yazılışına. Maraqlı sujetdi. Ona görə də birnəfəsə oxunur. Utanma, təzə yazıların olanda, gətir bura! Ancaq sənin yerinə olsaydım, yazmaqdan daha çox, oxuyardım! Özü də mən oxumaq deyəndə təkcə romanı, hekayəni, şeiri yox ey, belə əlinə düşəni oxumalısan. Allah evin yıxsın Hitlerin. – Qoydumu işimizi görək? Planlarımızı alt-üst elədi. Amma sən kitabı əlindən qoyma. Aldığımız məlumatlar elə bil beynimizdə rəflərə düzülür. Sonra bir çətinliklə üzləşəndə, o məlumatlar dadımıza çatır. Böyük Lenin oxumaq barədə nə deyib, bilirsən heç? – Bəli bilirəm! "Oxumaq, oxumaq, yenə də oxumaq!" – dedim.

– Çox gözəl! Sən də oxu! Çünki, dərin elmi məlumatı, zəngin müşahidəsi olanlar daha rahat yaza bilərlər. Böyük rus yazıçısı Lev Tolstoy deyirdi ki, həyatda yazmaq üçün hər cür material var. Amma nədən yazmağı gərək yazıçı özü bilsin. Onu maraqlandıran ideya bəşəridirmi? Mövzu onu isidirmi? Zavodlara, fabriklərə get! Əməkçilər haqda oçerklər, hekayələr yaz. Özü də dəmiri isti-isti döyməlisən. – Böyükağa müəllim əlimi ovuclarında sıxaraq: – Şerin ətəyindən tutub onun sakit, romantik guşəsində oturub qalma. Diribaş, fəal ol! Burdan vur, ordan çıx! Redaksiyalara ayaq aç. Qəzetlərin, jurnalların ruhunu oxşayan, əqidəsinə uyğun yazılar yaz. Qələmin get-gedə itilənər. Oxucular imzanı axtararlar.

Respublikanın rayonlarında və şəhərlərində çox sayda sahə və təsərrüfat qəzetləri çap olunurdu. Ancaq ən çox oxunan və sevilən qəzet "Azərbaycan gəncləri"ydi. Cəsarətli tənqidçi, ensiklopedik bilik sahibi, ədəbiyyatımızın dünəninə, bugününə, sabahına da yaxşı bələd olan Bəkir Nəbiyev əlinə düşən təzə şeirləri, hekayə və oçerkləri, ssenariləri də ləngitmədən çapa verirdi. Gənc şairlərin ilk kitablarına resenziyalar yazdırır, ədəbi mükafatlara layiq görülən müəlliflər haqda qəzetdə materiallara yer verirdi. Bir gün mən də o qəzetə ayaq açdım. Bəkir müəllimlə dəhlizdə qarşılaşdıq.

– Hə, təzə şeir gətirmisən yəqin. Lap yerinə düşdü. Yorğunam bir az. Oxu, feyziyab olaq! Könlümüz açılsın. – Bəkir müəllim boynuma ağır yük qoydu. Görəsən, altından çıxa biləcəm? Əlbəttə, enerji, od var şeirimdə. Oxumağa başladım.

Bəkir müəllimin dəniz rəngli gözləri böyümüşdü. O, təkcə düşüncəsiylə deyil, gözləriylə də qulaq asırdı. Sifətinin cizgiləri kamanda tarım çəkilmiş oxlar kimi gərilmişdi. Oturduğu yerdə tez-tez dikəlir, məni daha yaxşı eşitməyə çalışırdı. Mən sözümü qurtardım. Bəkir müəllim ayağa qalxdı:

– Görünür, çox asan yazmısan. Elə bu şeirin də o birilər kimi səmimidi, cazibəlidi. Lakin şeirlərində nəsrin ünsürləri var. Hadisələrdəki gərginlik məntiqli, yığcamdı. Dialoqlarda nəsrə xas əlamətlər var. Nəsr səni çəkir, ardınca sürüyür.

– Bu yaxşıdı, ya pisdi? – ehtiyatla soruşdum.

– Yaxşı da sözdü? Gözəldi! İlham, fikrin axarı sərbəstlik istəyir. İdeya yükünü daşımağa köklənib ilhamın gücü. Amma şeirin ətəyindən tutub oturma, qələmini nəsrdə sına. Qəribə, dünyanı heyrətə gətirən bir hadisənin şahidiyəm. Bu gün "Partkommun" – gəmi təmiri zavodunda Balamet Cağarvi adlı bir ləzgi balası iki dəzgahda çalışır. Birinci dəzgahda özü üçün, ikinci dəzgahda isə o biri yoldaş üçün çalışır. Gündəlik iş planını ikiqat yerinə yetirir. Mən bu barədə ağızlardan eşitmişəm. Get o zavoda. Bir oçerk yaz gətir. Ancaq elə şirin, bədii, inandırıcı yaz ki, aləmə səs salsın! Xarici jurnalistləri də cəlb eləsin. O gənc fəhlənin iş təcrübəsi təbliğ olunmalıdı hər yerdə!

Bəkir Nəbiyev mənim saqqızımı oğurladı. Maraq məni dingildədirdi. Dözmədim. – Bəkir müəllim, – dedim. – Balamet Cağarvi «o biri yoldaş üçün» deyəndə, kimi nəzərdə tutur görəsən?

– Nə bilim! Bunu özündən soruşmaq lazımdı!

– Bəs mən o ləzgi balasıyla necə, harda görüşə bilərəm?

– İşlədiyi zavodda!

– Ora məni kim buraxar?

– Əlində daşdan keçən sənəd olacaq, – deyərək sağ yandakı qara meşin üzlü qapıdan içəri girdi. Bu necə işdi, ay balam? Uğur, uğur dalınca dabanbasdı gəlirdi. Əlimə qələm alalı çiynimə bəxt göyərçinləri qonur. Birinci səxavət Elbəyidən gəldi. Sonra İsmayıl Şıxlı, Böyükağa Qasımzadə, indi də Bəkir müəllim, məni daşlıqdan keçirib rəvan yollara calayırlar.

Bəkir müəllim redaktor otağından gülə-gülə çıxdı. Əlindəki qırmızı cildli kitabçanı mənə göstərərək: – Bu gündən qəzetimizin xüsusi müxbirisən. Bütün qapılar üzünə taybatay açıqdı. Amma yolunu o zavoda sal. İstəyirəm ki, ləzgi balası haqda gözəl bir oçerk gətirəsən.

...Dövlət imtahanları yaxınlaşırdı. Ancaq mən özümə arxayın idim. Başqa yoldaşlarım kimi konspektlər, müntəxəbatlar, dərsliklər arasında itib-batmır, təşviş keçirmirdim. Tapşırılan ədəbiyyatları sabaha qoymadan oxumuşdum. Qeydlərimi gözdən keçirsəm, hər şey yadıma düşəcəkdi. Məni darıxdıran diplom olandan sonra bir işə düzəlmək məsələsiydi. Vay dədə! Dəvədən böyük fil varmış dünyada! Tutaq ki, lap işə düzəldim. Bəs harda yaşayacam? Quşun yuvası olar, qarışqanın oyuğu. Evim yox, mənzilim yox! Böyük qardaşım əsgərlikdə. Xəstə anam Qubada tək yaşayırdı. Onu yanıma gətirməliyəm. Amma evim yoxdu! Hara gətirim! Problemlərin hansından başlayım?! Ən birinci, ən vacibi özümə iş tapmaqdı. Bir babat maaş olsa, kirayə oturmağa nə var ki? Özümü çox nahaq üzürəm. Yavaş-yavaş çap olunuram. İnşallah, gecə-gündüz çalışaram, qonorarım artar. Pul açan qapını heç fələk də bağlaya bilmir.

Dövlət imtahanlarını çətinlik çəkmədən verdim. Əlbəttə, isti yay günlərini sərin Qubada keçirmək istərdim. Yaxşı imkan olanda, vallah, heç isti-soyuq da kar eləmir adama. Amma elə ki cibində siçanlar oynayır, onda cənnət də cəhənnəmə dönür. Gərgindi vəziyyət, amma Bakıda qalıb işlərimi qaydaya salmalıydım.

Xəstə anamı Bakıya gətirmişdim. «Sovetski» adıyla tanınan "Dağlı məhəlləsi"ndə bir otaq kirələmişdik. Bizimlə qonşuluqda qapısı eyni dəhlizə açı-

lan üç ailə də yaşayırdı. Əlüzyuma yeri, mətbəx də ümumi idi. Dəhliz dəmir yolu vağzalı kimi uğuldayır, səs-küy baş aparırdı. Analar uşaqları kötəkləyir, uşaqlar cıdır atları kimi ora-bura qaçırdılar. Ancaq boyu çıxmayan, pionerlər evində kitabxanaçı işləyən Məryəm o dəcəl uşaqları dilə tutub sakitləşdirirdi. Maqnitafonunu qapımızın ağzında yerə qoyur, "Qubanın ağ alması" mahnısını oxutdurur, xəstə anamın süfrəsinə çay-çörək qoymağı da unutmurdu. Mətbəxdə günəbaxan yağında qovrulmuş soğanın zəhərli tüstüsü «astma» xəstəsi anamın öskürəklərini tündləşdirəndə, əllərini havada tovlaya-tovlaya çapalayanda Məryəm özünü yetirib çiyinlərini ovuşdurur, bir-iki damcı "valerianka" içirib sakitləşdirirdi. Hardan alım pəncərəsi dənizə baxan, qaymaq havalı o mənzili, içəri dolan mehləri anamın sinəsini, boynunu sərinlədə. İmkan olsaydı onu səhər-axşam "duş" hamamında çimdirər, zoğal mürəbbəsiylə bir stəkan təzədəm çay içirdərdim, boğazının quruluğu yoxa çıxardı.

Müdhiş bir vahimə əl-qolumu açmağa qoymur, anamın iztirabları məni məngənə kimi sıxır, ruhi sarsıntılar ən incə duyğularımı, hislərimi də korşaldırdı. Mənə elə gəlirdi ki, anam sağalsa da, bir rahat mənzildə yaşasaq da, yaxşı bir qulluğa girib gen-bol maaş alsam da, belə mənəvi sarsıntılar keçirən mən, bundan sonra heç nə yaza bilməyəcəm. Axı, yazıçı köpəyoğlunun düşüncəsi, xəyalı, amalı, hisləri, həyəcanları içində, bayırında da nəyi varsa, onun əsər yazmasına kömək eləməlidi. Əqli, zəkası, ürəyi yazmaq istədiyi əsərə hava, nəfəs verməlidi. İlham mələyi deyir ki, ancaq məni sev! Yaxşı geyinib-kecinmək, restoranlarda eyş-işrət, "Şessotka" maşınlar, topdağıtmaz evlər, dəbdəbələr, gurultular dalınca qaçacaqsansa, məndən əlini üz! Böyük Füzuli öyrədirdi ki, söz gözəlinin nazından inciməyin. Şeirin nazlarına dözə-dözə sənətin göylərini fəth edə bilərsiz!

Ancaq mən də Fizuli babanın öyrətdiyi kimi səbrlə, inadla, küçədə yol gedəndə, çayxanada çay içəndə, müsahibimlə söhbət eləyəndə də "Lenin qurultayı" şeirimi yazırdım.

Doqquzuncu qurultayın
İlk iclası, ilk günü, –
İclas sədri deməmiş
Hələ giriş sözünü…

Mövzunun damarını tutmuşdum. Uğura arxayın idim! Əsər qısa, şirin, oxunaqlı çıxmışdı. "Azərbaycan" jurnalına gəldim. Qapı açıq idi. Salam Qədirzadə başının hərəkətiylə məni salamladı. Çəlimsiz, bəstəboy idi. Oturduğu kresloda iki özü kimisi də yerləşərdi. O, növbəti nömrənin materiallarını nəzərdən keçirir, şeirləri, nəsr əsərlərini də mətbəə qovluqlarına yığırdı. Məni görən Böyükağa müəllim yerindən qalxdı. – Hə, təzə nəsə gətirmisən? Üzün gülür. Həlbət arxayınsan yazdığından! – O, masanın arxasından çıxıb redaktor otağını ümumi şöbədən ayıran arakəsmənin qabağında durdu.

– Əli müəllim, axtardığınız, dəfələrlə soruşduğunuz şair burdadı. Mən bilən təzə şeir gətirib. Necə bilirsiz, Əli müəllim, bəlkə elə özü oxusun? Şairlər əsərlərindəki şirinlikləri, ağrıları daha yaxşı çatdırırlar. O, qolumdan tutub qabağa çəkdi. Mən Əli müəllimlə üz-üzə durdum.

– Yaxşı, igidin adını eşit, üzünü görmə deyirlər. Amma şeirini oxuyanda igidliyini də gördüm. Torpaq adamısan. “Təhsildən qayıdarkən” şeirindəki süjet canlı, təbiidi. Mükalimələr çəkib aparır oxucunu. Dil bədiidi. Ləhcədən gələn ifadələr ürəyəyatan eləyir əsəri.

Necə ki, bu ara-bərələrdən uzaq idim, elə bilirdim «Kommunist» qəzetinin keçmiş redaktoru Əli Vəliyev yazıçıdan daha çox quru, rəsmi, bir məmurdur. Ancaq mehriban nəzərlərlə üzümə baxır, gülümsəyirdi. Oturduğu kresloda özünü dikəldəndə enli kürəkləri arxasındakı divar xalçası görünməz olurdu. O, qəfildən ilan görənin çatılmış qaşlarıyla, kərpic alnı, orta irilikdə yanaq almacıqları, qalın, ətli dodaqları, küt külüng çənəsiylə Qahirənin Dövlət Muzeyində gördüyüm, daşdan yonulmuş əsatir qəhrəmanı Axillesi xatırladırdı. Əli müəllim ölkəni şəhərbəşəhər, kəndbəkənd gəzmiş, ər qabağında, qayınana-qayınata hüzurunda abır-həya pərdəsini qorumaqla, evlərə dirək olan gəlinləri, anaları oçerk və hekayələrinin qəhrəmanına çevirmişdi. Çox güman ki, onun belə yazılarını yuxarılarda da oxumuşdular və sonra bəzi qadınlarımızı «Sosialist Əməyi Qəhrəmanı» kimi yüksək fəxri ada layiq görmüşdülər. Əli müəllimin «Ağbulaq dağlarında», «Budağın xatirələri» romanları çağdaş ədəbiyyatımızın fundamental nümunələridir.

– Hə, – cavan oğlan, – dedi. – Sənin o tələbəlik həyatından bəhs eləyən şeirin Mehdi Hüseyni yaman tutub. Bir şey yazmaq istəyirəm dedi o şeir barədə. Mən də yox, yazma, dedim. Niyə, ay Əli, soruşdu. Dedim ona görə ki, qoltuğunun altına qarpız qoyarsan! O da qarpızı saxlaya bilməz, düşürər ayaqlarının üstünə, şikəst olar.

O, ciddi nəzərlərlə mənə baxdı: – Mənim iki sifətim yoxdu. Sözü də üzə deyənəm. İradım, məsləhətim də ölçülü-biçili olur.

Şillə məni yaman tutmuşdu. Nəfəsim çatmır, boğulurdum. Ona qaşqabaqla baxdığımı görən Əli müəllim səsini bir az da qaldırıb: – Hə, hə! Məqalənin yazılmasına icazə vermədim, – dedi.

– Çox nahaq yerə, Əli müəllim, – dedim.

Bayaqdan gözü gözümə baxsa da məni görməyən, lal-dinməz Əli Kərim birdən diksindi. Başını silkələyib, dodaqlarını büzdü. Üst dodağı burun pərlərinin ağzını bağladı. Təngnəfəs Əli boğazını arıtlaya-arıtlaya “Salam” deyərək gülümsündü.

– Ağsaqqalım, atam, müəllimimsiz. Ancaq necə qıydınız? İşıq gələn yerə barmaq basmağa necə gəldi əliniz?!

Böyükağa müəllim əlini əlinin üstünə çırpır, başını bulaya-bulaya, əsəbi baxışlarla sanki “bəsdi, biabır olduq” deyirdi mənə. Mən də ürəyimdə “Böyükağa müəllim, bəs görmürsən necə ötkəm, tünd danışır? “Mənim iki sözüm yoxdu. İradım, məsləhətim də yerli-yerində, dəqiqdi”, – deyir. Yuxarıdan aşağı baxır adamlara. Dilinin altına bir tikə qənd qoysun” deyib, üzümü Əli müəllimə tutdum:

– Rəvan şütüyüb gedən sürət qatarının qabağına şlanqbaumlar qoyursunuz. Qəzetlərimiz, elə jurnallarımız da Sizi, Mehdi müəllimi, Rəsul Rzanı, Süleyman Rüstəmi də tərifləyib dağın kəlləsinə qaldırırlar. Bəs qoltuğunuzdakı qarpızlar sizi şikəst eləmir?

Əli müəllim masanın siyirtməsini çəkdi. Ancaq içərisinə baxmadı. Əlini salıb ordan heç nə çıxartmadı. Daxılı yerinə itələdi. Kabineti ümumi şöbədən ayıran arakəsmənin divarına bir yumruq ilişdirdi. – A yoldaş İsa Hüseynov, bu gənc şairdən ağlın nə kəsir? Amma cəsarətliliyi xoşuma gəlir. İnadkarlıq da var canında! O tərəfdən – İsa müəllimdən güclü zərbə gözləyirdim. Əlbəttə, köntöy, sərt atmacalarım İsa müəllimi də qıcıqlandıra bilərdi. "İndi o, öz redaktorunu müdafiə edəcək" düşündüm.

– Əli müəllim, o gənc şair haqqına şikayətlənir. Onun yerində mən olsaydım, daha sərt danışardım. Bəlkə lap əlbəyaxaya çıxardım. Axı, Mehdi müəllimin o şeir haqda dediyi söz o şairin yollarında ulduza dönə bilərdi, zirvələr fəth etməyə ruhlandırardı. Məstan Günərin bir uşaq kitabını müzakirə elədik. Mehdi müəllim heç nə yazmadı. Şair bir "Volqa" almaq istədiyini bildirdi. Ərizəsinə qol çəkdi. Famil Mehdinin şeirlərini dinlədik. Mehdi müəllim yenə heç nə yazmadı. Ancaq Familin təzə kitabını nəşriyyat planına saldırdı. Balaş Azəroğlunun "Elə oğul istəyir Vətən" şeiri ədəbi aləmdə rezonansa səbəb oldu. Şair Azəroğlu şeirində deyirdi ki, vaxtilə Şah İsmayıl Xətai öz ana dilində fərmanlar verib, qanunlar yazıb. Amma indi o şairin dilində bir məktəb, dərslik yoxdu. Bütün İranı hürriyyətə, azadlığa qovuşdurmaq istəyən Səttarxanın nəvəsi indi ehtiyac içində zillət çəkir. Şair elə oğul istəyir ki, o oğul Səttarxan ürəkli, Xiyabani cəsarətli, Mirzə Əli Möcüz qeyrətli olsun. Xətainin qılıncıyla vətənini, özünü də azad eləsin! Bax belə sanballı, ağır çəkili ictimai-siyasi məzmunlu şeir Mehdi Hüseynin gözündən yayınmadı. O, ağsaqqal qayğısıyla əsər haqda dolğun bir məqalə yazdı. Amma Əli müəllim, gəl əyri oturaq, düz danışaq da... Bu gənc şairin də çiyninə bəxt quşu qonurmuş, siz onu qaçırtmısız.

Əli müəllim gülümsəyirdi. Mənə tərəf çevrilib:

– Məndən qorxub-çəkinmədən sözünü kişi kimi deməyin də tərifə layiqdi. Amma Mehdi Hüseyn səni tərifləməyəcəkdi! – Dözmədim, özümü irəli verdim:

– Ay Əli müəllim, təki Mehdi Hüseyn əsərimi qələminin süngüsüylə deşim-deşim eləsin? Noolar ki, ancaq deşim-deşim olmağımın səbəbini bilərdim də mən! Onun iradlarını götür-qoy eləyərdim. Nəticə çıxarardım. Mənə istiqamət verərdi hər kəlməsi. O, "as" sənətkardi. Bu gün ədəbiyyatda yeni insan görmək istəyir. Biz onun "Abşeron" romanında təzə obrazların ştrixlərini görürük. Heft Azərbaycanın strateji sərvətidir. Bir qəzetə verdiyi müsahibəsində deyir ki, torpağın altından nefti yox, onun canındakı odu-alovu, enerjini çıxartmalıyıq biz. Mehdi müəllim ədəbiyyatın gələcək yollarını müəyyənləşdirən kəşfiyyatçı yazıçıdır. Haqqımda yazdığı söz çox güman ki, ədəbiyyatımız barədə təzə söz olardı və mən də bu yazıdan öz payımı götürərdim.

– İnanıram ki, məqalə nədi, yaradıcılığını əhatə eləyən dissertasiyalar yazacaqlar. Amma tələsmə! Tələsən təndirə düşər. Təzə nə gətirmisən, oxu, qulaq asaq! – dedi Əli müəllim.

Ovcumda qırış-qırış elədiyim vərəqin qatlarını açdım. Bayaqdan yay kimi əyilən qamətimi şaxlandırıb, sinəmi irəli verdim. Kağıza baxmır, şeiri söylə-

yirdim. «Doqquzuncu qurultayın ilk iclası, ilk günü». Ətrafa göz gəzdirdim. İsa Hüseynov başını sol çiyninə qoyub sakitcə dinləyirdi. Əli Kərimin balaca uşaq barmaqları yenə çənəsinin üstündə gəzirdi. Salam Qədirzadə gözlərini tavana zilləmişdi. Susduğumu görən Böyükağa müəllim böyrümü dümsüklədi. Diksindim. Tələsmədən, ağır-ağır, həm də ucadan deyirdim şeiri. Amma nigarançılıq mənə aman vermirdi. "Görəsən necə olacaq, xoşlarına gələcəkmi? Bəyənməsələr, vay halıma! Keçən dəfə əla oldu. İyirmi səkkiz misrama düz iyirmi səkkiz rubl yazılmışdı. Özümə əyin-baş aldım. Gen-bol bazarlıq elədim. Allah qoysa, bu şeirimi də bəyənsələr, elə bu oktyabr nömrəsində çap eləyərlər. Mən də nə az, nə çox, düz yetmiş altı rubl alaram. Ev kirəsi neçə aydı şişib. Ödəyərəm. Anamın dərmanları apteklərdə tapılmır. Neynək?! Alverçi nə qiymət oxusa, uf deməyib, verərəm. Amma alverçilər mənəviyyatımızı parçalayırlar. Bəs belə tüfeylilərə niyə göz yumur leninizm ideologiyasının bayraqdar kommunistləri, komsomolçular? Həqarət məni boğurdu. «Ey dili qafil, özünü ələ al!" Dahi rəhbərimiz Lenin haqda şeir oxuyursan! Aşıb-daşmaq vaxtıdı indi. Səsimə güc verdim. Axırıncı sətirləri az qala çığıra-çığıra deyirdim. Bayaqdan heykəl kimi dinməz oturan Əli müəllim yerində qurcalanıb başını sağ tərəfdəki redaktorlar otağına çevirərək:

– Yoldaş Salam Qədirzadə, bu şeiri hazırladığın nömrəyə sal! – dedi.

– Əli müəllim, əlimizdəki nömrə dolub, onu bağlamışam!

– Salam, hansı tarixi hadisəni qeyd etməliyik son nömrədə?

– Böyük Oktyabr Sosialist İnqilabını!

– Oktyabr inqilabını ərsəyə gətirən Lenindi. Biz də Lenin haqda yazılmış bu gözəl əsəri çap eləməyək, nə var, nə var, nömrə dolub?

– Əli müəllim. Dahi Leninə canım da qurbandı… Lenin, Oktyabr mövzusu həmişə aktualdı. Gənc şairin şeirini gələn nömrədə verək də!

– Xeyr, yoldaş Salam Qədirzadə, bu əlimizdəki nömrədə gedəcəkdi o şeir, – dedi Əli müəllim.

Salam Qədirzadə nömrənin maketini və materiallarla dolu qovluqları Əli müəllimin masasına qoydu!

– Əli müəllim, hazırladığım hər nömrə möhtəşəm bir qaladı mənim gözümdə! İndi nəyi çıxardım ki, o qala da uçulub-dağılmasın?!

– Salam, – deyə gülümsündü Əli müəllim. – Heç nə çıxardıb-eləmə. Bu şeir iki səhifəyə yerləşər. Qoy bu dəfəki jurnalımız da iki səhifə artıq çıxsın! İki səhifənin haqqını mətbəənin hesabına köçürərik! Gənc şairin şeiri bu son nömrədə çap olunsun!

– Əlbəttə, Əli müəllim, mətbəə sizin xahişinizi canla-başla yerinə yetirər. Bu heç, bu öz yerində. Amma buna baxmayaraq, gənc şairin şeirini son nömrədə verə bilməyəcəyəm. Çünki Süleyman Rüstəmin "Günəş şimaldan doğur, Lenin günəş deyilmi" – bax, belə təşbehlərlə dolu sanballı bir şeiri var. Mən də xalq şairinin əsərini saxlayıb, gənc şairin şeirini çap eləyim?

– Bəs bu çətin vəziyyətdən bir çıxış yolu varmı, ay Salam yoldaş?

– Var! Süleyman Rüstəmin şeiriylə bağlanacaq jurnalın son nömrəsi. Gənc şairin əsərini də növbəti sayımızda yağlı şriftlərlə çap edəcəyik.

– Hə. Çox yaxşı. Belədə nə şiş yanar, nə də kabab, – dedi Əli müəllim.

Salam Qədirzadə yanımdan keçəndə əlimi balaca ovcuna alıb: – Səni bu başdan təbrik eləyirəm, – deyərək gülümsədi, fındıq burnunun altındakı təyyarə qanadı bığları qulaqlarının dibinə çatdı. – Səni bağrıma basıram, – dedim ürəyimdə. İnadlarım, təkidlərimlə Əli müəllimi onu sığnağa salan "mən", "mənim" viruslarının cəhəngindən azad etdim. Ruhu dincəldi o kişinin də.

– Qonorarını akkordnan yazarsan, – deyib iki barmağını yuxarı qaldırdı Əli müəllim. Yəni ikiqat! – Əyin-başı usaldı gənc şairin.

Havam çatmırdı. Qapıya yaxınlaşdım. Böyükağa müəllim qabağımı kəsdi.

– Əli müəllim, qonorar hər gün olmur. Ancaq gənc şairin başı bir idarəyə bağlansa yaxşıdı. Yoxsa yolundan sarpar, ona-buna qoşulub zay-may olar! Heyifdi axı, – deyərək Əli müəllimin yanını kəsdirdi. Onun təklifi redaktorun xoşuna gəldi.

– Çox sağ ol, Böyükağa! Ata qayğıkeşliyi göstərirsən gənc şairə. Alqışa layiqdi təklifin!

– Neyləyim, daşdan düzəldiblər bəyəm məni? – Bir an fikrə getdi. Gözləri yol çəkirdi. – Cəbhədə, döyüş vaxtı iki addımlıqda bomba partladı. Qəlpələr komandirimizin sol böyrünü dağıtdı. Yazıq "su", "su" qışqırır, fəryad edirdi. Ətrafları ələk-vələk elədim. Nə bir quyu, nə bir arx, nə bir gölməçə! Heç nə tapmadım! Leş, cəsəd idi hara baxsan! Gəbərmiş düşmən zabitinin belindəki fülaqanı qayışdan qopartdım. Başını aşağı tutub, yırğaladım. Bir damcı da çıxmadı. Yaralıya qayğı göstərə bilmədim! İndi burda, bu əmin-aman dünyada gənc şair də elə bil döyüş meydanındadı. Evi yoxdu, kirə haqqını çatdıra bilmir. Anası da ağır xəstə! Dava-dərman qanı qiymətədi. Bir yerdə, bir işin qulpundan tutsaydı…

Əli müəllim dəstəyi yerinə qoydu. Sonra da başını bulaya-bulaya cibindən bir kürüş pul çıxartdı. – Komsomol işçisi təmiz geyinməli, hərəkətləri, davranışları da ölçülü-biçili olmalıdı. – Əzik-üzük bir iyirmibeşliyi iki əlinin arasında hamarlayıb, mənə ərəf uzatdı. – Götür! Bir köynək, bir cüt ayaqqabı, bir də bir şalvar al! Amma yadında saxla ki, pulu sənə borc verirəm. Bağışlamıram, xeyr! Bağışlasam, sən xəcalət çəkərsən. Bəli! Borc verirəm. Yadından çıxartma. Pullanan kimi borcu qaytararsan özümə. – Götürməzdim. Boğazdan gələn yalançı bir "sağolnan" qurtarardım söhbəti. Ancaq bəs anamın dərmanını necə alım?

– Baş üstə, Əli müəllim. Borc yadımdan çıxmaz! – Pulu cibimə dürtüb qapıdan güllə kimi çıxdım.

İlahi, necə də gözəldi dünya. Düşkünlüyə, bədbinliyə son qoyulacaq. Ağır Sizif daşları atılır çiynimdən. Əngin səmalarda qəfəsdən buraxılan quş kimiydim, həlim sularda balıq kimi. Bəs necə? Hər hansı bir məktəbdə müəllim, qəzetdə əməkdaş, nüfuzlu bir idarədə məmur yox, kommunizm quran bir cəmiyyətin ən qaynar nöqtəsində, Komsomol komitəsində çalışacaqdım. Bundan belə zavod və fabriklərdə fədakarlıq göstərən gənclərlə bir havadan hava udacaq, oxuduqları nəğmələrə qoşulacaq səsim, avazım! Uzağa niyə gedək? Türkiyədə təhsil alan gənclərimizin bir uğuru haqda iki səhifəlik bir

yazı oxumuşdum «Hürriyyət» qəzetində. Sən demə oradakı gənclərimizin də öz komsomol təşkilatı var. Birinci katib Sənubər (uşaq bağçasında Yumru Tofiqin karikaturasını çəkən Sənubər) Novruz bayramı yığıncağında deyib ki, biz qərib, ancaq dost ölkədə təhsil alırıq. Burada bizə tələbə təqaüdü verirlər. Dolanışığımıza gen-bol çatır. Ancaq Azərbaycandan da bizə hər ay pullu yardım göndərilir. Gəlin o yardımdan imtina edək! Vətəndə bu vəsaitlər hesabına bir uşaq bağçası tikilsin. Məqalə müəllifi bu hadisənin «sosialist mülkiyyətinə sosialist münasibəti" prinsiplərindən irəli gəldiyini xüsusi vurğulayırdı.

Müəllif Dağ-mədən institutunun tələbəsi Şəlalə Muradovanın təşəbbüsünü belə açıqlayırdı. İmtahanları ki qurtardıq, çox baha qiymətə biletlər alıb vətənə uçuruq. Gəlin, vaxtımızı yollarda itirməyək! Pullarımız da yollarda xərclənməsin. Elə burda qalıb mədənlərdə, kombinatlarda, peşəmizə uyğun bir sahədə çalışaq. Qazandığımız biliklərin yerini möhkəmləndirək! Necə sevinirdim, Allah. Qanad-quyruq bağlayıb uçurdum. Belə sağlam düşüncəli gənclərlə işləyəcəm. Ancaq bu yollardakı çətinliklərə də sinə gərməliydim.

Məktəblərdə təhsil pulsuz, xəstəxanalarda müalicələr, dərmanlar havayıydı. Yazıçılar İttifaqının rəhbərliyində də mənim xeyrimə ciddi dəyişiklik olmuşdu. Mirzə İbrahimovu sədr qoymuşdular. Litfonda direktor inzibati orqanların polkovniki Daşdəmirov göndərilmişdi. Onun inzibatçı olmağı işin xeyrinədi. Qanun-qaydayla işləyər. Əyriliyə, dağıntıya yol verməz. Mən də tənbəllik eləmədim. Anamla ikimizə bir otaq bəs eləyərdi. Ərizəmi Mirzə müəllimin stolunun üstünə qoydum. – Kirayədə yaşayırıq. Anam da ağır xəstədi. Komsomol işçisiyəm. Əməkhaqqı çox aşağıdı. Rəsul Rza plenumda şeirlərimi oxuyub, – deyəndə, gülümsədi. – Bilirəm, nəzərə alarıq, – dedi. Kabinetdən gözü tox, könlü dolu çıxdım.

Bulvarın girəcəyində, sahil qayaları üstündə bir kinoekran qoyulmuşdu. Axşamçağılar evdar qadınlar körpəsinin birini qoltuğuna vurur, birini qucağına alır, o biri ayağı yer tutanları da dalına salıb, yolları basa-basa sahildəki "pulsuz kinoya" baxmağa gəlirdilər. Ana daşların üstündə süfrə salır, uşaqların başı konfetə, limonada qarışır, o da dəfələrlə göstərilən bir kinoya doymaq bilmədən baxırdı.

Parklardakı, xiyabanlardakı "Lenin guşələri" veteranların görüş yeriydi. Üzü qırmızı kətanlı masaların arxasında oturub, "Azərbaycan", "Kirpi", "Göyərçin", "Ulduz" dərgilərini, kino gözəllərinin şəkli olan jurnalları oxu, savadını artır, özü də havayı. Mütaliə həvəskarları qəzetin birini oxuyur, birini ortadan qatlayıb kənara qoyur ki, sonra baxaram. Yəhudi icması Əzizbəyov adına doğum evinin yanında, Qara şəhər bazarının içində, Bayıl dairəsində yeməkxanalar açmışdı. Bura əsasən yaşlılar gəlir, pulsuz-pənəsiz yemək yeyirdilər. "Qubernat" bağındakı "Vahid poeziya evində" qonaqlara mürəbbəli, limonlu çayı pulsuz verirdilər.

Əmək dərslərində biz veteranların həyətlərində torpaq belləyib, kartof, soğan əkmişik. Komsomola keçəndə dahi Stalinin heykəli qarşısında vətənə sadiq, qabaqcıl olacağımıza and içdik. Qusardan Bakıya tərəvəz məhsulları aparan yük maşınında gəldim. Azneft meydanında anama oxşayan bir abırlı

xalaya yaxınlaşıb Bayıldakı texniki-peşə məktəbinin yolunu soruşdum. Xala dizləri süzülmüş şalvarıma, burunları balıq ağzı kimi açılmış ayaqqabılarıma baxa-baxa redikulitindən bir beşlik çıxarıb ovcuna basdı. «Get, o adamlar yığışan yerdə gözlə. Bir nömrəli traleybusa min. Bayıl dairəsində düş! Kimdən soruşsan, yerini göstərər» – dedi. Məktəbdə yerimiz isti, yeməyimiz gen-bol idi. Yaxşı oxudum. Çilingərlik peşəsinə yiyələndim. Gəmi təmiri zavoduna təyinatla gəldim.

– Deyirlər eyni vaxtda ikinci bir dəzgahda da işləyirsən?

– Kim deyirsə, düz deyir. Bax, bu birinci dəzgahda öz yerimə işləyib metal təbəqələri doğrayır, ikinci dəzgahda isə, – deyərək əlindəki metal parçasını paltartikən maşının iynəsi kimi enib-qalxan iskənənin altına yeritdi. – Bax, bu dəzgahda bolt, vint, qayka hazırlayıram. Dediyim o yoldaşın əvəzinə işləyirəm.

– Yaxşı, bəs kimdi axı, o yoldaş dediyin bəxtəvər?

– Bilmirəm, görməmişəm, tanımıram! Qara rəngli afrikalıdı, yoxsa sarı çinlidi? Bəlkə daş kömür mədənində iki qolunu itirən fransız fəhləsidi? Dolanmağa, dərmana pulu çatmır. Allah baba bir insan yaradıb, sonra birini də yaradıb ki, onlar bir-birinə kömək olsunlar. Bəlkə ona görə də məni yük maşınında Bakıya havayı gətirdi bir əmi, Bayıl kruqunda bir xala da mənə beş manat verdi ki, ac qalmayım. Quran kitabındakı "İnək" surəsini oxumusanmı?

Balamet alicənablığı, dünyagörüşü və sadəlövhlüyüylə məni heyran elədi. Gözlənilməz sual məni çaşdırmışdı.

– Yox, oxumamışam, müəl... – Bu bir barmaq uşağa az qala "Balamet müəllim" deyəcəkdim!

– O kitabda bəlkə yüz yerdə yazılıb ki, yaxşılıq elə, kömək elə! Bu məsləhət hamımıza aiddi. Ancaq hayıf ki, çoxları buna əməl etmir. Filarmoniyanın səhnəsində mahnı oxuyan Şövkət Ələkbərova ona qulaq asan iki min adama kömək eləyir. Braziliyanın "Marakana" stadionunda yaxşı fəndlər işlədən futbolçu Pele yüz mindən artıq tamaşaçını fərəhləndirir, sevindirir, bu da bir köməkdi. Çaylar şirin su gətirməsə, dənizdəki şor sular zəhərə çevrilər. Novruz bayramı gələndə, özündən qabaqda bir yel çərşənbəsi gətirir. Bu vaxt dünyanın hər yerində güclü küləklər əsir. Dəniz dalğalanır. Dalğalar mazut lehmələrini, salafan kisələri, kötükləri, taxta tullantılarını da sahilə atır, külək dənizə kömək eləyir. Külək meşələrə də kömək eləyir. Ağacların qurumuş budaqlarını, xəzəlləri, hörümçək torlarını da yerə töküb təzə cücərtilərə yol açır. Torpaqda gübrə yaradır. Küləklər səhralardakı qum təpələrinin yerini dəyişir. Əgər dəyişməsə, qaynar qumlar üst-üstə qalaqlanıb daşlaşar. Səhra canlıları məhv olar. Yaranmışların hamısı bir-birinə köməklə yaşayırlar. Ancaq insanlar yersiz hərəkətləriylə dağıntı yaradırlar. Bunun qabağını almalıyıq. Hamı bir-birinə kömək eləsə, bolluq olar, xəstəlik olmaz. Yaponiyaya təcrübə mübadiləsinə göndərmişdilər məni. Bir yapondan yaşadığım hotelin yerini soruşdum. Dərhal əlimdəki bağlamanı götürdü. Məni öz maşınında istədiyim ünvana gətirdi. Qolumdan tutub aşağı düşürtdü. İki əlini sinəsində çarpazlayıb mənə bir neçə dəfə baş əydi. Əslində, mən ona təzim etməliydim. Zəhmət çəkib, benzin işlədib, vaxt

itirib. Amma noolsun! Görünür, mən o yapona hansısa bir yaxşılıq eləmişəm. Nədi bu yaxşılıq? Fikirləşdim. Tapdım. Axı, mən bu yaponiyalıya bir insana kömək eləmək imkanı yaratmışam! Buna görə də o yaponun ürəyi fərəh hissiylə böyüyüb. Böyük ürəkli adamlar xəstələnmirlər. Yaponlar xəstəlikdən yox, qocalıqdan ölürlər. Orta yaş həddi səksən beş ildir.

Sağ tərəfimdə «katib Zaur Məmmədli» yazılı lövhəni görüb qapıya yaxınlaşdım.

Düşüncələr içində katibin qapısını taqqıldatdım:

– Kimdi? Gəlsin görək! – dedi qalın, amiranə səslə katib Məmmədli.

İçəri girdim. Məni görcək kabinetin yuxarı başında kreslosunda yayxanıb oturan boynu, qulaqları da qıvrım saçlarının içində itib-batmış cavan oğlan yerindən qalxdı. Yandan baxanda katib Məmmədlinin uzun lülə burunlu, əyri çaxmaq çənəli sifəti hardasa "Naqan" tapançasını xatırladırdı. Qolsuz köynəyi əyninə dar gəlirdi. Boynunun və çiyinlərinin şişman əzələləri köynəkdən çıxırdı. Katiblə üzbəüzdəki divarda dahi rəhbərimiz Stalinin bədənboyu portreti asılmışdı. Açıq pəncərədən içəri doluşan narın mehlər şəklə sarmanan bayraqları titrədir, saçaqlardan havalanan zər dənəcikləri katib Məmmədlini də işığa, nura qərq eləyirdi.

– Hə, sizin barənizdə yuxarıdan, – deyərək, şəhadət barmağını tavana tuşladı. – Mənə rəhbərlikdən tapşırıblar. Ancaq harda oxumusan? Ali təhsilin varmı?

– Pedaqoji institutun ədəbiyyat fakültəsini bitirmişəm. Humanitar sahədi.

– Texnikayla, kompüter, zavod-fabrik, istehsalatla bağlı bir mütəxəssisi canla-başla götürərdik! Belə bir kadroya ehtiyacımız var. Ancaq narahat olmayın. "Bu nədi, boynuma minnət qoyur katib? Sonra da başıqapazlı, gözükölgəli gəzim qabağında? – Yox! Üzr istəyirəm bu cəsarətimə görə, – dedim. – Hər şeydən başı çıxan jurnalistliyim də var mənim! Yoncanın dərədə, yoxsa çay qırağında bitdiyini ayıra bilən aqronomluq da var məndə. Kosmosun fəthində Sialkovskinin nəzəri xidmətləri ölçüyəgəlməzdir. Qızdırma xəstəliyini qarpız suyuyla sağaldan Mirzə Fətəli Axundovun zarafatlarından da xəbərim var. Avtomobil motorunu söküb-yığaram yarım saata! Dəhlizdəki şərəf lövhəsində şəkli vurulan Balamet Cağarvini tanıyırsız yəqin!

– Bəs necə? Onun «həm özüm üçün, həm də o yoldaş üçün" çağırışı ölkədə rezonans yaradıb! İndi Donbas şaxtaçıları, Qroznı neftçiləri, Özbəkistan pambıqçıları Cağarvinin yolunu gedir.

– Bəli Cağarvinin tanınmasında xüsusi əməyim var mənim!

– Necə? Başa düşmürəm!

– Cağarvi haqda yazdığım oçerki emalatxanasının, dəzgahlarının şəkliylə birlikdə «Komsomolskaya pravda» qəzetində çap etdirdim. Oxucu məktubları indi də gəlhagəldədi.

Gözləmək olardı ki, pəncərə qabağında qıçını qıçının üstünə aşırıb otu-ran xanım, yubkasının ətəklərini dartışdırıb, çılpaq dizlərini tanımadığı cavan oğlandan gizlədəcək! Lakin sən saydığını say... Katib başını pəncərəyə tərəf çevirib:

– O xanımın adı Jülyadır, – dedi. – İki il bundan əvvəl Tekstil kombinatında komsomol təşkilatının katibi elədik onu. İndi kombinatın direktorudu. Bizim aktivistkalardandı.

Xanıma tərəf çevrilib başını razılıqla tərpətdim.

Sarı köynəkli xanım yerindən qalxdı. – Adlm Cənnətdir. Üzümə gülə-gülə əlimi yumşaq ovuclarına aldı. Sərin bir üşütmə işlədi içərilərimə. Geri çəkmək istədim əlimi, könülsüz. Buraxmadı. Xanım "atlını atdan salan" gözəllərdəndi. Qırmızı lentli hörükləriylə, "ox" döşləriylə, yaxasındakı daş-qaşlarıyla, gözümü qamaşdıran ehtiraslı baxışlarıyla o, "gəl məni gör, dərdimdən öl" deyirdi. Yaşıl pamazı yubkasının iki yandan kəsiyi vardı. Ayağını götürüb-qoyanda ağ, maya baldırları aşkara çıxırdı. Ətli əndamına, şümşad ayaqlarına yaraşan tuflilərilə o, ağıl çaşdıranlardandı.

– Üzünüz yaman qızarıb, cavan oğlan, – deyə gülümsündü. Tez də əlləriylə ağzını qapayıb abır-həya nümayiş etdirdi. – Qan təzyiqiniz yuxarı deyil ki?

– O qan təzyiqi noolan şeydi? Bunu birinci dəfə sizdən eşidirəm. Məndə təbiətə, gözəlliyə heyran olmaq var. İlhamımda coşub-qaynamaq da. Hərdən konfeti əlindən alınan uşaq kimi doluxsunmaq da. Acı söz güllə kimi keçir sinəmdən. Şirin sözlə, xoş xəbərlə insanları sevindirməyə çalışıram daim. Mən dağ adamıyam. Nəyə görədi, bilmirəm. Amma yeriyəndə dabanlarım yerə dəyər-dəyməz probka kimi göyə atılıram. Sarışın gözəl yerindən sıçradı! – Oy, mamoçka! Bu oğlan şövqünü-həvəsini cilovlaya bilmir. Ah, nə gözəl. Nə yaxşı! Unikal oğlandı! Sağlamdı! Belələrini çıraqla axtarsan tapa bilməzsən. Şəhər kişiləri sönük, soyuq heykəllərdi. Amma bu oğlan kənddə böyüyüb, ona görə də diribaş, həm də çevikdi. – Culya pəncərə şüşəsinin güzgüsündə özünə baxa-baxa koftasının ətəklərini dartışdırıb, qumral hörüklərini şişman döşləri arasına oturtdu. – Oy, Mamedik, sən Allah, işə götür onu! Dəstəmizə qoşulsun. Belə enerjili oğlanı əldən buraxmaq olar? Var gücüylə çalışır komitəmizdə. Eşitdin bayaq nə dedi? Dedi ki, dabanlarımı yerə dəyəndə probka kimi qalxıram göyə. – Of… Gör necə sağlamdı. Xoşbəxtdi. Amma bilmir ki, onu göylərə qaldıran temperamentdi.

Katib Məmmədli titrək barmaqlarını gah cod saçlarında gəzdirir, gah da masanı danqıldadırdı. Nəhayət o, – Culya: – skromnost gözəllik artırır. Niyyətini başa düşürəm. Ancaq səbrin olsun. Tələsmə, biz də bu sahədə çalışarıq, – deyib üzünü mənə tutdu.

– Subaysınız yəqin ki?

– Bəli. Lap anadangəlmə!

– Bəs eviniz varmı?

– Hardadı əşi? Anamla kirədə yaşayıram.

Culyanın gözləri qaynayırdı. Ağzını açıb-yumur, ancaq danışmağa cəsarəti çatmırdı. Nəhayət, dilləndi. – Ananız nə işin sahibidi? –Tarix müəllimidi, vaxt tapanda promkambinatdan yun gətirirdi evə. Cəhrədə əyirib ipə çevirirdi.

– Hə! Çox yaxşı. Deməli, əyiricidir. Mamedikcan, əgər etiraz eləməsən, o ananı əyirici kimi işə götürərəm. Yataqxananın iki otağını təmir elətdirərəm! Ana-bala da orda rahat yaşayarlar! Katib Məmmədli qaşqabaq salladı. –

Bəsdi, az danış!.. Bu nədi? Katib gənclərin kommunizm məktəbində diktator Yuli Sezar kimi aparır özünü?! Belə diktatorla necə işləyəcəm mən? Amma geriyə yol yoxdu" – düşündüm. Yazıq Culya qaş düzəltdiyi yerdə, göz çıxartmışdı. Məmmədli iynə üstə oturmuşdu elə bil. Qəzetləri qamarlayır, qatını açmadan kənara tullayırdı. Ucu qızıl perolu qələmini əldən-ələ ötürürdü. Telefonun dəstəyini qaldırdı, tez də qıçasına çırpdı. Onun ərazisinə soxulub, səlahiyyətlərinə əl uzatmışdı, aktivistka Culya xanım.

– Bu nədi? İşə götürürsən, ev verirsən! Bəs mən nəyəm burda?

Qanında qaynayan "mən", "mənim" virusları Məmmədlini hədəqədən çıxartmışdı. – Elə eləmə ki, səni qovdurum işdən!

– Bağışla Mamedcan. Mən ehtiyacı olan bir ailəyə kömək eləmək istədim, –pıçıldadı Culya.

– Kəsək oturub daşın halına ağlayır. Sənə bir kömək eləyən axtarırıq biz!

Qarşımda, – masanın üstündəki yumruqlarımı çırpınan gördüm. Yerimdən qalxdım. – Bir az mərifətli, ədəbli danışın. Komsomol komitəsi tərbiyə ocağıdır. Birinci katib nümunə göstərməlidi. Məmmədlinin gözləri kəlləsinə çıxdı. Çənəsi də titrəyirdi.

– Hələ səni bir qulluğa götürməmişəm. Amma yekə-yekə danışırsan. Belə, bilirsən nə var? Get başqa yerdə özünə iş axtar.

– Noolar ki,.. Amma iradlarımdan nəticə çıxarın. Mən bu barədə qəzetlərin diliylə də öz sözümü deyəcəm. Əsəbisiz. Sizi normal vəziyyətə gətirmək mənim vətəndaşlıq borcumdur. İş axtarım mən? Niyə? Məni bura işləməyə göndəriblər.

– Hə, başa düşdüm, dalında kimlərsə durub!

– Mən aciz deyiləm. Bax, bu divarın o tərəfində rayon Partiya komitəsinin birinci katibi Şıxəli Qurbanov oturur. Mənə dörd il dərs deyib. Ədəb-ərkan öyrədib. İstəsən, birlikdə gedərik onun yanına. O da sənə ictimai yerdə necə davranmağı öyrədər.

Katib sustalmışdı. Yaylıqla alın qırışlarında yırğalanan təp damlalarını qurutdu. – Səni bir sürprizlə sevindirəcəkdim. Mənzil, hələ başqa şeylər barədə də planlarım var. Ancaq Culya müdaxilə elədi, ona görə əsəbiləşdim.

– Sürprizə görə çox sağ olun. Mən də katibdən belə yüksək insani keyfiyyətlər görmək istərdim. Amma mən xüsusi hörmətə layiqəmmi?

– Bu xüsusi hörmət deyil. Bir komsomol toyu çaldırıb, səni evləndirəcəm, bu, sama saboy, içi dolu bir kvartira da verdirəcəm sənə!

– Çox sağ olun! Culyada qayğıkeşlik gördüm. O, böyük hörmətə layiqdir.

Katib masanın siyirməsini necə çəkdisə, siyirtmə yerindən qopub, qarnına söykəndi. Ordan bir qələm, bir də vərəq götürüb qabağıma qoydu. Sonra da yerindən gözləmədiyim bir çevikliklə qalxaraq: – Dalımca gəlin, – deyib qabağa düşdü. Bayraqlarla, plakatlarla, şəkillərlə dolu muzey-dəhlizin sonundakı kabinetə girdik.

– Yoldaş Zeydov! – Boyu balaca, ancaq başı bədəninə nisbət çox böyük görünən Zeydov yerindən qalxaraq: – Bəli, eşidirəm, yoldaş katib.

– Bu oğlan, – deyib əlini çiynimə qoydu. – Təzə instruktorumuzdu. O pəncərənin yanında bir stol qoydurt, ona yer düzəltdir. Yavaş-yavaş

istiqamət ver, başını hara gəldi dürtməsin, konkret detallarla nə iş görəcəyini başa sal ona. Şairdi. İstəyirəm ki, maarif, səhiyyə, mədəniyyət, incəsənət, bir sözlə, yaradıcılıq təşkilatlarımızın kuratoru olsun. Uçot sektorunda sənədlərini yoxlasınlar. Əyər-əskiyini düzəltdir. Bugünkü tarixdən əmək kitabçası açdır onunçün!

– Baş üstə! Elə indi başlayıb bu məsələni həll edəcəm.

– Yaxşı, bəs Zabitlər parkındakı o tədbiri də hazırlayırsanmı? Dəvətnamələrin çapı ləngimir ki?

– Sizin sifarişinizi kim ləngidə bilər? Katib burulub getdi. Zeydov oynaq, civə gözlərini üzümə zillədi: – Bilmirəm nəyə görə, amma özümdə bir simpatiya duyuram sənə qarşı. Kənd, torpaq adamına oxşadıram. Hansı rayondansan?

– Quba şəhərindənəm!

– Hə! "Qubanın ağ alması". Bəli! Ətri, şirinliyi etalondur. Həyətinizdə gübrəsiz, dərmansız, ata-baba sortları var yəqin ki! – Cavab vermədim. "Belə danışmaqda məqsədi nədir Zeydovun? Qoşqunumu ölçür! Bərk-boşumu yoxlayır? Şöbə müdirimdi deyin, evinə ayın-uyun, pay-rüş daşımalıyam? Ağzından çıxana baş üstə deyib, qabağında ləbbey duracam? Xeyr. Əsla! İki dünya bir olsa da, mən onun ayaqqabı cütləyəni olmuyacam!"

– Yoxdu! Meyvə-filan yoxumuzdu! Həyətimizin yerindən toz qopur. Yəni asfaltdı. Bir ürəyim dedi ki, ayağa dur, bunun keçən-keçmişini təzələ, izal ol burdan. Amma xeyrim xətrinə meşədə ayıya "dayı" deməli, bir qaşıq zəhəri udmalıydım! Dara-bara salsam, hardan tapacaqdım təzə Əli Vəliyevi? Qaynar başda ağıl olmaz, – düşünüb, susdum.

– Görürəm, nervlərin otqaz eləyir. Tormuzların da boşalıb! Başqa şey gətirmə ürəyinə. Sənlə dost olmaqdı niyyətim.

– Buna sözüm yox, amma Bakının hər tini, döngəsi bir meyvə bazarıdı.

– Düz sözə nə söz! Xoşuma gəlirsən! Qorxu yoxdu gözündə. Risk, cəsarət də var səndə. Deyirəm ki, bir-birimizə dayaq olaq buralarda. Yoldaşını götürüb gələsən bizə. Padruqa olsunlar arvadlarımız. Evlisənmi?

– Yox, subayam! Mənə qismət olmayıb hələ o xoşbəxtlik.

– Qəm eləmə! Səni evləndirmək bir qurtum su içmək kimi asan bir işdi Məmmədli yoldaşın imkanları daxilində. Yaxın qohumumuzdu. Rayona gəlmişdi. Məni görəndə ağzından od töküldü. – Bu nədi ə... Palçığın içində itib-batmısan. Yığış gəl Bakıya. Yanımda zakonnu bir vəzifə verim sənə. Aktivistkalardan biriylə tanış eləyim. Sonra da bir komsomol toyu çaldırım. Evlən otur özünçün. Gəlini də yaxşı bir işə qoyarıq, – dedi. Mən də gəldim. İndi də özün görürsən ki, əli-ayağı təmiz, sanballı bir vəzifə sahibiyəm. Məmmədli müəllim aktivistkalarından birini verər sənə. Özünü yaxşı aparsan, pillə-pillə yaxşı vəzifələrə qaldırar.

– Hə?! Çox qəribədi! Amma bu mərtəbədə nüfuz, hökm hardandı Məmmədli yoldaşda? – soruşdum.

– Atası Mingəçevir qorkomunun katibidi. Yeyib-içən, kompjonejski kişidi. Özü də işini biləndi. Yuxarıların nəzəri üstündədi. Zirəkdi. Daşdan pul çıxarandı. Oturduğu-durduğu da alimlər, incəsənət xadimləridi. Nazirlərlə,

komitə sədrləriylə canbirdi. Biznes aləmində də yaxşı nüfuzu var. “Atalı bəxtəvərsən Məmmədli yoldaş” düşünmüşdüm. Əlin gətirir, işlərin avanddı, çünki dağa söykənmisən. Amma çərxi-fələyin tərsinə fırlanmağı da var axı? Bir də gördün zəlzələ qalxdı. Güclü təkanlar söykəndiyin dağları toza döndərdi. Sən qaldın arxasız. Çərxi-fələk tərsinə dövran eləyəndə, qara buludlar səmaları sıxaclayanda boyun-boğazını sərinlədən mehlər səmumlara çevrilib külə döndərir qabağına keçəni. Amma hələ vaxt, zaman Məmmədlinin xeyrinə işləyirdi. Qanında qaynayan “mən”, “mənim” virusları göyün yeddinci qatına yüksəlməyə həvəsləndirir onu. Zeydov ağzı köpüklənə-köpüklənə söhbəti davam etdirirdi. – Hə, işini yaxşı qurub. Əhali ki sıxdı bizim rayonda, komsomola qəbul məsələsində rekordsmendi.

– Nə vaxt evlənmisən?

– İki ildi.

Telefonun cingiltisi beynimi qaşıdı. Zeydov dəstəyi qulağına qoyar-qoymaz:

– Raykom komsomol! Muxtar Zeydovdu.

– Salam Muxtarik, – dedi məxməri səsli qadın.

– Aha! Rita Aleksandrovna. Zənginizi gözləyirdim.

– Nə vaxt, neçə desəniz, qulluğunuzda hazıram. Hara istəsəniz, gələrəm, klyanus. Amma Muxtarcan, sən xahiş yox, əmr eləyə bilərsən.

– Çox sağ ol! Sizdə bir jaz orkestr var. Seanslardan qabaq konsert verir. O orkestri Zabitlər parkına göndərə bilərsənmi?

– Nə vaxt, saat neçədə?

– Gələn həftənin altıncı günü, saat altıda.

– Muxtarcan, çox çətinlik çəkirəm. Tərslikdən altıncı günlər rayonumuzun prokurorları, məhkəmələri, milis naçalnikləri də arvad-uşaqlarıyla bizim kluba gəlirlər. Qonaqlar seansdan qabaq o konserti eşitməsələr, ətimi didərlər.

Qeyzləndi yoldaş Zeydov. Əlindəki qələmi iki parça eləyib tulladı küncə.

– Az... Sən bilirsən nəyə oxşayırsan? Kolda gizlənən zümrüd quşuna! Başın koldadı, amma rəngbərəng qanadların bayırda! Maarif şöbəsiylə bağladığınız müqaviləyə görə, hər ay on film göstərməlisən məktəblilərə. Hanı bəs? Nəslimizin gələcəyini düşünmürsən?

Ay aman? Cürətə bax, təpərə bax Zeydovda! Sevindiyimdən qanad-quyruq açıb uçmaq istəyirdim. Doğru deyirlər ki, “Adamın yerə baxanı, suyun lal axanı”. Deməli, Zeydov da elə-belə, gün keçirməyə oturmayıb burda. Özünü oda-közə vurur, gələcək nəslin tərbiyələnməsinə can yandırır. “Ürək yanmasa, gözdən yaş çıxmaz”. Zeydov yoldaş milli təəssübkeşliyilə rəğbətimi qazanırdı get-gedə!

– Yaxşı, yaxşı! Sən Allah, hirslənmə, Muxtarcan! Məktəblilər tətildən qayıdan kimi kinolara baxacam, orkestr məsələsini də yoluna qoyaram. Arxayın ol! Muzıkantlar altıncı gün saat altı nol-nolda Zabitlər parkında olacaq.

Özündən razı Zeydov, əllərini ata-ata, şəstlə gəzişirdi kabinetdə. – İlan ulduz görməsə, ölməz, deyiblər. Hə, bax belə! Sən də üzüyumşaq olma. Bizim işlərdə tələbkarlıq əsas şərtdi. Hə, – deyə, şəhadət barmağını gicgahına qoydu. – Az qala yadından çıxacaqdı. – Bura dəvətnamə aparmağa gələ-

cəklər. Ayırıb qoymuşam. Paçkaların üstündə təşkilatların adları yazılıb. Verərsən! Qapının ağzında ayaq saxladı. – Hə, iş vaxtının qurtarmasına xeyli var. Amma mən bu gün olmayacam. Katib soruşsa, de ki, vacib iş dalınca getmişəm…Bəzi təşkilatlar üzvlük haqlarını kecikdirirlər. Maşınqayırma zavodunun direktoru zəng vurmuşdu. Ağzından od tökülürdü.

– Noolub ki orda?

– Deyir ki, bir təzə komsomolçu götürmüşəm işə. Başımı bəlaya salmışam. O təzə gələn o biri gəncləri də başdan çıxarıb zavodun altını üstünə çevirirlər. Yolunu salarsan ora! Hə, qoy onu da deyim ki, dəvətnamə aparmağa gələnlər bir az gecikə bilərlər. Sən gözlə! Qoy paketlər sahiblərinə çatsın. O, başı bərabərindəki qapı əltutanını özünə tərəf çəkib kabinetdən çıxdı.

Mən, raykom komsomolun təlimatçısı, – suda balığam, göydə quşam! Bəs necə! Axı, komsomol təşkilatı ölkəmizdə kommunizm quran gənclərin baş qərargahıdır. Mən də o gəncləri, – kürədən çıxmış o polad parçalarını zindan üstdə döyüb, cəmiyyət üçün əhəmiyyətli alətə çevirənlərdən biriyəm.

İş günü sona yaxınlaşırdı. Dəvətnamə eşqiylə gələnlər hay-harayla, dabanbasdı girirdilər otağa. İçi dəvətnamə dolu zərfləri əlimdən qapıb götürürdülər. Bəziləri başının hərəkətiylə sağollaşır, bəziləri də oynaya-oynaya çıxırdı qapıdan.

Parklarda qırmızı kətanlı masaların üstündə yüzlərlə qəzet, jurnal düzülüb. Oxu, savadını artır. Ev-mənzil haqqı, işıq-su da elə su qiymətinədi. Təhsil-məktəb, xəstəxana xidmətləri pulsuzdu. Profsoyuzdan az pula bir putyovka alıb kurorta get! Dövlət Bankının yanındakı “Şirvan” restoranında çörəyə, salata, göyərtiyə, “Badamlı” mineral suyuna pul çıxmırdılar. Şəhərin mərkəzindəki “Mingəçevir”, “Dostluq”, “”Starıy Yevrone” restoranları səxavətlərini bir az da artıraraq, pulsuz verilən soyuq xörəklər siyahısına badımcan kürüsünü də əlavə etdilər. Bəzi “qarınqululer” belə restoranların daimi müştərilərinə çevrilirdi. “Şved” stollarının yeməkləriylə özlərini yaxşı doydurur, qapıdan buğ verə-verə çıxırdılar.

“Baksovet”in təşəbbüsüylə bir neçə “Qocalar evi” istifadəyə verildi. Ölkənin ən güclü həkimləri xəstələrin ömrünə ömür artırırdı. O möhtəşəm gələcək sürətlə qurulur, yaxınlaşırdı.

Qapı açıldı. İçəri girən uca boylu, kürən oğlan əsgər addımlarıyla qabağımdan keçib, otağın ortasında mənimlə üzbəsurət dayandı. Köynəyində futbol topunun şəkli vardı. Göy rəngli finkasının balaqları aşağıda daralır, topuqlarının üstündə büzülürdü.

– Yoldaş Zeydov hardadı? Deyə bilərsiniz?

– Əlbəttə! İndicə getdi. Dedi ki, bir-iki idarəyə, müəssisəyə dəyməliyəm. Bəzi təşkilatlar üzvlük haqlarını gecikdirirlər. Nəsə bir sözünüz var? Bəlkə üzvlük haqqı gətirmisiniz?

– Ayaqqabı kombinatından dəvətnamələrçin gəlmişəm.

– Hə. İndi baxaram! Masanın küncündə üst-üstə qalaqlanmış karton zərfləri o yan-bu yana çevirir, ünvanlarına baxırdım. İdmançı isə ehtiyatla gah sağa, gah sola əyilir, gah dizinin birini o birinə söykəyib çömbəlir, gah da əllərini başı üzərində qoşalayır, sonra da sinəsinə sıxırdı.

– Noolub? At milçəyi buraxıblar sənə? Soncuqlayırsan?!

– Yox! Yox! At milçəyi yoxdu məndə!

– Bəs niyə elə eləyirsən? İsti hava çoxlu su içizdirir! Bəlkə qısmımısan? Dayanma, tez yüyür aşağı. Tualet birinci mərtəbədədi.

– Yox! Yox! Ehtiyac yoxdur.

– Bəs bu nə oyundu çıxardırsan. Raykom komsomoldu bura!

– Əsəbiləşməyin, sən Allah!

– O nə hərəkətdi eləyirsən?

– Kombinatımızda futbol komandası var. Mən də o komandanın vratarı, yəni qolkiperiyəm! Bizim dildə desək, qapıçısıyam. Lap elə uşaqlıqda da həyət komandamızda qapıçı olmuşam. Bağışlayın, mən burda da elə bilirəm ki, qapı qoruyuram.

– Nə deyə bilərəm. Futbol da oyna, qapını da qoru!

Zərflərin arasında bir qalını sataşdı gözümə. Üstünü oxudum. “Ayaqqabı kombinatı”. – Budur, – dedim. – 150 ədəddi. Ancaq mən kabinetdə də futbol oynayan bu oğlanın taleyinə biganə qala bilməzdim.

– Bəs böyük, klub komandalarında qapıçı ola bilməzsən?

– Niyə bilmərəm? Amma məni o komandaya kim götürər? Yetim oğlanam.

İş axtardığım günləri xatırladım. Qapılar başıma çırpıldı. İnsanlar gülə-gülə keçirdilər yanımdan. Biri ayaq saxlayıb soruşdumu ki, “niyə qanın qaradı?”. Soruşmadılar. Mən də onları lənətləmədim. Gec-tez xeyirxah olacaqlarına inanırdım.

– Adın nədi?

– Şabran!

– Hardansan?

– Şabrannan?

– Kəndindənsən?

– Yox! Şabrannan. Qan çəkdi məni. Quba-Şabran bir zonadı.

– Çox gözəl! – dedim. Şabranın üzü güldü. – Bax, bu binanın üçüncü mərtəbəsi “Buravestnik” idman cəmiyyətinindi. Qalx ora. Cəmiyyətin sədri Əhməd müəllimlə görüş. O da bizim yerlimizdi. Dayan bir. Hələ yoxlayaq yerindədimi, – deyib, telefonun diskini fırlatdım.

– Bəli! Kimdi? Eşidirəm.

– Günaydın, Əhməd müəllim!

– Hə! Şair. Xoş gördük.

– Respublika çempionatında sənin futbolçuların birinci yerı götürəcək! Bilirsən nə bağışlayacam sənə?

– Nə bilim? Ekstrasens Dadaşovam mən?

– Bir dəstə qərənfil necədi?

– Qərənfili şeirlərini oxuyub məst olan qızlara ver. Nə qulluğun mənə?

– Bir komsomolçu var yanımda, ayaqları hündür, qolları uzun. Məhəllə komandalarında qapıçı olub. Anadangəlmə futbolçudu bu oğlan. İstedaddı, talantdı başdan-başa!

– Göndər yanıma!

Dəstəyi yerinə qoydum. Ağzı aralı, gözü bərəli Şabran yuxudan ayıldı sanki.

– Bu hörmətin altından necə çıxacam? – Başını bulaya-bulaya qapıya yaxınlaşdı.

– Bəs sən bayaq Zeydovu soruşurdun.

– Elə sevincək oldum ki, adım yadımdan çıxdı, – deyərək şalvarın cibindən bir bağlama çıxardı. – Bu pulları Zeydova verə bilərsinizmi?

– Kim göndərir? Nəyə görə verirlər?

– Dəvətnamələrin haqqıdı.

Şabran getdi. Məni fikir aparmışdı. "Necə? Dəvətnamələr pulnan satılır? Haqnan verilir? Deməli, dəvət olunan sayılıb-seçilən hörmətli yoldaşdı. Elə sayılmağına görə də bizə minnətdardı. Ancaq sayılmağına görə də ondan pul, haqq tələb olunanda, təhqir olunur, alçalır, kiçilir. Gül ləçəyi ürəyinə xal düşür. Ən incə hissləri yekələnir. Ruhi əziyyət çəkir o sayılan.

"Pulları Zeydovun siyirtməsinə qoyum?!" Sonra fikrimdən vaz keçdim. Burada xadimələr yır-yığış edəcəklər. Həm də əmanət əldən ələ verilməlidir. Pul bağlaması əlimdə ağırlaşdı. "Yaxşı, bəs a dəvətnamə paylayan yoldaş, o komsomolçuya bəy deməyin nədi, sonra o bəyi yerə yıxıb sürüməyin nə? Ləzgi balası Cağarviyə də yəqin ki, təklif olunacaq dəvətnamələrdən biri. "Həm öz yerinə, həm də o yoldaşın yerinə" çalışan, yəni hər kəslə çörəyini, suyunu bölməyə hazır Cağarvi dəvətnaməni əlinə alanda sevindiyindən göylərin yeddinci qatına yüksələcək! Ancaq dəvətnamə verən: – Beş rubl maaşınızdan tutulacaq bu dəvətnaməyə görə, – deməyiylə də Cağarvinin başına qaynar qazanlar boşalacaq! Dəvətnaməyə pul ödəyən Dəniz gəmiçiliyinin təşkilat katibi Seyid Sakiti də, Kompozitor "Qara Qarayev" gəmisinin baş mexaniki Ramiz Şiyəkəranlı da Türkiyədə təhsil alan, ehtiyacları olsa da dövlətimizin pullu yardımından imtina edən o tələbələrimiz də mənəvi dağıntılarla dağım-dağım olacaqlar.

Vaxt itirmək faciəni yaxınlaşdırmaqdı. Ziyanın yarısından qayıtmaq xeyirdi. İmkan verməyəcəm hadisə baş tutsun. Şabran dəvətnamələri paylaya bilməyəcək. Qanında qaynayan tamahın, nəfsin "mən", "mənim" virusları Zeydovu buynuzlaya-buynuzlaya "Hə, fürsətdi. Xeyli qazana bilərsən. Fürsəti əldən vermə! Dalında Məmmədli kimi "dağ" dayanıb, işini gör, – deyə şirnikləşdirmişdilər. Amma orkestr məsələsində, Rita Aleksandrovnayla didişdiyini görəndə bağrıma basmaq istədim. Bu qeyrətsizin saman altından su yeritməyi də varmış. Dəhlizə çıxdım. Odur, Şabran iri addımlarla, dovdaq kimi yellənə-yellənə mərtəbə meydançasına addımladı. Var səsimlə:

– Şabran! Ay Şabran! – İki ağız bağırdım. Geri çevrildi. Özümü ona çatdırdım. Qoltuğumdakı dəvətnamə dolu zərfi çəkib götürdüm. Şabran, dəvə nalbəndə baxan kimi, təəccüblə baxırdı mənə.

– Neyləyirsiniz?

– Dəvətnamələri aparmayacaqsan! Heç olmasa 150 komsomolçunun mənəviyyatı zədələnməsin! Ayna kimi saf, təmiz qalsın uşaqlar. Zeydova çatacaq. Pulları da qum göyərəndə görər Zeydov. Komsomolçulardan yığılan halal pullar xeyirxah məqsədlərə sərf ediləcək! – dedim.

Qalın, iti, qırma cingiltilər telefon diskinin gözlərindənmi səpələnir ətraflara, yoxsa, küçədə duracağa yaxınlaşan tramvayın həyəcanları, haraylarıdı kabinetin aşıq pəncərəsindən içəri doluşub, tavandakı çılçırağın qəndillərini səsə salırdı. Bu uzun sürən zəng çox güman ki, xaricdən gələndi. Dəstəyi qaldırdım. – Allo! Allo! – Get-gedə öləziyən səs:

– Bura raykom komsomoludu?

– Bəli! Siz kimi axtarırsınız?

O başda qaqqanaq qopdu birdən. Biixtiyar mənim də dodaqlarım qaçdı.

– Axtardığımı tapmışam, – dedi.

– Ona görə də belə sevinirsiniz! İmkan verin mən də sizi tanıyım. Bəlkə bir yerdə sevinək!

– Sənubərəm mən, – dedi. – Uşaq bağçasında Lenin babanın büstünə gül gətirməyən Sənubər.

– Səni bağrıma basıram. İstanbulda bir komsomol təşkilatı yaratmısan. Bu təşəbbüs yuxarılarda da bəyənilib. Tələbə gənclərimiz yaxşı oxuyur, əlaçı stipendiyası alırlar. Onlar dövlətimizin yardımından imtina ediblər. Bu təqdirəlayiq addım sağlam gəncliyimizə nüfuzu, hörməti artırır.

– Neçə ayın üzvlük haqları yığılıb. Neyləyək bu vəsaiti? Bəlkə sizin bank hesabınıza köçürək?

“Yox, razı deyiləm, deməydim, gərək onu da açıqlayaydım ki, bizim raykom komsomolumuzda çirkli oyunlar gedir. Katiblər, şöbə müdirləri yüksək vəzifələrə can atırlar. Yeni nəsil kitabdan uzaqlaşır. Bu barədə mətbuat səhifələrində danışanın dilini kəsərlər. Yox. Bunları demədim”. – Xəbərin varmı ki, – dedim, – bizim Qubadakı uşaq bağçamızı köklü-köməcli köçürüblər Bakıya. Birinci Bayıl dairəsindəki İnternat məktəbinin binasına. Müdür müəllimi də ora direktor qoyublar. Yumru Tofiq yadındadımı?

– Əlbəttə! Yaşıl noğullar hadisəsinin qəhrəmanı. Qolları da balacaydı bir az!

– İndi dili, əli də çox uzundu onun. Maşınqayırma zavodunda aparıcı mühəndislərdəndi. Həm də zavodun ilk təşkilat katibidir. Məntiqli qərarları, səmərəli təkliflərilə o, gecə-gündüz çalışır ki, fəhlələrin həyat şəraiti yaxşılaşsın. Tofiqə böyük hörmət var o zavodda. Kollektivin üzvləri bir-birinə çox mehribandılar. Heç kəs heç kəsin paxıllığını çəkmir.

– Tofiqə məndən salam söyləyin! Yığılıb qalan üzvlük haqlarını da dediyin o internat məktəbinin hesabına köçürəcəm. – Çox sağ ol, – dedim! Dəstəyi yerinə qoyub, şkafın qapısını taybatay elədim... Vay dədə! Bura doludu ünvanlı zərfnən. Konservatoriya 90, Maşınqayırma zavodu 250, Xarici Dillər İnstitutu 300, Maarif şöbəsi 400, Əhalinin Sosial Müdafiə Nazirliyi 140. Qoymaram. Bu ilanları yuvasında boğmalıyam. Zərfləri ikiəlli cırırdım. Sevinirdim ki, mindən artıq insanın mənəviyyatı qırılmayacaq, ürəyinə xal düşməyəcək. Bir an əvvəl faciələr törədə bilən dəvətnamələrin qırıqlarını salafan kisəyə doldurdum. Hərəkətimə tam haqq qazandırırdım. Zənn eləyirdim ki, Zeydovun, onun şəriklərinin də qanında qaynayan “mən”, “mənim” viruslarını kökündən üzəcək mənim insanpərvərliyim. Amma yox! Belə yüngül bir cəza qandıra bilməz qansızları. O şərəfsizlər islah-əmək düşərgəsində soyuqdan dona-dona, acından ölə-ölə öz içlərində məhv etməlidir viruslarını.

Telefon cingildədi. Dəstəyi qaldırdım. – Bəli! Eşidirəm, – dedim. Şaqqanaq çəkdi o başdakı. – Biz üç padruqayıq. “Hava yollarının”, “Ticarət nazirliyinin”, “Mətbuat komitəsi”nin təşkilat katibləriyik! Dəvətnamə götürməliyik sizdən.

– Dəvətnamə ala bilməyəcəksiz!

– Nooldu ki? Hər ay iki-üç belə tədbir keçirirsiniz. Komsomolçularımız fəal iştirak edir!

“Vay dədə! Nə az, nə çox! Ayda iki-üç dəfə! Minlərlə dəvətnamə satılıb. Gen-bol təhqir olunub komsomolçular. İpək duyğuları, hissləri Zeydovun vəhşi dişləriylə gəmirilib. Keçmiş ola! Bu axırıncı konsertin “kayf”ları gözündən damla-damla gələr Zeydovun.

– Bundan sonra bu raykom komsomolda dəvətnamə satılmayacaq heç bir təşkilata.

– Podumayeş! Keçəl halva yeyər, puluna minnət! Zummer qulağını sancdı.

İşdən qovulacağamı gözümün altına almışdım. Ancaq qılıncı da qına qoymayacam! Cinayətkar cəzasını almalıdı. Nəticədə Zeydovun canı “mən”, “mənim” viruslarından təmizlənər.

Yanıb-yaxılıram ona görə ki, özümdən xəbərsiz güclü bir mafiyanın fəal üzvünə çevrilmişəm. Amma bu fəna işlərdə heç bir günahım yoxdu. Buyruq qulu olmuşam. Deyiblər ki, dəvətnamə aparmağa gələnlərə zərfləri ver! Mən də əmri yerinə yetirmişəm. Üzlərinə gülmüşəm ki, onlar da sevinsinlər. Amma necə olur-olsun, cəzasını almalıdı təqsir, günah sahibi! Dəmiri də isti-isti döyəcəm. Elə indicə reallaşacaq qərarım. Daxili telefonun dəstəyini qaldırdım. – Bəli! Eşidirəm, buyurun, – dedi o başdakı.

– Varaşilov Raykom komsomolunda təlimatçıyam, – dedim. – Yoldaş katiblə danışmaq istərdim.

– Bakıda yoxdu! Katibin köməkçisiylə calaşdırarıq sizi. Göz qırpanacan olmadı.

– Katibin köməkçisi Aslanov eşidir, – dedi.

– Yoldaş Aslanov, “Zabitlər parkı”ndakı konsertə dəvətnamə veriblər sizə?

– Bəli! Məmnuniyyətlə iştirak edəcəyik.

– Ancaq, axı, ay Aslanov müəllim, necə deyim, biabırçılıqdı vallah, qaş düzəldən yerdə göz çıxarıb təşkilat şöbəmizin müdiri Zeydov yoldaş.

– Aydın danışın! Qaş-göz nədi, başa düşmürəm.

– Belə, bilirsiz nədi? Dəvətnamələri nəğd pula satırlar burda!

– Çox nahaq! Konsertin xərclərini “Zabitlər parkı”nın bank hesabına biz köçürmüşük.

– Amma Zeydov yoldaş raykomda bazar açır! Bu, siyasi şantajdı.

– Biz maraqlanarıq. – Yanğınsöndürən maşının sirenasına oxşayan zumer beynimə işlədi.

İdarədən başılovlu çıxdım. Pul bağlamasını cibimə çətinliklə oturtmuşdum. Yanından daş asılmışdı sanki. Çynimi çəkirdim tez-tez. “Cibimdə bu qədər pul var. Bəlkə bir restoranda oturub, gen-bol sifariş verim. Anam üçün dərman da ala bilərəm bu pullara. Həmişəlik sağalar! Mən onun yolunda

ölümə gedərəm. Bilsəm ki, anamın dərmanı ən qorxulu, ən vəhşi timsahların doğulub-törədiyi Qırmızı dənizdədi, heç nədən çəkinmədən o dənizin sularına baş vurardım. Yəqin ki, bir qolum çiynimdən, bir qıçım belimdən qoparılardı. Amma sonucda dərmanı anama çatdırar, onu cəhənnəm əzabından qurtarardım. Uçurum qarşısındayam. Bir səhv addımla özüm özümə düşmən ola bilərdim. Komsomolçuların halal pulu halal məqsədlərə sərf olunmalıdı. Mus-mus-musuldamaq nəyə lazım? Hələ gec deyil! "Nizami" kinoteatrının böyründəki Poçt şöbəsinin qapıları tez-tez açılıb-bağlanırdı. Açıq pəncərəyə yaxınlaşıb, pul bağlamasını kassirə verərək: – Xahiş edirəm, bu pulları Birinci Bayıl döngəsindəki İnternat məktəbinin bank hesabına köçürəsiniz, – dedim. "Bağışla, yoldaş Zeydov, mən sənlə ailəvi dost ola bilməyəcəm".

Səhər erkən oyandım. Komsomol işçisi gərək səliqəli ola! Ayaqqabılarımın çatıqlarını kremlə ört-basdır elədim. Nifəsi didilmiş köynəyimin qollarını çırmaladım. Saçlarımı darayıb, qalstukumun düyününü də kip oturtdum hülqumum altına.

Uçot sektorundan götürdüyüm qovluqlara bir atüstü baxdım. Xəzər Dəniz Gəmiçiliyinin ilk təşkilat katibi Seyid Sakit konfransdakı hesabatında tənqidə daha çox yer verirdi. "Kompozitor Qara Qarayev" gəmisinin baş köməkçisi Elçin Mirzəyev, baş mexaniki Ramiz Siyəkəranlı və başqa komsomolçular da gəmiçilikdəki nöqsanlardan danışırdılar. Qovluqları şöbəyə təhvil verib, kabinetimə gəldim. Zeydov yoldaş sinəsini masaya yatırdıb ortadan iki yerə ayırdığı qəzetə zillənmişdi. – Salam, sabahınız xeyir, – dedim. Əlini başı üzərində yelləyərək yüngülvari qımışdı. Sağ tərəfdə oturan qarayanız oğlan yerindən dik qalxdı. Əlindəki şapkanı arxasında gizlədib, başını tərpətdi. Pəncəyinin qollarında, çiynində dəniz zabitinə məxsus jezllər parıldayırdı.

– Bu kapitan Xəzər Dəniz Gəmiçiliyində ilk təşkilat katibidir. Adı Seyid Sakitdi, – deyib qəzeti yana itələdi. – Ancaq onu heç vaxt sakit, dinc görməzsən! Daim səmərəli təklif axtarışındadı. Çox vaxt xaricdə üzən gəmilərimizdə olur. O, musiqidən az-çox xəbəri olan mexanikləri, miçmanları, elektrikləri də «Abşeron» gəmisinə yığıb, orda bir ansambl yaradıb. Proqramlarda xalq mahnılarına daha çox yer verilir. "Nəğmə gəmi" xarici limanlarda gül-çiçəklə qarşılanır. Gəminin göyərtəsi rəqs meydançasına çevrilir. Gözəl-göyçək xanımlar çilingərlərimizin, elektriklərimizin qolları arasında xoşbəxt olurlar. Azərbaycanın bir parçası o gəmiyə turist axınının ardı-arası kəsilmir. Kayut-kompaniyada Azərbaycan rəssamlarının əsərləri sərgilənir. "Abşeron" gəmisi xalqlar arasında canlı dostluq körpüsüdü.

Seyid Sakitin fəaliyyətinə heyran olmuşdum. O da "həm öz yerinə, həm də o yoldaşın yerinə" çalışan ləzgi balası Cağarvi kimi, Türkiyədə oxuyan və dövlətimizin yardım pullarından imtina edən komsomolçularımız kimi yeni nəslə mənsub gənclərdən biriydi. Mən bu sıraya yaxşı tanımadığım, ancaq evimizə gələrək anamın əyin-başını dəyişib, iki daşın arasında iynəsini tapan Məlahət həkimi də qoşuram. Sevinirdim! Bəs necə? Axı mən dünyanı daha xoş sabahlara qovuşduran dostlarımın əhatəsindəyəm.

– Çox ürəkaçan hadisədi, – dedim, – ay Seyid Sakit! Buna görə çox sağ ol! Elə bilirəm ki, o ansanblın bacı-qardaşları da doğulacaq başqa gəmilərimizdə. Ancaq bir şey soruşum.

– Buyurun! Eşidirəm, – deyə, iki addım irəli gəldi Seyid Sakit!

– Bir neçə ay bundan əvvəl keçirdiyiniz konfransda bəzi dənizçilər gəmiçilikdəki nöqsanlardan danışıblar. "Aşıq Ələsgər" gəmisinin baş mexaniki Rahid Mustafayev bəzi gəmilərdə aşbazın yoxluğundan şikayətlənib. Hər kayuta bir qaz balonu qoyublar. Hər kəs öz yeməyini hazırlamalıdır. Yorğun, yuxulu maryaklardan biri qaz kranını bağlamayıb, dəm qazıyla zəhərlənib gəmidəkilər. "Mikayıl Müşfiq"də bir kayut partlayıb, yanğını çətinliklə söndürüblər.

– Deməli, gəmiçilikdə güclü dağıntılar var. Bəlkə bəzi qapıları döyəsən?

– Döymüşük. Özü də yumruqnan yox! Kuvaldla, çəkiclə! Bir qrup dənizçinin imzasıyla məktub göndərmişik gəmiçilik rəisinə. Ancaq xeyri olmadı.

– Bəs rəis niyə baxmır şikayətlərə? Biganəliyə səbəb nədi?

– Dəqiq deyə bilmərəm. Ancaq rəisimizin kefi kökdü. "Çamadannı nastroyenidədi" neçə vaxtdı.

– Necə? Başa düşmədim! Nə deməkdi "çamadannı nastroyeni?"

– Yəni, yol üstədi rəis!

– Hara gedir ki?

– Söz veriblər ki, onu Mərkəzi Komitənin Nəqliyyat şöbəsinə müdir qoyacaqlar. O da göylərdə pərvazlanır. "Deməli, şan-şöhrətə çatmaq, ad-san qazanmaq, vəzifə pillələrində yüksəlmək, ucalmaq eşqiylə yaşayan rəisin qanında qaynayan gəmiçilik dağıntılara məruz qalmışdır.

Seyid Sakit başı paçasında otursa da, altdan-yuxarı mənə qanlı-qanlı baxırdı. Mənə elə gəldi ki, o, yerindən sıçrayıb yaxamdan yapışacaq. – İndi sizi deyib gəlmişəm, ey mənim komsomol rəhbərlərim, – deyərək Cəlil Məmmədquluzadəni xatırladacaq mənə. Üzümü şöbə müdirinə tutdum:

– Neyləyək, yoldaş Zeydov? Gəmiçiliyin rəhbərliyilə təcili danışmaq lazımdır.

– Tı şto? İstəyirsən ki, mən tabağa düşən qoz kimi atılım ortalığa? Qollarımı çırmayıb dağlara gücənim!? Gülməli danışırsan çesni slova!

– Gülməli yox, ağlamalıdı, – deyib Seyid Sakitə tərəf çevrildim: – Gəmiçilik rəisinin telefon nömrəsini bilirsənmi? O, nömrəni qabağımdakı kağıza yazdı.

– Birbaşa telefonudu. Dəstəyi özü götürür.

Telefona əl atdım. Zeydovu ilan çaldı elə bil. Büküldü, açıldı. Sağ çiyni yuxarı qalxdı, sol çiyni aşağı çökdü.

– Nooldu sizə birdən?

– Məmmədli yoldaş rəislərlə danışmağa icazə vermir.

– Burda qəbahətli nə var ki? Səhlənkarlıq üzündən əlimizdəki sızanaq get-gedə böyüyür. Xərçəng şişinə çevriləcək kökünü üzməsək. Yoldaş Seyid Sakit, təbil zəngləri çatıb. Amma bu zənglər heç kəsi, bizim Məmmədlini də diksindirməyib. İndi mən də yaxamı çəkim qırağa? Yox! Buna göz yuma

bilmərəm! Yoxsa səhlənkarlığın nəticəsi vulkan dağıntılarından ağır olacaq. Ya qismət. Noolar, olar! Nömrəni yığdım.

Membranda boğuq öskürək səsləri eşidildi. Sonra da zabitəli bariton: – Bəli! Mustafayevdi, – dedi.

– Salam, Şahbaz müəllim. Raykom komsomoldandı.

– Hə, komsomol bizim gələcəyimizdi. Gənc kapitanlarımız Dünya Dənizçiləri təşkilatlarının keçici bayraqlarını alırlar tez-tez. Bəzi gəmilərimiz «Leninskiy komsomolets», «Sila komsomola», «Komsomolski flaqman» adını daşıyır. İndi mənə nə qulluğunuz, ay yoldaş komsomol?!

– Bilirsinizmi? – deyib duruxdum. –Biz komsomolçular sizin ata qayğınıza möhtacıq! Ay hörmətli rəis, yadınızdadımı komsomolçuların axırıncı konfransı?

– Bəli! Çox yaxşı yadımdadı. Hələ huşumdan heç bir şikayətim yoxdu.

– O iclasda kapitan Elçin Mirzəyev, Oqtay Qəniyev, Muxtar Axundov, Canik Cavanşir də tapşırıqları şərəflə yerinə yetirdiklərindən danışıblar. Ancaq "Kompozitor Qara Qarayev" gəmisinin baş mexaniki Ramiz Siyəkəranlı xüsusi dəvət gözləmədən xitabət kürsüsünə çıxıb: – Ay yoldaşlar, o bir Allaha and olsun ki, mən gəmimizə amyak gübrəsi yükləməyə gələnləri körpüdən qovacam. Bilməyənlər də qoy bilsinlər ki, amyakın havası, nəfəsi, damcısı, tozu da zəhərdi. Bu gübrəni tryumlara toz halında doldururlar. Gəmi düşür yola! Külək bu tozu yeridir kayutlara, biz şüalanırıq. Bu, beynəlxalq cinayətdir, –deyib Ramiz yoldaş!

– Sən nə danışırsan? Öhö…öhö… Öskürək boğdu rəisi. Gecdən gec dilləndi. – Bu məsələni müavinlərim həll eləməlidi. Səhlənkarın partiya biletini alaram əlindən!

Bayaqdan paxla qazanı kimi qaynayan Zeydov yerindən sıçradı. Qanında qaynayan "mən", "mənim" virusları zəhərli dişləriylə sancmağa, çalmağa tələsdi. "Nəyə məəttəlsən? Bəs görmürsən bostanına daş atırlar? Başbilənlərinə əl qaldırırlar? Toxmağın bir başı da sənin katibinə dəyir. Məmmədlini baltalasalar, talaşa kimi sovrulacaqsan göyə". Telefonun dəstəyini əlimdən qapıb qıçasına çırparaq: – Bəsdi. Başından böyük danışma, – dedi. İndiki anda şöbə müdirini mən, şair Sabirin "Millət necə tarac olur olsun, nə işim bar?" şeirinin qəhrəmanıyla eyniləşdirirdim. Viruslar onu haqq yolundan uzaqlaşdırır, kol-koslu cığırlarla calayırdı. Üzümə kinli-kinli baxıb otaqdan çıxdı.

– Hə, belə-belə işlər, Seyid Sakit yoldaş, – dedim. – Amma sən də çəkinmə heç nədən! Hökmlü, cəsarətli ol! Hər cür dağıntının qabağı alınmalıdı! Nə deyirsən? Şəriksənmi fikrimə?

– Yüz faiz! Kişisən, bütöv adamsan! Tutduğun yerdən kəsənsən! O, dabanlarını cütləyib, sağ əlini qaşının üstünə oturtdu. – Sükanı belə saxla! – deyərək, əsgəri addımlarla qapıdan çıxdı.

Kefim kök, damağım çağ idi. Axı, sanballı bir idarədə vəzifə sahibiydim. Yaxşı bazarlıq eləmişdim. İçi ərzaqla, ayın-uyunla dolu iki zənbillə evimizə gəlirdim.

Dəhliz boş, səssiz idi. Harayçı, qışqırıqçı uşaqlar yəqin ki, şam yeməyə evlərinə çəkilmişdilər. Məni görən Məryəm maqnitafonu yerə qoyaraq:

– Şair dayı, doxtur gəldi, nənəyə iynə vurdu, – deyəndə ürəyim şaraq elədi. “Yəqin halı ağırlaşıb. Boğulurmuş yazıq! Təcili yardım çağırıblar.”

– Kim vurdu iynəni?

– Birinci mərtəbədə yaşayan Məlahət doxtur.

– Tanımıram! Öz gözünlə görmüsən? Bəlkə fantaziya danışırsan? – Əvvəl quru şəkil idi. İndi yan-yörəsinə qırmızı qərənfillər sancılıb. Şəkil də çarpayısının balış qoyulan yeriylə üz-üzədi. Bəxtəvər, yatanda şəklinə baxa-baxa yuxuya gedir. Oyananda da bir gözü şəkildə, paltarlarını geyinir.

– Eh, noolsun! Bəlkə şair kimi hörmət bəsləyir mənə!

– Heylə olsaydı, Səməd Vurğunun şəklini yapışdırardı qapıya. Şair dayı, Məlahət səni çox istəyir. Nənənin başına dolanmağı da sənə görədi. Kim istəməz sənin kimi yaraşıqlı, boy-buxunlu, ağıllı, şair oğlanı! Varlı-karlı qızlar da tək oğlan axtarırlar. Boyum hündür olsaydı... – Boğuldu, nəfəsi tıxandı.

– Gəl, öpüm səni Məryəm. – O, qaçıb arakəsmənin arxasında gizləndi. Amma hönkürtüsü yerini bildirirdi.

– Məlahət doxtur sənə bir-iki iynə vurar, boyun çıxar. Xaricdən dərman gətirdərik.

Məryəm arı pətəyinə çöp salmış, içərilərinə vəlvələ düşmüşdü. Mən o Məlahəti qollarımla yerdən götürüb göyə atar, sonra elə o göydəcə qucaqlayıb bağrıma basardım. Çox demirəm, bir babat maaşım, birotaqlı mənzilim olaydı, bir də nəfsin, tamahın viruslarından əziyyət çəkənlərin sayını bir qədər azaldaydım, sonra gələydi bu xəbər! Neyləyim, Allah! Cibim boş, ürəyim qayğılarla dolu, əsəblərim gəmiləri kötüklərə bağlayan troslar kimi tarım çəkili və belə bir ürək açan xoş xəbər. Nə deyim? Mənə mehr salıb. Qadağa qoya bilmərəm? Mehr salsın, amma məni sevməsin. Ay daş atan bəxtəvər. İmkan ver dikəlim. Mən səni yağ-bal içində saxlayaram. Qabağını kəsən çayın üstündə körpüyə dönərəm. Uçurum başında olsan, küləyə çevrilib qoltuğumda uzaqlaşdıraram təhlükələrdən. Səni başımın tacı eləyəcəm, düşünür, üzülürdüm. – Yaxşı, ay Məryəm bala, bəs sən harasa tələsirdin? Yoldan eləmədim ki?

– Yox, uzağa getmirəm. Bax o pərdəsiz evdə, – deyə açıq qapını göstərdi. – Bir dəcəl Zemfira var! Çox ağlağandı. Anasını incidir, yatmır! Yazıqdı axı. Sonra xəstələnər.

– Bəs anası niyə layla çalmır?

– Anası laldı.

Taleh məni sınağa çəkir! Zərbələri bitib-tükənmir! Məryəmin boyu çıxmır. Zemfira bilir. Anası laldı. Deməli, Zemfira da lal-kor olacaq!

– Bəs neyləyək? Necə kömək eləyək Zemfiraya!?

– Məlahət doxtur dedi ki, zəfəran çayı içirdin uşağa!

– Kömək eləyirmi?

– Əvvəl xeyri olmadı. İndi az da olsa, eşidir. Mən də yatmaq vaxtı çatanda, qapılarının ağzında bir laylay mahnısı oxutdururam maqnitafonda. Uşaq yuxuya gedir.

– Çox ağıllı və mərhəmətli qızsan. Gör sənə nə verəcəyəm indi. Əlimdə “Mişka” konfetlərini görən Məryəmin gözləri böyüdü.

– İstəmirəm! Götürməyəcəyəm, – dedi və konfetləri əlimdən qapışdırıb arxasında gizlətdi. – Mamam deyir ki, heç kəsdən heç nə alma!

– Mən heç kəs deyiləm. Sənin dayınam, – dedim. – Amma bir az hündürləşmişəm. Neyləmisən ki, belə böyümüsən?

– Mən heç nə eləməmişəm. Amma Məlahət doxturun gətirdiyi boy uzadan dərmanları içirəm. Balaca Məryəm böyük ürək sahibi kimi gözümdə ucalırdı.

Zənbilləri qapının kandarına qoyub, içəri boylandım. Anamı çarpayıda görmədim. Masa arxasında şalına bürünüb oturmuşdu. Bu, əlbəttə, məni çox sevindirirdi. Aha, o divar taxcasında işildayan nədi bəs? Televizor. Anamın rəngi-ruhu özünə gəlmişdi. Yanaqları qızarmış, gözləri parıldayırdı. Öskürək güc vermir deyin, sifətindəki qırışıqlar açılmış, gözlərinin altındakı tuluqlar yoxa çıxmışdı. Boynunu qucaqlayıb, üzündən öpdüm.

* * *

– Bu nə dəm-dəsgahdı, ay ana? Evimizdə televizor görürəm.

– Hə, onu... Allah saxlasın, ağbaxt olsun, yarəb!

– Kimi alqışlayırsan? Kimdi bizə gələn?

– Gözəl-göyçək, mərifətli bir həkimdi. Adı Məlahətdi. Girdi içəri, dedi, xala, birinci mərtəbədə oluram. Neçə vaxtdı ki, həyət-bacada oğlunuzu görürəm. Başıaşağıdı. Heç kəslə işi olmaz! Şairdi. Tez-tez televizorda şeir oxuyur. İki gün bundan qabaq bir “Skoropomoş” gəldi qapımıza. Oğlunuz həkimə yaxınlaşıb:

– Xəstə anam ikinci mərtəbədədi, çıxaq yuxarı, – deyib, qabağa düşdü. Mən də həkiməm, xala, harda xəstə varsa, yanında olmalıyam! Reseptlərimi istədi. Verdim. Sonra kiməsə zəng vurdu.

– Darıxma, xala, səni özüm sağaldacam, on beş yaşlı qız kimi olacaqsan, – dedi. Çay içirdik şirin-şirin. Birdən əl telefonuna zəng gəldi. O da güllə kimi çıxdı qapıdan. Tez də qayıtdı. – Alverçi gətirib dərmanı, – dedi. Mən çarpayıya uzandım. Yançağımı xəmir kimi yoğurub, iynəni “bismillahir-rəhmanir-rəhim” deyib əzələmə vurdu. Dərman nəfəsimi yüngülləşdirir, gözlərimə işıq gəlirdi. – Xala, səni özüm sağaldacam. Ancaq hər şeyə görə əsəbiləşmə. Sevincək, şad yaşamağa haqqın var! Çünki çox istiqanlı, istedadlı bir oğul böyütmüsən. Ömrünü uzun eləyəcəm, – dedi. Getmək istəyirdi. Əlindən tutdum. – Ay bala, səni bəs yaxşı tanıya bilmədim, axı!

– Həkiməm, bu evin altındakı poliklinikada. Atamı uşaqlıqda itirmişəm. Anam başqa kişiyə ərə gedib. Onlar da xarici ölkəyə köçüblər.

– Bəs səni aparmayıb o qarnıyanmış?

– Mən getmədim! Öz vətənimə nə gəlib! Onun bircə qarışını bütöv Amerikaya dəyişmərəm, – dedi.

Beləsini çıraqla axtarsan, tapmazsan! Xarici ölkədən söz düşəndə ürəyi gedir çoxlarının. Yırtıq köynək, it ağzından çıxan ayaqqabı təklif elə, ancaq “importnu” olsun, axırıncı pulunu verib alacaq. Görünür, bu həkim qız, bir qarnı ac, bir qarnı tox böyüyüb. Heç anasına da ərki çatmayıb. Qara gün görən, ağ gününə təpik atmaz” – düşünürdüm.

– Bəs sən işə gedəndə uşaqlarına baxan varmı? – soruşdum.

– Subayam, xala, – deyib, qapının arxasında gözdən itdi.

– Hörmətə hörmətlə cavab verərik biz də. Xəcalətindən çıxmaq imkanımız da olacaq.

– Nədi ki? Sözlü adama oxşayırsan?

Birinci katib sözarası eşitdirdi ki, məni təşkilat şöbəsinə müdir qoyacaq. Anam yerindən oldu. – Bəs bunu bayaqdan nöş demirsən? Sevinərdim, ürəyim uçunardı, ay bala! İndi də oynamasam, nə vaxt oynayacam bəs? Pəncələrini yanpəki qoya-qoya bədənnüma güzgünün qabağında qollarını yanlara açdı. – Sən məni çox sevindirdin, ay oğul. Görürsən ki, qol açıb oynayıram. Lap çalıb-oxuyaram da. Nəfəsi tənitdi, öskürək boğazını göynətdi. Çətinliklə udqunub sözünü davam etdirdi: – Ancaq, ay oğul, təşkilat şöbəsi raykomun vuran ürəyidi. Axı, elə vəzifələrə hər adamın əli çatmır. Əşi, xırdaçılıq nəyə lazım? Balamın bəxti gətirib, vəssalam da! Dodaqları qaçdı, üzünün qırışları çəkildi anamın.

– Oğlum, deməli, partiya-sovet işində sən də bir rəhbərsən?

– Bəli, bəli, anam! Əsl mən istəyəndi.

Dərindən bir “ah” ötürdü. – Ürəyimdən tikan çıxdı. Amma səni göndərəcəklər. Sən də gedərsən!

– Hara göndərəcəklər? Bakıdadı iş yerim.

– Noolsun. Elə iş yerindən də Qazaxıstanın xam torpaqlarına göndərəcəklər. Sən də orda gah traktorçu, gah aqranom, bəzən də qara fəhlə işi görməli olacaqsan. Qazaxıstanın təkcə torpağı xam deyil. Küləyi, yağışı da xamdı. Bizim daşlarımız ayaq altında ovulur. Ancaq oranın havası saf olduğundan, daşları polad kimi bərk, ülgüc kimi itidi. Oranın dağ çayları da axmağın, sellənməyin, daşmağın acıdı. Köçəridi, maldardı əhalisi! Kişiləri buz baltası kimidi. İki qazax oğlu nahara oturanda bir toğlunu yeyib dururlar ayağa. Qadınlarının da çanı bərkdi. Öküz arabasında uşaq doğur, belinin qurşağını möhkəm çəkib, tayada ot alır. Beşi-onu birləşir bir “Kommunist əməyi briqadası”nda, o briqadadan birini də sən yaradıb, partiya-sovet işçisi kimi başçılıq eləyərsən. Sosialist əməyi qəhrəmanı olarsan. Hər şəraiti olan mənzil verərlər, əməkhaqqını da bəsdi deyənəcən artırarlar.

Tutqun bəbəkləri öləzidi anamın, dodaqları büzüldü. – Mənnən işin olmasın! Yanımda otutub qalma. Qubadakı evimizə apararsan məni. Divarlarında atanın nəfəsi var. İstisinə qızınar canım. Mənim kimi xəstəyə nə lazımdı ki? Ancaq balasını xoşbəxt görmək. Sən get! Mənə görə yolundan qalma. Səni baş-göz yiyəsi eləsəydim… Hönkürdü, zarıdı birdən… A… a… Yazıq anam zəifləmişdi, yarı canı qalmışdı. Ətli dolu bədəni beşlik taxta kimi nazilmişdi. Küskünlüyün, süstlüyün bataqlığında batıb boğulur, bədbinliyin qanda qaynayan “mən”, “mənim” virusları başından basır, aşağılar maqnit kimi onu çəkir, əl-qol atır, üzə çıxa bilmirdi.

– Mən heç yerə getməyəcəm, ana. Biz əl-ələ verib o xəstəliyin atasını yandıracağıq. “Qenoloq” tanımır, o biri dərmanlar da kömək eləmir. Neynək? Xoruz banlamasa, səhər açılmayacaq? Nəfəsi tənglik (astma) qədim, saqqallı xəstəlikdi. Əcdadlarımız dərman bilməyiblər. Ancaq xəstəliklərin dizini qatdayıblar. Qapının kandarındakı maqnitafonda “Qubanın ağ alması”

mahnısı havalanırdı. Səsini kəsdim. Aynabəndin pəncərələrini taybatay açdım. Bir tərəfdən soyuq, saf xəzri, o biri tərəfdən gül-çiçək ətirli gilavar küləkləri dəhlizin ortasında baş-başa gəlib pərdələrin kif atmış tozunu, divarların zəhərli əhənglərini çölə süpürürdü. Şimal küləyinin qılınc kristalları anamın ciyərlərindəki çürümüş hüceyrələri doğram-doğram eləyirdi. Nəfəs yollarının qırışıq qatları açıldı. Yelləncəkdə yellənirmiş kimi, ürəyi uçunan anam dərindən nəfəs alır, arada "oxxay, oxxay" deyərək, əllərini yanlara atır, sinəsi kötük kimi enib-qalxırdı. Maqnitafonun "qulaqcıqlarını" burdum. Yüngül, oynaq musiqi sümüyümə düşdü. Anamla üz-üzə durdum.

– Əllər yuxarı, – bağırdım. Anam əllərini qaldırdı. Mən qollarımı sağa-sola atır, hərdən çömbəlir, qalxır, belimi yana əyir, dikəlirdim. Anam məndən geri qalmırdı. O, çaynikdən bir stəkan isti su götürdü. Mən stəkanı əlindən aldım. Kranı açdım. Şaqqaşaqla axan soyuq "Şollar" suyundan iki dolu stəkan içirdim anama.

– Ay belə görüm saqqalın ağarsın! Bəs bu çağa kimi niyə eləməmişik bu idmanı? Yüngülləşmişəm xeyli. Gözlərim də böyüyüb elə bil! Başım da gicəllənmir. Ay oğul, məni tam, əsaslı sağaltmaq istəyirsənmi?

– Bəs necə? Bu nə sözdü, ay ana?

– Səni baş-göz yiyəsi eləmək istəyirəm. Uzağa niyə gedək? Elə birinci mərtəbədəki Məlahəti köçürərik evimizə, yola verər səni də, məni də. Ağıllı baladı. Kasıbyana qızdı. Günümüzə-güzəranımıza qatlaşar!

"Neyləyim ki, anamın muradı gözündə qalmasın?! Bəlkə otağın tən ortasından bir pərdə asım. Gecələr anam o tərəfdə can versin, mən də bu tərəfdə arvadımı alım qucağıma? Yox! Dünyanın ən qatı alçağı olaram. Amma belə nacinslik eləyə bilmərəm" düşünür, çıxış yolu axtarırdım.

Anam məni vəziyyətdən çıxarmaq istəyirdi.

– Komsomol toyları indi yaman dəbdədi. Təzə ev, hələ gəlinin cer-cehizini də verirlər... Bəlkə katibinə bir ağız açasan? – İstədim deyəm ki, katibim öz qohumu Zeydovun başına gətirəni mənim də başıma gətirsə, neyləyərik? Şadlıq evlərinin birində bəlkə yüz, ya iki yüz adamlıq stol açdırar. Elə o toyun şirin yerində təzə mənzilin açarlarını verər. Gurultulu alqışlar qopar. Amma elə o andaca alnımda oğraşlıq damğası, ürəyimdə nakişilik yarasıyla mən toyumda yox, cəhənnəmin tən ortasında görərəm özümü. Bu çətinliklərdən anama danışıb, qanını bir az da qaraltmaq istəmədim. Ancaq anam məndən cavab gözləyirdi.

– Darıxma, ana. Bir az da səbr eləyək. Yaxşı qazanaram. Özüm çəkərəm toyumun xərcini də. Bizə mənzili də Yazıçılar İttifaqı verər. Mirzə İbrahimov məni yaxşı tanıyır, ağır vəziyyətimdən xəbəri var, – dedim.

* * *

Maşınqayırma zavodunun direktoruyla söhbətimiz uzun çəkdi, amma səmərə vermədi. Ramazanov yoldaş "toyuğun bir budu var" deyib, inad göstərdi, xahişimi yerinə yetirmədi. Kor-peşman çıxdım zavoddan.

Mən, axı, yaman-yaxşı, partiya-sovet işçisiyəm. Ancaq direktor Ramazanov məndən çəkinmədi. Zavodda bir neçə gəncin haqqı tapdanır. Mən ona müəssisədə zorakılıq göstərdiyini, dağıntılar yaratdığını və buna görə

partiya xəttiylə cəzalanacağını bildirdim. Amma o, qorxmadı. Heç tükü də tərpənmədi. “Burda mənəm, Bağdadda kor Xəlifə. Get, əlindən gələni beş qaba çək” deməsə də, hərəkətlərindən belə çıxdı. Mən təhqir olunmuş, başımdan basılmışdım. “Deməli, o Ramazanov “dağıntıları”nı davam etdirəcək, mən də əlimi yanıma salıb oturacam? Heylə şey yoxdu?” düşünür, sahilə tərəf addımlayırdım...

Ancaq Ramazanovun araba tonu boynu, ətli buxağı, az qala çənəsinin altına uzanan qulaqları gözümün önündən çəkilmir, nazik uzun səsi qulaqlarımı cingildədirdi. – Bir Tofiq deyəni komsomol katibi qoydular. – Hə! Yumru Tofiqi qoymuşuq! Uşaqlıq dostumdu. Çox zirək, işini bilən gəncdi, – dedim. – Zirəkdi, ancaq kobuddu, yekəbaşdı, özbaşınadı. Məni saymır. Zavodun həyətində neçə illərlə yığılıb qalan metallom var. İstədim ki, peçlərimizdə əridib bloklar, polkalar, maşın hissələri hazırlayaq. O yumru Tofiq komsomolları yığdı başına. Girdilər kabinetimə. Yox, dedilər. O paslı, çürük metallomdan məhsul hazırlanmayacaq bu zavodda. İkinci növ məhsulları birinci növ adıyla xarici ölkələrə göndərilməyəcək. Təklif etdiyin o metallomları biz “Vtorçermet” zavoduna satacayıq.

– Qəribədi. Həm də cəsarətli addımdı. Bəs vəsait necə oldu?

– Vəsaiti də köçürüblər ev tikən kombinatın hesabına! Dedilər ki, yaşayış evi zavodun ərazisində tikiləcək! Mən də etiraz elədim:

– Niyə? Burda qəbahətli nə var ki?

– Zavodun səs-küyündə, tozunda yaşamaq olar? O komsomolçular məni burdan qaçırtmaq, yerimə keçmək istəyirdilər.

Bəli, xoruzun pipiyi göründü. Vəzifəsindən uzaqlaşdırılmaq qorxusu canına vicvicə salmış, qanında qaynayan “mən”, “mənim” virusları onu gənclərə qarşı üsyana qaldırmışdı.

Filarmoniyanın qabağında trolleybusdan düşdüm. Bax, bu səki boyu düzülmüş şüşə vitirinlərdə qardaş respublikaların qəzetlərini gözdən keçirirdi oxucular. Ancaq hanı? Səkidə vitrin direklərinin boş oyuqları qaralırdı. “Qubernat” bağının girəcəyində, qırmızı kətanlı masaların arxasında qəzet, jurnal oxuyanları da görmədim. Bu dağıntılar da işıqlı sabahları quranların başına çarpılan qılınc idi. İçərilərə addadım. Əliağa Vahidin poeziya ocağı şeir-musiqi sevənlərlə dolu olurdu. Cavan şairlər kommunizmi, Lenin və Stalini tərənnüm eləyən şeirlərini söyləyirdilər burda. Amma bu gün o qaynar həyatdan heç bir əsər-əlamət görünmürdü. Bağın ortasındakı estrada sahəsində konservatoriya tələbələri xalqlar dostluğunu tərənnüm edən musiqilər səsləndirirdilər. Külək dam örtüyünü ayaqlar altına atmış, yağışlarla döyülən döşəməsi çürümüşdü. Bəs hanı bulvarın girəcəyində mamırlı daşlara pərçimlənən o kinoekran? Bura ailəliklə gəlir, skamyalarda oturub pulsuz-biletsiz kinoya baxırdılar. Ancaq indi ekran yoxa çıxmışdı. Dalğalar skamyaların taxta-tuxtalarını daşlara çırpırdı. Məni bu başsızlıq, yiyəsizlik heyrətə gətirirdi. “Axı, bəs bizim partiya komitələrimiz, inzibati orqanlarımız Allah hökmünə, gücünə malik Mərkəzi Komitə də neyçün biganədi bu dağıntılara? Nəhayət, ağlımı başımda cəmlədim. İflicdən-şokdan çıxdım.

Universitetin şərqşünaslıq fakültəsinə (buranı bitirənlər xarici ölkələrə işləməyə gedirlər. Qayıdanda "Volqa" maşını və çoxlu valyuta gətirirdilər), tarix fakültəsinə (belə diplom sahibi raykomun birinci katibi vəzifəsinə rəsmi hüquq qazanır), xarici dillər institutunun fakültələrinə qəbul əlli, altmış min arasında dəyişirdi. Kommunist partiyasına üzvlük də rüşvətsiz olmurdu. Rayon partiya komitələrinin birinci katibliyinin qiyməti bir milyonu haqladı.

İş yerinə günortaya yaxın gəldim. Kabinetdə yel vurub yengələr oynayırdı. Seyfin qapısı apaçıqdı və açarı da üstündə asılı qalmışdı. Bu da o deməkdi ki, seyf sahibsiz, açar da yiyəsizdi. Məruzə və çıxış qovluqları, büro iclaslarının protokolları, köhnə, rəngi solmuş dəvətnamələr də ayaqaltı olmuşdu. Zeydovun asılqandakı böyük cibli "stilyaqa" pəncəyi, şahmat damalı şapkası da gözümə dəymədi. Yox! Bu, qarət deyil. Oğru quru idarədən nə aparacaq? Kağız-qələm nəyinə gərəkdi? "Bəs bu kabineti belə baş-ayaq eləyən kimdi?" Bir ürəyim dedi ki, burdakı bu "dağıntı" Zeydovun "dəvətnamə" məsələsiylə bağlıdı. Oğuldu, comərddi, vallah, katibin köməkçisi! Zeydovun bəd əməlləri barədə məlumatları inzibati orqanlara çatdırıb. Çekistlər də Zeydovu yaxalayıb, idarəyə baxış keçiriblər. O bədbəxt də "Qoy baş-ayaq olsun dünyada hər şey" deyərək, əlinə düşəni ora-bura çırpıb! İndi "zindanda" yazığa işgəncələr verirlər yəqin ki. Peşman oldum vurduğum zəngə görə. Bəs neyləyəydim mən başıdaşlı? Oturub baxaydım ki, Zeydov parlaq gələcəyimizin qərargahı komsomol komitəsində necə dağıntılar törədir? Amma bu zəlzələ katib Məmmədlini də qoparacaq kökündən! Lap əcəb olacaq! Yeri var! Qoy rəvan şütüyüb gedən sürət qatarımızın yolları daşlardan, qayalardan təmizlənsin!

Telefon cingildədi. Dəstəyi qaldırdım: – Salam! Raykom komsomolun təlimatçısı... Sözümü ağzında vurdu o başdakı:

– Yanıma gəlin!

Xırıltılı, bariton səs tüklərimi ürpəşdirdi.

– Kimdi danışan? – soruşdum.

– Məmmədlidi. Nədi, katibini tanımırsan?

– Üzr istəyirəm! Məni kabinetdəki vəziyyət çaşdırıb. Gəlirəm. Baş üstə!

Məmmədli yoldaş qəzəbli görünürdü. Şişman, dolu gözləri çuxura düşmüş, ətli dodaqları kal gavalı yeyibmiş kimi, büzülmüşdü.

– Orda, kabinetdə aləm qarışıb. Yoldaş Zeydov da yoxdu!..

– Bilirəm, – Zeydov daha buralarda görünməyəcək! O yaramaz konsert dəvətnamələrini pulnan satıb komsomolçulara.

– Belə çıxır ki, sizdən xəbərsiz görüb bu işləri.

– Mən hardan bilim? Dəvətnamə, konsert onun sahəsidi.

"Dəvətnamələrə görə bir çətinlik olsa" ifadəsi səsləndi qulaqlarda.

– Bəli! Zeydovla qurtardıq. Dərindən bir nəfəs ötürüb gözlərimə zilləndi.

– Xəzər Dəniz Gəmiçiliyində bədbəxt hadisə baş verib. İnsident nəticəsində idarə rəisi ağır vəziyyətə düşüb!

– Nə insident? Nə vaxt olub?

– Dünən! Gəmiçiliyin naçalnikinə zəng vurublar. Çox sərt danışıblar o kişiynən. Hamımızın ərköyün ağsaqqalı Murtuz dayını təcili yardım maşınında Semaşko xəstəxanasına aparlblar.

– Böyük idarədi! Hardan zəng vurublar?

– Rəisin köməkçisi deyir ki, hansısa bir raykom komsomoldan vurulub zəng! Dələduzu tapmaq mənə tapşırılıb! Bayılda, Qara şəhərdə gəmiçiliyin çox sayda körpüləri, anbarları, müəssisələri yerləşir. Bəlkə oralardan zəng vurublar?

– Mən zəng vurmuşam.

Məmmədli əlinin arxasıyla qatı açılmamış qəzetləri, qeyd-yaddaş blok-notlarını, telefon kitabçalarını da masanın uzaq küncünə itələdi. Üzərində gözəl qadınların, kino ulduzlarının şəkli olan "Moda", "Ekran" jutnallarını da sol tərəfdəki şkafın taxçasına tulladı. Yerindən qalxıb iti addımlarla otağın o başına keçdi. Arxaya çevrilib, mənə barmaq silkələyə-silkələyə: – Ə...ə... Oturduğun budağı baltalayırsan? Heç bilirsən o zəng vurduğun kimdi? – deyib yerinə qaxıldı.

– Yaxşı tanıyıram! Mərkəzi Komitənin üzvüdü. Gəmiçilər ailəsində doğulub. Matrosluğu dövründə ad-san qazanıb. Müharibə illərində uzaq səfərlər kapitanı kimi Pribaltika zonasında şücaətlər göstərib. Bacarığı sayəsində bu gün onlarla gəmimiz xarici sularda üzür və dövlət bankımıza valyuta axınını gücləndirir!

– Yaxşı da! Laylay bilirsənsə yat-yuxula da! – dedi katib Məmmədli. Sonra da təmkinlə başını bulaya-bulaya:

– Laqeydlik göstərmisən! O kişini də udar vurub.

– Məmmədli müəllim, mən onunla sakitcə söhbət eləmişəm. Amma toxunduğum faktlar çox ciddidir.

– Hansı faktlardı belə?

– İspaniya sularında bir neçə gəmimiz tətilə hazırlaşır. O gəmilər üsyana da qalxa bilər!

– Neyçün axı? Dərdi nədir dənizçilərin!?

– Göyərtə komandaları o gəmilərdə cari təmir işləri aparırlar. Ancaq iki ilə yaxındı ki, əməkhaqlarını ala bilmirlər. Təhqir olunur, alçaldılırlar. Mən onları başa düşürəm. Tələblərinə haqq qazandırıram. Qlobal dağıntılardan uzaqlaşdırmaq istədim o hörmətli rəisi. Düz eləməmişəm?

– Çox kobud səhvdi. Bu barədə heç kəsə heç yerdə danışma. O cari təmirlərin bizə dəxli yoxdu. Bundan sonra belə klyauznu problemlərdən yan keç! Əlləş, vuruş, komsomola yeni üzvlər cəlb elə! Təşkilatlar üzvlük haqlarını gecikdirməsin. Hərbi xidmətə könüllü gedənlərin sayını artır! Bakıda qardaş respublikaların İncəsənət günləri keçiriləndə ağırlıq bizə düşür. Yüksək səviyyədə keçirilən hər tədbir vəzifə pillələrinə stimuldu. Belə işlərlə məşğul ol! Gücün çatmayan daşı qaldırma, belin sərpər!

– Çalışıram, amma əyintiyə, əyriliyə göz yuman deyiləm!

– Bu nə sözdü?

– Maşınqayırma zavodundakı gənc fəhlələrin taleyinə biganə qala bilmərəm!

– Noolub o fəhlələrə?

– Zavod direktorundan xahiş elədim ki, bir neçə komsomolçunun ixtisas dərəcəsini artırsın. Kişi iki ayağını bir başmağa dürtdü! Yox, mümkün olma-

yacaq, dedi. Bu zavodun dirəyi-tağı fəhlələr var. Mən onların ixtisas dərəcələrini artırmasam, çıxallar işdən. Zavod bağlanar. O direktor gənclərə meydan vermir. Dağıntıları yolumuza əngəldi. Bəlkə mən raykomun birinci katibi Şixəli Qurbanova zəng vurum! O, müəllimim olub. Məni yaxşı başa düşər. O direktorun fəaliyyətini büroya çıxartdıraq! Məmmədli yerindən dik qalxdı. – Nə danışırsan? Məni baqaja qoyursan? Bəs deməz ki, sənin o Məmmədlin hara baxır? Qulaqlarından pambığı çıxart. Bir də qəti tapşırıram. Məndən icazəsiz heç bir müəssisəyə, məktəbə, instituta, bir sözlə, heç bir təşkilata getməyəcəksən! Yanımda, nəzarətimdə olacaqsan həmişə. Başdıbaşına buraxdım Zeydovu. O da məndən gizli, separat yollarla dəvətnamələr satdı. Daha doğrusu, azadlıq, müstəqillik, bu gün qürurla adı çəkilən demokratiya verdim ona. O da sui-istifadə elədi o demokratiyadan.

– Bəs siz də ipini çəkərdiniz! Başına ağıl qoyardınız!

– Nə biləydim ki, o, dəvətnamə satacaq? Həftədə, ayda bir-iki dəfə belə tədbirlər keçirmişik. Qapılar taybatay açıq olub gələnlərin üzünə. Dəvətnamə satmaq onun ideyasıdır. İndi tapşıracam sənin əmrini hazırlasınlar. Sabahdan təşkilat şöbəsinin müdiri sən olacaqsan!

– Bəs Zeydov yoldaş hara gedəcək? Necə olacaq?

– Çox yaxşı olacaq. Onu Moskvadakı Ali Partiya Məktəbinin təkmilləşmə kursuna göndərirlər. Məni gülmək tutdu, özümü güclə saxladım:

– Deməli, qarğanı cəzalandıranlar ayaqlarını bağlayıb qayadan atırlar? – Yaxşıdı! Gözəldi, vallah!

– Nədi gözəl? Hanı gözəl?

– Deməli, belə çıxır ki, adi oğru Partiya məktəbində təkmilləşərək seyf dağıdan “Medvejatnik”ə çevriləcək?

– Sən yaman şişirdirsən! İroniyaynan danışırsan. Nədi, ələ salırsan Mərkəzi komitəni?

– Bəs, axı, Zeydov islah-əmək düşərgəsinə göndərilməlidi. Onun qanında qaynayan, nəfsin, tamahın “mən, mənim” virusları ağlını başından alıb, iradəsini qırıb. O, raykom komsomolda, – bu tərbiyə ocağında “dağıntı” törədib. “Vətən” kinoteatrının direktorunu da başdan çıxardıb. Ritanın orkestri Zabitlər parkında yox, elə halal-doğma kinoteatrda verməlidi konsertini. Zeydov Vətən xainidi.

– Yavaş görək! – deyə əlini qaldırıb, sifətini örtən saçlarını arxaya oturtdu. – Çox iti gedirsən! Gözün ayaqlarının altını görmür!

– Mən düz danışıram?

– Xeyr. Savadsız, avam danışırsan! Bugünün siyasətini başa düşmürsən. İndi ölkəmiz əmin-amandı. Əhali dinc-sakitdi. Bu xırda hadisəni, – qarışqanı fil eləmək kimə lazımdı? Hay-küy salıb yatmışları üstümüzə qaldıraq! Arı yuvasına çöp salma! “Zabitlər parkındakı konsertə dəvətnamə satılıb” söhbəti, yalandı! Zeydovun həbsi böyük qalmaqala səbəb olar.

– Nəticədə bir “dağıdıcınız” əksilər. Mən Moskva mətbuatına bir felyeton göndərəcəm! Gözləyirdim ki, katib yaxamdan yapışıb məni divara söykəyər, kuvald yumruqlarıyla məni “nakauta” salacaq. Sonra da boynumdan basıb “Get, sən klyauzniksən!”– deyib kabinetdən qovacaq.

Telefonun qırıq-qırıq, ancaq zəncir kimi uzanan cingiltilərini eşidən Məmmədlinin aynası açıldı, dodaqları qaçdı.

– Hə bu xarici zəngdi. Çoxdan gözləyirdim. Dəstəyi qaldırdı. –Bəli eşidirəm!

Telefonçu qız şaqraq səslə: – Ərəb Əmirliyindən sizə zəng vururlar. Ancaq düşə bilmirlər. Mən sizi dövlət kanalıyla calaşdırıram. Buyurun danışın!

– Bismillhir-rəhmanir-rəhim!

– Bəli! Bəli! Xoş gördük, cənabəttən İsmayıl bin Saleh! Sizin üçün "İnturist" mehmanxanasında ikiotaqlı lüks nömrə hazırlamışam.

– İki otaq, deməli iki qonaq! Gözəldilərmi?

– Filormoniyanın solistkalarıdı. Hərəsi bir Lollabridnidi!

– Mən də zəhmətinizi gözəl qiymətləndirərəm, inşallah! Axşam saat yeddidə dediyiniz mehmanxanada sizi qonaqlarınızla qarşılayacam. Amma qızlar sənədlərini də gətirsinlər ki, biletlərini ala bilək!

– Əlbəttə! Narahat olmayın. Bu sahədə zəngin təcrübəmiz var. Dəstəyi qıçasına qoyaraq: – O ərəb şeyxi çoxdankı dostumdu, – dedi. – Bizi istəyən adamdı. Bağdadda dövlət səviyyəsində keçirilən bir tədbirin təşkilatçısıdır. Mən də aktrisalardan bir-ikisini ora göndərirəm. Qoy mədəniyyətimizi orda nümayiş elətdirsinlər. Bu, heç. Bu məsələ həll olundu. – Məmmədli əlini əlinin üstünə qoydu. – Amma, ay qadan alım! Deyirsən Zeydov həbs olunmalıdı. Bunun sonrası necə olacaq, bilirsənmi? Sonra iki göz azlıq elər sənin halına ağlamağa! Zeydovu basacaqlar içəri. Ha...ha...ha... – Şaqqanaq çəkdi Məmmədli. – Cəhənnəmə gedən özünə yoldaş axtarar. Qandalların bir başını da sənin qoluna bağlayacaqlar! Nə marıtdamısan üzümə! Kontrabas səsini qaldırdı Məmmədli. Bəli, Zeydovun cinayətində sənin əlin var. Sən şəriksən Zeydovnan! Başını bulama! Dəvətnamələri sən vermisən təşkilat nümayəndələrinə. Ayaqqabı kombinatından göndərilən pulları da mənimsəmisən! Nədi? Köpündən alındımı bir az! Ağlını başına yığ! Gələcəyini düşün. İstedadlı oğlansan. Moskvadakı, elə buradakı yazılarını oxuyan başbilənlərimiz ümumi katiblikdə "O kadro Məmmədlinin yetirməsidi, yanımızda yer verməliyik ona! Çox istedadlıdır! Zəhmətsevərdi deyirlər. Mən də sevinirəm. Axı, işçimsən! Sənin belə masştablı fəaliyyərinə görə mənə də qiymət verirlər! Sənə canım yanır. Bilirəm ki, anan ağır xəstədi. Maaşım da dərmanlara çata, ya çatmaya! Kirəçi başımın üstünü kəsdirir. Səninçin gözəl imkanlar yaranır burda. Gurultulu bir komsomol toyu təşkil edərəm sənincün. Gül ləçəyi kimi təmizdi xoşuna gələn o Cənnət xanım da. Elə onu da alarıq sənincin! Xoşbəxt bir həyata qovuşarsan.

Əllərini bir-birinə çırpıb, ləzzətli bir tikə yeyibmiş kimi, dodaqlarını marçıldada-marçıldada sözünü davam etdirdi katib. – Gözəldi. Yaxşı imkanlıdı həm də. Tekstil kombinatının katibi elədim əvvəlcə. Sonra da qabağa çəkib direktor qoydurmuşam. Pəncərəsi dənizə baxan üçotaqlı mənzilimdə tək yaşayır. Qaşqabağını yığışdır, sən Allah! Sənə bir sürpriz! Elə bu gündən təşkilat şöbəsinin müdirisən! Uf... Qardaş qardaşa eləməz bu hörməti. – Əllərini çiynimdə gəzdirib yenə şaqqanaq çəkdi. – Ha...ha...ha. Qardaşım Məmmədli dağ kimi durub arxamda. Bir də görəcəksən ikinci katib eləmişəm səni. Son-

ra paykom partiyanın katibi. Səndən hərəkət, məndən bərəkət! Bir az da ağıllansan Bekanın, lap Sekanın katibi də elərəm səni. Sonra nə yazsan, çapa gedəcək. Nüfuzun, hörmətin! Uşaqların üçün gecə-gündüz dayələri. Bir sözlə, gen-bol bir ömür yaşayacaqsan. Yerindən sıçrayaraq: – Hə, bu məsələni həll elədik. Mən düzüb-qoşmuşam xeyir işi. Altıncı gün axşam Kommunist küçəsindəki Şadlıq sarayında qonaqları qəbul edəcəyik. Mən bir yuxarılara baş çəkməliyəm. Təzə evlənənlərin təzə mənzili də olmalıdı, axı!

Katib Məmmədlinin zərbələri dəymişini kalına qatıb ora-bura səpələmişdi. Qəsd-qiyamı "xəcalətindən" çıxmaq istədiyi Cənnəti ərə verib, başından eləməkdi. Ərliyə ən yaxşı namizəd mən idim. Məni tez-təcili təşkilat şöbəsi müdiri qoyur. Az sonra Bekanın, daha sonra Cekanın katibi eləyəcəyinə əmin-arxayın idi. "Heç bir müəssisəyə getməyəcəksən. Əsas işimiz üzvlük haqlarını yığdırmaqdı. Zavodların daxili işlərinə qarışma! Bir sözlə, biganə ol ətrafda baş verən dağıntılara". Bəs uşaq bağçasında, pioner düşərgələrində, komsomol sıralarında tərbiyə görmüş ləzgi balası Balamet Cağarvini, Xəzər Dəniz Gəmiçiliyinin təşkilat katibi Seyid Sakiti, baş mexanik Ramiz Siyəkəranlını Türkiyədə təhsil alan vətənpərvər tələbələrimizi, "Həkiməm həmişə xəstənin yanında olmalıyam" deyən Məlahəti, maqnitafondakı mahnılarıyla xəstə Zemfiraya layla çalan Məryəmi də öz yüksək tərbiyəsilə xoşbəxt eləyən qərərgahlardan biri, bu komsomol komitəmizin dağılmasına necə göz yumum!?

– Çox təcili, evləndirərsən məni. Nədi, bizi qovan var? Məsul vəzifəyə də irəli çəkirsən! Böyük diqqətdi! Amma nəyə görədi bu əliaçıqlıq? Məmmədli tutuldu. –Ə...ə...ə. Görmürəm bəs, millətin, xalqın xeyrinə necə işlər görürsən? O nailiyyətlər mənim adıma yazılır axı! Buna görə mənim də Mərkəzi Komitəyə irəli çəkilmək şansım artır.

Mənim nəzərimdə komitəmiz lavaları yerin altında qaynayan bir Vezuvi vulkanıydı. Kraterindən göyə sıçrayan özül daşları onun böyründəki Milli Kitabxanamızı, Respublika bankını, bizim İttifaqımızı da darmadağın edəcəkdi. Özümü tez Yazıçılar İttifaqına çatdırmalıydım. Müqəddəs pirdi, ocaqdı Yazıçılar İttifaqı. İlk dəfə qapısını qorxa-qorxa açdım. Səssizlik qalın bir divar idi qarşımda. Bu divarı dağıda-dağıda addadım içəri. "Ədəbiyyat və incəsənət" qəzetinin redaktoru Məmməd Səid Ordubadiyə şeirlərimi oxudum. Divarlarında Cəfər Cabbarlının, Mikayıl Müşfiqin, Əhməd Cavadın şəkilləri asılmış bu tarixi ədəbi məbədi qoruyub gələcək nəsillərə çatdırmaq şərəfli vəzifədir. Burda əlinə qələm alıb yaxşı bir şeir yazana da qayğı, diqqət göstərilir. Soldat xidmətini şərəflə sona çatdıran İslam Səfərli Yazıçılar İttifaqına gəlir. Səməd Vurğuna şeirlərini oxuyur. Səməd Vurğun dərhal Universitetin rektoruyla zəngləşir. Gənc şairi filologiya fakültəsinə imtahansız götürürlər. Ənənələr davam etdirilməlidir. Yazıçılar İttifaqının başından bir tük əskik ola, qoymaram!

"Məni yaxşı tanıyan Mirzə müəllim anamın xəstəliyini də nəzərə alaraq, mənzil məsələmi həll eləyər", düşünür, İttifaqa tələsirdim.

Bir inzibati orqanın polkovniki Daşdəmirovun rəhbərlik etdiyi "Ədəbiyyat fondu" üçüncü mərtəbədəydi. Həmişə taybatay qapısı bu gün dəmir

barmaqlıqlar arxasında qıfıllıydı. Qanım qaraldı. Bir az haqq da qazandırdım direktoruna. “İnzibati idarələrdə çalışıb. Burda da işini ehtiyatlı tutur!” Sağ yandakı pəncərəyə yapışdırılmış elan məni diksindirdi. “Baksovetdən yazıçılar üçün ayrılmış mənzillər İttifaqın məişət-mənzil komissiyasının qərarıyla Prezidium üzvlərinə və katiblərə verildi.

Litfondun direktoru Daşdəmirov”.

Başıma qaynar qazanlar çevrildi. Deyəsən, mən gecikmişəm. Daşlar öz işini görüb. Mənə ev vermədi Daşdəmirov. Amma Daşdəmirov da polkovnikdi, hər nədi, təkbaşına ev verən deyil axı! Mirzə İbrahimovun razılığıyla bölünür mənzillər. Məni yandıran da o ağsaqqalın laqeyidliyiydi. Ayını kürəyini dağıdan güllə yox, ardınca verilən fit yandırır. Səni yaxşı tanıyıram deməyi nədi, sonra belə arxa çevirməyi nə? Deməli, “Gələcək gün” romanıyla məzlumları azadlığa qovuşdurmaq istəyən yazıçı, üzdə bir cürdü, arxada başqa cür! Onun humanistliyinə, mərhəmətinə ən çox ehtiyacı olan bir adam varsa, o da mənəm. Ancaq güvəndiyim dağlara qar yağdı. Nə olub, olub. Cəhənnəmə ki! Nikolay Ostrovskinin təbirincə desəm, “döyülə-döyülə polad kimi bərkişək”. Yaşa dolub kişi. Bəlkə laqeydliyin, soyuqqanlığın “mən”, “mənim” virusları iradəsini əlindən alıb. Onu ayırmalıyıq. Söhbət gedir ki, Yazıçılar İttifaqının, rəssamların, bəstəkarların ittifaqlarını da birləşdirib Mədəniyyət Nazirliyinin bir şöbəsinə çevirəcəklər. Belə olsa heç nə, biz batdıq. Sərbəstliyimizi itirəcəyik. Özgə əlinə baxan olacağıq! “Nizami” kinoteatrının böyründəki poçta gəldim. Şüşə arakəsmənin dəyirmi pəncərəsinə yaxınlaşdım. Boynu armud sapı kimi nazik, başı Şirvan yemişi kimi uzun cavan oğlandan bir teleqram nüsxəsi götürüb salamsız-kəlamsız birbaşa mətləbə keçdim.

“Mirzə müəllim, bir dəfə özünüz dediniz ki, məni yaxşı tanıyırsınız. Sizə verdiyim ərizəmdə də bildirmişəm ki, xəstə anamla kirəçiyəm. Mənzil paylanışında böyük haqsızlığa yol vermisiniz. Sizi çox tərifləyirlər. Ancaq yaradıcı fəaliyyətiniz dumanlıdır. “Gələcək gün” romanında Cənubi Azərbaycanı inqilaba, üsyana çağırışlar var. Xalqın işinə qarışmağa sizi kim vəkil tutub? Biz inqilablar eləyib, ağ günə çıxmışıq. Sovet yazıçısıyam, ancaq günüm it günüdü, nə ad-sanım var, nə ev-eşiyim. Bir şərait yaratsaydınız, Nobel mükafatı alardım. Kitablarım xarici dillərdə çap olunardı. Romanlarım əsasında kinofilmlər çəkilərdi. Yaxın buraxmadınız. Xəşilin yağlı yerini güclü maaşlar alan, vəzifələr tutan Prezidium üzvlərinin və katiblərin qabına çəkirsiniz. Nəşriyyatlar ancaq sizləri çap edir. Gənc yazarlar iş tapmırlar. Ancaq Xalq yazıçılarının küt övladlarını vəzifələrə qoyursuz. Özünüzü ələ alın, Mirzə müəllim. İttifaqımız gözdən düşməsin! Yan-yörənizi təmizləyin! Sizi dağıntılardan qorumaqdı məqsədim. Bağışlayın, məktubum sərt alındı”.

Teleqram nüsxəsini “armudboyun” oğlana ötürdüm. Ürəyim boşalmışdı. Özümü tez-təcili evə çatdırmalıyam. Anamı bu gün xəstəxanaya aparacaqdılar. Addımlarımı yeyinlətdim. Sol tərəfimdən sürətlə keçən maşın birdən tormozladı. Daşkəsən mişarın dişləri qranitə dirəndi sanki. Jağ... Maşın sürüşdü. Arxa təkərlərin diskləri torpağı göyə sovurdu. Toz buluda qalxdı və maşın mıxlandı yerə.

Yan pəncərədən bir qol çıxdı eşiyə. Əl saat kəfkiri kimi yırğalandı. İçəridən çıxanı topşəkilli köynəyindən tanıdım. Şabran idi. Uzun əllərini ata-ata mənə yaxınlaşdı. – Salyutlar. Salamlar, şair müəllim! Qismətə bax! Bəxtə bax! Səni göydə axtarırdım, yerdə əlimə düşmüsən. Belə çətin zəmanədə kişi olmaq çətindi. Bir sözün, bir xahişin bəs elədi ki, məni dərin quyulardan çıxartsın. Sən təmənnasız, minnətsiz həll elədin məsələmi. Böyüyümsən, həmişə qulluğunda olacam, – deyib boynumu qucaqladı. – İnanmayacaqsan bəlkə! Mən indi "Neftçi" futbol komandasının qapıçısı, qolkiperiyəm. İdman cəmiyyətimizin yubileyini qeyd edəcəyik. Xahiş eləmişəm, sədrimiz səni də salıb qonaqların siyahısına. Cibindən çıxartdığı dəvətnaməni mənə uzatdı. –Yox, yox! Pullu deyil. Komsomol komitəmizdə olduğu kimi, – deyib gülümsədi. İndi Ayaqqabı kombinatının komsomol katibi mənəm.

– Bəs o biri Şəmsəddinə nooldu ki?

– Şəmsəddin batdı.

– Necə başa düşüm?

– Katib Məmmədlini qadın alverində şübhəli şəxs qismində saxlayıblar. İstintaqa məlum olub ki, bu cinayət işində Şəmsəddin də Məmmədliylə bir boyunduruqdadı. Şəmsəddin Məmmədlinin sağ əli olub. Tapşırıqlarını canla-başla yerinə yetirib. Xarici qonaqları qarşılayıb. Öz maşınında aeroporta aparıb!

– Görəsən, Cənnət də olub o qadınların arasında?

– Hankı Cənnət? Tekstil kombinatındakı? Eh! Dəsgahsan, vallah! Cənnət kişi kimi qızdı. O yuvalardakı quşlardan deyil. Təbiəti götürməyib Məmmədlinin düşük hərəkətlərini. O, oğraş Məmmədlini qoyub baqaja! Burov-burov gəzən katibin xoruzunu qoltuğuna verib, qoydurub içəri.

– Bəs Məmmədlinin atası, Mingəçevirin birinci katibi kömək eləyib övladına?

– Dələduz oğlunu oğulluqdan çıxarıb o kişi. Əşi, onlarla nə işimiz, otur maşına, çıxaq şəhərdən, bir-iki saat dincələk!

– Çox sağ ol, Şabran. Allah qoysa, Şabrana gedərik. "Nazlı" bulaqda doyunca tat çığırtması yeyərik. Bağışla, evə tələsirəm, – dedim.

Pilləkənləri birnəfəsə qalxdım. Anamı dəhlizdəki divanın üstündə görmədim. Nigarançılıq çulğadı məni. "Bəlkə ev yiyəsi evdən çıxardıb bizi?" Bir əlində bağlama, bir əlində maqnitafon pilləkən başında məni görən Məryəm, əlindəkiləri yerə atdı. "Həlbət, həkimlər gəlib anamı xəstəxanaya aparıblar. Anamın dərmanı təmiz havadı, səhər-axşam idman hərəkətləridi. Bunlar da əlimizin içində. Yerinə yetirərik, yavaş-yavaş özünə gələr" düşündüm. Məryəmin dolmuş ala gözləri yetişib-sulanmış alçaları xatırladırdı. Əlləri, dodaqları əsirdi.

– Evin yiyəsi, o qara kişi var ha! Hə, o gombul əlilə nənənin qapısını təpiklə açdı. Sonra da bağırdı: – İki aydı ev kirəsi ala bilmirəm sizdən, otağı boşaldın, – deyib, donquldana-donquldana getdi.

Mən çəltik dəyirmanında, – dink aitında döyülmüşdüm sanki. Ürəyim sancırdı. Əsəbilərim gərilmişdi. Bəlkə neçə min kilovoltluq cərəyan kürəklərimi, qollarımı, əzalarımı titrədir, üz-gözümü dalayırdı.

– Bəs nənə necə oldu? Hardadı indi?

– Məlahət doxtur evlərinə apardı onu.

Bu gecə ilan vuran yatdı, mən yata bilmədim, Mirzə İbrahimova göndərdiyim teleqram cığımı çıxarırdı. Axı, teleqram çox sərt alınmışdı. Mən çılpaq bədəni gicitkan zoğuyla yox, qaratikan koluyla şallaqlamışdım. Başqa cür ola da bilməzdi. İstəyirdim ki, Mirzə müəllim Daşdəmirovun özbaşınalığına göz yummasın. Ağsaqqalımız, şəxsiyyətinə misilsiz hörmət bəslədiyimiz, oxunaqlı romanlar, baxımlı pyeslər müəllifi Mirzə müəllim qlobal bir dağıntıya – Yazıçılar İttifaqının dağılmasına yol verməsin. Zəngin həyat təcrübəsinə malik, bişmiş adamdı. Vəzifə pillələrində büdrəmələri olsa da, özünü dikəltmişdi. Çox güman ki, niyyətimi başa düşəcək, bu həmləmə də haqq qazandıracaqdı.

Səhəri gün Yazıçılar İttiaqına gəldim. Mirzə müəllim kainetində tək oturmuşdu. Məni görən kimi yerində qurcuxdu. Özümü yığışdırmışdım. İrəli keçib, əlindən tutacaq, can-amanla ondan üzr istəyəcəkdim.

– Salam, Mirzə müəllim, – deyib, bir neçə addımla ona yaxınlaşdım. Salamıma cavab vermədi. Üzünü yana çevirdi.

– Nədi, yadınızdan çıxmışam? Unutmusunuz bəlkə məni!? Rəsul Rza müəllim bir plenumda şeirlərimdən nümunələr gətirib!.. İmzamı izləyirsiz. O şair mənəm də bəs? Sizə verdiyim ərizəmdə heç olmasa bir otaq istəmişəm. Vermədiniz. Buna bəlkə birtəhər dözərəm. Ancaq məndən küsməyin, sən Allah. Bir-iki sözlə təsəlli verin, sakitləşim!

Mirzə müəllim başını aşağı saldı, yenə dinmədi. Yaylığını tez-tez alnında gəzdirirdi. Kor-peşman geri çəkilib, sağollaşmadan çıxdım qapıdan.

Möhtəşəm və müqəddəs bir qaladı yazıçı mənliyi, yazıçı qüruru! Ağır ittihamlarımla Mirzə müəllimin qalasını yıxmışam. Yazıçıya su vermə, ancaq bir şərait yarat, əsərini yazsın. Haqqında iki şirin söz de, gözü tox, könlü xoş yaşasın. Kişi məndən əsaslı küsüb. Neçə kərə əlimi yelləyib, “Əşi, küsüb, küsüb də, özü küsən özü barışar” desəm də, peşmançılıq çəkir, üzülürdüm. Dərdi, qadası boğazımda tikə kimi qalıb. Ha çeynəyirəm, uda bilmirəm. Məni görəndə də üzünü yana tutur ki, salam verməyim.... “ Sən İranı üsyana qaldırıb, o taydakı xoşbəxt qardaşlarımızı bədbəxt eləməyə çalışmısan!” Bu çox ağır zərbədi. Xaraba qoyduğum o möhtəşəm səltənəti dikəltməliyəm. Dağıntılar altında keçən hər an bir cəhənnəm ilinə bərabərdir.

Neçə vaxtdı ki, şeir, sənət söhbətlərindən uzaq düşmüşdüm. Yazıçılar İttifaqına gəldim. Şair Ramiz Məmmədzadə məni görən kimi: – Gedək sədrin otağına, – dedi.

– Nə var ki orda? – soruşdum.

– Xalq yazıçısı Əbülhəsənin yubileyinə toplanır camaat!

Əbdülhəsən müəllimin romanları, povest və hekayələri oxucuların və yazıçıların da stolüstü kitablarıydı. Mirzə müəllim sədrlikdən uzaqlaşdırılmışdı.

Yığıncağı birinci katib Anar aparırdı.

Katib masasından bir qədər aralıda, dəyirmi stolun ətrafında Prezidium üzvləri, katiblər, tədbirin gedişatını yazıya alan makinaçılar oturmuşdular.

Gənclərlə iş üzrə katib Elçin, Mirzə İbrahimovun böyründə yumaq kimi yığılmış, oturduğu yerdə elə hey qurcuxur, əllərini qoymağa yer tapmırdı. “Kaş sənin yerində, Mirzə müəllimin yanında oturmuş olaydım, ay Elçin” – deyən bir səda qopdu ürəyimdən.

Məruzəçi xalq yazıçısının çağdaş ədəbiyyatımızdakı xidmətlərindən danışırdı. – Bu zəhmətkeş yazıçı otuzdan artıq kitabın müəllifidir. Onun “Yoxuşlar”, “Dünya qopur”, “Müharibə” romanları, “Şamama qarının nəvələri” povesti də qardaş xalqların dillərində sevilə-sevilə oxunur, – deyə söhbətini yekunlaşdırdı.

Çıxışlar başlayacaqdı. Mən qaranlıq bir küncdə, – pəncərə pərdələrinin kölgəsində oturmuşdum. Mirzə müəllimin böyründə ora-bura boylanan Elçin yerindən qalxaraq üzümə gülə-gülə mənə yaxınlaşdı: – Ay əzizim, Mirzə müəllimin yanında tikan üstə oturmuşam elə bil. Biz ailəliklə bir-birimizə çox yaxınıq. Doğma əmim kimi hörmətim var ona. Çox narahatam. Gəl yerimizi dəyişək. Mən oturum elə burda, sən də Mirzə müəllimin böyründə otur! – Noolar ki, – dedim. “Adamın işini gərək Allah düzəltsin” düşündüm. Sevincək ayağa durub özümü o “xoşbəxt” kresloya çatdırdım. Oturub rahatlanmışdım ki, Mirzə müəllim üzümə diqqətlə baxıb, ayağa durdu. Divar boyu düzülən kitab şkaflarına çatanda gənc şairlərdən biri Mirzə müəllimin əlindən tutub öz yerində əyləşdirdi. “Dəvə kini var bu kişidə. Amma noolsun, mən də mənəm. İki dünya bir olsa da barışıb, üzr istəməliyəm bu kişidən, – dedim özüm-özümə.

Yaradıcılıq ezamiyyətindən qayıtmışdım. İttifaqın üçüncü mərtəbəsində baş mühasib Ləman xanım hesabat sənədlərimə baxıb: – Hər şey qaydasındadı. Bu səliqə-sahmanı o biri yoldaşlara da öyrədin, – deyib gülümsədi. İkinci mərtəbəyə düşməliydim. Pilləkənlərin başındaydım. Aşağıdan bir öskürək səsi eşitdim. Baxdım, boylandım! Pilləkən meydançasına yenicə qalxan Mirzə müəllim ağır-ağır nəfəs alır, töyşüyürdü. Başını ora-bura dolandırıb, elə bil kimisə axtarırdı. Sol əliylə pilləkənin sürahisindən tutdu. Sinəsini irəli verərək çətinliklə qaldırdığı ayağını pilləkənə qoydu. Nəfəsini dərib, bir də ətrafa boylandı. Başını buladı. Nə illah eləsə də, o biri ayağını yerdən qopara bilmədi.

Yuxarılarda dövlətin, aşağılarda xalqın məhəbbətini qazanan Mirzə müəllimi mən, əl-amanda qalıb kiminsə köməyinə, yardımına müntəzir görmək istəməzdim.

Biz bir yerdə çıxdıq o çətin pillələri. Qolumdan çıxıb, üzümə baxdı.

– Məni tanıyırsınızmı? Yadınızda varammı? – soruşdum. ...Daşdəmirov Prezidium üzvlərinə, katiblərə yarınmağa çalışırdı. Onu İttifaqdan uzaqlaşdırmaq lazımdır. Amma səni bu keçən aylar, illər ərzində heç bircə saniyə unuda bildimmi? Mirzə müəllim, bir cümləylə ağır cinayət törətdiyimi anlatdın mənə. Əlbəttə, teleqramda sərtlik vardı. Amma nə biləydim ki, dəyən yeri bu qədər yaxındı. Həm də gərək yaradıcılığına toxunmayaydım.

– Kitablarınla tanış olmuşam. Xoşuma gələn çox şey var o əsərlərdə. Fikirlərimi yazdığım “Həmkarlarımız” məqaləmi “Ədəbiyyat və incəsənət” qəzetində çap edəcəklər. Yaşa dolduqca çətinliklərə sinə gərmək çətinləşir.

Ananın səhhəti necədir? Mənzil məsələni həll edəcəyəm! Yolunu tapmışam. Çox çəkməz. Allah qoysa, bir-iki aya köçüb oturarsan hər şəraiti olan mənzildə.

– Çox sağ olun! İndi Sizi hara aparım?

– Zəhmət çəkmə! Çətinlikdən çıxdıq. Söhbət elədik. Ürəyim də açıldı. Makinaçıyla görüşməliyəm. Sənə yaxşı yol, – deyərək ağır-asta addımlarla məndən uzaqlaşdı.

Novxanıda, – Məlahətin nənəsindən qalma bağ evində yaşayırdıq. Səhər idmanını həyətdə eləyirdik. Yodlu, bromlu dəniz havası bronxların qırışlarını açır, anamın nəfəsini tənzimləyirdi. Burdakı poliklinikanın baş həkimi Məlahətin tələbə yoldaşı, bacıdan artıq rəfiqəsiydi. Məlahəti can həkimi təyin eləmişdi. Anam həyətin o başında qumluqlarda eşələnən toyuqları "cip-cip"lərlə çağırır, qabaqlarına dən səpirdi. Mən aynabəndin pəncərələrindən süzülən şəfəqlərlə isinir, bəzi şeirlərimin təmiriylə məşğuldum. Məlahət qucağında atılıb-düşən körpəni yanındakı beşiyə qoydu.

– Bəlkə yataq otağına aparım beşiyi? Qığıldayar, "inqə-inqə"ləriylə sənə mane olar, fikrini dağıdar?!

Qığıldasa, götürüb bağrıma basaram. Qaynar nəfəsi təbimi alışdırar. İlhamımı cuşa gətirər. Misralarım durna qatarları kimi qonar şeir dəftərimə. Qığıldasa, səsini kəsmərəm. Susub, dördqulaq olaram ahəngləri ürəyimə yağ kimi yayılan bu canlı saza! Məlahət, məni sən qaytardın həyata. Mən sənin qara gözlərinin ağıyla, kirpiklərinin qarasıyla yazacam şeirlərimi. Məlahət başını bulaya-bulaya getdi. Telefon cingildədi. Dəstəyi qulağıma yaxınlaşdırdım.

– Yazıçılar İttifaqından Kübra xanımdır danışan, – dedi.

Yerimdən dik qalxdım. Gözlənilməz, qəfil zəng idi bu zəng!

– Bəli! Çox xoşdu, Kübra xanım!

– Bu gün, sabah, yaxud istədiyiniz vaxt gəlin. Üçotaqlı təzə mənzilin açarını götürün.

Göydəndüşmə oldu illərlə gözlədiyim bu xəbər. İnana bilmirəm. Anındaca düşündüm: "Baksovetin sifarişiylə tikiləndimi? Eləsə, heç nə! Döşəməsi, tavanı panel evdə hava işləmir. Divarları nəm, sementi yel, sətəlcəm xəstəliyi yaradır. Panel evdə anam yaşaya bilməz. Bir də, axı, burda da gözəl şərait yaradıb Məlahət!"

– Kübra xanım, bilmək istəyirəm "Baksovet"in sifarişiylə tikilən evdi?

– Yox! Bizə heç yerdən mənzil vermirlər. Ancaq SSRİ Yazıçılar İttufaqı hər sovet yazıçısına dəftərxana ləvazimatı almaq üçün 150 rubl ayırır. Mirzə yoldaş Moskvaya uçmuşdur. Rəsmi bir vəzifədə olmasa da, qələm dostları onu mehribanlıqla qarşılamışlar. Mirzə müəllimin xahişilə yazıçılarımıza çatacaq məbləğin bir hissəsi Bakıdakı Evtikmə kombinatının bank hesabına köçürülmüşdür. "Naxçıvani" küçəsindəki çoxmərtəbəli yaşayış binası sakinlərini gözləyir.

Mən məclis paltarlarımı geyindim. "Bəy verən atın dişinə baxmazlar" – deyib, Yazıçılar İttifaqına yollandım.

2001-2002-ci illər

Bəsti ƏLİBƏYLİ

GÜL BAZARI

Elə sabaha oyanaq,
Gül qoxa qanun-yasalar,
Bağlana şərin bazarı,
Gül alalar, gül satalar.

Yaza düymə açan güllər
Arzu, umud çiçəkləyə,
Başdan başlaya hər şey,
Dünya eşqə yerikləyə.

Göz süzə Əsli eyvandan,
Gülümsəyə güllü yaza,
Ağlı çaşan xan Kərəmin
Boğazında səsi aza.

Məbədləri, minbərləri
Təzə-tər güllər bəzəyə,
Əhli-bəşərə sevgidə
İnsan Allaha bənzəyə.

Elə sabaha oyanaq,
Gül qoxa qanun, yasalar.
İnsan insana sarıla,
Gül alalar, gül satalar.

İNCƏ-İNCƏ

Yenə doluxsunub göylər,
Yumub-tökür incə-incə.
Sən də bulud kimi dolub,
Yağan yağmura qoşulub
Nə ağlarsan incə-incə.

Çöl-çəmənin cazibəsi
Daha sənə qərib gələr,
İndi canın hər şeydən çox
Torpağın ətrini çəkər,
Qoxularsan incə-incə.

Qəm yemə, gidi dünyaya
Dönərsən bir özgə donda,
Tanımaz doğma anan da,
Kol dibində bənövşətək
Puçurlarsan incə-incə.

Yenə bir Qurbani* gələr,
Vəsfin sözdən-sazdan gələr,
Hər gələn yazınan gələr,
Yaz ömrünlə yüzü-mini
Qutlayarsan incə-incə.

İNCİDƏR

Ürəkdən üşüyən adamı
Meh titrədər, gül incidər,
Dönüb dolansan başına
Söz yaralar, dil incidər.

**Dirili Qurbaninin "Bənövşə" şeiri nəzərdə tutulur.*

İşi sadə “get-gəl” olsa,
Zirehi poladdan olsa,
Ürək sevməkdən yorulsa,
Ömür yorar, yol incidər.

Sevgidə də təqva gərək,
Səcdə gərək, dua gərək,
Qəbul buyurmasa Fələk,
Hər iltifat, hal incidər.

QƏM EYLƏMƏ, SULTAN KÖNÜL

Qəm eyləmə, sultan könül,
Dünya dondan-dona düşər,
Kiminin bəxti ən başa,
Kimi sondan-sona düşər.

Arı güldən-gülə qonar,
Yaşılbaşlar gölə qonar,
Söz ürəkdən dilə qonar,
Bişər haldan-hala düşər.

Gülmürsə günün üzünə,
Gülümsə dərdin üzünə,
Salam ver, baş əy özünə,
Adın şandan-şana düşər.

Şükranın savabı itməz,
Sübhanın səxası bitməz,
Hər qulun duası yetməz,
Naxış handan-hana düşər.

BƏLALIM

Ah, bəlalı ürəyim,
Dərdin boyunu aşmış,
Sevdiyin salxım söyüd
Selə-suya sarışmış.

Yarı yar üçün sevən
Bir aşiq gördünmü heç?
Bu nazik fəndə pirlər
Gülüb keçdi, sən də keç.

Uca dağlar qoynunda
Xəstə üçün qar saxlar,
Elə yan ki, təzədən
Alışmağa qor saxla.

Sevən yanar, kül olar,
Ölüb bitər, sürünməz,
Özləsən, hal-xətir sor,
Eşqdən xətir görülməz.

Ah, zavallı ürəyim,
Hicrana ol aşina,
Ya Allah eşqinə sus,
Döyünmə boş-boşuna...

ƏN UZAQ ULDUZ

Hə kəsin bir ulduzu var göydə,
sən də mənim ulduzumsan,
dəniz gözlü qardaşım.

Nə zaman ona baxsam
Boynu bükülü, yalnız
Göz qırpır qəmli-qəmli
Göydə ən uzaq ulduz.

Ay qaranlıq gecədən
Mavi incilər damır,
Selə-suya qərq olan
Könül evim islanır.

Burda yaz gecəsində
Anadillər oxuyur,
Orda payızmı, ömrüm,
Göylər nisgil qoxuyur.

Sənli günlər qışqırır,
Yanır dinim-imanım.
Söylə, neyləyim indi,
Ulduz ömrünə şükran,
Ya ruhuna duamı?

Kimsə sən uzaqlıqda
Fəcrə nəğmə söyləyir,
Ağıl, yoxdu, desə də,
Ürək üsyan eləyir...

YENƏ AYRILIQ QOXUYUR SƏADƏT

Yenə ayrılıq qoxuyur səadət,
Yeni naxış toxuyur qədər,
Çırtlayır çiçəyi hüznün, kədərin,
Çiçəyi burnunda ölür ümidlər.

Ələm yelkən açır açıq dənizə,
Sevinc balıq təki dərinə dalır,
Bir yanğın yerinə bənzəyir ürək,
Geriyə tüstüsü, kösövü qalır.

Bu can bazarına baxıb gözucu,
Meydanı səssizcə tərk edir Allah,
Mənəm üzüyola, mənəm dərdəcər,
Dərd üstə dərd verir, ərk edir Allah.

Bəlkə Füzulinin, bəlkə Hadinin
Yetim dərdləridi əta olunan,
Bəlkə də sahibsiz qalmasın deyə,
Məni ölüm-itimdən dərddi qoruyan...

SÖZÜN XƏLVƏTİNDƏ

Sən ey ürəyimin qara incisi,
Könül sarayının qaçaq prinsi!

Diksinib boylanma hər səs-səmirə,
Bir quru kölgədi səni səsləyən,
Qısılıb içinə, qısılıb çoxdan,
Sözün xəlvətində yolun gözləyən...

Öldürdüm Leylanı illər öncəsi,
Əllərim qanlıdı, uzaq dur məndən,
Gözünü qan örtmüş bu eşq qatili
Öldürər səni də "of" eyləmədən.

Ara-sıra başını sığallasam da,
Dərdi böyütmədim, ürək böyütdüm,
Sardım yarasını ay işığıyla,
Günəşlə, üfüqlə, göylə öyütdüm.

Sən də xatırlayıb üzmə özünü,
Köhnə hekayəni unut da getsin,
Gərəksiz dosyatək tulla səbətə,
Faili-məchultək silinib itsin...

* * *

"GƏL DƏRDƏ GEDƏK,
GƏL, KÖNÜL"
Yunus Əmrə

Nə dua, nə dilək ünvana çatır,
Fələk xumarlanır, İblis baş qatır,
"Leyli bazarında Məcnun can satır",
Gəl qoşulaq dərdə, gedək, gəl, könül.

Qanqalı çiçəkli, gülləri həşəm,
Yağmur həsrətində qovrulur gülşən,
Dünya ver-verana, odlanmış kövşən,
Gəl qoşulaq dərdə, gedək, gəl, könül.

İnnən belə ağrı hiss etməz canım,
Ya dərim soysunlar, ya odda yanım,
Biz dərdə butayıq, pirim, sultanım,
Gəl qoşulaq dərdə, gedək, gəl, könül.

Bu yorğun karvanı yoldan əyləyək,
Bağır basaq, iqbalnamə söyləyək,
Ölüm ömürdən mərd, təzim eyləyək,
Gəl qoşulaq mərdə, gedək, gəl, könül.

DÜŞMƏN ÜRƏK

Zəqqum tamı verir keçən ömür-gün,
İllərin acısı üzümə çıxır.
Alında qırışlar kəsişir yoltək,
Yolların son ucu ölümə çıxır.

Ümid duman kimi çəkilib gedir,
Dumandan sıyrılan dərd üzə çıxır,
Yenilən ürəyin son vuruşları
Sonuncu busətək güzgüyə çıxır.

Bəlkə də son deyil, sonun əvvəli
Qorxulu yuxutək önümə çıxır.
Əbabil quşları, daş tökün göydən,
Bu düşmən ürəyim sonuma çıxır.

MƏNİM ŞEİRLƏRİM YALQIZ DOĞULUR

Nə qədər arxalı, güclü olsa da,
El elə söykənər, kürək kürəyə,
Mənim şeirlərim yalqız doğulur,
Bütün ağırlığı düşür ürəyə.

Dərsini bilməyən uşaqlar kimi
İçimdə yüz cürə sual dolaşar;
Çiləkeş bir ömrün qarğaşasını
Bu yalqız şeirlər necə daşıyar?!

Sarıya bilərmi könül yaramı,
Su verə bilərmi can istəyəndə?
Apararmı məni o son mənzilə,
Daşıyarmı görən, çiyinlərində?

Çıraq yandırarmı bayram axşamı,
Gələrmi üstümə ayda-sayanda?
Üzü üzdən utanmayan dünyada
Yaşaya bilərmi mən olmayanda?

Nigaran olsa da, bu nazik ürək,
Gələn baharlara çiçəkli yoldu,
Olub-qalanını süfrəyə düzən
Ata ocağıtək ümiddən boldu.

Eyniniz açıq olsun, əfəndi dostlar,
Ocağınız şölə saçsın aləmə!
Mən də yandırmışam könül şamını,
Sığınmışam mən də şeirlərimə.

KÖHNƏ EV

Bir vaxtlar Əlibəyli kəndinin şən ocaqlarından olan ata evimiz müharibədə aldığı ağır yaralara rəğmən, hələ də ayaqda duraraq sahiblərinin yolunu gözləməkdədir...

Köhnə xatirələr köhnə bir evin
Aramsız mərmitək yağır üstünə,
İti caynağıyla bir qoca bayquş
Qanlı yaraların basır üstünə.

Əlbət, o evin də memarı vardı,
Memarın alagöz bir yarı vardı,
Təzə doğulmuşdu eşq adlı körpə,
Onda xatirələr doğulmamışdı.

Balla dolu pətək dadında yuva,
Bilməm gözə gəldi, ya qarğış aldı,
Sevgi, əmək, hüzur dolu büsatdan
Geriyə göz dağı, dərd, ağrı qaldı.

Qınamağa dəyməz dostu, tanışı,
Allah da gen qaçır o xarabadan,
Təkcə xatirələr sadiq dost kimi
Qovsa da, çəkilmir böyür-başından.

Köhnə xatirələr köhnə bir evin
Aramsız mərmitək yağır üstünə,
İti caynağıyla bir qoca bayquş
Qanlı yaraların basır üstünə...

QAPI

Mənəm, Yarəbb, mənəm qapını döyən,
Bu gecə yarısı rahatsız edən.

Ağır iş günündən sonra sənin də
Bir hovur dincliyə haqqın var, Allah,
Döydüyüm qapılar üzümə hürür,
Çarəsiz üstünə yürürəm, vallah!

Təpəgöz qapılar anında udur,
Dünyagöz qapılar altunlar umur,
Hörümçək qapılar yeni tor qurur,
Torda çabalayıb ölürəm, Allah!

Bir qapı açıldı nəhayətində,
Qüsur yox qapının səxavətində,
Fəqət, qismətimi qapdılar tində,
Dərdimi sənlə bölürəm, Allah!

Kimlərin qapısı güllə açıldı!
Kimlərin başına küllər saçıldı!
Bizim qapını da müşküllər açdı,
Səndən mədəd, çözüm dilərəm, Allah!

Baxıb haqqın yerə gələn dizinə,
“Dərdlər bir-bir cıxır suyun üzünə”,
Gülüb qapıların vecsiz üzünə,
Mən sənə tuturam üzümü, Allah!
Tək sənə, tək sənə dönürəm, Allah!

ƏJDAHA QURDLAR

Klassik rəsimlər nisgil doğurur;
Bir tox qurdun səcdəyə enib başı,
Çoban tütək çalır, köpək dinşəyir,
Otlayır qoyunlar qurdla yanaşı...

Xəlvətə düşəndə bir toğlu çalan
O köhnə qurdlara min şükür, indi!
Otlağıyla udur bütöv sürünü,
Yeddibaşlı əjdaha qurdlar indi.

Yatmışdıq, ayıldıq qış yuxusundan,
Anladıq qoyunun, qurdun xasından,
Sanki miras qalmış öz atasından,
Qomarmış yatağı bu tülkü qurdlar.

O soylu qurdlara min şükür, indi,
Nə qədər yedilər, damazlıq qaldı,
Qırıb tükətdilər bu soysuz qurdlar,
Köhnə bozaxlara tamarzı qaldıq.

Klassik rəsimlər nisgil doğurur;
Bir tox qurdun səcdəyə enib başı,
Çoban tütək çalır, köpək dinşəyir,
Otlayır qoyunlar qurdla yanaşı...

Kərəm KƏLBƏCƏRLİ SARIDAŞLI

YOXDUMU?

Dağlar, sizə nə deyim mən?
İnsafınız heç yoxdumu?
Bircə udum qar göndərin,
Sizdə boran, qış yoxdumu?

Bulaq üstə Lülpərindən,
Kəkotu, qantəpərindən,
Qaymağından, pendirindən,
Obanızda "köç" yoxdumu?

Bəlkə, bir az odun-ocaq
Pay verəsiz bircə qucaq,
Əliklər su içən bulaq,
Kəklik səkən daş yoxdumu?

Hanı kəndin yazı, yayı?
Bir kəkotu, yarpız çayı,
Nənələrin bayram payı,
Qazmaxlı bir aş yoxdumu?

Xatırlayaq "qamış at"ı,
"Əsgi top"u, "corabaltı",

Ağlamağa bir bayatı,
Ölməyə bir künc yoxdumu?

Kərəmin qəm sirdaşıdı,
Axan sular göz yaşıdı,
Daşın mənə "başdaşıdı",
Kaş olaydı, “kaş” – yoxdumu?

A DAĞLAR

A dağlar, görəsən, siz də mənimtək
Hicran nəğməsini çalırsınızmı?
Açılan güllərdən, əsən küləkdən
Kəlbəcərin ətrin alırsınızmı?

Üstünüzdən duman çəkilirmi heç?
Gözünüz yollara dikilirmi heç?
Əyilməz qəddiniz bükülürmü heç?
Çarəsiz, ümidsiz olursunuzmu?

Kərəm dərdinizdən olubdur xəstə,
Neçə dərd calanıb dərdinin üstə.
Gözləri yollarda, qulağı səsdə,
Əlləri qoynunda qalırsınızmı?

BULAQLAR

Bulaqların ürəyinə toxunar,
Deməyin ki, bulaq başı toz olur.
Bulaqların bənövşəsi, nərgizi,
Bulaqların üstü dolu qız olur.

Ceyranbulaq, Daşbulaqdan keçəsən,
Bulaqların hansı birin seçəsən?
Oğulsansa bircə qurtum içəsən,
Dilin donur, dodaqların buz olur.

Kərəm, daha saçlarına dən düşüb,
Taleyindi, qismətinə qəm düşüb,
Darıxmışıq, dağlar bizdən gen düşüb,
Darıxanda pənahımız saz olur.

KÖNLÜMƏ

Hardan alım Dəlidağı, Murovu,
Bu yay günü qar düşübdü könlümə.
Bir giləsi məlhəmidi yaramın,
Dənəş-dənəş xar düşübdü könlümə,
Bu yay günü qar düşübdü könlümə.

Ürəyimi dağım-dağım dağlayan,
Yeri, göyü, gədikləri bağlayan,
Dərələrdə şaqqıldayıb, çağlayan,
Yazda gələn tar düşübdü könlümə,
Bu yay günü qar düşübdü könlümə.

Bir çıxaydim Dəlidağın başına,
Bələnəydim boranına, qışına,
Of, ay Kərəm, nə gələrdi xoşuna!
O bərəkət, bar düşübdü könlümə,
Bircə gilə qar düşübdü könlümə.

BİR AXŞAM

Ürəyimdən nələr keçir biləsiz,
Sarıdaşda ola biləm bir axşam.
Şərik olam kədərinə dağların,
Sevincimi bölə biləm bir axşam.

Ötən illər məni məndən qopara,
Çatam minəm gecikdiyim qatara.
O dolanbac yollar məni apara,
Kəndimizə gələ biləm bir axşam.

Tanıya Kərəmi yurd da, ocaq da,
Üzümə xoş baxa günc də, bucaq da.
Anamın qoynunda, isti qucaqda,
Rahat-rahat ölə biləm bir axşam.

KƏLBƏCƏR

Mübariz CƏFƏRLİ

QASİD



Ağaclara

♦ *Kiçik hekayələr*

Ağacların işi heyvanlardan – quşlardan, böcəklərdən də – betərdi. Belə ki, heyvanlar bəd ayaqda, təhlükə hiss eləyəndə qaçır, quşlar qanadlanır, böcəklər gizlənir. Ağaclarsa tərpənə, bəlağətli, yeddimərtəbəli, obrazlı desəm, canını qurtara bilmir. Fəqət adamlardan başqa heç kəsdən, heç nədən qorxusu yoxdu ağacların... Allahdan gələn bəladan; ildırımdan, sel-sudan, zəlzələdən, quraqlıqdan başqa... Heyvanatın ağaclara nə ziyanı? Bəzi otyeyən iri heyvanlar ağacların budağı, yarpağı ilə qidalansa da, əslində bunun ağaclara xeyri var. Tez-tez təzələnmək ucbatından ömrü uzanır ağacın. Mamırlar, otlar, kollar, ağaclar yer üzünün ən qədim sakinidi. Həşəratlardan, böcəklərdən, heyvanlardan, insanlardan çox-çox qabaq xəlq olunub. Deyirlər, bir ağacın yer üzünə buraxdığı təmiz hava ilə üç adam bir sənə rahatca nəfəs ala bilər. Hələ yamaclardakı sürüşmənin də qarşısını alır kökləri dərində rişələnən ağaclar. Nə yazıq ki, məxluqat özü öz nəfəsliyini bağlamağa meyillidi. Meyvəsini dərdiyi, kölgəsində sərinləndiyi ağacların lap dərin məsələlərdən ötrü yaradıldığını qanmır. Bəlkə heyvanlardan, elə insanlardan da qat-qat dərin... Yəqin elə buna görə ağacların məkan dəyişdirməyə, yeriməyə ehtiyacı yoxdu. İlk baxışdan köməksiz görünən ağaclar daha əzəmətli qüvvələrin pənahındadı, baltalansa da, yandırılıb torpağa qarışsa da heç vaxt tam məhv olmur. İnsan meşələri qırıb son ağacı da yox eləyəndən sonra bütün Adəm övladları da qırılacaq. Bunu başa düşsə də, nadanlığından əl çəkmir. İnsanın əslində öz-özünə quyu qazdığı haqda saysız-hesabsız misal çəkə bilərəm. Amma nə faydası?..

Bir gün qonşu kənddəki məclisdəydim. Mərhumun böyük oğlunun baxışları xoşuma gəlmədi. Gözləri qaynayırdı, danışığı da hətərən-pətərən idi. Narazı-narazı seyid Qeybullaya baxdım ki, a kişi, bu nədi, məni hara gətirmisən? Ölənin kiçik oğlu – gözü qaynayanın balaca qardaşı – duyuq düşüb yanıma gəldi, yazıq-yazıq boynunu büküb pıçıldadı ki, qurban olum, molla, sən Allah, qardaşıma bənd olma, bütün kəndimiz onu yola verir, çünki tez-tez çaşır bədbəxt qardaşım.

Mən başımı tərpətdim: “Allah sənin qardaşının köməyi olsun, – deyib xəbər aldım. – Anadangəlmədi?” “Yox... – mərhumun kiçik oğlu içini çəkdi. – Beş-altı ildi belə olub. Kəndin sayılıb-seçilən bağbanı idi. Elə sənətinin güdazına getdi,” – astadan danışanın doluxsunmağı mənə qəribə gəldi, çünki “güdazına getdi” kəlmələrini adətən ölən, üzü bəriyə yolu olmayan üçün deyirlər, haqqında söhbət açılansa gözümüzün qabağında idi, yetənə yetirdi, yetməyənə bir daş atırdı, hiss olunurdu ki, hamı ondan gen gəzməyə çalışır. “Necə yəni?” – maraqlandım. “Çox ağıllı, yerinibilən adam idi qardaşım... Bağımızdakı iri ağacların quru yerlərini budayanda çaşıb öz oturduğu budağı da kəsmişdi. Ağacdan yıxılanda başı dəymişdi daşa... Sağ qalsa da, ağlı yerindən oynadı. Şükür, hələ indi babatdı, hərdənbir lap dözülməz olur, qızışıb arvad-uşağı qatır qabağına, söyüşün biri beş qəpik”. Narahat-narahat təkrarladım: “Allah sənin qardaşına hidayət eləsin, qəm yemə, heç kəs bilmir sabah başına nə gələcək”. Mərhumun kiçik oğlu gedəndən sonra seyid Qeybulla mənə dedi: “O necə ağıllıdı ki, oturduğu budağı kəsib, hə?” Mən seyidə acıqlandım: “Pıqqıldama, keçmiş bağbanın qəzəbinə gələrik, qoy sakitcə məclisi birtəhər yola verib qayıdaq ev-eşiyimizə. Səni bilmirəm, mənim burdakılardan gözüm su içmir. Sanki hamısı oturduğu ağacın budağını kəsib, hamısı da elə o yazıq bağban kimi ağacın kəlləsindən kəlləmayallaq, başı üstə qablanıb yerə”.

Amma şükür ki, hər şey yaxşı qurtardı, məclisi sakitliklə yola verdik... Sözüm onda deyil, seyid Qeybulla demişkən, ağıllılar, özünü yer üzünün əşrəfi sayanlar görəsən nə səbəbə onlara təmiz hava, rahat nəfəs bəxş eləyən ağaclara qənim kəsiliblər? Mənim başına qəziyyə gələn, çaşdığından öz oturduğu budağı kəsən bağbanla da işim yoxdu. Əslində, acıyıram ona. Bağbanlıq cənnəti satın alma sənətidi. Ağac müqəddəsdi axı... Müqəddəsi qorumaq, ona qulluq eləmək isə məxluqa yalnız savab qazandırır. Müqəddəs kitablardakı behiştin təsvirində də meyvəli ağaclardan varlığından yazılıb ki, məxluq ağlı ilə ölçüyə gəlməz, insan zəkasına sığışmaz şeylər haqqında oxşar məlumat verilsin. Kökü yerin dibinə, başı buludlara dirənən bəlkə elə yerlə göy arasında insan idrakına sığmayan qeyri-adi varlıqlar üçün ünsiyyət vasitəsidi? Gözümüzə görünməyən həmin naməlum varlıqların xəbər aparıb-gətirən mələyi – Cəbrayılı – ağaclardı?.. Belə çıxır ki, adamlar ağacları məhv eləməklə təkcə özlərinə quyu qazmırlar, kainatın mizanını pozurlar. Təkrar eləyirəm, ağaclarsa heç vaxt məhv olmur, çünki kökü yerə, başı buludlara dirənənləri qoruyan qoruyur, çünki nə qədər nadan, acgöz olursa-olsun, əslində, insanın heç vaxt məhv eləyə bilməyəcəyi şeylər, lap dəqiq desəm, varlıqlar da var, onlar ilk baxışda tələf olmuş kimi görsənsələr də, heç vaxt ölmürlər. Bəlkə elə insan da o varlıqlardan nə isə əxz eləyərək fəhmən öz ölümsüzlüyünə inanır? Fəqət adamlardan fərqli olaraq o varlıqlar – xüsusən ağaclar – məhşər gününün sorğu-sualından azaddı...

Heç bilmirəm danışdıqca dolaşdığım, dolanbacında azıb qaldığım bu söhbətləri nə səbəbə eləyirəm sənə? Anlayıram, axı sən belə söz-söhbətlərin xiridarı deyilsən. Boş yerə yoruram səni. Qınama məni, axır zamanlar tez-tez təngnəfəs oluram qəflətən, deyəsən, ucundan tutub gedirəm ucuzluğa, nə

danışdığımı da düz-əməlli bilmirəm. Birtəhər olmuşam, yuxum-zadım da pozulub. Şər deməsən, xeyir gəlməz, mənim başıma bir iş gəlsə, qızımla nəvəm sənə əmanət...

Di dur, dur gedək bizə, qızım yaxşı süfrə açıb, gedək bir qısmat çörək yeyək, dur ayağa, elə mən özüm də acam, boş-boş çənə vurmaqla qarın doymaz, dur...

QONAQ

Pişiklərə

Bir gün məsciddə oturub təsbeh çevirirdim, bekarçılıqdan dodaqaltı zikr eləyirdim. Seyid Qeybulla gəlib dedi ki, bu cavan səni görmək istəyir. Mən altdan-yuxarı onun yanındakı arıq, ucaboy, nazik saqqallı cavanı süzüb döşəkçədə yer göstərərək:

– Əyləş, – dedim cavana.

Cavan bardaş qura bilməsə də, suçlu-suçlu sağ ayağını irəli uzadaraq birtəhər oturdu, özünə dayaq verməkdən ötrü kürəyini də divara dirədi. Seyid Qeybulla çıxıb getdi.

– A bala, yerli adama oxşamırsan, kimsən, kimlərdənsən? – soruşdum.

– Elədi, şəhərdən qonaq gəlmişəm dayımgilə...

– Dayın kimdi?

– Əflatun məllim. Tarixçi...

– Hə... Meylin çəkirsə, deyim sənə bir çay gətirsinlər?

– Yox... – cavan etiraz elədi. – Sağ ol, molla əmi... Dünən dayımla söhbət eləyirdik, söz-sözü çəkdi, dayım da sizi yaman təriflədi...

– Sağ olsun... – gülümsündüm. – Nə dedi?..

– Dedi ki, bizim kəndin mollası həddən ziyadə bilikli, ağıllı adamdı...

– Əflatun məllimin ağılölçən tərəzisi var deyəsən... – cavanın tutulduğunu görüb qımışdım. – Zarafat eləyirəm, adın nədi sənin?

– Vüsal...

– Vüsal, dayının dediklərini əşyayi-dəlil kimi görmək üçün gəlmisən? – yenə zarafata saldm. – Mən öz ağlımı sənə nə təhər göstərim?

– Yox, molla əmi, mən dayıma çox inanıram, görünən dağa nə bələdçi? Dayım hər yetən haqqında elə şövqlə, ürəklə danışmaz... – bilmədim cavan dağ deyəndə kimi, nəyi nəzərdə tuturdu, mənim üzümə baxanda nə görmüşdü, ancaq boynuma alıram ku, onun dedikləri mənə ləzzət elədi, tərif də ürəyin, ruhun qidasıdı axı... Bir şərtlə ki, şit olmasın, əndazədən çıxmasın.

– Yaxşı, ay bala, mənim yanıma gəlməkdə məqsədin nədi?.. – xəbər aldım.

– İstəyirəm ki, mənim bir günahımı sıfırlayasız...

– O nə deməkdi? – təəccübləndim.

– Yəni elədiyim bir günahı yerli-yataqlı sizə danışım, siz də o günahı bağışlayasız ki, mən rahat nəfəs alım...

– Bizim dinimizdə elə şey yoxdu. Mən nəkarəyəm... Günahları bağışlayan Allahdı...

Cavan qızarıb çarəsiz-çarəsiz başını aşağı saldı.

– Amma günahını danışsan, mən yalnız məsləhət verə bilərəm. Fəqət elədiyin günahdan peşman olmağın özü onun bağışlanmasına aparan ən qısa yoldu...

– Yaxşı... – cavan əlacsız-əlacsız köks ötürdü. – Mən şəhərdə yaşayıram... – deyəsən, uzaqdan başlamaq istəyirdi. – Məlliməm dayım kimi... Dayım tarixçidi, mən riyaziyyat məllimi...

Bu yerdə şeytan məni azdırdı, bekar olsam da, cavanın sözünü kəsdim:

– Əlqərəz... – səhv elədiyimi anlayıb sözümü dəbbələməyə çalışdım. – Üzdən uşaq görünürsən, mən elə bildim sən orta məktəbi təzəcə qurtarmısan...

– Yox, molla əmi, iyirmi yeddi yaşım var mənim... – deyib mətləbə keçdi, görünür, "əlqərəz"imi qulaqardına vurmamışdı, day söhbəti birbaşa, kəsə, bəzək-düzəksiz danışırdı. – İlyarım qabaq bazar günü evdə tək idim. Çöl qapısı astaca döyüldü. Gözlükdən baxanda heç kəsi görməsəm də, qapını acdım. Baxdım ki, həyətimizin pişiyi qan içindədi, taqətsiz-taqətsiz qanlı başını qapıya vurduğundan mənzilimizin qapısının aşağısı da qana boyanıb. Əvvəl elə bildim maşın vurub pişiyi. Amma qonşular dedi ki, gecə itlər hücum eləyib bu pişiyin balalarına, pişik də balalarını qurtarmaq üçün itlərin qabağından qaçmayıb. İtlər pişiyi al qana bələsə də, ana öz balalarını xilas eləyə bilib. Ürəyim qan ağladı, pişiyi ehmalca nazik adyala büküb apardım heyvan həkiminə. Həkim tez ağrıkəsici iynə vurdu heyvana, pişik rahatlanıb yalvarıcı miyoltusunu kəsdi, sakitcə gözlərini yumdu. "Ağrikəsici öz yerində, doktor, – dedim dazbaş həkimə. – Tez bir çarə tapın ki, bu yazığın yaraları da sağalsın. İki balası var e, bunun..." Həkim təəssüflə başını buladı. "Heç nə eləmək olmaz, bunun qarnı cırılıb, içi mikrobla doludu, ayaqları da üzülüb, ən yaxşısı buna bir iynə vurmaqdı ki, çox əzab-əziyyət, ağrı çəkməsin, rahat ölsün". Həkim belə deyəndə qəfil gözümün yaşı sel kimi axdı. Həkimin yanındakı sarısaç sestra da məni bərk-bərk qucaqlayıb ağladı. Sestra iri döşlərini sinəmə sıxıb məni qucaqlayanda lapdan içimə isti bir şirinlik doldu, bədənimdən xoş bir gizilti keçdi, bağışla məni, onu öpməməkdən özümü güclə saxladım, istədim ki, pişik tamam sağalanacan beləcə qucaqlaşıb qalaq... Həkimsə dediyindən dönmədi. "Bir azdan ağrıkəsicinin təsiri keçəcək, yazıq heyvan yenə ağrı içində qıvrılacaq, bir qərara gəlin".

Eyvana çıxıb siqareti siqaretə caladım, fikirli-fikirli siqaret tüstülədə-tüstülədə anlayırdım ki, elə mən özüm də qan içində olan yaralı ana

pişiyin rahat ölməyini istəyirəım. Ayaqsız pişiyə necə qulluq eləyəcəkdim? Beş-on dəqiqə sonra sarısaç sestra yanıma gəldi. "Pişiyin ölüsünü aparmaq istəyirsiz?" – soruşdu. "Yox", – dedim.

Pişiyin balaları iki həftə bizim evdə qaldı. Sonra kimsə ya qəsdən, ya da təsadüfən çöl qapısını açıq qoymuşdu, pişiklər də qaçmışdı həyətə. Beləcə, ölən pişiyin balaları da yoxa çıxdı, ha axtardım, o tifilləri tapa bilmədim. Ya tələf olmuşdu anası ölən pişiklər, ya da kimsə götürüb aparmışdı saxlamağa... O vaxtdan elə bil ürəyimdən daş sallanıb, işə də candərdi gedib-gəlirəm. Ana pişiyin ölümündə, onun balalarının itməyində özümü günahkar bilirəm. Molla əmi, bunun axırı nə olacaq? Açıq de, günahım böyükdü mənim?

– Heyvanlara qarşı rəhmli olmaq imandandı... – uzaqdan başladım ki, sərrast cavab verməkdən ötrü vaxt qazanım. – Pişik seçilmiş heyvandı, seçilmiş olduğuna görə arxası yerə dəymr, onun rəvan xorultusu adamın əsəblərini sakitləşdirir, ruhunu dincəldir. Belə rəvayət eləyirlər ki, həzrəti peyğəmbərimiz bir dəfə əbasının üstündə yatan pişik balasını oyatmamaq üçün geyiminin pişik yatan hissəsini kəsərək ehmalca ayağa qalxıb. Qədim Misirdə pişik başlı insan şəkillərinə rast gəlinirdi ki, bu da onların yer üzünün qədim sakinlərindən biri olduğunu sübut eləyirdi. Sənin danışdıqlarına gəlincə, bu qədərdi, – dedim. – O heyvanların yazısı, qədəri... Bizm qana bilmədiyimiz çox mətləblər var. Yerin-göyün sahibi məsləhət bilsəydi, o pişikləri xilas eləyərdi.

Riyaziyyat müəllimi diqqətlə mənim üzümə baxdı:

– Molla əmi, mənə təsəlli vermək üçün belə deyirsən?

Mən baxışlarımı yayındırıb:

– Yox, – dedim, – için rahat olsun... Bəd fikirləşib qəlbində şeytana yer vermə... Əstəğfürullah, bütün hallarda, Allah şeytandan güclüdü, çünki yaradılan yaradandan üstün ola bilməz...

– İşə bax e... – Əflatun müəllimin bacısı oğlu dodaqaltı mızıldandı. – Mən həmişə yiyəsiz heyvanlara, xüsusən pişiklərə can yandırmışam, ancaq biri qəflətən maşınımın altında qalıb tələf oldu, bir pişik balası neçə il qabaq mənim başısoyuqluğumdan öldü, bunlar da ki, yoxa çıxdı, bilinmədi ölüblər, ya salamatdılar...

– Adətən elə olur... – dedim. – Hər gün ehmal-ehmal silib, ürəyin əsə-əsə yerinə qoyduğun qiymətli güldan bir dəfə hökmən əlindən düşüb çilik-çilik olmalıdı. Elə bu səbəbdən adətən evin, ailənin əziz-xələf böyüyən tək övladları başıbəlalı olur...

Əflatun müəllimin bacısı oğlu əllərini yerə dayaq verib ayağa qalxdı, sakitcə, bir az da soyuq-soyuq xudafizləşib getdi. Bilmədim dediklərimdən ağlı bir şey kəsdi, ya yox...

Bundan bir həftə keçmişdi ki, məscidə gedəndə Əflatun müəllimlə rastlaşdım, xoş-beşdən, hal-əhvaldan sonra sözarası xəbər aldım:

– Vüsal nətəhərdi, ay Əflatun?

Əflatun müəllim tutulub:

– Vüsal kimdi? – soruşdu.

Onun qırımından çaşdım, dilim dolaşdı:

– Vüsal da... Sənin bacın oğlu...

Heyrətdən Əflatun müəlimin gözləri kəlləsinə çıxdı:

– Bacoğlu nədi, ay molla, sən bizim nəsil-kökümüzü yaxşı tanıyırsan axı, mənim bacım var ki, bacımoğlu da ola?

Burası ağlıma gəlməmişdi, əlacsızlıqdan zarafata saldım:

– Gərək bağışlayasan, qocalıq məni huşsuz eləyib... Fikrim qalıb ehsanın, nəzir-niyazın yanında...

– Olur elə şeylər... – Əflatun müəllim gülüb dərinə getmədi. – Özünə böhtan atma, sən dünya malına tamah salan deyilsən. Fikir-xəyalla da çox yükləmə baş-beynini, ay molla...

...Üstünü vurmasam da, pərt olmuşdum. Öz-özümdən xoflana-xoflana adının Vüsal olduğunu deyən cavanı gözümün qabağına gətirməyə çalışsam da, bir şey çıxmadı, sanki anidən göz, şəkil yaddaşım korşalmışdı.

Day məscidə gələndən sonra da seyid Qeybulladan heç nə soruşmadım...

YAŞIL XALIDAKI RƏNGBƏRƏNG NAXIŞLAR

Kəpənəklərə

Günlərin birində – beş-altı ilin söhbətidi – günorta namazına az qalmış, qəfil məsciddə ürəyim sıxıldı, gördüm havam çatmır, səcdəyə gələnləri orda qoyub sakitcə qalxdım, arxadakı balaca qapıdan çıxdım həyətə, elə həyətin də dal qapısından keçib yol aldım kəndin qırağına. Anlamırdım sövq-təbii baş götürüb hara gedirəm, bircə şeyi qanırdım ki, yavaş-yavaş, asta-asta yeriyə-yeriyə – fəhmən duyurdum ki, iti getməyin ziyanı olar, ya da sadəcə, heç qaçaraq, yeyin gedə bilmirdim – kənddən aralanmasam, sinəmdəki küt ağrı axırıma çıxacaq. Heç kəsi də görmək istəmirdim, çünki nəinki bir kimsə ilə uzun-uzadı danışmağa, heç ayaqüstü hal-əhval tutmağa da halım, həvəsim yox idi. Bəxtimdən kənd camaatı ilə rastlaşmadım. Yəqin arxa yolla, çoxdandı ayaq dəyməyən cığırla getdiyimdən idi. Qəribə əhvalda idim, elə bilirdim dayansam, ruhum bədənimi tərk

eləyəcək, durduğum yerdəcə yıxılıb qalacam. Yəqin məsciddəkilər elə bilirdilər molla dəstəmaz almağa gedib, bir də ayılacaqdılar ki, pişnamazları yoxdu. Neynək, bu günlük özləri birtəhər yola verərlər namazı, mən özüm də sonra qəza namazımı qılaram, Allaha acıq getməsin, sinəmdəki ağır "daş"la əyilib-dursam, elə namaz üstündəcə canımı tapşıraram.

Bu minvalla nə qədər getdiyimi bilmədim, lapdan gözümün qabağında qeyri-adi bir mənzərə canlananda istər-istəməz ayaq saxladım, dərindən nəfəs aldım, bir anda sinəmdəki ağırlıq havaya qarışaraq yox olub getdi, oldum quştək yüpyüngül.

Gözümü bu kənddə açmışam, ancaq kəndimizin iki addımlığında belə gözəl yerin, mənzərənin olmağından xəbər tutmamışam. Hələ mal-heyvan, qoyun-quzu ağzı dəyməmiş, göz işlədikcə uzanan yamyaşıl otların, otların arasından boylanan çiçəklərin üstünə saysız-hesabsız rəngbərəng kəpənəklər qonmuşdu. Məxməri qanadlı, pərdə qanadlı, pulcuq qanadlı alabəzək kəpənəklər... Baxan kimi anlaşılırdı ki, ali qüdrətin işidi belə rəngarəng varlıqları yaratmaq... Bir anlığa ürəyimin ağrısının yox olub getməsinə heyifsiləndim, çünki əsl ölüb qalmalı yerdə idim. Burası vardı ki, indi burda ölsəydim də, özüməbənzərlər məndən əl çəkməyəcəkdilər, meyitimi tapıb cansız bədənimin başına min bir oyun açacaqdılar. Adını da qoyacaqdılar nəzillərdən gələn adət-ənənə... İlahi, nadanların əlindən ürəyin istədiyi kimi ölmək də mümkün deyilmiş...

Göyün üzü apaydın idi, günəşin şüaları cana-bədənə xöş hərarət gətirib isitsə də, yandırmırdı, tərlətmirdi. Mürgülü kəpənəklər qayğısız-qayğısız çiçəklərin şirəsini çəkirdi. Var gücümlə: "Ay Allah, mən adam olmaqdan yorulmuşam, məni kəpənəyə döndər!" – çığırmaq istədim, fəqət anladım ki, qışqırmağa ehtiyac yoxdu, onsuz da xudavəndi-aləm ürəyimizdən keçənlərdən xəbərdardı.

Qəribə bir aləmə düşmüşdüm; nə bir səs-səmir gəlirdi qulağıma, nə də ins-cins dəyirdi gözümə. Arxaya boylandım, deyəsən, bir xeylağ gəlmişdim, kənd görünməz olmuşdu. Çömələib əvvəlcə ədəb-ərkanla bardaş qurdum yaşıl xalının üstündə, sonra əməlli-başlı uzandım. Yanımdakı kəpənəklər qəfil öləzik xışıltını təhlükə zənn eləyib bir anda buruğan kimi havaya pərvazlandı, göyün üzünü alabəzək varlıqlar bürüdü, sanki üzüyuxarı şikayət eləyirdilər ki, hardansa bir ikiayaqlı peyda olub, bizi rahat dincəlməyə qoymur. Sonra təhlükənin, naməlum xışıltının qorxulu olmadığını anlayıb təzədən "yaşıl xalı"nın üstünə qonaraq mürgüləyib "ilmələr vurdu", rəngbərəng "naxışlar saldı" sərhədsiz yaşıllığa kəpənəklər...

Buxara papağımı qoymuşdum başımın altına, nəm torpaqda boy atan yaşıl otların sütül, xəfif biçənək, zəmi qoxusunu sinəmə çəkərək bəyazımtıl-göy, hüdudsuz səmaya baxırdım. Gözümü zillədiyim asimanda saysız-sonsuz qapılar açılırdı sanki, fəqət həmin qapılar səma ilə eyni rəngli olduğundan, açılanların arxasındakıları görməyə kəramətim çatmırdı. "Xudaya, ömrü qısa olsa da, kəpənək kimi yaşamaq yaxşıdı, kəpənək olmaq yaxşıdı, – düşündüm, – di gəl, adamlar kəpənəkləri də rahat yaşamağa qoymur". Həqiqətən bir

şeyi ki, yeməyəcəksən, xeyir götürməyəcəksən, daha niyə dalınca qaçıb tutmaq, dünyanı bu gözəllikdən xali eləmək istəyirsən? Deyirlər kəpənəkləri tutub qurudanlar, müxtəlif kəpənək qurusunu yığıb, toplayıb illərlə saxlayanlar da olur. Nə deyim, vallah! Adamlar nə istədiyini bilsəydi, dünya bu kökdə olmazdı ki...

Gül-çiçəyi dərmək özü də vəhşilikdi. Qoxulamaq istəyirsənsə, buyur, ancaq qırma, qopartma, tələf eləmə, zəhmət çək, əyil, nə qədər kefindi iylə... O ki qaldı çox yaşamaq məsələsinə, uzun ömür də bir şey deyil, elə dünyadan üzüsulu getmək məsləhətdi. Ömür uzandıqca, yaşamağın zibili çıxır...

O dünyaya özxoşuna, sevinə-sevinə getməyə hazırlaşırammış kimi, rahatca gözlərimi yumdum. Kirpiklərimi ehmalca bir-birinə sıxanda lap uzaqlardan sözlərini ayırd eləyə bilmədiyim səslər eşitdim. Yəqin İnkir-Minkir məni sorğu-sual eləməyə gəlirdi. Səs getdikcə yaxınlaşsa da, yenə sözlər aydın deyildi. Qəribə burasıydı ki, canımda zərrəcə qorxu-hürkü yox idi, hələ desən, özxoşuna ölüb canımı qurtardığım üçün çox sevinirdim. Nəhayət, kimsə əlini çiynimə qoyub məni yavaşca silkələdi. Gözlərimi açdım. Yanımda bardaş quran seyid Qeybulla ağzını qulağıma yaxınlaşdırıb pıçıldadı:

"Molla, nə fikrə getmisən, camaat səni gözləyir axı, namazın vaxtıdı, dur keç irəli".

Mən peşman-peşman ayağa durub key-key ətrafa boylandım.

Sonralar kəndimizin qırağındakı o kəpənəkli otluğu ha axtarsam da, tapa bilmədim, sanki üstünə rəngbərəng naxışlar vurulan yaşıl xalını mələklər büküb ərşi-əlaya qaldırmışdı.

Nizami ƏLİOĞLU

MƏLƏKLƏRLƏ GÖRÜŞ

♦ ***Hekayə***

Payızın son ayı, ağacların yarpaqlarını tökən vədəsiydi. Neçə gündən bəri aramsız yağan yağışlar dünən günortadan dayanmışdı. Hava sazaqlı olsa da, aylı-ulduzlu, xoş ətirli, bəmbəyaz gecəydi. Hər tərəf elə aydınlıq idi ki, kəndin ayağındakı evlərin həyət-bacaları da apaydın seçilirdi.

Gecə yarını çoxdan ötmüşdü. Beş-on addımlıqda yerləşən dəmiryol stansiyasındakı manevr teplovozunun fit səsi arabir gecənin sakitliyini pozsa da, kəndin dincliyinə xələl gətirmirdi; istər kənd sakinlərinin, istərsə də ən xırda hənirtiyə bənd olan həyət itləri də lokomotivlərin gur fit səslərinə alışmışdı.

Köhnə, sürtük gödəkçəsinə bərk-bərk bürünmüş Sadıq kişi ay işığında gümüşü rəngə çalan təkəmseyrək yovşan kollarını tapdaya-tapdaya qəbirlərin arasıyla yeriyirdi. Daş hasara alınmış cüt qəbrin ayaq tərəfinə çatanda dayandı. Sağ əlini üzünə aparıb salavat çevirdi, pıçıltıyla “Fatihə” oxudu. Bir müddət lal-dinməz durub baxdı, sonra qabağa keçib gödəkçəsinin uzun qolundan azacıq çıxmış barmaqlarını iyirmi il öncə Qarabağ döyüşlərində şəhid olmuş oğlu Talehin qara mərmərdən salınmış soyuq başdaşına toxundurdu:

– Salam, oğlum!.. – dedi. – Salam, ey başımın tacı, mənim qeyrət heykəlim!..

Daha nə isə deməyə çalışdı, amma udqunub dayandı. Elə bil ki, oğlunun şan-şöhrətinə yaraşdıracağı sözləri tapa bilmədi. Əyilib daş üzərində döyülmüş şəkli öpdü.

İyirmi il əvvəl bu yerdə qəbiristanlıq nə gəzirdi; təkəmseyrək yovşan kolları bitirən bomboz çöllük idi. Və o zaman burada ilk qəbri qazdıran Sadıq kişi oldu. Əksəriyyəti başqa rayonların kənd-kəsəyindən dəmir yolunda işləməyə gəlmiş Xalxal sakinləri xeyirdə də, şərdə də dönə-dönə Sadıq kişinin özünə möhkəm cansağlığı, ölənlərinə Allahdan rəhmət diləyir, deyirlər ki, nə yaxşı bir vaxt Sadıq kişi irəli düşüb bu savab işi tutdu, ayaqlarımızı yollardan yığışdırdı. Daha ölülərimizi minbir əziyyətlə rayonlara daşımır, elə gözümüzün qabağında torpağa tapşırırıq.

Sadıq kişi keçib ikinci qəbrin önündə durdu, baş daşına əliylə yüngülcə sığal çəkdi. Əslində, bu sığal səkkiz il əvvəl həyatdan vaxtsız köçmüş həyat yoldaşı Əfruzə xanımla onun öpüş əvəzi idi. Baş daşından ona boylanan xanımını öpmək istəyilə ürəyi əssə də, oğlunun əksindən həya etdi. Qəribə olsa da, Sadıq kişi uşaqlığından bu günə qədər qəbir daşlarına həkk olunmuş şəkillərlə onların ruhları arasında hansısa bir rabitənin mövcud olduğuna inanır və bəlkə də elə bu səbəbdən soyuq məzar daşlarından boylanan baxışların anlaşılmaz təsiri altında sıxılaraq haldan-hala düşürdü.

– Salam, mənim bəxtiqara Əfruzəm... – deyə Sadıq kişi pıçıldadı, amma səsindəki iniltidən utanıb diksindi, soyuq məzar daşını canlı insan cildində görürmüş kimi, heyrət dolu gözlərini ondan ayırmadan əyili qamətini düzəltməyə, səsinin tonuna şuxluq qatmağa çalışdı. – Hə, deyəcəksən ki, yenə uşaqları yuxuya verib, gecəyarısı mənimlə görüşə gəlmisən. Eləmi?..

– Bəs nə edim axı, gözümün işığı?! Özün yaxşı bilirsən ki, gündüzlər gələ bilmirəm, qonum-qonşudan çəkinirəm. Qorxuram ki, qəhərli səsimi eşidərlər, nəmli gözlərimi görərlər. Deyərlər ki, yazıq kişi dərd-sərin içində batıb-boğulur... Sən ki, bilirsən, belə şeyləri heç xoşlamıram... Yadındadımı, oğlumuz şəhid olub gətiriləndə də, onun hüzr məclislərində də bu işgəncəyə necə qatlaşdım, el-oba, dəstə-dəstə gəlib-gedən camaatın qabağında bir an belə əyilmədim, ilahidən güc, qüvvət tapıb dözdüm, köksümdə partlamaq istəyən ürəyimin ağrısını biruzə vermədim, bir himə bənd olan gözlərimdən bircə gilə də olsun yaş axıtmadım.

Qulaqlarına Əfruzə xanımın kədərli səsi gəldi:

– Əlbəttə, o günləryaxşı yadımdadır... O da yadımdadır ki, gecələr isti yatağından oğurlanıb saatlarla soyuq eyvanda otururdun. Siqareti siqaretə calayırdın... Elə bilirdin ki, heç nə görmürəm, heç nə duymuram. Amma, hər şeydən xəbərdardım. Mən aşkarda ağlayanda, sənin göz yaşların öz içinə axırdı, öz içini dağlayıb yandırırdı.

Sadıq kişi mehrli baxışlarını qaldırıb baxanda qarşısında baş daşını yox, məlul-məhzun gözlərini qırpmadan ona zilləyərək acı-acı gülümsəyən Əfruzəni gördü və mat-qutu qurudu. Onsuz da vicviceli bədənində elə bil qarışqalar qaynaşdı.

– Əf-ru-zə?!... – deyən Sadıq kişi özü öz səsini tanımadı.

– Hə, nədi, nə deyirsən, ay Sadıq? Doğrudan, axı yenə nə baş verib ki, gecənin bu vədəsi yadına düşmüşəm? Həmişəkitək yenə də ürəyin doludur.

Hələ də özünü ələ ala bilməmiş Sadıq kişi iri, donuq gözlərini arvadına dikib baxırdı. Handan-hana:

– Elədi, elədi... – dedi və bu zaman səsi daha da nazilib titrədi. – Yenə də adamı gözündən oxuyursan... – Boğazını arıtlayıb səsinin yerinə düşməsinə çalışdı. – Allah insaf vermiş, nə günah iş tutmuşam ki, məni bu çətinliklərin əlində tək qoyub tanrı dərgahına tələsdin?.. İndi durub desəm ki, sənə təzə-təzə alışırdım, əsl ər-arvad istəyinin, sevgisinin nə olduğunu yenicə dadmağa başlamışdım, şübhə etmirəm ki, güləcəksən, mənə rişxənd edəcəksən...

Sadıq kişi nə dediyini yaxşı bilirmiş, sözü bitər-bitməz Əfruzənin qəhqəhəsi yaxın-uzaq qəbirlərin arasında dolaşıb əks-səda verdi. O, xeyli gülüb:

– Nə danışırsan, ay pir olmuş?... – dedi, sonra birdən-birə ciddiləşdi, qaşları çatıldı. – Otuz ildən çox bir yastığa baş qoyduq, sənin gözlərinin qabağında şəvə saçlarımı ağartdım, muncuq kimi dişlərimi tökdüm, üzümdə dərin-dərin qırışlar yuva saldı, qocaldım...

Sadıq kişi səbirsizliklə arvadının sözünü kəsib:

– Doğru deyirsən, sənlə razıyam, – dedi. – Di gəl, bir həqiqət də var ki, bunu heç zaman bilməmisən. Mən bu sirri illər boyu əzab ürəyimdə gəzdirmişəm.

– Sən nə danışırsan?! – Əfruzə təəccüblə ərinə baxdı. – Mən də elə bilirdim ki, səni ovcumun içi kimi tanıyıram, məndən xəlvət heç bir sirrin yoxdur...

Sadıq kişi çətinə düşmüşdü; yeniyetmə kimi sıxılıb utanırdı. Uzun sükutdan sonra başını sinəsinə əyib kövrək səslə dedi:

– Bir zamanlar valideynlərimin təkidilə, düz-əməlli tanıyıb-bilmədən, sevmədən sənlə ailə həyatı qursam da, izdivacımızın lap elə ilk günündən oturuşun-duruşun, sadə, abır-həyalı davranışın, tərbiyənlə qəlbimdə özünə dərin hörmət qazana bildin. İllər ötdükcə, uşaqlarımız doğulduqca, bu hörmət hissi daha da böyüyüb ülviləşdi... Amma bu məhəbbət deyildi. Beləcə, zaman-zaman elə bil tanrı kor olmuş gözlərimi açıb səni mənə yenidən tanıtdı. İlahi özü şahiddir ki, hər gün sənə daha çox isinişdim, bağlandım, sənsiz olanda qəribsəyib darıxdım...

– Belə de... – Əfruzə məmnunluqla gülümsədi və ərinə o qədər yaxın durdu ki, Sadıq kişi hətta onun gülab ətirli nəfəsini də duydu.

Sadıq kişi ciblərini eşib siqaret çıxartdı, barmaqlarının arasında asta-asta ovuşdurub tütününü yumşaltdı, tələsmədən alışdırıb ciyər dolusu sümürdü.

Xəfif külək Əfruzənin dağınıq saçlarını və nazik donunun uzun ətəyini oynatdı. Sadıq kişi bir az əvvəlki abır-həya hissini unudub arvadının başını sinəsinə sıxdı, çallaşmış birçəklərini sığallaya-sığallaya xeyli öpdü.

– Əfruzə... Nə qədər ki, yanımdaydın, heç bir çətinlik-filan qulağıma deyildi... O bir Allaha and olsun ki, ayların, illərin necə ötüb keçdiyini bilmədim. Uşaqlar nə vaxt böyüdülər, nə vaxt məktəbi bitirdilər, oğlumuzu nə vaxt evləndirdik, nə vaxt nənə-baba olduq?..

Əfruzə başını qaldırıb göyə baxdı və onun iri, qara gözləri ay işığında daha da qayğılı göründü, ərinin qulağına pıçıldadı:

– Yenə yanındayam da, – dedi. – Hiss eləmirsən ki, ruhum gecə-gündüz həndəvərində dolaşır, başının üstündə uçur? Heç səni tək qoyarammı?

Sadıq kişinin ürəyi həqiqətən də dolu idi. Di gəl, söhbətini haradan başlayıb harada bitirəcəyini qərarlaşdıra bilmirdi.

– Nə gizlədim, gəldim deyəm ki, səndən bir balaca incimişəm, Əfruzə.

– Niyə?! – Əfruzə əməlli-başlı tələşlandı. – Yenə nə baş verdi? – Əyilib kişinin gözlərinin içinə baxdı, gülümsəməyə çalışdı. – Günahım nədir axı?

Sadıq kişi baxışlarını yayındırıb:

– Günahını bilməmiş olmazsan, – dedi, sonra bir an susub düşüncəyə daldı, nələrisə götür-qoy etdi, lap axırda bayaqdan bəri dinib-danışmayan oğluna sarı boylandı. – Nə bilim, bəlkə də oğlun üçün darıxıb onun yanına tələsmişdin...

– Sən nə danışdığının fərqindəsən? – Əfruzə ağlamsındı. – Əcəlin yazısından hara qaça bilərdim?

– Hər halda başını götürüb getdin. – Sadıq kişi incik olduğunu gizlətmədi.

– Məni dərd-sərin içində qoydun.

Əfruzə ərini sakitləşdirməyə çalışdı.

– Bilirəm, ay Sadıq, bilirəm, – dedi.

– Barı yuxularıma gələydin, çətin günlərimdə mənə arxa duraydın...

Əfruzə xanım yenidən başını ərinin sinəsinə qoydu.

– Nə olub, heç vaxt səni belə çaşqın, aciz görməmişdim. – O, ərinin əlini ovcuna alıb ehmal-ehmal tumarladı. –Bəlkə ənim bilmədiyim dərdin-azarın var?..

– Sonbeşiyimiz Fərqanəni necə böyütdüyünü bildinmi? Sən bizi tərk edəndə onun on iki yaşı vardı.

– Elədir... – Əfruzə xanım sakitcə təsdiq etdi.

– Oğlan uşağı olsaydı, nə vardı ki, yenə də birtəhər dözmək olardı, amma axı bu qız uşağıdır, ay başına dönüm... Bilirsən, hər şeyi xırdalamaq olmur... Bu uşağın... bu qızın əy-yin-baaşı, məək-təbi... – Sadıq kişinin dili dolaşıb topuq çaldı, sözünün dalını gətirə bilmədi.

– Özün de, mən sizi gözümdən iraq qoyardımmı?!.. Amma neynim, Tanrının istəyi beləydi.

- Sənin körpə qoyub getdiyin qızın indi böyüyüb, artıq onun iyirmi yaşı var. İndi o, bir evin gəlinidir.

Əfruzə heç bir söz demədən gülümsədi, əlini qaldırıb ərinin dümağ saçlarını mehribanlıqla tumarladı.

– Xəbərsiz deyiləm, Sadıqcan, – dedi. – Hər şeyi necə var, yerli-yataqlı bilirəm. Qızımız üçün gəlmiş elçilərdən də, onun üçün elədiyin təmtəraqlı şadyanalıqdan da halıyam... Qızımızı köçürdüyün gün hamı dağılışandan sonra öz otağına çəkilib xısın-xısın...

Sadıq kişi böyümüş gözlərilə arvadına baxıb:

– Bunları haradan bilirsən? – təəccüblə soruşdu.

– Ahh, ay Sadıq, sən hələ də sadəlövhsən. Məgər sən mələklər barədə bu günə kimi heç nə bilmirsən? Yer üzündə nə baş verirsə, mələklər hamısını bizə çatdırırlar. Odur ki, mən də hər şeyi, sənin gün ərzində nə yeyib-içdiyini də bilirəm.

– Bu xəbərçi mələklər mənim barəmdə qulaqlarına daha nələrisə çuğullamamış olmazlar.

Əfruzə ürəkdən şaqqanaq çəkdi:

– Birdir, ikidir? O qədər olub ki...

Sadıq kişi birdən-birə sifətinin alışıb-yandığını, pörtdüyünü duyub narahat oldu:

– Görən neyləmişəm ki, danışalar da...

– Ehh, o qədər günahların var ki...

Sadıq kişi tələşlandı, bununla belə dinməyib arvadının daha nə deyəcəyini gözlədi.

Əfruzə davam etdi:

– Yadındadırmı, mənim ilim çıxandan sonra, qohum-əqraba, yaxın-uzaq adamlar nə qədər başını tovlayıb səni evləndirməyə çalışsalar da, yaxanı ələ vermədin.

– Bu sözləri sənmi deyirsən, ay Əfruzə?! Deyirsən ki, gərək altmış yaşımın bir addımlığında ola-ola, mən səni tapdayıb yenidən ailə quraydım?.. Deyirsən ki, bu günə qədər gözlərinə üfürmədiyim uşaqlarımızı yad bir qadına etibar edəydim?

– Burda nə var axı, belə əsib-coşursan?.. Əslində, kişiyə qadın elə altmışından sonra gərəkdi. Dədə-babadan deyiblər ki, arvad xeylağı ərsiz dözüb yaşaya bilər, kişi isə arvadsız bacarmaz, əziyyəti daha çox olar.

– Qızımız çox gözəl bir ailəyə qismət olub. Köçdüyü üç-dörd ay olsa da, məncə, qaynayıb-qarışa, özünü sevdirə bilib. Hər zəngləşəndə qudamız gəlinindən razılıq edir, deyir ki, Allah saxlasın Fərqanə balamızı, özüylə evimizə bol-bol sevinc, nur gətirib.

Əfruzə mütəəssir halda:

– Təki elə olsun, ay Sadıq! – dedi. – Min-min şükürlər İlahiyə!

Sadıq kişi arvadının səsindəki qüssəni duysa da, üzünə vurmadı.

– Amin!.. Sən də onu unutma, Əfruzə, arabir də olsa, yuxularına qatıl, – dedi. – Bilirsən, onun sənin öyüd-nəsihətinə çox ehtiyacı var.

Əfruzə acı-acı gülümsədi.

Sadıq kişi arvadının soyuqdan tir-tir əsən çiyinlərini bir az da bərk-bərk qucaqlayıb özünə sıxdı.

– Artıq dan yeri ağarır, – dedi, – ayrılmağımız məsləhətdir. İmkan düşən kimi yenə də görüşünə gələcəyəm...

* * *

Geriyə – evinə qayıdan Sadıq kişi elə bil yolu azmışdı. Bu yol ona tanış gəlmirdi. Ay işığında gümüşü rəngə çalan təkəmseyrək yovşan kollarından əsər-əlamət yox idi.

Əslində, bura heç yol da deyildi, ucu-bucağı görünməyən gen-geniş səhralıq idi. Və bu səhranın qızılı qumuna bata-bata, tələsmədən, uyqulu-uyqulu yeriyən Sadıq kişi özündən dörd-beş metr arxada yortan boynu zınqırovlu, birhürgüclü dəvəsilə karvanından ayrı düşmüş, bu yerlərə nabələd, qərib qoca yolçuya bənzəyirdi. O, dəvəsinin uzun örkənini biləyinə dolamışdı. Zınqırovun incə, qulaqoxşayan, cingiltili səsi Sadıq kişini narahat etmir, əksinə, əsgər marşı sayağı onun yerişini tənzimləyirdi.

Yol isə bitmək bilmir, uzandıqca uzanırdı.

Nədənsə bir ara zınqırovun səsi kəsilib fasilə verdi. Amma bu sakitlik uzun çəkmədi, az sonra zınqırovun səsi yenidən və həyəcan təbilitək daha zildən

cingildəməyə başladı. Və birdən Sadıq kişiyə elə gəldi ki, nə səbəbdənsə dəvə qızıb, qəzəblənib və indicə hirsini-hikkəsini soyutmaq üçün onu ayaqları altına salıb tapdayacaq, şil-küt edib qol-qabırğasını sındıracaq, sonra da sahibini bu yiyəsiz çöllükdə tənha atıb, baş götürüb uzaqlara üz tutacaq.

O, bu qorxu təhlükəsi içində diksinib dəli kimi ucadan qışqırdı, qolundakı örkəni açırmış sayağı hərəkətlər edib sağa-sola çırpındı, sonra özünü qəzəblənmiş dəvəsindən qorumaq niyyətilə başını qolları arasında gizlətdi.

Zınqırovun səsi kəsilmir, get-gedə daha da şiddətlənirdi.

Bir müddət sonra o, qolları arasındakı böyümüş gözlərilə çəkinə-çəkinə ətrafına boylananda nə qızıl qumlu səhranı, nə də boynu zınqırovlu, qəzəblənmiş dəvəsini gördü.

Sadıq kişi yavaş-yavaş huşa gəlib gerçəkləri dərk etməyə başladı.

O, üzü yaxınlıqdakı dəmir yolu səmtinə baxan evinin aynabəndində qoyulmuş masanın arxasında köhnə, sürtük gödəkçəsinə bərk-bərk bürünərək yuxuya getdiyini anlayanda əlini uzadıb cingiltili səsiylə bayaqdan bəri bağrını yaran mobil telefonunu götürdü. Displeydə qızı Fərqanənin adını görcək, yenidən həyəcanlandı. “Allah xeyrə calasın!” – deyə düşünüb cəld xəttə qoşuldu.

Sadıq kişi səylə özünü sakit, təmkinli aparmağa, bir anın içində varlığını çuğlamış sərsəm, tələşlı fikirləri başından qovmağa çalışsa da alınmadı, elə ilk kəlməsindəcə kövrək səsi titrəyib qırıldı:

– Saa-lam baa-lam! Hə-ər vaax-tın xeyir oolsun! – günün hansı vədə olduğunu bilmədiyindən belə dedi. – Nə yaxşı zəng vurmusan?

– Ata... Ata... – Fərqanə zəif, üzüntülü səsiylə nə isə deməyə səy etsə də bacarmadı, nitqi tutuldu, hıçqırdı.

Sadıq kişinin ürəyi qopdu:

– Məni qorxutma, qızım... – dedi. – İnsafın olsun, ürəyim sıxılır axı, ay bala...

Fərqanə var gücü ilə özünü ələ almağa çalışdı.

– Hər şey yaxşıdır, atacan... – dedi və bir qədər susub ara verdi. Sonra: – Bilirsən atacan, o qədər sevincliyəm ki, heç bilmirəm nədən başlayım? – deyə yenə də danışığına azacıq fasilə verdi. – Vallah, o qədər xoşbəxtəm ki, heç cür sözlə izah olunası deyi.

Sadıq kişi dərindən nəfəs alıb qızını ürəkləndirməyə çalışdı.

– Sən darıxma, qızım... Təki sevincli ol, şad-xürrəm ol, fərəhli ol. Həyatda bundan gözəl nə var axı?.. İndi isə səbrlə, tələsmədən, ucundan-qulağından nə baş verdiyini mənə də anlat, şadyanalığının səbəbini mənimlə də bölüş. – Bu sözləri deyə-deyə Sadıq kişinin könlündən xəyalən də olsa qızının yanında olmaq, onun bulud kimi dolub dayanmış gözlərinə baxa-baxa uzun, qara saçlarına nəvazişlə sığal çəkmək keçdi.

Fərqanə:

– Ata... Atacan! – dedi. Səsindəki titrəyiş xeyli azalmışdı. – Desəm, inanmayacaqsan... Bir az bundan qabaq yuxumda...

Sadıq kişi səbirsizliklə qızının sözünü kəsdi.

– Dayan, dayan, qızım! – dedi. – Məncə, artıq sənin nə deyəcəyini bilirəm... Sən yuxunda öz ananla görüşmüsən, elə deyilmi, bala?!

Qızından səs çıxmadı. Çox güman ki, xəttin o başında heyrət içində donub qalmış qızı yenidən çətinə düşüb dilini udmuşdu, danışa bilmirdi.

Ürəyinə od düşən Sadıq kişi dözmədi, dediklərini az qala çığıra-çığıra yenidən təkrarladı.

– Mən buna əminəm qızım, sən yuxunda ananı görmüsən! – dedi.

Fərqanə:

– Elədir, atacan... – deyə astadan atasının dediyini təsdiqlədi. – Qurbanın olum, ay ata, bilmirəm pirmisən, övliyamısan, yoxsa kimsən... Röyada anamla görüşdüyümü nə bildin axı?! – yalvarış dolu səslə soruşdu.

Sadıq kişi: “Ey uca Yaradan, möcüzələrinə şəkk edən varsa, kafirdir!” – deyə düşündü, sonra: – Bu xəbəri mənə Allahın mələkləri yetirdi, ağıllı balam, – dedi. – O mələklər tez-tez mənim görüşümə gəlirlər, nə ki, vacibli xəbərlər varsa, hamısını çatdırırlar.

Eşitdiklərimə şəkk-şübhəsi qalmayan Fərqanə:

– İnanıram ki, anamla olan söhbətimizdən də tam xəbərdarsan, – dedi.

Sadıq kişi inamla:

– Əlbəttə, əlbəttə, qızım, – dedi. – Sən ürəyini buz kimi elə, mən hər şeydən xəbərdaram.

Fərqanə:

– Nə gözəl, ay ata... – dedi. – Mən də düşündüm atamı sevindirəcəyəm, onunçün də gecənin bu vaxtı şirin yuxunuza haram qatdım.

– Sevindim ay qızım, vallah sevindim!

* * *

Gecə yarısı çoxdan ötmüşdü. Aylı-ulduzlu bəmbəyaz gecənin sazağı adamın əl-ayağını kəssə də, havadan yağışdan sonrakı rütubətli torpağın xoş ətri gəlirdi. Sadıq kişi köhnə, sürtük gödəkçəsinə daha da bərk-bərk bürünüb sinə dolusu nəfəs aldı, lax, cırıltılı kreslosunda bir az da büzülüb kiçildi.

Kəndin ayağındakı dəmiryol stansiyasından teplovozun qulaqbatıran fit səsi və çeşidlənən yük vaqonlarının taqqıltısı eşidilirdi.

Nəhayət, dolaşıq düşüncələri içində bərk yorulduğunu hiss edən Sadıq kişi ayağa qalxıb yataq otağına keçmək istəyəndə, birdən ona elə gəldi ki, içəridə – Əfruzənin divardan asılmış qara çərçivəli şəkli ətrafında uçuşan neçə-neçə mələklə rastlaşacaq və istər-istəməz qapı ağzında ləngiyib əyin-başını səliqə-sahmana salmağa çalışdı.

YAPON POEZİYASINDAN

Toki DZÖMMARO

(1885-1980)

Ədəbi təxəllüsü Aikadır. Atası rahib imiş və ənənəvi poeziya janrı sayılan renqada yazdığı şeirlərilə məşhurlaşıbmış.

Vaseda Universitetinin ingilis ədəbiyyatı fakültəsində ali təhsil alıb.

1910-cu ildə çap etdirdiyi tankalardan ibarət ilk eksperimental şeirlər toplusunu "Göz yaşları içində gülüş" adlandırıb. Heroqliflərdən latın əlifbasına keçməyin qızğın tərəfdarı olduğu üçün həmin kitabdakı şeirləri də o, oxunuşu əsas götürməklə, latın əlifbasıyla, yəni transkripsiya ilə çap etdiribmiş. Kanonik tanka formasını dağıtmağa çalışıb, hətta ondakı misraların sayını üçə qədər endirib.

Yaradıcılığının ən məhsuldar mərhələsi 1910-cu illərə təsadüf edib. Həmin dövrdə yazdığı şeirlərdə vətəndaşlıq pafosu və sosial etirazlar başılca yer tutur. Sonrakı dövrdə, yəni "Asahi" qəzet şirkətində məsul vəzifələr tutarkən, T.Dzömmaro bir sıra ədəbi-tarixi araşdırmalar üzərində çalışmağa üstünlük verib və şairlikdən tamamən uzaqlaşıb.

* * *

Heç cür anlaya bilmirəm də –
işləmək üçün yaşamaq lazımdır,
yoxsa ki, yaşamaq üçün işləmək?..

* * *

"İşləməsəm – kasıb olacağam".
"Amma işləsəm belə,
yenə qurtulmayacağam yoxsulluqdan".
"Hər necə olsa, işsiz-gücsüz dolaşan deyiləm mən!"

* * *

Yaponiyada yaşayıb, fikirlərini yaponca,
həm də qorxusuz-hürküsüz dilə gətirmək
artıq təhlükəli sayılmır.

* * *

Ayaqlarını çarpayıdan sallamaqla
çəkələklərini aradı və tapmadığı üçün
təkrar başını atıb, yatdı…

Sumako FUKAO
(1888-1974)

Bu tanınmış şairə və nasir özünü həm də fransız ədəbiyyatı incilərinin yapon dilinə mahir tərcüməçisi kimi tanıdıb.

Gerçək adı – Ogino Şigenodur. Högo prefekturasında doğulub və uşaq yaşlarından yetimlik çəkib. Kiotoda qızlar məktəbini bitirdikdən sonra Akiko Yösanodan özəl dərslər alıb. 1912-ci ildə ailə qurduğu şair və mühəndis Tokino Fukao 8 il sonra vəfat edincə, onun şeirlərini "Səmanın açarları" adlı kitabda toplayıb. Həmin topluya o, özünün vaxtilə yazdığı 54 şeiri və "Sonuncu səyahət" adlı nəsr əsərini də daxil edib.

1925-ci ildə işıq üzü görən "Makaraneko" şeirlər kitabı isə artıq onun öz imzası ilə işıq üzü görüb. Həmin il ilk dəfə ölkədən kənara çıxaraq, Fransaya səfər edib, orada tanınmış nasir Sidni Qabriel Kolett ilə tanış olub. Üç il xaricdə yaşayıb, müalicə də aldıqdan sonra vətənə dönən Sumako S.Q.Kolettin əsərlərini yapon oxuculara tanıdıb. 1930-cu ildə özünün ikinci şeirlər kitabını çap etdirib.

Müharibədən sonra sülhün qorunması uğrunda ictimai fəaliyyətə böyük əmək sərf edib.

S.Fukao 1974-cü ildə mədə xərçəngindən dünyasını dəyişib.

CAVAB

Sizdən bir xahişim olacaq:
zəhmət olmasa,
bir an səbr edin –
indicə qəlbim

açacaq önünüzdə öz ləçəklərini
bir çiçək misalı.

Əgər
bir dəqiqə daha
dözə bilsəniz –
ulduza necə çevriləcəyimi də
görə biləcəksiniz.

GÖZ YAŞLARI

Cığırla irəlilədikcə
üzünə səpilən
bu ulduz kimi,
bu şehə bənzəyən damlalar –
bil, mənim göz yaşlarımdır.

DODAQLARIN

Daima nə isə düşünürlər,
elə hey nəyinsə arzusundadırlar
o gül ləçəyinə bənzər dodaqların.

Sənin dodaqlarında,
o sərin dodaqlarında
uyuyur bu dünyanın qüssəsi.
Görən o bir cüt ləçəyə necə sığıb
dünyanın min bir sirri, sualı?!

Dodaqlarında
kinayə ilə yanaşı uyuyar ehtiras.
Elə sənin taleyin də
bir mənada öz dodaqlarından asılıdır.

Ah, dodaqlar, dodaqlar –
lalələrin ən şahanəsi!

Horiquti DAYQAKU
(1892-1981)

Simvolizm cərəyanının son mərhələsini təmsil edən ən tanınmış şairlərdən biridir. Atası diplomat olduğundan uşaqlıq və gənclik illəri Avropanın və Amerikanın ən müxtəlif ölkələrində keçib. Bir sıra dillərə aşina olduğundan XIX-XX yüzil Fransa və Belçika şairlərinin əsərlərini ilk dəfə yapon dilinə o çevirib, bunlardan ibarət bir neçə antologiya çap etdirib.

1920-30-cu illərdə Yaponiyada mövcud olan poetik dünyagörüşünün formalaşmasında həm onun ilk şeirlər kitabı "Ay və Pyero"nun (1919), həm də xarici dillərdən etdiyi mənzum tərcümələrin rolu danılmazdır.

1930-cu illərin ikinci yarısından etibarən H.Dayqaku poeziyadan uzaqlaşıb.

KÖNÜL

Qəlbim dərdə bələnib,
könlümdən qara daş asılıb
damağımdansa getmək bilmir
o köhnə dərdin acısı.

Bəs indi neyləyim mən?
Başımı alıb hara gedim?
İstədiyin nədir, desənə,
ey mənim dəli-dolu qəlbim?

Bəs sən niyə, ey könül,
heç cür təskin olmursan?
Yoxsa bu eşq, bu şeirlər
sənə yetərli deyil?!

Bax, indi, mən belə cavan,
bu cür sağlam və zəngin ikən,
bunca istedadlı ikən…
Dünya necə də gözəldir!
Amma yenə, yenə də,
ah, yenə də, yenə də…

Qəlbim dərdə bələnib,
könlümdən qara daş asılıb,
damağımdansa getmək bilmir
o köhnə dərdin acısı…

Nisivaki DZÜNDZABURO
(1894-1982)

Yapon poeziyasında sürrealizmin həm nəzəriyyəçisi, həm də başlıca təmsilçisidir. Niiqata prefekturasında anadan olub. Tokiodakı Keyo Universitetində sosiologiya və iqtisadiyyat üzrə ali təhsil alıb. Qəzet əməkdaşından tutmuş ta Xarici İşlər Nazirliyinin məmuru vəzifəsinə qədər bir sıra işlərdə çalışıb.

1922-ci ildə təhsil almaq üçün İngiltərəyə yollanıb, orada bir ingilis xanımla ailə qurub və ilk şeirlər kitabı "Ambarvalia"nı da ingilis dilində çap etdirib. Avropa və Asiya qitələrini bir müddət gəzib-dolaşıb, vətənə döndükdən sonra modernist həmkarlarıyla birlikdə çıxartdığı "Si to siron" ("Poeziya və poetika") adlı jurnalın nəşrində fəal iştirak edib.

Əgər onun ilk kitabının ümumi ruhunda Qərb mədəniyyətinə, antik dəyərlərə dərin heyranlıq duyulurdusa, nisbətən yetkin dönəmdə yazdığı şeirlərdə milli dəyərlər sisteminə ciddi qayıdış sezilir, yapon fəlsəfi poeziya ənənələrinin üstünlüyü aşkar şəkildə diqqəti çəkir.

İkinci Dünya müharibəsindən sonrakı yapon poeziyasına danılmaz təsir göstərən N.Dzündzaburo tərcümə sənətilə də ciddi məşğul olub, Avropa və Çin şeirinin ən dəyərli nümunələrini ana dilinə çevirib.

POETİKA

Şeirlərin yazılması imkansızdır artıq,
poeziya nəfəsi dəyməyən yerlərdə dolaşır indi,
gerçəkliyin ayrı-ayrı qətrələri şeirə çevrilir daha.

Gerçəkliyin mayası – kədərdir,
yəni əgər kədərlənirəmsə, deməli, varam.
Varlığın yeganə təməliymiş… kədər.

Kədər – gözəlliyin ilkin şərtidir,
gözəllik isə əbədiyyətin.

Takahasi SİNKİTİ
(1901-1987)



Aiti prefekturasında doğulub. Ticarət texnikumundakı təhsilini yarımçıq qoyub, Tokioya gələrək, burada jurnalist kimi fəaliyyətə başlayıb. 1923-cü ildə çap etdirdiyi absurd məzmunlu "Dadaist Sinkitinin şeirləri" toplusu sayəsində yapon dadaistlərinin liderinə çevrilib.

Sonradan dzen-buddizmə meyil salıb və modernist ruhda meditativ lirika nümunələri yaradıb. Bu səbəbdən də şeirlərində dzen paradokslarına, hədsiz rasionalizmə və abstrakt sonluqlara sıx rast gəlinir. Yaradıcılığının ən parlaq dövrü 1930-cu illərə təsadüf edir.

Onun yaradıcılığı müharibəyə qədərki poeziyada mövcud olan anarxist meyillərə və 1950-60-cı illərin modernist şairlərinə eyni dərəcədə ciddi təsir göstərib.

MƏN EVDƏ YOXAM

Deyin ki, mən evdə yoxam,
Deyin ki, evdə heç kəs yoxdur.
Və qismət olsa,
yarım milyon ildən sonra geri dönəcəyəm.

ŞABALID AĞACI

Bəlkə də Buddadır bu ağac,
Tanrıdır bəlkə də.
Bəlkə də həm adi şabalıd ağacı,
həm Budda, həm də Tanrıdır o.

Ən kədərlisi isə bizim, yəni insanların,
bunca qəliz və fərqli yorumlara malik
şabalıd ağacını
adi ağac kimi qavramamızdır.

Elə bütün faciəmiz də bundan qaynaqlanır.

BALIQQULAĞILAR

Heç nə mövcud deyilsə,
deməli, onda nə yaranış mümkündür,
nə də ölüm.

Balıqqulağıların içi boşdur.
Mollyuskların qoxumuş bədənini dalğalar yudu, apardı.
İndi Ay işığında yuyunan balıqqulağılar
günəşdə quruduqdan sonra
qumluqda doyunca uyuyacaqlar.

Bir daha dənizdən hamilə qalmayacaqlar
Başqa bir umacaqları da olmayacaq daha.
Dalğalar durmadan qabarır və geri çəkilirlər.
Bu əsnada boş balıqqulağılarını da
sahildən alaraq gedirlər…

Dzyun TAKAMİ

(1907-1965)



Bu tanınmış yapon şairi və ədəbi tənqidçisinin əsl adı – Takama Yosiodur.

O, 1930-cu ildə Tokio Universitetinin ingilis dili və ədəbiyyatı fakültəsini bitirib. Həmin dövrdə bir müddət solçu ədəbiyyatı təmsil edib. 1936-cı ildə yazdığı "Köhnə dostlar unudulur" romanı ona böyük şöhrət gətirib: əsərdə irticanın hökm sürdüyü şəraitdə solçuların marksizm ideyalarından uzaqlaşma meyilləri ustalıqla təsvir olunub. Onun ikinci romanı ("Hansı ulduzların altında?" (1940)) isə Tokionun işrətxanaya çevrilən məhəllələrinin həyatından bəhs edir və sərbəst bir söhbət üslubunda qələmə alınıb.

Dünya müharibəsindən sonra Takami futurist poeziya jurnalı "Nihon miray ha" jurnalı ilə əməkdaşlıq yolunu seçib. 1950-ci ildə şairin "Ağaclara bəslənən sevgi" adlı şeirlər toplusu işıq üzü görüb. Özünün "Çiyrinmə" (1960) romanında yazar anarxist meyilli yapon ziyalısının portretini son dərəcə dəqiq cizgilərlə yaratmağa çalışıb.

Bundan əlavə, Takami müasir yapon ədəbiyyatı haqda araşdırma əsərlərinin də müəllifidir.

1971-ci ildə təsis edilən "Dzyun Takami ödülü" çağdaş Yaponiyanın ən nüfuzlu ədəbi mükafatlarından biri sayılır və hər il Gendaysi tərzində gözəl şeirlər yazan cavan müəlliflərə təqdim olunur.

HƏRƏKƏTSİZ AĞAC

Buludlardakı didiklərin ardından
səmanı necə görmək mümkünsə,
sən də zamandakı boşluqlar sayəsində
görə bilirsən göy üzünü.

Buludlar daim hərəkət etsə də,
göy üzü donuq və hərəkətsizdir.
Sən də, eynilə eləcə,
yəni yerində qımıldanmadan dayanırsan.

PƏNCƏRƏ

Ölüstü pəncərəmi aç!
Buradakı söz-söhbətin
və siqaretlərin külü çökübdür otağıma.
Pəncərəmi də elə qəlbimdəki pəncərə ilə birlikdə açsana!

Qəlbimdəki otağa qonaqlar qədəm qoymasa da,
o da uzun müddət qapalı qalıb deyə,
havası kəsifləşir.

Ey ömür-gün yoldaşım!
Pəncərəmi açıq saxla!
O lal-dinməz səmanın üzünə,
o dilsiz-ağızsız ağacların üzünə açıq!

MƏN GÜCSÜZƏM

Mən gücsüzəm,
mübarizəyə tabım yoxdur,
ancaq sırf həyatda qalım deyə,
başqalarını tələyə, bəlaya sala bilmərəm.

Mən gücsüzəm,
özüm sağ qalım deyə,
başqalarını doğrayacaq qədər
alçalmağa qıymaram.

Mən gücsüzəm,
başqalarının fikirlərini özümünkü kimi
təqdim edəcək qədər
alçalmağa da razı olmaram.

Hə, mən gücsüzəm
və bu gücsüzlüyümü
daima qorumağa çalışacağam.

SƏMA

Hardan başlanır səma?
Bir qırğı quşunun süzdüyü yerdədir bəlkə səma?
Elə meyvə də, rüşeym də
insan gözlərindən məhrəm yerlərdə
və səssizcə böyüyür adətən.

Hə-ə! Rüşeymin elə ətrafındakı
o fəza imiş də səma.

Nakahara TYUYA
(1907-1937)

Yamaquti prefekturasında dünyaya göz açıb. Kioto şəhərindəki Ritsumeykan Universitetinin filologiya fakültəsində təhsilini yarımçıq qoyub. Takahasi Sinkitinin dadaist şeirlərinə heyranlığı ucbatından 1923-cü ildə Tokioya gəlib və burada həmfikirlərinə qoşulub.

Heyranı olduğu Pol Verlenin və Artyur Rembonun şeirlərini yapon dilinə çevirməklə qalmayıb, hələ özü də onlarınkına bənzər şeirlər yazıb. “Çəpiş tropikinin nəğmələri” adlandırdığı ilk şeirlər toplusu 1934-cü ildə, “Ötən günlərin nəğmələri” adlı ikinci kitabı isə ölümündən sonra işıq üzü görüb. Verlibrlə yanaşı, ən müxtəlif şeir ölçülərindən ustalıqla yararlandığı üçün mətnləri öz daxili ahəngi və zəngin ritmi ilə seçilir. Bu səbəbdən şeirlərinin çoxusuna sonradan musiqi bəstələnib.

Böyük oğlu vəfat edincə, xiffətdən ağır depressiyaya qapılan şair yatağa düşüb və çox çəkmədən dünyadan köçüb.

ŞİMAL DƏNİZİ

Dənizdəki su pəriləri
harayasa qeybə çəkiliblər.
Dəniz indi
sadəcə dalğaların ixtiyarındadır.

Zülmət gecə çöküb
bu soyuq şimal dənizinin üzərinə.
Dişlərini qıcayan azğın dalğalar
öz qədim dualarını durmadan pıçıldamaqla
səmanı ovsunlayırlar artıq.

Hə, dənizdən su pəriləri
harayasa qeybə çəkiliblər.
Dəniz indi
sadəcə dalğaların ixtiyarındadır.

O AYLI GECƏDƏ QUMLU SAHİLƏ

O aylı gecədə qumlu sahilə
dalğalar bir pion çiçəyi atdı.

“Bu çiçək nəyimə gərək?!” desəm də,
nədənsə əyilib, onu götürdüm.
Dözmədim, qıymadım, gizlədim onu
mən öz kimonomun geniş qolunda.

O aylı gecədə qumlu sahilə
dalğalar bir pion çiçəyi atdı.

“Bu çiçək nəyimə gərək?!” desəm də,
nədənsə əyilib, onu götürdüm.

Göydən Ay baxırdı – gülə qıymadım,
dalğalar şahiddi – qıymadım atım,
gizlədim kimonomun geniş qolunda.

Aylı bir gecədə, qumlu sahildə
tapdığım pionun o nəfis ətri

çökdü ən əvvəlcə barmaqlarıma,
oradan qəlbimə, qəlbimə hopdu.

O gecə ətirli pionu görən
niyə qaldırmışdım mən axı yerdən?!

QAR YAĞIR

Qar yağır
ta üfüqlərə qədər örtür solu-sağı
qar yağır
ta üfüqlərə qədər örtür solu-sağı
sanki düzənlikdə ağappaq bir qoyun sürüsü otlayır
və üfüqlərə qədər örtür solu-sağı
qar yağır
və üfüqlərə qədər örtür solu-sağı
qar yağır
göylərdən yağır
və üfüqlərə qədər örtür solu-sağı
və üfüqlərə qədər örtür solu-sağı
və üfüqlərə qədər örtür solu-sağı
kilsənin damına
həm də
kilsənin yanındakı ağaclığa yağır o
həm də, həm də ki
ara vermədən yağır
göylərdən yağır
qar yağır –
əsgərlərin yürüdüyü
yola da yağır o
arabir
şeypur səsi titrədir yaxını, uzağı
hə, hə,
qar yağır
hələ də, yenə də qar yağır…

Sekine HİROSİ

(1920-1994)

Tanınmış şair, nasir, esseçi, dramaturq və ictimai xadimdir.

Asakusada dünyaya gəlib. Zavodda fəhlə və sahə qəzetinin müxbiri kimi çalışıb. Bir ara kommunistlərə qoşulsa da, sonradan partiya üzvlüyündən çıxıb. "Arxipelaq" və "Çağdaş şeir" ədəbi axınlarının fəal üzvü olub. Həmin dövrdə xeyli sayda məqalə, reportaj, ədəbi və ictimai tənqidi ehtiva edən yazılar, bir neçə roman qələmə alıb. 1954-cü ildə çap etdirdiyi "Canavar gəlib çıxdı: çağdaş şeirin yönləri barədə" araşdırmalar kitabı ədəbi mühitdə güclü mübahisələr doğurub.

S.Hirosi yaşadığı cəmiyyətin tamhüquqlu üzvü kimi yapon qadınlarının haqları uğrunda fəal mövqeli qələm adamlarından biri kimi tanınıb.

S.Hirosinin aşağıdakı kitabları böyük marağa səbəb olub: "Ölü siçan" (şeirlər, 1957), "Şeirlər" (1969), "Qadın masasındakı şeirlər" (1973), "Yeni şeirlər" (1980), "Şəhər şeirləri" (1984), "Qəribə şeirlər" (1989), "Öz yerini tapma cəhdləri" (esselər, 1964), "Əngəl adamlara dirənməyin yolları" (esselər, 1973), "Pyeslər" (1973), "Nağıllar toplusu" (1974).

SİFARİŞLİ RƏSM

Kimdir balığın yiyəsi?
– Özüməm! – deyir balıq.
Olsun, amma onu da
balıqçı torla tutubdur.
Bax, burada siz o balığı
torla tutan balıqçını çəkin.

Kimmiş balıqçının sahibi?
– Özüməm! – deyir balıqçı.
Olsun, amma ov iznini
ona verən hansısa məmurdur.
Bax, burada siz həmin izni
verən o məmuru təsvir edin.

Bəs məmurun müdiri kimdir?
– Özüməm! – dillənir məmur.
Olsun, amma buna görə

onu işdən qovacaq bir müdir də var.

Bəs o müdirin müdiri kimdir?
– Özüməm! – söyləyir müdir.
Olsun, amma heç onun da
böyründən cangüdəni əskik olmur.
Bax, burada siz müdiri qoruyan
keşikçinin rəsmini çəkin.

Bəs o cangüdənin böyüyü kimdir?
– Özüməm! – deyir keşikçi.
Olsun, amma onlara da
bu işdən ötrü bir maaş ödənir.
Bax, burada siz maaş alan
o cangüdəni təsvir edin.

Bəs maaşı ona verən kimdir?
– Özüməm! – dillənir maaş.
Olsun, amma o məbləğdən
bəlli bir vergi də tutulur axı.
Bax, burada siz vergiyə
tabe tutulan maaşı təsvir edin.

Bəs o vergi kimə tabedir?
– Özümə! – dillənir vergi.
Olsun, amma o vergini
ödəyənlər də bizlərik axı.
Bax, burada siz bizim, yəni
vergi ödəyicilərinin rəsmini çəkin.

Bəs biz özümüz kimə tabeyik?
– Özümüzə! – deyirik biz.
Eh, əgər hamı özünə sahib çıxsaydı,
onda bütün Yaponiya bizim olardı ki!

Hə-ə, bax, bu yerdə də siz
bizlərin necə biri olduğumuzu,
nələrə qadir olduğumuzu təsvir edin.

Dilimizə çevirdi – Azad YAŞAR

AVROPA POEZİYASINDAN

SİLVİ MARİ

Silvi Mari flamand şairidir. Flamandlar german dilləri qrupuna mənsub olub, etnik xüsusiyyətlərinə görə daha çox hollandlara və almanlara yaxın olan bir xalqdır. Bu xalq, əsasən, Belçikanın şimalında, Hollandiyanın cənubunda və Fransanın şimal-şərqində məskunlaşıb.

Silvi Mari 1984-cü ildə Belçikada anadan olub. Belçikanın elm və mədəniyyət mərkəzi sayılan Gent şəhərində yaşayır. Qədim Gent şəhəri həm də XVI əsrdə Müqəddəs Roma imperiyasının imperatoru olmuş Karl V Qabsburqun, 1911-ci ildə ədəbiyyat üzə Nobel mükafatı almış yazıçı Moris Meterlinkin və digər görkəmli şəxsiyyətlərin vətənidir.

Şair Silvi Mari dörd şeir kitabının müəllifidir; şeirləri bir çox xalqların dillərinə tərcümə edilib və edilir, mütəmadi olaraq ədəbiyyat jurnallarında çap olunur. O, oxucularla canlı ünsiyyəti sevir, ədəbiyyat müsabiqələrində iştirak edir və bir neçə müsabiqədə qalib gəlib. Nəsr də yazır: 2013-cü ildə onun “Oyunçu-X” adlı romanı çap olunub.

Silvi Mari müasir Avropa poeziyasının ən parlaq simalarından biri sayılır. Avropa mətbuatı Silvi Marinin şəninə çox təriflər yazıb. Bir məqalədə onların hamısını sadalamaq mümkün deyil. Danimarkalı ədəbiyyat tənqidçisi Erik-Van Hammel yazır: “Silvi Mari poeziyanın incisidir”.

Silvi Mari çox ağır zəhmətlə çörək qazanan bir ailənin övladıdır. Onun atası bənna olub. Anası isə ailənin şəxsi təsərrüfatını idarə edirdi. Onlar heyvan saxlayır, elə də böyük olmayan torpaq sahəsində qarğıdalı əkib-becərirdilər. Ailənin böyük qızı təsərrüfat işlərində valideynlərinə yaxından kömək edib onlarla çiyin-çiyinə işləsə də, Silvi bu işi bacarmırdı; onun xasiyyəti başqaydı: otağın bir küncünə çəkilib kitab oxumağı xoşlayırdı. Yuxarı siniflərdə oxuyanda isə o, müxtəlif musiqi qruplarına qoşulub müğənnilik edirdi. Ona görə də anası onu danlayaraq deyirdi: “Küçələrdə avaralanmağı yığışdır! Bu ev-eşik, bu təsərrüfat bizimdi; gəl sən də bir işin qulpundan yapış”.

Nəhayət, tələbəlik dövrü başladı. Silvi Mari kənddən şəhərə – Gentə köçdü, artıq o, ev və təsərrüfat işlərindən azad idi. Həyat şəraiti dəyişmişdi. Bu fürsətdən istifadə edən Silvi Mari daha çox mütaliə edir, gündəlik yazırdı; hətta şairliyə başlamışdı: intensiv olaraq şeir yazırdı. Sonra o, ailə qurdu –

bir yazıçıya ərə getdi. Fəxrlə yazır ki, yazıçıyla ailə qurub, övladı var, şeir yazmaqla və yazıçılıq sənətini tədris etməklə çörəkpulu qazanır. Bütün zəruri işləri yoluna qoyandan sonra hər gün heç olmasa yarımca saat vaxt tapıb şeir yaza bildiyinə görə sevinir.

On ildən artıq bir vaxtda şair Silvi Mari Avropanın Sənət Akademiyalarında yazıçılıq sənətindən mühazirə oxuyur və istər-istəməz sual yaranır: görəsən, auditoriyada oturan dinləyicilərə o, nə deyir, nə öyrədir? Mənim bildiyimə görə, gələcəyin yazıçı və şairlərinə onun əsas tövsiyəsi budur ki, şeir (eləcə də hekayə, povest və roman) yazanda özünüzü professor kimi göstərməyə çalışmayın, mümkün qədər sadə olsanız yaxşıdır. Silvi Mari yazır: "Yazıçılıq sənətinə adi bir iş kimi yanaşmaq əsla düz deyil. Əgər nəsə yeni bir şey yaratmağa çalışırsınızsa, çox böyük ehtimalla demək olar ki, boş yerə əziyyət çəkib vaxt itirirsiniz, əslində, heç nə alınmayacaq, siz heç nəyə nail ola bilməyəcəksiniz. Qeyd-şərtsiz, düzəliş etmədən yazırsınızsa, hökmən uğursuzluğa düçar olacaqsınız və mən bu halın baş verməməsi üçün mübarizə aparıram. Həm də mən tək deyiləm. On ildən artıqdır ki, mən yazmaq istəyən, lakin həqiqətən nəyəsə nail ola biləcəklərinə inanmayan adamları öyrədirəm..." – Bax belə, şair Silvi Mari özü şeir yazır, eyni zamanda həm də gələcəyin şair və yazıçılarına sənətin sirlərini öyrədir.

Silvi MARİ

YAY GÜNLƏRİ

yay vaxtı dəniz qırağında çox şey olur,
qadınların çılpaq əndamına
kişilər krem çəkib sürtürlər,
oğlan uşaqları topu havadaca tuturlar.
görürsən kimsə donquldanır
inadla deyinib başını qatır,
tarım çəkilmiş iplər
bir azdan yenə boşalır.
sinoptik nə desə də, mən çətir götürürəm,
bilirəm şəksiz hər şey dəyişəcək
fəqət öz yatağıyla axan sel kimi
gəlib o, qabarıb qalxmış dənizi
geri qaytaracaq,
heyvanla gələcək, uşağı mat qoyacaq.

MODEL

mən nəsə dedim, səni çəkub
qarşıdakı stulda oturtdum
işığı yandırdım, dəftərçəmdən
bir vərəq cırdım.
bir azdan şəklin kağıza düşdü,
bu, sənin kölgəndi, ütülənibdi,
sənin bir parçandı.
sən bəyənsən də, sonuc əsla
ürəkaçan deyildi və hər şeyi
biz təzədən başladıq, fəqət mən şərt qoydum:
ağzını aç ki mən oradan
sənin ürəyinə toxuna bilim.

HƏRDƏN OLUR Kİ

hərdən olur ki istəyirəm öləsən, əzizim,
demirəm lap belə doğrudan öləsən
amma istərdim heç olmasa bir dəfə
gücsüz qolları havada yellənən,
dili çıxıb sallanan nəşini
çiynimə alıb aparım.
təsəvvür edirəm: səni illərlə sürüyüb
o qədər aparıram gözün də əndamın da
çürüyür, dərin soyulur qat-qat,
gərəksiz nəsnə kimi yola tökülüb qalır
deyirəm geri qayıdanda ona baxıb
heç olmasa yolumu azmaram.
lap sonda sür-sümük qalağı –
skeletin qalacaq
isti havada mənə yük olub bezdirən
jaketin ilgəyindən yapışıb
çiynimə atdığım kimi,
onu da sürüyüb aparacam.

* * *

KOFE FİNCANI

biz adi bir kofe fincanına girib
orda da oturardıq.
bilirsən, belə əyri divarlı
qədimi fincan,
onun divarı boyu gedib
bir-birə qovuşardıq.
su parçı da deməzdim,
ağacdan düzəlmiş yekə silindr
dibi də yastı
amma balaca
elə bil baş soğandı
bəlkə də biz orda olmalıydıq
evimiz də elə
kofe fincanı olmalıydı.
***



Şeirləri ingilis dilindən Ramiz ABBASLI tərcümə edib.

OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN"

jurnalına abunə yazılışı davam edir.

Əlaqə nömrələri:

+ 99412 498-78-10
+ 99455 668-78-79

Jurnalın bir nüsxəsinin qiyməti 2 manat, illik abunə qiyməti 24 manatdır.
İNDEKS: 76300

BAŞ REDAKTORUN PROFİLİ

KAMRAN QASIMOV – ***Həmsöhbətim tənqidçi, tərcüməçi, ssenarist, əməkdar incəsənət xadimi, "Azərbaycan" jurnalının Baş redaktoru, – bunu xüsusi vurğulamaq istərdim – peşəkar redaktor İNTİQAM QASIMZADƏDİR.***

İ.Q. – (gülür) Bilirsiz nəyə güldüm? Peşəkar redaktor – dediz – ona. Həqiqətən, redaktorluq gənc yaşlarımdan elə bil mənim alnıma yazılıb. Redaktorluqla bilirsiz neçə yaşından məşğulam? Düz 26 yaşımdan; 53 ildir.

K.Q. – Mənim ənənəvi bir sualım var. İstəyirəm söhbətimizə də elə həmin sualla başlayaq. İntiqam Qasımzadəni hansı mühit yetişdirib?

İ.Q. – Təbii ki, yazıçı mühiti, ona görə ki, atam şair idi. Mən şair ailəsində böyümüşəm – şair Böyükağa Qasımzadənin ailəsində. Atam çox gənc – 41 yaşında vəfat edib.

Bizim evdə atamın dostları Ənvər Əlibəyli, Zeynal Cabbarzadə, Həsən Qasımov, türkmənistanlı şair – Türkmənistanın Xalq şairi Qara Seyidliyev, Nəbi Xəzri, İsa Hüseynov, Salam Qədirzadə, İbrahim Kəbirli və başqaları yığışardılar. Biz də – qardaşımla mən, – balaca uşaqlar idik – qapıda dayanıb onların söhbətlərinə qulaq asardıq. Ədəbiyyat söhbətlərinə, sənət söhbətlərinə.

K.Q. – İxtisas seçimində hansı qərarı vermişdiz və ümumiyyətlə, atanızın qərarı var idimi?

İ.Q. – Seçim ərəfəsi yox idi. Mən Leninqrad Gəmiqayırma İnstitutuna getmək istəyirdim. Ondan 3 il əvvəl atam vəfat etmişdi və anam qəti etiraz etdi ki, sizi gözümdən kənara qoya bilmərəm.

K.Q. – Bəlkə düz edib elə, o zaman biz redaktor İntiqam Qasımzadəni görməyəcəkdik.

İ.Q. – Yəqin ki, yox, görməyəcəkdiz. İkincisi də, anam düz deyirdi ki, Leninqradın iqlimi çox sərtdir. Qışı soyuq, yayı isti idi. Qış-yay dəhşətli rütubət. Vaxtilə Niyazi orada oxuyanda xəstələnib geri qayıtmışdı. Ümumiyyətlə, azərbaycanlılar Leninqradın havasını götürmürdülər. Nə isə, buraxmadı anam məni. İkinci bir yol qaldı, o da Azərbaycan Dövlət Universitetinə aparırdı. Getdim, seçimim jurnalistika oldu. İşin tərsliyindən, həmin il jurnalistikaya qəbul olmadı. Naəlac qalıb sənədlərimi filologiya fakültəsinə verdim.

K.Q. – İntiqam müəllim, uzun illərdir ədəbiyyatda və kinodasız. Redaktor işinin xüsusiyyətləri nədir? Redaktor kimdir?

İ.Q. – Redaktor bilirsiz kimdir? Redaktor o adamdır ki, başqasının əsərinə özününkü kimi yanaşır, qayğı göstərməyi bacarır. Onun uğuruna sevinə bilir, onun qüsurlarını islah etməyə çalışır. Öz yazısı kimi baxır mətnə. Bunu müəllif hiss edir. Onda redaktorla müəllif arasında rabitə yaranır. Belə bir əlaqənin yaranması isə, əsərin xeyrinə olur. Bu, ədəbiyyatda da, kinoda da, hətta musiqi sənətində də belədir.

K.Q. – Redaktor müdaxiləsinə görə İntiqam Qasımzadəni düşmən gözündə görənlər olubmu?

İ.Q. – Əlbəttə, o qədər... Əksəriyyəti də – qrafomanlar. Onlar görüblər. Elə indi də görürlər, "əsərləri" qaytarılanda...

K.Q. – Gəlin, konkret danışaq, İntiqam müəllim. Onlar dinməzcə yazılarını götürüb getmirlər ki... Nə deyirlər axı?

İ.Q. – Məsələn, deyim də sizə. Ən çox onu deyirlər ki, sən özün nə yazmısan ki, mənim əsərimi bəyənmirsən.

Çox görkəmli bir yazıçı var idi – xahiş edirəm adını soruşmayın, çünki vəfat edib, onsuz da deməyəcəyəm – mənə dedi ki, mənim sənin ağırlığında kitablarım var. Mən də qayıtdım ki, ay filankəs müəllim, tərəzidə makulaturanı çəkirlər, əsərləri çəkisinə görə qiymətləndirmirlər.

K.Q. – Bu, redaktor cavabıdır, yeri gəlmişkən.

İ.Q. – Pərt oldu və düz getdi. Çünki düz demişdim. İndi də deyirlər bu sözləri, həmkarlarıma qarşı. Mənim filankəs ağırlıqda əsərlərim var. A kişi, bu kartof deyil, lap heç alma da deyil – alma nə qədər şirin olsa da. Çəkisinə görə yox, dəyərinə görə qiymətləndirilir. Yusif Səmədoğlu bir roman yazıb – tamamlanmamış bir romanı da var –

və onun ağırlığı bədii siqlətindədir, onun bədii dəyərindədir. İndi belələri də var; gəlir ki, mənim 26 kitabım çıxıb, amma siz – "Azərbaycan" jurnalı mənim şeirlərimi çap eləmirsiz. Bir beləsinə bilirsiz nə dedim? Dedim ki, ay maşallah, Səməd Vurğunun sağlığında 6-7 kitabı çıxmışdı, sənin 26. Başa düşdü nə dediyimi...

K.Q. – İntiqam müəllim, belə bir fikir var ki, yazıçı ömrü boyu bir əsər yazır.

İ.Q. –Bəli... Bu təbiidir.

K.Q. – Gəlin, bunun hikmətini bir az açaq.

İ.Q. – Düzdür, bütün yazıçılara şamil etmək olmaz bu fikri. Səyahət və macəra yazanlar bir yox, müxtəlif əsərlər yazırlar. Məsələn, Çingiz Abdullayev müxtəlif əsərlər yazır. Düzdür, onun da bir çox əsərlərinin qəhrəmanı bir adamdır, Dronqodur. Ciddi yazıçıların qəhrəmanlarının obrazlarında, aşıladığı duyğunun, hissin mayasında özü var. Çünki bu başqa cür mümkün deyil. Ona görə ki, əsər insanın, yazıçının qanı, canıyla yazılır. O qan, can dəyişmir. Qan qrupu doğuluşdan necə varsa, elə də qalır; məsələn, ya müsbət bir, ya mənfi bir.

K.Q. – Bayaqkı sualımı bir qədər başqa cür qoymaq istəyirəm. Yazıçılar redaktorla nə dərəcədə həmfikir ola bilirlər?

İ.Q. – Bu suala birmənalı cavab vermək mümkün deyil. O, yazıçıdan və redaktordan asılıdır.

K.Q. – Kinostudiyada çalışmısız. Bizim bir çox gözəl filmlərimizin – "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Gün keçdi" – redaktoru olmusunuz. Bu siyahını uzatmaq da olar. Gəlin, kinostudiyanın fəaliyyətindəki rolunuzdan danışaq. Redaktor İntiqam Qasımzadə nələri xatırlayır?

İ.Q. – İntiqam Qasımzadənin fəaliyyətindən danışmazdan əvvəl, istərdim həmin dövrdə kinostudiyanın işindən danışaq. Bu mənim şəxsi fikrimdir – mənə elə gəlir ki, Azərbaycan kinosunda 60-70-ci illərdən başlayan bir intibah dövrü yaşandı. Təəssüf ki, kinomuzun bu qızıl dövrü – intibah mərhələsi çox uzun çəkmədi. "Bir cənub şəhərində", "Şərikli çörək", "Uşaqlığın son gecəsi", "Bizim Cəbiş müəllim", "Dəli Kür", "Yeddi oğul istərəm", "Nəsimi" və s. Bu filmlərin hamısı həmin dövrdə çəkilib. Heç şübhəsiz, redkollegiyanın da bu nailiyyətlərdə rolu az deyildi. Məlumdur ki, repertuardan çox şey asılıdır. Onu kim müəyyən edirdi? Redkollegiya; o dövrdə kinostudiyanın Baş redaktoru olmuş Yusif Səmədoğlu ilə redkollegiyada çalışan redaktorlar. Mən də o zaman çox cavan bir oğlandım və üç redaktordan biri idim; belə bir xoşbaxtlıq mənə nəsib olmuşdu.

K.Q. – İntiqam müəllim, sovet dövründə Siz sosializm, kommunizm ideologiyası ilə bağlı insan olmusuz yəqin...

İ.Q. – Yox. Qətiyyən.

K.Q. – Azad fikirli olmusuz?

İ.Q. – Bilirsiz, bu dəbdir, belə çıxar ki, mən də dəbə uyğun danışıram. Amma olanı da danmaq fikrində deyiləm. Mən və bir çox yaxın dostlarım; adlarını çəkmək istəmirəm – biz hamımız sovet siyasətini qəti qəbul etməyənlərdən idik. Azərbaycanın müstəqilliyi haqda düşünən insanlardıq.

K.Q. – Bunu necə ifadə edirdiz, məsələn?

İ.Q. – Yazılarımızda. Bircə misal çəkim, məsələn, görkəmli yazıçımız Anar müəllim, o vaxt "Anlamaq dərdi" adlı çox ciddi, sanballı bir əsər yazmışdı. O əsər azərbaycanlı ziyalının taleyimiz, ədəbi talelərimiz haqqında çox cəsarətli yazı idi. "Qlavlit" o yazının "Azərbaycan" jurnalında çapına icazə vermirdi, qəbul etmirdi. O vaxt Baş redaktorumuz İsmayıl Şıxlı idi. İ.Şıxlı dəfələrlə o idarəyə getdi və nəhayət ki, əsərin olduğu kimi çap olunmasına nail oldu. Belə çətinliklər olub. Və yaxud xalq yazıçısı Elçini götürək; o, hekayələrində, povestlərində adi insanların sıxıntılarını önə çəkirdi. İndiki dövrdə ədəbiyyatın əsas uduzduğu şey bilirsiz nədir – verilən sərbəstlik. Nə istəyirsən, yaz. Bunu "ağzına gələni yaz" kimi başa düşənlər var. Bu da ədəbiyyatın ziyanına işləyir. Amma sovet dövründə olan ideoloji basqılardan yan ötməkçün yazıçı Ezop dilinə keçirdi.

K.Q. – Redaktorun köməyi necə olurdu bu məqamda?

İ.Q. – Redaktor, əgər vətəndaş idisə, yazıçının, xalqının, millətinin xeyrinə nə isə bir iş görmək istəyirdisə, çalışırdı ki, o yazı "Qlavlit"dən keçsin və çap olunsun.

K.Q. – Nümunə göstərə bilərsizmi öz şəxsinizdə.

İ.Q. – Məsələn, mən Yusif Səmədoğlunun "Qətl günü" əsərinin redaktoru olmuşam. Bu redaktorluq, əlbəttə, nisbidir. Maraqlıdır, "Qətl günü"ndən sonra o, bizim, yəni "Azərbaycan" jurnalının redaktoru oldu *(Hələ kinostudiyada Yusiflə bir yerdə işləmişdim. Mən redkollegiyanın üzvü idim; o, kinostudiyanın baş redaktoru)*. Yusifin əsəri redaksiyaya daxil olanda, əslində, redaktorumuz yox idi. Əkrəm Əylisli getmişdi, yeni redaktor təyin olunmamışdı. Redaktoru İsa İsmayılzadə əvəz edirdi, mən isə məsul katib idim. Əl-ələ verib işləyirdik. Yusifin əsərinin çapına "Qlavlit" (xüsusi vurğulayıram ki, müasir oxucular bilsinlər ki, senzura idarəsi) icazə vermədi. Biz də əsərin getməsi üçün öz arqumentlərimizi qoyduq ortaya. Ondan sonru əsəri Mərkəzi Komitəyə göndərdilər – orda 3 ay saxladılar. Çox söz-söhbətlərdən sonra çətinliklə çapına icazə verdilər. Əsər jurnalın 84-cü il 4-cü nömrəsində, nəhayət ki, çıxdı; 6-cı ayın – iyunun axırında.

K.Q. – Və o cür əsər sovet vaxtı buraxıldı.

İ.Q. – Bəli, buraxıldı. Çünki biz İsa İsmayılzadə ilə təkid etdik, 3 ay jurnalı saxladıq, çıxarmadıq ki, "Qətl günü" çap olunsun. Əgər başqa əsərlə əvəz etsəydik (Mərkəzi Komitədən belə deyirdilər: "Hələlik başqa əsər qoyun, bunun məsələsini sonra həll eləyərik"), "Qətl günü" qalacaqdı. Redaksiyanın təkidindən, Yusif Səmədoğlunun özünün nüfuzundan çəkindilər. Yusifin bəzi sənət dostlarının da əsərin çap olunmasında rolu oldu. Dostları: – "Siz nə istəyirsiz? İstəyirsiz ki, Azərbaycanda da bir dissident yaradasız?" – onlara belə bir söz atdılar və onlar da, zənnimcə, bu sözdən çəkindilər.

Və bir gün mənə zəng vurdular ki, – Xeyrulla Əliyev rəhmətlik – Mərkəzi Komitənin Mədəniyyət şöbəsində bölmə rəhbəri idi – dedi, İntiqam, təbrik edirəm, istəyinizə nail oldunuz. Əsəri çapa verə bilərsiz; 3 qeydimiz var amma. İnanın, heç bir qeydi-filanı nəzərə almadıq. Yəni sətiraltı məna qalmaqla bir yerdə cümləni bir balaca dəyişdik, başqa cür yazdıq.

K.Q. – İntiqam müəllim, maraqlı bir məqam var. Siz həm ədəbiyyatda, həm də kinoda çalışmısız. Hansı sahə sizə daha doğmadır? İnsan müxtəlif sahələrdə çalışa bilər. Ruhən hansı sahədə rahatlıq tapmısız?

İ.Q. – Bu yaşa gəlib çatmışam, amma bunu hələ müəyyən edə bilməmişəm. Bilirsiz, kino mənim xroniki xəstəliyimdir. Şəfiqə xanımın rəhbərlik etdiyi Kinematoqrafiya İttifaqının keçirdiyi müsabiqədə münsiflər heyətinin sədri idim. Kino günündə mükafatları təqdim edərkən çıxışımda dedim ki, kino elə bir azardır ki, ona tutulan ömrü boyu sağala bilmir.

K.Q. – Sağala da bilmirsiz.

İ.Q. – Nə yaxşı da sağala bilməmişəm. Sənədli filmlər sahəsində bu gün də fəaliyyətimi davam etdirirəm. Müəllif kimi çalışıram, ssenarilər yazıram.

K.Q. –Yəni Sizin ssenarilər əsasında çəkilən filmlər var?

İ.Q. – Bəli, var. 20-dən artıq sənədli filmin, bir animasiya filminin ssenari müəllifiyəm. Mənim filmlərim var.

K.Q. – Bəs, bədii əsərləriniz necə; roman, hekayə...

İ.Q. – Yox, yox, roman yazmamışam, radioda amma, hekayələrim, uşaqlarçün nağıllarım oxunub. Bilirsiz, Kamran, mən ədəbiyyata tənqidi məqalələrlə gəlmişəm. Bu gün də hərdən əlim dinc durmur, tək-tük yazıram; məsələn, bir tamaşa haqqında, ya da bir film haqqında. İlk yazılarımdan biri – "Doğmalar, yadlar" idi – Elçinin iki povesti haqda yazmışdım. Gənc idik onda. Komsomolun qərarına da düşmüşdü Elçinin o povestləri; qara siyahıya. Yəni görün gözəl həyatımızı gənc yazıçı necə qara boyalarla verib. Və orada mənim də adım çəkilmişdi ki, gənc tənqidçi də bu əsərlər haqda hələ bir müsbət yazı da – yəni məqalə də – yazıb.

K.Q. – Tənqidçi, redaktor, kino redaktoru. Daha hansı İntiqam Qasımzadədən danışmaq olar?

İ.Q. – Söhbətimizin əvvəlində dedim Sizə, mən ədəbi mühitdə böyümüşəm, şair oğluyam, amma özümü şair hesab etmirəm. Düzdür, gəncliyimdə bir ara yazmışam; 22-24 yaşları arasında (böyük bir məhəbbət macərası yaşadığım vaxtlar). 65-69-cu illərdə.

K.Q. – Müsbət nəticələndimi, yoxsa melodrama çevrildi?

İ.Q. – Yox. Bu mövzu başqa bir mövzudur, bizim söhbətimizə dəxli yoxdur. Daha sonra həyat yoldaşımla tanış oldum. Təbii ki, sevdim onu. Hiss etdim ki, biz ailə qura bilərik. Qurduq da. Düz 50 yaşı var ailəmizin. O sevgi isə, başqa bir sevgi idi. O mərhələ mənim üçün həyatımın müqəddəs çağlarıdır; bu yaşımda da böyük duyğular və hisslərlə xatırlayıram.

K.Q. – Ailənizdə yolunuzu davam etdirən varmı?

İ.Q. – Yoxdur. Mənim iki qızım var. Biri həkimdir, biri də ərəbşünasdır. Amma hal-hazırda ərəb ədəbiyyatı ilə məşğul olmur, firmaların birində rəhbər vəzifədədir.

K.Q. – "Azərbaycan" jurnalına artıq neçə ildir rəhbərlik edirsiz?

İ.Q. – 25 ildir "Azərbaycan" jurnalının Baş redaktoruyam. 46 ildir bu jurnalda çalışıram.

K.Q. – Bir zamanlar insanlar hələ kitab halında çap olunmamış əsərləri "Azərbaycan" jurnalında oxuyurdular. İndi vəziyyət necədir? Jurnalın oxucusu varmı? Yoxdursa, bəlkə günah İntiqam Qasımzadədədir? Səmimi danışaq.

İ.Q. – Əlbəttə. Biz elə bayaqdan səmimi danışırıq da... Elə deyil?..

K.Q. – Onda, günahlarınızı etiraf edin (gülümsəyir).

İ.Q. – *(gülür)* İntiqamın heç bir obyektiv günahı yoxdur. Səmimi deyirəm Sizə. Əvvəla, mən sizə deyim ki, bir neçə redaktorla işləmişəm. Kinostudiyada yüksək ədəbi zövqlü Yusif Səmədoğlu ilə işləmişəm. Daha sonra İsmayıl Şıxlı, Əkrəm Əylisli və Cabir Novruzla. Sonra yenidən qayıdıb Yusif Səmədoğlu ilə işləmişəm. Yəni, mən jurnalda işləyirdim, Yusifi bizə redaktor qoydular. Bu adları gördüz də? Onların hərəsindən nəsə götürmüşəm və bu gün də sələflərimin yolunu davam etdirirəm. Ən əsası, ədəbiyyata vicdanla xidmət etməkdir – o yolu. Şəxsi maraqlar baxımından yanaşmamışam ədəbiyyata. Kimisə sevib-sevməmək mövqeyindən yanaşmamışam insanlara, yəni yazıçılara. Bir dəfə də olsun! Heç vaxt öz ədəbi vicdanıma xəyanət etməmişəm. Bu mənada mən, səmimi deyirəm, vicdanım qarşısında təmizəm.

K.Q. – Təşəkkür edirəm, İntiqam müəllim, bu səmimi söhbətə görə. Çox sağ olun.

♦ Yazıçının arxivindən

"Ümidinin keşiyində dur, əzizim!"



Bu yaxınlarda Şəkər Aslanın arxivinə baxarkən iki məktub diqqətimi cəlb etdi: hər ikisi əbədiyaşar Xalq şairi Məmməd Arazın imzası ilə. Biri 1967-ci ildə Şəkər Aslana ünvanladığı cavab məktubudur. Yəqin ki, Şəkər Aslanın məktubu da Məmməd Arazın arxivində qorunur və ya heç qalmayıb...

İkinci məktubun yazılmasının isə canlı şahidiyəm. Lənkərandan Bakıya gələndə Şəkər Aslan "Evə məktub" adlı kitabını Məmməd Araza çatdırmağımı xahiş etdi. Məmməd Araza çatdıranda şair kitabın bəzi səhifələrinə "quş" qoyaraq vərəqlədi. Bildim ki, nəsə yazacaq. Növbəti həftə "Azərbaycan" nəşriyyatına gedəndə Məmməd müəllim makinadan çıxmış yazını mənə oxutdu. Kövrəldiyimdən təşəkkür etməyə söz tapmırdım. Və yazını zərfə qoyub Şəkər Aslana ünvanladıq. "Sən bölgə şairi deyilsən, ölkə şairisən".

Bu həmin dövr idi ki, Şəkər Aslan 22 il işlədiyi doğma "Lənkəran" qəzetindən uzaqlaşdırılmışdı. "Söz" jurnalının təsis olunmasına isə aylar qalırdı.

Məmməd Arazın qayğısı, xeyirxahlığı sayəsində çoxlarının taleyinə işıq düşüb. Bunun şahidi çox olmuşam. Əksəriyyəti bu xeyirxahlıqları unutsa da, Şəkər Aslan bu təmənnasız qayğını, diqqəti ömrünün sonunadək minnətdarlıqla yad edirdi.

Bu gün dönə-dönə oxuduğum məktubların müəlliflərinin heç biri həyatda yoxdur. Amma hərarət dolu, səmimi məktublar qalır. Nə xoş ki, yazılanların ömrü onları yazanların cismani ömründən uzundur. Bir də ki, bu məktublarda onların xətti, yazı üslublarıyla yanaşı, həmin anlardakı ovqatları da aydın sezilir. Həmin məktublar o zaman üçün iki şəxs arasında olan söhbət idi. İndi isə o məktublar, o yazılı söhbətlər hamıya ünvanlana bilər. Məktublarda ötən əsrin həmin dövrünün ab-havası var, tarixi var.

Şəkər Aslan Məmməd Arazın Lənkəran Dövlət Dram Teatrında keçirilmiş 60 illik yubileyində (1993) çıxış edib və yubilyara həsr etdiyi şeirini oxuyub. Fikirlərini çıxışında ürək genişliyilə əks etdirərək, şairə minnətdarlığını bildirib.

Haqq dünyasında olan hər iki şairin doğum günü oktyabr ayındadır. Hər ikisinin ruhuna rəhmət diləyərək məktubları "Azərbaycan" jurnalı oxucularına təqdim edirik.

Sevda ƏLİBƏYLİ

Şəkərcan, salamlar!

Məktubunu alıb sevindim. Mən yaza bilməyəndə, yazmağa vaxtım olmayanda, istəyimcə yazmayanda çox bədbin oluram, yata bilmirəm, əsəbi hal keçirirəm. Belə vaxtlarda dostların məktubu məni tərpədir, düşünürəm ki, heç olmasa bir adamın yadında varam, bir adam üçün yaşayıram, bir adama təsəlli verə bilirəm.

Həm məktubun, həm qəzetdəki rəyin məni sevindirdi. Təşəkkür edirəm. İndi gənclər şöbəsi "Azərnəşr"dən ayrılıb ayrı nəşriyyat olduğundan, bizdən (bizim şöbədən) bir sıra əlyazmalar ora verilib (siyahı ilə). Vəziyyəti öyrənərəm (mən bu gün evdəyəm, odur ki, doğru məlumat verə bilmirəm), bizdə qalıbsa, özüm məmnuniyyətlə redaktə edərəm; ora da verilsə, yenə narahat olmaya bilərsən, hamısı öz yoldaşlarımızdır. Bir də, sənin kimi şairi hər vicdanlı kəs ürəklə redaktə etməyə sevinər.

Bakının havası çox bulanıqdır: yağır, kəsir, gün düşür, külək qopur və s. (elə ədəbi havası da ondan betərdir).

Arzu edirəm ki, yeni şeirlərlə Bakıya gələsən, bizi sevindirəsən. Mən də ara-sıra yazıb-pozuram. Ancaq istədiyim yazıları çap eləmirlər. Mən isə istəyimi ütüləyə bilmirəm. Belə gedişlə də bir yana çıxmaq çətindir. Nə isə, sağlıq olsun. Nə yaxşı ki, sabaha ümid var.

Hörmətlə:
qardaşın Məmməd Araz
30.I.67

SƏN BÖLGƏ ŞAİRİ DEYİLSƏN...

Hörmətli dostum, sənətkar qardaşım Şəkər Aslan!

Sənin poeziya məclisinə dəvət olunduğum üçün razılığımı bildirirəm. Ancaq gələ bilmədiyimə görə səndən və məclis iştirakçılarından üzr istəyirəm. Sən elə xoşbəxt şairlərdənsən ki, sənin geniş poeziya "məhsulun" var. Bu əsl sənət məhsuludur, əsl söz varıdır. Bu mənada sənin sənətinlə bütün dalğalarda, bütün zaman və məkanlarda danışmaq olar, hər cür mübahisə və müqayisələr aparmaq olar və bu söhbətdə hər cür məxrəcə gəlmək mümkündür. Sən yazırsan:

Xalqımla ötüşüb hər günüm, ayım,
Dilimdə gül açıb sözü, kəlməsi;
Xalqımın dərdinə yüz yol yarayım,
Mənim dərdim nədir, o heç bilməsin.

Ömrümüz ömrünə qovuşur, bitir...
Xalq həmişə yaşar, biz gedəriyik.
O, özü qüdrətli qala kimidir,
Biz həmin qalanın kərpicləriyik.

Həyatda mən nələr gördüm gözümlə,
Nə duydum hər qəlbin haray səsində.
Hər sağlam şeirimlə, sərrast sözümlə,
Döyüşən əsgərəm xalq cəbhəsində.

Əziz şair, xalq cəbhəsinin əsgəri olmaq hər "xalq" deyən şairə qismət olmur. Bunun üçün gərək onun rəsmini çəkəsən, bu çəkmək azdır, gərək sözün təzə ola, həm də gərək xalqın sözünə qaynaq ola sözün; onun möhürü ilə təsdiqlənə sözün; sən belə bir bəxtəvərliyə qovuşan şairlərdənsən. Sənin arxanda böyük xalq dayanır, sən bölgə şairi deyilsən, sən ölkə şairisən. Vaxtı ilə Sovetlər birliyi adlanan respublikaların əksər xalqlarının dilində sənin şeirlərin səslənib, dünya dillərinin çoxunda şeirlərin ünvan tapıb, hələ bundan sonra sənin şirin dilin yeni-yeni ünvanlar tapacaq.

"Şəki" şeirində yazırsan:

Abidə yazıdır daşın, divarın,
Demə saralacaq, demə solacaq.

Belə bir dünəni olan diyarın
Gör indi sabahı necə olacaq!

Millət, xalq özünə inanmalıdır, öz sabahına inanmalıdır, hər bir qələbənin ilk addımı inamdan başlanır, şair uğurları, şair qələbələri də belədir: ümid-inam qapıdan perikəndə ilham da yazı masasından uzaq düşür. Ümidinin keşiyində dur, əzizim! İnamının keşiyində dur, əzizim! İnadının keşiyində dur, əzizim! Bütün bunların əbədi mərkəzində sən özün olmalısan; bundan ötrü bədbinliyə qapılmaq deyil, böyük bir ehtirasla yazı masana, qələminə söykən, ilhamını küsməyə qoyma! İşləyən qələm, dünyanın ən güclü hakimlərindən, fatehlərindən daha güclüdür. Qələmin məhsulu sözdür, sözün sürəti isə ən yeni güllələrin sürətindən itidir.

Yazırsan:

Həyata sevinən bir ürəklə bax,
Hər kəs taleyinin elə şahıdır.
Bu gözəl torpaqda xoşbəxt olmamaq
İnan ki, insanın öz günahıdır!

Çox gözəl demisən! Bu deyimin eyhamından çoxumuza pay düşür.

Azərbaycan poeziyası heyrətamiz dərəcədə böyük poeziyadır, qədim poeziyadır, neçə yüz illərin poeziyasıdır. Bu poeziya meydanına çıxıb, at səyirtmək hər oğulun işi deyil. Sən, Şəkər Aslan, bu yolda öz sözünü deyən, onun qənşərində görünə bilən, görünmək azdır, öndə gedən şairlərdən biri kimi yeri olan şairlərdənsən. Mən bu "yeri olan" sözünü nahaq işlətmirəm. Uzun müddət mənəmliyi ilə "istedadsız cızmaqaraçılar" həqiqi sənəti görünməyə qoymayan qələm tutanlar çox olub, elə indi də var. Günlərin birində yəhərdən enəndə məlum olub ki, onun yeri yox imiş, ya yel aparıb, ya sel aparıb, ya da külək üfürüb dağıdıb. Yeri olmayanları isə torpaq tez gizlədə və unutdura bilir...

Sən bu böyük sənət xəritəsində öz poetik nöqtəsini tapan şairsən. Təkrar edirəm: bu qələbə hər sənətkara qismət olan səadət deyil. Neçə illərdir ki, sənin təptəzə poeziyandan zövq alan, onu ürəkdən təbliğ edən qələm dostlarından biri də mənəm.

Sənə bundan sonra da böyük uğurlar diləyən dostun
Məmməd Araz
25.VIII.92

ŞAİR ÜÇÜN TƏRİF

Tərifdən qorxuram, qorxuram yaman...
M.Araz

Şair, başla yenə şeir deməyə,
Hər təzə misraya bir əsirəm mən.
Səni ürəyimcə tərifləməyə,
Qələm götürmüşəm, söz gəzirəm mən.

Hər təzə şeirdən ürək sevindi,
Bir az şöhrətləndi, ucaldı vətən!
İlhamla, həvəslə qoy yazım indi
"Tərifsiz bir ömrün tərifi"ni mən.

Həm ülvi, həm müdrik, həm səmimisən,
Ah, necə boy atdın sən bu ölkədə?
Bir qollu-budaqlı ağac kimisən,
Bütün yaşıdların qalıb kölgədə...

Düşür hər sözündən nur üzümüzə,
Hər kəs nurlu misra yazan deyildir!
Etiraf edirik öz-özümüzə,
Məmməd Araz olmaq asan deyildir!

Sən böyük Məmmədsən, mən adi Şəkər,
Sinəndə döyünən odlu ürəkdir!
"Hamı Məmməd Araz olsaydı əgər,
Onda Məmməd Araz kimə gərəkdi!"

Təmkinli olaydıq kaş sənin kimi,
Odlu misralardır hünərin, gücün...
Qorxuram oxuyub indi şeirimi
Məndən inciyəsən bu tərif üçün.

Olmadın heç kəsə tərif şəriki...
Buludtək boşalıb yenə dolmusan.
O qədər sevmisən tənqidləri ki,
Böyük təriflərə layiq olmusan.

Sənət ümmanında açanda yelkən,
Bilmisən kim idin, sonra kim oldun.
Hələ başqasına tələbə ikən,
Mənə bir sevimli müəllim oldun!

Hər qəlbə bir təzə qapı açırsan,
Nə qədər mənalı il ötüşəcək!
Tərifdən ki, belə qorxub qaçırsan,
Hər yerdə payına tərif düşəcək!..

Şəkər Aslan
1977-1993

Təyyar SALAMOĞLU

BİR ROMANIN İZİ İLƏ

Söhbət Sultan Məcid Qənizadənin "Məktubati-Şeyda bəy Şirvani" əsərindən gedir

II YAZI

QURANİ-KƏRİMİN FƏLSƏFƏSİ SULTAN MƏCİD QƏNİZADƏNİN BƏDİİ TƏFSİRİNDƏ

"Məktubati-Şeyda bəy Şirvani" əsərinin ikinci hissəsinin birinci hissəsi ilə müqayisədə daha mükəmməl bədiilik keyfiyyətlərinə malik olmasını əksər tədqiqatçılar qeyd etmişlər. "Gəlinlər həmayili" "bitkin realist roman" (Mir Cəlal, F. Hüseynov. XXəsr Azərbaycan ədəbiyyatı. Bakı. Maarif. 1982, s.285), "yığcam süjet, kamil kompozisiyaya malik" əsər (Məmmədov X. Sultan Məcid Qənizadə. Bakı. Yazıçı. 1983, s.141) kimi dəyərləndirilmş, lakin əsərin təhlilində onu roman kimi şərtləndirən xüsusiyyətlərin açılmasına çox ötəri diqqət yetirilmişdir.

Ümumən, maarifçi-realist əsərlər üçün ideyadan süjetə gəlmək prinsipini əsas alan tədqiqatçılar "Gəlinlər həmayili"nə də bu prizmadan yanaşmış, əks etdirilən bütün əhvalat və obrazların müəllif ideyasını gerçəkləşdirmək üçün tendensiyalı şəkildə əsərə daxil edilməsini əsas götürmüş, süjetin inkişafındakı təbiiliyə diqqət yetirməmişlər.

Fikrimizcə, bu baxış sistemi romanın bədii strukturunun da düzgün müəyyənləşdirilməsinə mane olmuşdur. Əksər tədqiqatçılar (A.Zamanov, F.Hüseynov, N.Vəlixanov) romanda hadisələrin üç süjet xətti əsasında cərəyan etdiyini vurğulamışlar. Şeyda bəy – Sofya Mixaylovna, Şeyda bəy – Pavel Petroviç, Şeyda bəy – usta Paqos xətləri (Vəlixanov N. Azərbaycan maarifçi-realist ədəbiyyatı. Bakı. Elm. 1983, s.138; Mir Cəlal, F.Hüseynov. Göstərilən əsəri, s.289). X.Məmmədov isə əsərdə beş süjet xəttinin olduğunu qeyd etmiş, tədqiqatçıların fərqləndirdiyi süjet xətlərinə Şeyda bəy – Filippovlar ailəsi, Şeyda bəy – Qafqaz müsəlmanları xətlərini də əlavə etmişdir (Göstərilən əsəri, s.127).

Tədqiqatçılara görə, müəllif əsərdə ifadə etmək istədiyi əsas ideyaların hər birini bir süjet xətti ilə əyaniləşdirməyə çalışmışdır. Fikrimizcə, strukturun

bu şəkildə müəyyənləşməsi romanın kompozisiya bütövlüyünü və mükəmməlliyini şərtləndirə bilmir. Romanın bədii strukturu ilə bağlı prof. X.Məmmədovun bir fərqli mülahizəsinə də diqqət yetirmək ehtiyacı var. Tədqiqatçı bu fikirdədir ki, müəllif "Bakıdan başlanıb Buxarada qurtaran" hadisələri "vahid süjet xəttində birləşdirməyə... nail olmuşdur" (Göstərilən əsəri, s.141). Onun aşağıdakı mülahizəsi bu fikri bir qədər də tamamlayır: "Gəlinlər həmayili"nin fabulasını... Soyfa Mixaylovna və Şeyda bəy arasındakı intim sevgi macərası təşkil edir" (Yenə orada, s.118). Alimin bu mövqeyi əsərdə hadisələrin "beş xətt" üzrə cərəyan etməsi fikrinə ziddir. Bununla belə, tədqiqatçı təhlillərini "beş xətt" tendensiyasına uyğun aparır. Buna görə də "əsərin əsas ana xətti" ilə bağlı gəldiyi düzgün qənaət onu romanı ideya-bədii mükəmməlliyində təhlilə istiqamətləndirə bilmir.

Şeyda bəylə Sofya Mixaylovna münasibətləri romana əsərin hansısa bir hissəsində meydana çıxıb, tez də yekunlaşan əhvalat kimi daxil olmur. Bu münasibətlərin əsərin başlanğıcından sonuna kimi davam etməsi, roman süjetinə məxsus bütün əlamətdar xüsusiyyətləri daşıması, Aristotelin təbirincə desək, "başlanğıcı, ortası və sonu" olması romanı səyahətnamə strukturundan çıxarır. Tədqiqatçıların müəyyənləşdirdiyi digər "süjet xətləri" əslində əsas süjet xəttinin şaxələnməsi hesabına romana daxil olan epizodlardır.

"Gəlinlər həmayili" "aşq hekayəsi" kimi

"Gəlinlər həmayili", əlbəttə, dərin ictimai mündəricəli bir romandır, polifonik məzmuna malikdir. Şeyda bəy də əsərdə ictimai düşüncə qəhrəmanı funksiyasında çıxış edir. Müəllif onu düşündürən ictimai həyat problemlərini həm əsas qəhrəmanın dünyagörüşü mövqeyindən, həm də, Baxtinin məşhur ifadəsi ilə desək, başqalarının "söz"ləri – dünyagörüşü mövqeyindən əks etdirə bilir. Bütün bunlarla bərabər, "Gəlinlər həmayili" ilkin planda və üst qatda türklər demiş, "aşq hekayəsi" – sevgi macərası kimi oxunur. Bu "aşq hekayəsi"ndə qəhrəmanların təbii varlığı, istək və arzuları, insani yaşantıları təhlil predmetinə çevrilir və bu təhlil sona qədər davam edir.

Müəllif son dərəcə maraqlı bir süjet qurur. O, qəhrəmanını Badkubədən (Bakıdan) Buxaraya gəmi ilə səyahətə çıxarır. Hadisələri qəhrəman Şeyda bəy özü təhkiyə edir. O, "Admiral Kornilov" gəmisi yola düşməmişdən qabaq gəmidəkilərin sahildəkilərlə vidalaşmasından tutmuş, müxtəlif millətlərdən olan sərnişinlərin hərəkətlərində diqqətini çəkən bir çox səciyyəvi məqamlarla təhkiyəni davam etdirir. Məlum olur ki, gəmi sərnişinləri içərisində tanışları ilə oturub pivə içən bir gözəl qadın onun diqqətini çəkir, içində qəribə hisslər oyanır. Qadının da işvəkar bir əda ilə ona maraq göstərməsi gənc qəhrəmanda bu qadınla tanış olmağa güclü bir istək yaradır. Şeyda bəy bu istəklə üz-üzə qalıb, daxili bir vurnuxma halı yaşamaqda davam edir. Gəmi yola düşəndən sonra həmin qadınla tanış olmaq imkansızlığından doğan talesiz bir hal yaşamaqda ikən gəmidəki sərnişinlər arasında Pavel Petroviç adlı bir gömrük işçisi ilə tanış olur. Aydın olur ki, tanış olmaq həsrətilə qovrulduğu "faxir libaslı, naz-qəmzəli, ertədən kavalerlərlə pivə içən bu gözəl Pavel Petroviçin gəlini (yəni – arvadı. – T.S.) imiş".

İnsanın üz-üzə qalan təbii və sosial varlığı

Romanın süjetinin bundan sonrakı inkişaf xətti bütövlükdə Şeyda bəylə Sofya Mixaylovna və onun əri Pavel Petroviç arasında sıx münasibətlər əsasında davam edir. Şeyda bəy getdikcə dərinləşən bir duyğu, cavanlıq ehtirası və şövqü ilə Sofya Mixaylovna ilə təmaslarını dərinləşdirir. Qarşı tərəfin də qarşılıq verməsi hadisələrin cərəyanını psixoloji müstəviyə keçirməklə gərginləşdirir. Ərli gənc qadınla Şeyda bəy arasında münasibətlər necə davam edəcək? Sofya Mixaylovnanın əri bu işə necə münasibət bəsləyəcək? Bu tip çoxsaylı suallar əhatəsində qalan oxucuda romanı birnəfəsə oxumaq ehtiyacı yaranır. Onun hadisələrin sonrakı cərəyanına marağını gücləndirir. Müəllif bu oxucu marağını sona qədər mühafizə edib saxlamağı bacarır. Şeyda bəylə Sofya arasında get-gedə dərinləşən ünsiyyət, hər ikisinin ürəyində bir-birinə qovuşmaq istəyini alovlandıraraq nəhayətsiz ehtirasa çevirir. Lakin müəllif qəhrəmanlarını bu ehtirasların qurbanına çevirmir. O, çox maraqlı bir həll yolu tapır. Özünü Şeyda bəyə təslim etmək məqamında təsadüf nəticəsində Şeyda bəy Sofya Mixaylovnanın bir əmanət olaraq ona tapşırılmasını xatırlayır. "Əmanətə xəyanət yoxdur" düşüncəsinin onun bütün varlığına hakim kəsilməsi ilə Şeyda bəy ehtirasını cilovlayır, özünü və qarşısındakını bədnam hərəkətdən mühafizə edə bilir. Gənc qadın varlığını bürüyən ehtirasın təsiri ilə Şeyda bəyin hərəkətinin mənasını başa düşmür, ondan narazı qalır, türkmən obalarından birindən qayıdarkən kimsəsizlikdən istifadə edib özünü Şeyda bəyə yenidən təslim etmək təşəbbüsü göstərəndə daxili inamın və imanın gücü ilə hisslərinin idarəetmədən çıxmasına imkan verməyən Şeyda bəy Sofya Mixaylovnanı yol vermək istədiyi hərəkətinin bədnamlığına, namusunu qorumağın vacibliyinə inandıra bilir. Sofya Şeyda bəyi başa düşür, onun hərəkətindəki nəcibliyi dərk edir. Səyahət başa çatanda onlar dərin dostluq münasibətləri ilə bir-birindən ayrılırlar. Təsvirdə bədii cəhətdən əsaslandırma bütün məqamlarda gözlənir. Süjetin inkişafında və hadisələrə verilən bədii həlldə də, qəhrəmanların hərəkət və yaşantılarında da psixoloji cəhətdən inandırıcılıq, təbiilik qorunur. Qəhrəmanların intim yaşantıları da, bir-birlərinə qovuşmaq istəkləri də, Sofya Mixaylovnanın özünü Şeyda bəyə təslim etmək istəyini şərtləndirən situasiyalar da, Şeyda bəyin bütün varlığının Sofya Mixaylovnanın təbii gözəlliyi və işvəli hərəkətləri müqabilində ehtirasa gəlməsi də, bütün varlığı ilə can atdığı qovuşmaq istəyindən onun son anda imtina etməsi də təbii yaşantı kimi verilir, insanın təbii və sosial varlığına dərindən bələn olan yazıçının səmimi təsvirləri ilə əks olunur. İlk baxışdan Şeyda bəyin Sofya Mixaylovnanın ehtiraslarına adekvat cavab verməkdən imtinası müəllifin süjetə müdaxiləsi kimi görünə, onun namus məsələsi ilə bağlı düşüncələrini modelləşdirən sonluq kimi qəbul edilə bilər. Bəlkə bu da var. Ancaq orası da danılmaz həqiqətdir ki, Şeyda bəy ehtiraslı düşüncə və hərəkətlərində necə səmimi təsir bağışlayırsa, Sofyaya münasibətlərini ağlın gözündən keçirib, sağlam bir yol seçməyi bacarması da, o dərəcədə səmimi və inandırıcı təsir bağışlayır. Bunun məntiqi əsası, ilk növbədə, S.M.Qənizadənin qəhrəmanını elə ilk anlardan oxucuya dərin düşüncə sahibi bir ziyalı kimi təqdim etməsi ilə də bağlıdır.

Vahid süjet xətti və polifonik məzmun

Tədqiqatlarda "Gəlinlər həmayili"ndə müəyyənləşdirilən çoxsaylı süjet xətlərinin romana müəllifin maarifçi ideyalarının əyaniləşdirilməsi naminə daxil edilməsi vurğulanır. Belə birmənalı yanaşma romanda süjetin inkişaf dinamikasındakı təbiiliyi kölgədə qoyur. Halbuki Filippovlar ailəsi, müstəmləkəçi rejimlərin Bakıdakı ağalığı, yerli əhalinin ağır vəziyyəti ilə bağlı qəhrəmanın ağrılı düşüncələri, Qafqaz müsəlmanları ilə dialoqları, Usta Paqosla ünsiyyət, türkmən qışlasındakı ailə ilə bağlı təsvirlər romanın süjet xəttinə üzvi şəkildə daxil olur. Səyahət şəraitində qəhrəmanın gəmidə və gəmidən kənarda olduğu məkanlarda üzləşdiyi, ünsiyyət saxladığı insanlarla bağlı əhvalatlar fonunda süjetdə yer alır. Heç bir hadisənin, əhvalatın, yaxud obrazın süni şəkildə, hansısa bir ideyanı əyaniləşdirmək naminə əsərə gətirilməsi haqqında düşünməyə əsas vermir.

"Gəlinlər həmayili"nin süjetində oxucunu arxasınca aparmaq xüsusiyyəti çox güclüdür. Lakin bu, sadəcə, Şeyda bəylə Sofya Mixaylovnanın sevgi macərasının prozaik əksi ilə əldə edilməmişdir. Bu "aşk hekayəsi" ibrətli bir məzmunda müəllif ideyasının ifadə vasitəsinə çevrilə bilmiş, janrın oxucuya "səmərəli, nəcib və yüksək təsir göstərmək" imkanı gerçəkləşmişdir. S.M.Qənizadə, ilk növbədə, bu "aşk hekayəsi"ni "saf, təmiz məhəbbət əsasında qurulmuş ailə həyatını təbliğ" (X.Məmmədov. Göstərilən əsəri, s.129) vasitəsinə çevirə bilmişdir. Yəni sevgi macərası fonunda bir çox ictimai mətləblərin qaldırılması və onlara maarifçi baxışın əksi romanın polifonik məzmununu genişləndirmişdir. Lakin bütün bunlar "sevgi macərası" ilə ifadə olunan süjetin əsas mahiyyətini əhatə etmir. Şeyda bəy – Sofya Mixaylovna xəttində, qadın namusu kimi əxlaqi problemə bədii həll vermək məqsədi var, bu xəttin fonunda müəyyən maarifçi ideyaların qoyulması məsələsi də var, lakin bütün bunların heç birisi əsərin ana xəttində bilavasitə ifadə olunan əsas ideyanı, başqa sözlə, romanın fəlsəfəsini əks etdirmir.

Romanın fəlsəfəsi "insaniyyət" çevrəsində

Romanın fəlsəfəsi və əsas ideyası qəhrəmanın daxili düşüncələri vasitəsilə açıq tendensiya ilə verilir: "İnsan muxtəss qabili-uns bir zatdan ibarət ikən, hər bir fərd baqi əfrad ilə ünsiyyət tutması müvafiqi-təbiətdir. Hər bir insan hala tüfuliyyətdə ən əvvəl öz əqrəbası ilə üns tutarkən, sonra tədric ilə qonum-qonşulardan dil-dilə, könül-könülə dəyib, yavaş-yavaş həmdərdliyə qoşulur. Hala səfər görməmiş bielm bir şəxs, yəni kəmal cəhəticə tüfuliyyət dərəcəsində qalmış bir naqis əgər hamı aləmi öz vətənində və ya hamı insanı öz millətində görərsə, əcəb deyil, çünki zəif göz uzaq görməz. Amma bu əmrə bərəks əhli-bəsarət hesab olunan şəxslər elm-halı ilə insaniyyət dövrəsin tamam etdiklərində axır arif söyləmiş mətləb üstündə qərar tutarlar, yəni "küreyi-ərz vətənim və insaniyyət millətimdir", deyibən farsdan tutmuş Çinəcə və Hinddən tutmaş Finəcə hümmət buraqın çaparaq, hamı insanları üxüvvət kəməndi ilə bir-birinə bağlamaq istərlər. Bərəkallah belə şəxslərə! Amma nəuzibillah, əgər təəssüb qəsavəti ürəkdə rəng tutmuş ola, elmli şəxs əgər mütəəssib isə təşbihən kəskin qılınclı zalım kibidir ki, mərifət seyqəli ilə

təəssüb qılıncın suladıqda daha haqq-nahaq gözləməyib, hamı insanı bir firqəyə qurban etmək istər!” .

Bu mülahizələr M.C.Cəfərov, F.Hüseynov, X.Məmmədov kimi tədqiqatçıları belə bir qənaətə gətirmişdir ki, Şeyda bəyə millətçilik düşüncəsi yaddır və o, “bəşəri qardaşlıq” ideyasını təbliğ edir. Bu tip mülahizələrdə Şeyda bəyin fikirləri təhrif olunur.

Şeyda bəy millətçidir, yoxsa antimillətçi?!

Şeyda bəy nə mütləq mənada millətçidir, nə də mütləq mənada insaniyyət tərəfdarı. Onun millətçilik anlayışı insaniyyət anlayışı ilə tamamlanır və yaxud əksinə. Şeyda bəyin millət və insaniyyət haqqında daxili nitqi dialoji xarakterlidir, yalnız öz mövqeyinin ifadəsi deyil. Bu nitqdə millət və insaniyyət anlayışlarına fərqli baxışlar ümumiləşdirilir. O, ictimai fikrin tarixində və çağdaş zamanda bu anlayışlara baxışları şərh edir. Bu baxışlar isə fərqlidir. Şeyda bəyə görə, bir qisim insanlar “hamı aləmi öz vətənində və ya hamı insanı öz millətində görər”. Bu, qatı millətçilik anlayışıdır, mahiyyətcə bütün insanlığa qarşı durur və insanın öz millətini bütün millətlərin fövqündə görməsi kimi xəstə psixologiyaya söykənir. Erməni millətçiliyi bunun bariz nümunəsidir. Şeyda bəy bu cür millətçiliyi qəti şəkildə rədd edir və onu “zəif gözün uzağı görməməsi” ilə müqayisə edərək, milli məhdudluğa qapılıb qalmaq kimi şərh edir. Şeyda bəy bir qisim insanların “kürreyi-ərz vətənim və insaniyyət millətimdir” düşüncəsi ilə yaşadığını fərqləndirir. O, bu baxış sistemini qəbul edir, hətta onu alqışlayır, lakin bir şərtlə. Şeyda bəyin qəti inamı budur ki, “kürreyi-ərz”in “vətənə” çevrilməsi təbii yolla baş verməli, ictimai şüurun yüksəlişi ilə əldə edilməli və bu işdə zorakılığa yol verilməməli, “hamı insanı bir firqəyə qurban etmək” məqsədi daşımamalıdır. Yəni “kürreyi-ərz”in vətənə çevrilməsi, “insaniyyət”in “millət”ə çevrilməsi prosesi milli özünəməxsusluğa qarşı çevrilməməli, milli tərəqqinin yüksək səviyyəsi ilə əldə edilməlidir. Şeyda bəy “hamı insanı bir firqəyə qurban etmək” istəyini “kəskin qılınclı zalımlıq” adlandırır və qəti rədd edir. Buradakı söhbətin məğzini, təxminən, romanın yazılmasından bir qədər sonra alman faşizminin, yaxud sovet rejiminin insanlığa bəslədiyi münasibətlə müqayisə etmək olar. Beləliklə, qəti qənaətə gəlmək olar ki, “kürreyi-ərz vətənim və insaniyyət millətimdir” baxışını Şeyda bəy “hamı insanı bir firqəyə qurban etmək” istəyini rədd edərək qəbul edir. Bu isə o deməkdir ki, hər bir millət tərəqqi yolu ilə “kürreyi-ərz”i öz vətəninə çevirir, öz millətinin mənafeyini insanlığın mənafeyi ilə birləşdirir.

S.M.Qənizadənin qəhrəmanının gəldiyi bu qənaətin, əsərin ideya xəttinin fəlsəfəsi nədir?

“Həqqaniyyət” nədir? Əvvəlcə “üxüvvət”in mənası haqqında!

Şeyda bəy daxili nitqinin davamında bu məsələyə də aydınlıq gətirir: “Güman edirəm ki, millət və məzhəb ixtilafı hərgiz üxüvvətə mane ola bilməz, çünki üxüvvət üçün əgər bir şərt var isə, yəqin ki, həmməzhəblik və ya həmmillətlik deyil, insaniyyət və həqqaniyyətdir. Zira ki, insan var ikən millət yox idi və həqqaniyyət var ikən məzhəb yox idi. Hər bir millət bəni-insandan

bir cüzv ikən, millətpərəstlik həm ümumi insaniyyətdən bir cuzv kibidir və habelə hər bir məzhəb fərcəhəticə həqiqət yolunun bir qolu ikən, məzhəbdarlıq həm həqşünaslığın bir cüzvünə mütabiət kibidir". Ədəbiyyatşünaslıqda Şeyda bəyin bu fikirlərinin əsil mahiyyəti açılmamış, çox vaxt birtərəfli başa düşülmüşdür.

S.M.Qənizadə insanlığın çıxış yolunu "üxüvvət"də görür, insanların "üxüvvət" şəraitində yaşamasını zamanın diktə etdiyi zərurət hesab edir. "Üxüvvət" dini anlayışdır və mənası "qardaşlıq" deməkdir. Şeyda bəyin düşüncələrində yer alan "bütün insanların qardaşlıq şəraitində yaşamasının vacibliyi", başqa sözlə, "bəşəri qardaşlıq" ideyasının ilkin mənbəyi Qurani-Kərimdir. Onun Qurani-Kərimdəki ifadəsi aşağıdakı kimidir: "Həqiqətən, möminlər (dində) qardaşdırlar" (Əl-Hucurat surəsi, 10-cu ayə).

Maraqlıdır ki, İslam dini "üxüvvət" – bütün insanların qardaşlığı ideyasını necə gerçəkləşdirir?

İslamın Qurani-Kərimdə gerçəkləşən fəlsəfəsi

Məsələ burasındadır ki, Qurani-Kərimin nazil edilməsi ilə bəşəriyyətin, bütün insanların qarşısına müsəlmanlığı qəbul etmək, Qurani-Kərimə iman gətirmək funksiyası qoyulur. Bu, əlbəttə, Tövratdan və İncildən imtina deyil. Qurani-Kərim "özündən əvvəlkiləri (Tövratı və İncili) təsdiq" edən (Yunis surəsi, 38-ci ayə) kitabdır. Qurani-Kərimdə məsələ belə qoyulur: Mömin yəhudi onlar üçün nazil edilmiş Tövrata inanmalıdır. Mömin xaçpərəst də onlar üçün nazil edilmiş İncilə inanmalıdır. Lakin Qurani-Kərimin nazil edilməsindən sonra mömin yəhudi Tövrata və Qurani-Kərimə, mömin xaçpərəst isə İncilə və Qurani-Kərimə inanmağa və iman gətirməyə borcludur. Qurani-Kərimin əl-Qəsəs surəsində "(İki kitaba – Tövrata və Qurana inananlar)"a "iki dəfə mükafat veriləcəyi" bəyan olunur (54-cü ayə). Qurani-Kərimdə Allahın insanlara sıx-sıx müraciət edərək, onları İslama dəvət etməsi və Qurani-Kərimə iman gətirmələrinin vacibliyini bildirməsi bəşərin nicat yolunun Qurani-Kərimdən keçdiyini göstərir. Əl-İsra surəsində deyilənlər (ayə 92) bunun təsdiqidir: "(Ey insanlar!) Həqiqətən bu tövhid dini (olan İslam) tək bir din olaraq sizin dininizdir. Mən də sizin rəbbinizəm. Buna görə də yalnız Mənə ibadət edin!" "(Ey insanlar!)" xitabı ilə bu məzmunda nazil olan ayələrin sayı Qurani-Kərimdə kifayət qədərdir.

Elə isə, ortaya belə bir məntiqi sual çıxır. Əgər Xristianlıq da, İudaizm də "Allahın vəhdaniyyəti"ni tanıyan dinlərdirsə, İncil və Tövratın da əsasında Tövhid dayanırsa, onda İslam dininin gəlişi, Qurani-Kərimin nazili hansı ehtiyacdan doğurdu? Qurani-Kərimdə İslam dini nə üçün "bütün dinlərdən üstün" (Əl-Hucurat surəsi, 28-ci ayə) elan olunur? Nə üçün Qurani-Kərimdə İslam dininə "Allahın əsl tövhid dini olan İslam dini" (Yasin surəsi, 4-cü ayə) kimi xarakteristika verilir?

Əslində bunun cavabı çox sadədir. Xristianlıq və İudaizm Tövhid dinləri olaraq bəşəriyyətin müəyyən qismini əhatə edirdi. İslam dini monoteist dinlərin tarixində yeni və sonuncu mərhələdir. İslam dininin xristianlıq və İudaizmdən fərqli, əsas cəhəti onun bütün bəşəriyyəti əhatə edən din kimi nazil edilməsidir. Qurani-Kərimdə İslam dininə xristianlığa və İudaizmə para-

lel, onlarla eyni statuslu din kimi yanaşılmır. Qurani-Kərim İslamı yer üzündəki insanların müəyyən bir qismini (Xristian və İudaizm dinlərində olduğu kimi) əhatə edən Tövhid dini kimi təqdim etmir. Qurani-Kərimdə "müsəlman" anlayışı "Allaha təslim" mənasını verir, bir olan Allahı tanıyanların hamısı müsəlman kimi qəbul edilir. Məhz bu məntiqlə Əl-İsra surəsində elan olunur: "Həqiqətən, bu Quran (bütün bəşəriyyəti) ən doğru yola (İslama) yönəldir..." (9-cu ayə).

Deməli, Qurani-Kərimə Allahın verdiyi daha böyük dəyərin arxasında sonuncu müqəddəs kitabın bütün insanları Tövhid (bir olan Allaha inam) ətrafında birləşdirməsi missiyası dayanır. İslam dininin üzərinə düşən bu missiya Qurani-Kərimdə dönə-dönə təsdiq olunur: "(Ya Rəsulum!) Biz (Quranı) sənə haqq olaraq, özündən əvvəlki kitabı (bütün ilahi kitabları) təsdiq edən və onu qoruyan (və ya onların doğruluğuna şahid) olaraq endirdik. Sən onların arasında Allahın nazil etdiyi (Quran) ilə hökm et... Hamınızın axır dönüşü Allahadır..." (əl-Maidə, 48-ci ayə).

Buradan belə bir nəticə çıxır ki, Tövratın və İncilin əsasında dayanan Tövhid inancı Qurani-Kərimdə tamamlanır və yer üzünün bütün insanlarına aid olur. İslamda Tövhid bütün insanları birləşdirir. Qurani-Kərimin fəlsəfəsi də bu birləşdiricilik missiyasında meydana çıxır. Deməli, "bəşəri qardaşlıq" – "insaniyyət" ideyasının əsasında "Qurani-Kərim hökmləri dayanır.

"Həqqaniyyət"in "üxüvvət"də yeri

Şeyda bəy "üxüvvət"in gerçəkləşməsi üçün "insaniyyət və həqqaniyyət"i əsas şərt hesab edir. Bu iki anlayış Şeyda bəyin düşüncəsində vəhdətdə alınır, buna görə də bir şərt kimi irəli sürülür. Yenə də təkrar edirik ki, "insaniyyət" dedikdə "insanlıq" – bütün bəşər nəsli başa düşülür. Bəs, "həqqaniyyət" nə deməkdir?

S.M.Qənizadənin bədii təfsirində "üxüvvət"də dinin oynadığı rol "həqqaniyyət" şəklində yer alır: "...Çünki üxüvvət üçün əgər bir şərt var isə... insaniyyət və həqqaniyyətdir". Həqqaniyyət "haqq olan" dinin yoludur və bu din İslamdır. Qurani-Kərimin ən müxtəlif surələrindəki çoxsaylı ayələrdə bu məsələyə aydınlıq gətirilmişdir: "Allah yolunda (haqq olan) din, əlbəttə, İslamdır" (Ali İmran surəsi, 19-cu ayə); "...Müsəlman olanlar haqq yolu axtarıb tapanlardır" (Əl Cinn surəsi, 14-cü ayə). S.M.Qənizadəyə görə, insanlıq "haqq yolu" ilə gedərsə, "üxüvvət" gerçəkləşə bilər. Yazıçıya görə, üxüvvətə gedən yolun "insaniyyət və həqqaniyyət"dən keçməsi şərtdir. Lakin bu "məzhəb və millət" anlayışlarının inkarı demək deyil. "İnsaniyyət"lə "millət"in, "həqqaniyyət"lə "məzhəb"in nisbəti tam ilə hissənin, küll ilə cüzin nisbəti kimidir. Buna görə də, "insaniyyət"lə "millət"in, "həqqaniyyət"lə "məzhəb"in qarşı-qarşıya qoyulması və yaxud ikincilərə üstünlük verilməsi yolverilməzdir. S.M.Qənizadə "üxüvvət"də "millət"in də, "məzhəb"in də yerini görür, bu yer tamda hissənin, küldə cüzin yeri kimidir. S.M.Qənizadəyə görə, milli hiss insanlıq hissindən, məzhəb təəssübü dini təəssübdən üstün tutularsa, bu yanlışlıq olar və bizi yanlış yola aparar. Yazıçı hesab edir ki, yalnız məzhəb və millət təəssübü ilə heç bir uğur əldə etmək olmaz, çünki "heç bir cüzi öz küllisinə fayiq olamaz". Demək, üzərimizə düşən vəzifə insaniyyətdə millətin,

həqqaniyyətdə məzhəbin yerini düzgün dərk etmək, cüzin küllə qovuşması, hissənin tamda yerinə tapması ilə yaşayışımızın harmoniyasını təmin etməkdir. Bəs biz, həyatımızın – yaşayışımızın bu harmoniyasını necə təmin edirik? S.M.Qənizadə bu suala "Gəlinlər həmayili"ndə bədii təsvirin – analitik təhlilin həm təsdiq, həm inkar pafosu ilə, həm əsas süjet xəttində reallaşan hadisələr və obrazların estetik yükü ilə, həm də bu süjet xəttinə qoşulan yardımçı xətlər, epizodlar vasitəsi ilə cavab verir. Buna görə romanı maarifçi görüşlərin tribun ifadəsi hesab edən ədəbiyyatşünaslıq görüşləri ilə razılaşmaq çətindir.

Şeyda bəy – Sofya xətti – "həqqaniyyət"in bədii təsdiqi

Əsas süjet xəttində didaktika tam arxa plandadır. Şeyda bəy – Sofya Mixaylovna münasibətləri ağlın gücü ilə idarə olunmur. Süjetin bütün hərəkəti boyu hər iki qəhrəman öz hissi yaşantılarının təsiri altındadır. Hər iki qəhrəman öz güc və imkanlarından hissi istəklərini həyata keçirmək üçün var qüvvələri ilə istifadə edir. Sofya Mixaylovna sona qədər öz hisslərinin əsarətindən çıxa bilmir. Aşağıdakı təsvir də bunun sübutudur:

"– İndi mən sənindiyəm! – deyərək əlimi tarım məmələri başına şövq ilə sürtürdü və böylə odlu qucuşmaq arasında gül dodakların təbəssüm ilə açıb qaş-gözlə girişmələr üçün işarə vurmaqda idi...". İlk təşəbbüsündə istəyinə çata bilməyən Sofya Mixaylovna bunu romanın sonuna doğru – türkmən qışlasından qayıdanda gerçəkləşdirmək istəyirsə də, yenə də təşəbbüs nəticəsiz qalır. Şeyda bəyin də Sofya Mixalyovna ilə bütün münasibətləri – istəkləri, düşüncəsi, hərəkəti, bir sözlə, bütün yaşantıları onu bu qadına tərəf çəkir. Sofyadan fərqli olaraq, həlledici məqamda Şeyda bəyin şüuru hissinə üstün gəlir. (Hissi yaşantılarını iradə gücü ilə əqlin idarəsi altına ala bilmək insan təbiətinin imkanları daxilindədir).

Beləliklə, Şeyda bəy – Sofya Mixaylovna münasibətlərinin süjetin bütün hərəkəti boyu hissi çarpışmalar üzərində qərar tutduğunu görürük. Bütün süjet boyu iki halda sosial motivlər nisbətən əsaslı şəkildə süjetin hərəkətində yer alır.

Birincisi, Şeyda bəylə Pavel Petroviç arasında qadın azadlığı barədə mübahisə-müzakirədə, bir də sona doğru Şeyda bəyin Sofya Mixaylovnaya hərəkətinin qəbahətini həm də açıq nəsihət yolu ilə anlatdığı məqamlarda.

Şeyda bəy – Sofya Mixaylovna xəttində ifadə olunanlar məhəbbətin poeziyasını gerçəkləşdirərək, ideyaya doğru yol alır. Bununla belə, əsas süjet xəttini ylanız saf məhəbbət, qadın namusu ideyalarının estetik ifadəsi hesab etmək Şeyda bəy – Sofya Mixaylovna münasibətlərinin mahiyyətini axıra qədər gerçəkləşdirə bilmir, romanın süjet və kompozisiya mükəmməlliyini tam təsəvvür etməyə imkan vermir. Digər tərəfdən, əsas süjet xətti ilə Şeyda bəyin maarifçilik görüşlərinin açıq tendensiyalı ifadəsi olan mülahizələr arasındakı, həmçinin, süjet xəttinə qoşulan digər motiv və epizodlarla əlaqələrin mexanizmini dürüst təsəvvür etmək olmur. Əsərdə cərəyan edən hadisələrin Şeyda bəylə sıx əlaqəsinin, əlbəttə, romanın kompozisiya sisteminin bütövlüyündə yeri var. Ancaq bu da bir həqiqətdir ki, bədii əsərdə

kompozisiya sisteminin mükəmməlliyini, hər şeydən əvvəl, ideya vəhdəti şərtləndirir. Əgər müəllifin təsvir etdiyi hadisələr vahid bir ideyanın bədii təcəssümü kimi meydana çıxmırsa, hadisələrin əsas ideyanın açılışındakı rolunu təsəvvür etmək mümkün olmursa, bu təsvirlər ancaq ümumən əlaqələnirsə, yəni "Gəlinlər həmayili"nin kompozisiya bütövlüyünü biz ancaq Şeyda bəyin hadisələri bir-biri ilə əlaqələndirmə funksiyasında axtarırıqsa, əsl həqiqətdə, bunlar romanın kompozisiya mükəmməlliyini tam ehtiva edə bilmir. Elə isə belə bir suala cavab vermək zərurəti yaranır: Romanın müəllifin təsvir etdiyi bütün hadisələri, obrazları, yardımçı epizod və motivləri, qəhrəmanın açıq tendensiyalı mühakimə və mülahizələri vasitəsilə gerçəkləşən vahid bir ideyası varmı? Var. S.M.Qənizadə "Gəlinlər həmayili"ndə "insaniyyət və həqqaniyyət"in bəşər cəmiyyətinin idarə edilməsindəki rolu məsələsinin bədii təcəssümünü verir. Bu ideyanın ən qabarıq bədii ifadəsi əsas süjet xəttində əyaniləşir. İlk növbədə, onu deyək ki, əsas süjet xətti saf məhəbbət, qadın namusu məsələsinin əksi kontekstində də "insaniyyət və həqqaniyyət" ideyasının gerçəkləşməsinə xidmət edir. Məlum olduğu kimi, "həqqaniyyət"də – haqq yolu olan İslam dinində qadın namusu qadının insanlığını və cəmiyyətdəki yerini müəyyənləşdirən keyfiyyət kimi müəyyən edilir. İslamda yalnız namuslu (iffətli) qadınla evlənmək tövsiyə olunur. Əgər nəzərə alsaq ki, "romanın ilk iki nəşrinə çəkilmiş həmayil üzərində "İffət" ("Namus") sözü yazılmışdır" (X.Məmmədov. Göstərilən əsəri, s.129), onda bu məsələnin müəllif ideyası şəklində "həqqaniyyət"lə bağlılığını təsəvvür etmək olar. Lakin "Gəlinlər həmayili"nin əsas süjet xəttinin "həqqaniyyət"lə bağlılığı onun polifonik məzmununda ifadə olunan digər ideya xətlərində də əyaniləşir.

"Gəlinlər həmayili"nin əsas süjet xətti "əmanətə xəyanət yoxdur" qənaətinin ideya-bədii ifadəsi kimi də mənalanır. Əsas süjet xəttinə verilən bədii həlldə qəhrəmanın düşüncəsində özünə əqidə, inam kimi yer almış bu qənaət çıxış nöqtəsi kimi alınır. Qəhrəmanların katarsis – mənəvi təmizlənmə yolu keçməsində bu qənaətin həlledici – birbaşa rolu olur. "Əmanətə xəyanət yoxdur" inamı Şeyda bəyin düşüncəsində mənsub olduğu dinin təbliğ etdiyi prinsiplərdən biri kimi yer almışdır. Şeyda bəy etiraf edir ki, şeytana uymaq, nəfsinə tabe olmaq məqamında onu "əyyami-tifuliyyətdə bəşarət avazı ilə ana dilindən qulağına çağrılmış" bir hədis – "Əmanətə xəyanət yoxdur" hədisi içindəki "din müvəkkillərin qəflət yuxusundan oyandırdı". Şeyda bəy məhz bu oyanış ilə özünə qayıdır, iman gətirdiyi dinə xəyanət etmək məqamına qədər gəldiyini və böyük qəbahət işlədiyini başa düşür. Şeyda bəyin düşdüyü vəziyyətlə bağlı bizim də qulaqlarımızda Məhəmməd peyğəmbərin (s) məşhur bir hədisi səslənir: "Əmanətə xəyanət edənin imanı və əhdə vəfa etməyənin isə dini yoxdur". Məhz qulaqlarımızda səslənən bu hədis Şeyda bəyin aşağıdakı sözləri ilə bərabər, onun üzləşdiyi vəziyyətin ağırlığını təsəvvür etməyə bizə imkan verir: "Bu halət mənim üçün böyük din cihadı idi ki, bir tərəfdən nəfsi-əmmarənin hökmü, bir tərəfdən mütməinənin nəzəri məni yerdən-yerə vurub, axır əqlimin gözünü açdılar". "Sofyanın şəhvətəngiz şivələri" hər dəfə Şeyda bəyin varını yox edəndə, qərarını əlindən alanda onun "əqlinin gözü" hər dəfə "din qüvvəsi" ilə açılır. Şeyda bəy məhz din qüvvəsi ilə, üzərində hiss etdiyi "din borcu" ilə yol verə biləcəyi əməlin

qəbahətini başa düşüb, özünü zinaya yol verməkdən xilas edə bilir. Müəllif Şeyda bəy – Sofya münasibətlərində insanlığın üzləşdiyi, üzləşə biləcəyi qəbih əməldən "həqqa¬niyyət"in – haqq yolu olan İslamın xilaskarlıq missiyasını əks etdirir.

"İnsaniyyət və həqqaniyyət"in simvolu kimi metaforalaşan obrazlar

Digər tərəfdən, Şeyda bəy və Sofya Mixaylovna obrazları "insaniyyət və həqqaniyyət" ideyasını metaforalaşdırırlar. F.Köçərli "Gəlinlər həmayili"ndə müəllifin başqa millətdən olan qadını roman qəhrəmanına çevirməsini milli mühitdə "qadınların örtülü vəziyyətdə saxlanması və öz xalqlarının həyatına təsir göstərmək imkanından məhrum olması" ilə (F.Köçərli. Əsərləri. Bakı. Elm və təhsil, s.75) izah edir. Olsun ki, romanda Azərbaycan qadınının yer almamasında bu amilin də rolu var. Lakin fikrimizcə, başqa millətdən olan qadın obrazı əsərə tamam ayrı məqsədlə daxil edilmişdir. Şeyda bəyin dilindən səslənən və bizim romanın əsas ideyası kimi müəyyənləşdirdiyimiz fikri xatırlayaq: "Üxüvvət üçün əgər bir şərt var isə... insaniyyət və həqqaniyyətdir". Onu da xatırlayaq ki, qəhrəman millətin insaniyyətdəki rolunu hissənin tamdakı rolu ilə müqayisə edirdi. Müəllifin əsərin əsas ideyasını bədii təsvirin həm təsdiq, həm də inkar pafosu ilə təcəssüm etdirdiyini də qeyd etmişik. Şeyda bəy – Sofya Mixaylovna xəttində ayrı-ayrı millətlərin üxüvvətin formalaşmasında oynaya biləcəyi rol metaforalaşdırılmışdır. Burada millət anlayışı tamın hissəsi kimi artıq insaniyyəti simvollaşdırır. Şeyda bəy Azərbaycan türklərinin, Sofya Mixaylovna və eləcə də Pavel Petroviç rus millətinin nümayəndəsidirlər və hər üçü milli xarakterdir. Hər üçündə kifayət qədər milli təəssüb hissi də vardır. Lakin Şeyda bəyin də, Sofya Mixaylovna və Pavel Petroviçin də milli xarakter və milli təəssüb hissi başqa millətlərə yuxarıdan aşağı baxmaq, xəstə millətçilik psixologiyasına tamamilə yaddır. Şeyda bəylə Pavel Petroviçin ilk tanışlıq anından bir-birinə bəslədikləri xoş münasibət, bu münasibətdən məmnunluq hissi yaşamaları din ayrı, millət ayrı insanların insaniyyət qanunlarına bəslədikləri hörmət hissini ifadə edir. Aralarında yaranmış münasibəti Şeyda bəy belə təsvir edir: "Şirin söhbətlər ilə Pavel Petroviç məni özünə pabənd edibən, başqaları ilə aşına olmağa daha macal vermədi".

Sofya Mixaylovnaya qarşı Şeyda bəydə yaranan meyil, əslində, Pavel Petroviçlə onun arasında mənafe əksliyi yaradır. Lakin Şeyda bəy "sadədil İvanov"a – Pavel Petroviçə, nə yolla olur olsun, qələbə çalıb Sofya Mixaylovnanı ələ keçirmək fikrinə düşmür. Şeyda bəy onu Sofyaya tərəf çəkən hisslərinin əleyhinə gedir, bu hissləri "şeytaniyyə dəğdəğələr" hesab edərək, özündən uzaqlaşdırır. Özünün yox, Pavel Petroviçin mənafeyini qabağa çəkir. Çünki bu məqamda haqq Pavel Petroviç tərəfdədir. Sofya Mixaylovna onun qanuni nigahlı arvadıdır, canından çox sevdiyi qadınıdır. Canından çox sevdiyi qadınını o, Şeyda bəyə əmanət etmişdirsə, bəli, məhz əmanət etmişdirsə, Şeyda bəy bu əmanətə necə xəyanət edə bilər? Şeyda bəyin qəti qənaəti belədir: "Haşa, haşa, bu qəbih xəyanətə hərgiz mən boyun qoymayacağam! Safürəkli Pavluşanın irs-namusuna xəyanət etmək insaf

yolunda öz doğma qardaşının namusuna qəsd etmək kibidir". Söhbət din ayrı, millət ayrı iki insanın mənafe toqquşmasından gedir. Birinin haqq etmədiyi üçün öz mənafeyindən imtina edib məsələni rəqibinin xeyrinə həll etməsindən gedir. Burada din ayrı, millət ayrı iki insanın obrazı artıq metaforik, simvolik məzmun daşıyır. Şeyda bəyin Azərbaycan türklərini (ayrı milləti), Pavel Petroviçin rus millətini (bir ayrı milləti) simvollaşdırdığını nəzərə alsaq, müəllifin məsələni milli münasibətlər, başqa sözlə, insaniyyət müstəvisinə çıxardığını görərik. Milli münasibətlərin insaniyyət prinsipləri əsasında həll olunması zərurətinin ifadə edildiyini görərik. Burada insaniyyətin meyarı hansı tərəfin haqlı olması ilə ölçülür. Müəllif bu ölçü prinsiplərinin "həqqaniyyət" yolu ilə müəyyənləşməsi fikrini ortalığa atır. "Həqqaniyyət" – haqq yolu olan İslam bütün insanları qardaş elan edir, onları üxüvvətə səsləyir. Millətlərarası münasibətlərdə – insaniyyətdə üxüvvət o zaman təmin olunur ki, haqqı olanın haqqı özünə verilir. Millət insaniyyət naminə öz mənafeyindən keçə bilir. Şeyda bəyin Pavel Petroviçin namusunu "öz doğma qardaşının namusu" yerində görməsi hər bir millətin başqa millətin mənafeyini öz dövlətinin mənafeyi kimi dəyərləndirməsi anlamına gəlir. İnsaniyyət bu yolla formalaşır. S.M.Qənizadə Şeyda bəyin dili ilə onun formalaşmasında "həqqaniyyət"in – haqq din olan İslamın rolunu əks etdirir. Bu əksetdirmədə isə çıxış nöqtəsi Qurani-Kərim ehkamlarıdır, Allah Təalanın göndərdiyi haqq yoludur: "(Ya Rəsulum! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq (pak bir müvəhhid, xalis təkallahlı kimi) üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (İslama) tərəf tut (ər-Rum surəsi, 30-cu ayə).

Şeyda bəy öz mənafeyinə əks gedib, Pavel Petroviçin mənafeyini üstün tutanda, Sofya Mixaylovnanın bütün həyatı boyu əri və uşaqları qarşısında xəcalətli qalmasına razı olmayanda iman gətirdiyi dinin hökmlərinə istinad edir. Aşağıdakı sözləri öz hərəkət və əməllərində Şeyda bəyin "Allah Təalanın göndərdiyi haqq yolu"ndan çıxış etdiyini göstərir: "İndi kürreyi-ərzin bir nisfində hamı xeyir-şərlərə şahid olan həcc ayı mənim də indiki felimə şahid olacaqdır. Bu günlərdə Kəbə ətrafında toplanan huccaclar həmin ayı əgər mən görən kibi görürlərsə, bəs bu ay həm məni görən kibi oları da görür. Həccdən murad nəfslə mücadilədir... Bəs həmin türkmən torpağında əgər mən də öz dinimi yerinə yetirsəm, həcc əvəzi olur..." .

"İnsaniyyət" problemi müsəlman-xristian dünyaları kontekstində

Müəllif Şeyda bəy – Sofya Mixaylovna, Şeyda bəy – Pavel Petroviç münasibətlərinin metaforik məzmununu getdikcə dərinləşdirir. İnsaniyyət problemi tədricən millətlərarası münasibətlər kontekstindən Şərq-Qərb, müsəlman-xristian dünyaları kontekstində bədii həll müstəvisinə çıxarılır.

Pavel Petroviç Qərb-xristian, Şeyda bəy isə Şərq-müsəlman cəmiyyətinin baxış sistemini simvollaşdırır. Pavel Petroviçin "ünas məsləsini" "Avropa və Amerikanın tərəqqiyyatı" kontekstində şərhləri, Şərqdə qadınların "ubudiyyət dərəcəsində saxlamaları"na dair mülahizələri və buna şiddətli etirazları onun qadın azadlığı probleminə Qərb-xristian dünyası kontekstindən baxmasına şübhə yeri qoymur.

Müzakirə zamanı Şeyda bəyin "biz Qafqaziyə müsəlmanları", "biz asiyalılar" deyərək öz mövqeyini əsaslandırmağa çalışması onun Şərq-müsəlman dünyasının təmsilçisi kimi çıxış etdiyini göstərir.

Müzakirə və mübahisələrin məğzi nədir? Pavel Petroviç ünaslara mütləq azadlıq verilməsinin, ünasla zükur arasında mütləq bərabərlik olmasının tərəfdarıdır. Bu cür düşüncə, təbii ki, azadlığın və bərabərliyin anarxistcəsinə başa düşülməsidir. Şeyda bəy mütləq azadlıq və mütləq bərabərliyi rədd edir, çünki həyata tətbiqdə bunun ağır nəticələri ola bilər. Şeyda bəy qadın azadlığının, qadınların kişilərlə bərabərliyinin tərəfdarıdır, "amma amerikalılar istədiyi mühakə dərəcəsinəcə yox". O, fikrini belə əsaslandırır: "Zira ki, ümumi insaniyyət üçün hürriyyət mütləqən mümkün olmadıqda, ünasla zükur arasında hər bir cəhətcə mühakə məhaldır".

Şeyda bəy deyir: "Dünyada azadəlik mütləq, absalyutni dərəcədə yoxdur və ola bilməz!" O, qadın-kişi bərabərliyində "təbiət cəhəticə zükur ilə ünas arasında qoyulmuş təfavütləri"n nəzərə alınmasını vacib şərt hesab edir. Pavel Petroviç "məhəmmədilərin... övrətləri çadra altında" saxlamasını və ümumiyyətlə, Şərqdə qadının əsarətdə saxlanmasını önə çəkəndə Şeyda bəy bu tənqidi prinsip etibarı ilə qəbul edir. Ancaq o, qadına edilən zülmün İslam qanunlarına zidd olduğunu deyir, "insaniyyət"də – bəşər cəmiyyətində qadın azadlığının "həqqaniyyət" yolu ilə əldə ediləcəyinə inam ifadə edir.

Əsas süjet xəttinə Şeyda bəy və Pavel Petroviçin qadın azadlığı haqqında mülahizələri nöqteyi-nəzərindən diqqət yetirdikdə, maraqlı nəticələrə gəlmək olur. Bu süjet xəttində qadına verilən mütləq azadlığın hansı mənfi nəticələrə səbəb olduğunu müşahidə edirik. Əsərdə Pavel Petroviçin tərəfdarı olduğu mütləq azadlıq və bərabərliyi Sofya Mixaylovna simvollaşdırır. Məhz bu mütləq azadlıq düşüncəsi ilə Sofya Mixaylovna əri ola-ola, hisslərinə tam azadlıq verərək özünü Şeyda bəyə təslim etmək istəyir. Bir anlıq düşünsək ki, Şeyda bəy bu istəyə qarşılıq vermişdir, onda bu halda "hürriyyətdən murad odur ki, hər bir nəfs və ixtiyaratına malik olsa gərəkdir" düşüncəsi ilə yaşayan Pavel Petroviç bu vəziyyəti həzm edə biləcəkmi? Hadisələrin cərəyanındakı reallıq oxucunu bu qənaətə gətirir ki, əgər Şeyda bəy də mütləq azadlıq düşüncəsi ilə hərəkət etsəydi, Pavel Petroviç bütün ömrü boyu namussuzluq damğası ilə yaşamalı olardı. Mütləq azadlıq düşüncəsinin təlqini ilə bədnam hərəkətə yol verməyə hazır olan Sofya Mixaylovna məhz bu cür azadlığı qəbul etməyən Şeyda bəyin hesabına ömürlük damğadan xilas olur. "Mənim qəbih niyyətlərim sərasər murdarçılıqdır, ləimlikdir, idbarlıqdır...Ox! Bu hərəkətimin kəffarəsi üçün mənə tövbə lazımdır, tövbə!... Ax, Pavluşa, Pavluşa! Sən mənim həqqimdə etdiyin səfalar... Ox, ox! Məni oda yandırmalıdır". Sofya Mixaylovnanın yol vermək istədiyi qəbahətdən dolayı dərin peşimançılıq hisslərinin səmimi ifadəsi olan bu sözlər, eyni zamanda, Şeyda bəyin "dünyada azadəlik mütləq, absalyutni dərəcə yoxdur və ola bilməz!..." sözlərinin qeyd-şərtsiz sübutudur. Şeyda bəyin Amerika və Avropadakı qadın azadlığını mütləq azadlıq şəklində qəbul etməyin doğru olmaması haqqında mülahizələri də həqiqətin ifadəsidir. Qəhrəmana görə, əslində, çox qanunlar bu azadlığı bu və ya digər dərəcədə məhdudlaşdırır. Bu məhdudlaşdırmanın məqsədi heç də azadlığın aradan qaldırılması deyil, "bəlkə lazım olan məqamlarda təbiətə namüvafiq hüquq iddialarının rəddiyəsidir". Bu isə o

deməkdir ki, qadın azadlığı məsələsində S.M.Qənizadə haqq yolu olan İslamın mövqeyindən çıxış edir və insaniyyət üçün bu yolu məqbul sayır.

S.M.Qənizadə insaniyyətdə üxüvvət problemini müxtəlif ictimai münasibətlər kontekstində əks etdirir. Yazıçı İslamın ağrılı yeri olan məzhəb ayrılığına verilən rəvaca kəskin tənqidi yanaşma nümayiş etdirir. Qurani-Kərimin bütün insanları qardaşlığa çağırmasının son dərəcə aktuallandığı bir zamanda ona iman gətirənlər içərisindəki bu təfriqə, bu parçalanma zamanın sosial bəlası kimi kəskin tənqidə məruz qalır. Şeyda bəyin dilindən səslənən və özünü mömin sayan təfriqəçilərə yönələn aşağıdakı sözlər əsl ittiham kimi səslənir:

"– Yalan deyirsiniz, namüsəlmanlar!.. Sizlər müsəlman deyilsiniz, bəlkə sizlərdən bəzisi şiədir, bəzisi sünni! Və hər iki tərəf cəhl ilə başınızı doldurub nahaq yerə xalqın qulağını dəng edirsiniz. Mənə məlum olan budur ki, sizlərin Quranı birdir... Bəs hamı əhkami-şər, fəqət bir kitabdan istinbat olduqda daha ixtilaf harada ola bilər, evinizə od düşsün!...".

Şeyda bəy soydaşlarına və dindaşlarına üz tutaraq deyir: "Sizlərin söhbətinin hamısı mütləq cəhl ikən, iddialarınız həm mütləq batildir". O, həqqaniyyət uğrunda mübarizəni məzlumluğun amansız məngənəsində çırpınan soydaşlarının dərd-səri ilə maraqlanmaqda, onlara mümkün olan hümmət əlini uzatmaqda görür. Bütün bunlarla bərabər, Şeyda bəy insaniyyətdə üxüvvətə yetişməyi qlobal bir problem kimi dərk edir. Bu istiqamətdə həm müsəlman, həm də xristian dünyasında kifayət qədər ağır problemlər görür. Şeyda bəy insaniyyətdə üxüvvətə mane olan ən böyük problemlərdən birini xristian və müsəlman dünyası arasındakı ziddiyyətdə, xristian dünyasının müstəmləkəçilik siyasətində axtarır.

"Dünya evi"nin ziddiyyətləri

"Admiral Kornilov" gəmisində müxtəlif millətlərin nümayəndələri cəmləşdiyi üçün onu metaforik planda "dünya evi" kimi təsəvvür etmək olar. Bu "dünya evi"ndə musafirlər "iki silkə təqsim" olunublar. Romanda ən kəskin tənqid insanların iki təbəqəyə ayrılmasına qarşı çevrilir: "Kaspi yolunda müsafirlər iki silkə təqsim ikən, birisi pakizə cəmiyyət və birisi aziatlar, yəni asiyalılar istilahı ilə adlanırlar. Firəngiqiyafə müsafirlər hamısı pakizələr cümləsindən hesab olunduqlarında, xələtpuş çalmalılar və ya ləbbaqəli qarapapaqlar bilkülliyə napak mənasında aziat və bəzi vaxt "muxammadan" (məhəmmədilər) ləfzi ilə çağırılırlar". Müəllifin tənqidi Qərb-Şərq, xristian-müsəlman qarşıdurmasına, bu qarşıdurmaya rəvac verən Avropanın müstəmləkəçilik siyasətinə qarşıdır. Romanda "Admiral Kornilov" gəmisində "xələtpuş çalmalılar", "ləbbadəli qarapapaqlar"ın, əslində isə müsəlmanların rus soldatları tərəfindən hər addımbaşı təhqir olunmasına, onların firəngiqiyafələrin əlləri altında nökər kimi xidmət göstərməyə məcbur qalmalarına, gəminin "ən təmizanə bölmələri"ndə firəngiqiyafə musafirlərin yerləşdirilməsinin təfərrüatlarına məqsədli olaraq yer verilir və bütün bunlar insaniyyətdə üxüvvətin gerçəkləşməsində Qərb siyasətinin ən böyük maneə rolunda çıxış etdiyini işarələyir.

Qərbin müstəmləkəçilik siyasəti, insanlara irqi, dini, milli ayrı-seçkilik prizmasından baxışlarını müəllif vətənin yaşamaqda olduğu ağır taleyə müna-

sibətdə də ifadə edir. S.M.Qənizadə Qərbin Azərbaycandakı müstəmləkəçilik siyasətini Bakı neftinin yadlar tərəfindən talan edilməsi kontekstində kəskin tənqid hədəfinə çevirir. Bu tənqiddə qəlbi vətən, millət eşqi ilə çırpınan, insaniyyət və həqqaniyyət düşüncəsi ilə yaşayan, lakin Qərb dünyasının Şərq siyasətində onun izini də görməyən vətəndaş-yazıçının nəhayətsiz ürək ağrısı ifadə olunmuşdur. S.M.Qənizadə vəziyyətdən çıxış yolunu milli şüurun inkişafında, millətin himmətçiliyi öz xarakterinin aparıcı xüsusiyyətinə çevirməsində görür. Himmətçilik isə prinsip etibarı ilə milləti birləşdirir və deməli, onun gücünü artırır. Bununla belə, müəllifin müstəmləkəçilik siyasətinə, insanları dini mənsubiyyətinə görə üz-üzə qoymaq prinsiplərinə istehzası onun Qərb dünyasının insana mütləq azadlıq və mütləq bərabərlik vermək siyasəti kontekstində daha kəskin şəkil alır. Pavel Petroviçin Avropada və Amerikada mütləq azadlıq və mütləq bərabərliyin bərqərar olması haqqında ağız dolusu danışıqları jandarm soldatlarının asiyalılara təhqiramiz münasibəti fonunda, bu təhqiramiz münasibətin Qərb siyasətinin mahiyyətindən doğduğunu nəzərə aldıqda, ikiüzlü siyasətin, ikili standartların nəticəsi olması haqqında düşüncələr qaçılmaz olur.

Bütün bunlar bir daha S.M.Qənizadənin və onun qəhrəmanının gəldiyi qənaətin həqiqət olduğunu işarələyir: “Dünyada azadəlik mütləq, absalyutni dərəcədə yoxdur və ola bilməz!...” Nə qədər ki, Qərb siyasətində Avropa “pak”lığı, Asiya “napak”lığı işarələyir, nəinki mütləq bərabərlikdən, ümumiyyətlə, bərabərlikdən söhbət gedə bilməz. İnsanların “pak”lara və “napak”lara bölünməsi dünya siyasətindən çıxacağı təqdirdə insaniyyət və haqqaniyyət həyati güc qazanacaq.

“Davam edir Nizami”

Akademik İsa Həbibbəylinin ”Azərbaycan” jurnalının sentyabr sayında «Xəmsə – XXI əsr» intellektual poeması dərc edilib. Bəlkə də onu yalnız görkəmli ədəbiyyatşünas kimi tanıyanlrın əksəriyyəti buna təəccüblənəcəklər. Çünki akademik İsa Həbibbəylini AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun Baş direktoru, saysız-hesabsız məqalələrin və tutumlu monoqrafiyaların müəllifi kimi tanıyanlar onun şeir yaradıcılığı ilə müntəzəm məşğul olduğunu – şeirləri əsas ədəbi-bədii nəşrlərdə dərc edilməsə belə – bir söz adamı kimi də bədii yaradıcılığa bağlılığından xəbər tutmaya bilərlər. Amma «Azərbaycan ədəbiyyatının güzgüsü» adlandırdığımız «Azərbaycan» jurnalında hörmətli akademikin Nizami Gəncəviyə həsr olunmuş, ithaflar, iqtibas və poetik dəyərləndirmələrdən ibarət dahi intellektual poeması, mənim fikrimcə, heç də sensasiya deyil. Bu poema özünü həm də şair kimi göstərmək iddiasından çox-çox uzaqdır. Və həmin poemanı oxuduqdan sonra İsa müəllimin «Bədii yaradıcılıq – elmi idrakın donoru kimi» Ön sözündə iki məqama toxunmaq istəyirəm. Birincisi, «Şairlik iddiasından çox uzaq olan bu yaradıcılıq məşğuliyyəti ədəbiyyatşünaslıq sahəsindəki araşdırmalarda yazıçıların daxili dünyasını, bədii əsərlərin mahiyyətini daha aydın surətdə, dərindən görüb-göstərməkdə böyük bələdçim olmuşdur. Zərurət duyduğum hallarda bədii yaradıcılığa müraciət etmək mənim üçün mənəvi dünyama böyük rahatlıq gətirən, həyat və ədəbiyyat haqqındakı fikirlərimi fərqli bir formatda ifadə etməyə meydan açan davamlı əlavə məşğuliyyətdir». Daha sonra Nizami Gəncəviyə həsr etdiyi bu poemasını yaradıcılıq məşqlərindən biri hesab edir. Bu fikirlərlə tamamilə razıyam. Amma o yazının bir yerində İsa müəllim deyir ki: «Beləliklə, yalnız özüm üçün, necə deyərlər, sandıq ədəbiyyatı kimi çoxsaylı şeirlər yazmalı olmuşam». Öz bədii yaradıcılığını «sandıq ədəbiyyatı» adandırmağı fikri ilə mən razılaşmıram. Qoy deyim: davamlı olmasa da, bizim yaxşı tanıdığımız ədəbiyyatşünaslar – tənqidçilər var ki, onlar da bədii yaradıcılıqla, xüsusən, şeir yazmaqla məşğul olmuşlar və onların heç biri öz

yazdıqları şeirlər barədə «sandıq ədəbiyyatı» ifadəsini işlətməmişlər. Məsələn, akademiklərdən Məmməd Cəfər Cəfərov, Şəfayət Mehdiyev, Teymur Bünyadov və başqaları da şeirlər, nəsr və dram əsərləri yazıb çap etdirmişlər. Əllinci illərdə çap olunmuş bir almanaxda gələcəyin böyük tənqidçisi Yaşar Qarayevin şeirlərini oxumuşam. Yaxud, ilk şeirlər kitabı çap olunan və sonralar da arasıra şeirlər yazan Şamil Salmanovu misal göstərə bilərəm. Doğrudur, onlar şair kimi tanınmadılar (böyük şairimiz Rəsul Rza hətta Şamil Salmanovun şeirləri barədə geniş bir məqalə yazsa da). Əsasən bir nasir kimi tanıdığımız Xalq yazıçısı Anar da hərdən şeirlər yazır, mən hətta Əkrəm Əylislinin də haçansa, hansı kitabındasa bir neçə şeirini oxumuşam. Misalların sayını artıra da bilərdim. Deməli, İsa müəllimin öz şeirlərini «məşq», ya «sandıq ədəbiyyatı» nümunəsi hesab etməsi fikriylə razı deyiləm.

Mən İsa Həbibbəylini təkcə müasir ədəbiyyatşünaslığın görkəmli bir nümayəndəsi kimi yox, həm də ürəyi lirik duyğularla aşıb-daşan qələm adamı kimi istəyirəm. İsa Həbibbəylinin 2016-cı ildə çapdan çıxmış Əsərlərinin Onuncu Cildi bütünlüklə onun şeir yaradıcılığını əks etdirir. 450 səhifədən ibarət olan bu cilddə müəllifin yetmişinci illərin əvvəllərindən 2016-cı ilə qədər müxtəlif mövzularda yazdığı şeirləri, mahnı mətnləri, bir hekayəsi və pyesi toplanmışdır. Həmin cilddə mərhum professor – mənim də BDU-da müəllimim olmuş Yusif Seyidovun İsa Həbibbəylinin həyat və yapradıcılığına həsr olunmuş monoqrafiyasında («Elmə xidmət və bədiilik faktoru») bir fəsil də İsa Həbibbəylinin şeir yaradıcılığına həsr olunmuşdur. Məlum olur ki, İsa Həbibbəyli yaradıcılığa şeirlə başlamışdır. Ziyalıların böyük qismi, sonrakı ixtisasından, peşəsindən, vəzifəsindən asılı olmayaraq, şeir yazmışdır. Düşünmək olar ki, İsa Həbibbəyli də əvvəlcə şairlik yolunu seçmişdir. Əlimizdə olan şeirlər göstərir ki, o, istedadı olan və bir bədii söz adamı kimi, gələcəyin bir gənc sənətkarı olaraq yetişməkdə idi. Amma Yusif müəllimin yazdığı və İsa müəllimin özünün də dediyi kimi, 1970-ci ildə böyük ədəbiyyatşünas Məmməd Cəfərlə görüşündən sonra onun həyatında yeni bir dönüş yaranır və o, tələbəlik illərində yazdığı ilk elmi məqalələrindən akademikliyə doğru böyük bir yolun yorulmaz yolçusuna çevrilir.

Amma ədəbiyyatşünaslıq onun əbədi dostu, ayrılmaz sirdaşı olursa, şeir də, necə deyərlər, sevgilisinə dönür. Bu əbədi sevgilisinə əbədi məhəbbətini isə ilk dəfə həmin o X cilddə bəyan edir. Bəlkə də İsa Həbibbəylinin şeirləri toplanmış bu X Cildlə az adam tanışdır, amma mən İ.Həbibbəylinin yüz əllidən artıq (bəlkə daha çox) şeirini oxudum. Bu şeirlərin hər biri səmimiyyətlə qələmə alınıb və onların heç biri zorla, ürəyin hökmü olmadan qələmə alınmayıb. Burada yüzə yaxın da mövzu var. Amma əsas mövzulardan biri də Naxçıvandır:

Gəmiqaya və Haçadağ –
Torpaq özü bir uca dağ!
Burda vardır neçə dövran,
Mirzə Cəlil, Bəhruz, Cavid,
Tarixlərə möhür vuran.
İnsanları yurd yerində
Qol-budaqlı narbənd kimi
Köklər salan, möhkəm duran.
Təkcə durnası köçəri.
Naxçıvanım, Naxçıvan!

Bu şeirlərində həzin lirika da var (xüsusilə, anasına-atasına həsr etdiyi şeirlər – «Xəbərsiz-xəbərsiz əriyən şam, Sabaha çevriləcək axşam». «Ana – övladının könül sirridir», Ümiddən, inamdan yaranan nikbin şeirlər də, Bakıda gördüyü söyüd ağaclarından, Duzdağdan, Biçənəkdə dağ çayından, adi bir küknar ağacından, Dəmirqayadan, Arpaçaydan, Şimali Qafqaz dağlarından ilhamlanan təbiət şeirlər silsiləsi də, təəssüf şeirləri də, hələ "Azərbaycandan baxanda Çin", «Xirosima təəssüratları», "Budapeşt düşüncələri", «Misir ehramları», "Orxon abidələri", "İssıkkulda ağ gəmi". Ayrıca bütün varlığı ilə sitayiş etdiyi, elmi düşüncəsinin «donoru» olan Mirzə Cəlil – «Molla Nəsrəddin dünyası». Və bir də mənim anlayacağım tərzdə intellektual fəlsəfi şeirlər. Həmin cilddə şəxsən bir oxucu və tənqidçi kimi mənim bəyəndiyim çoxlu şeirlərin adlarını çəkə bilərəm. Məsələn, «Gəl, ay bahar!» şeiri qışla yazın müqayisəsini poetik şəkildə elə təsvir edir ki, qışın baharın gəlişiylə «bir günəş təbəssümündə heysiz qocalar kimi» nakam taleyinə acıyırsan. Lap gənclik illərində – 19 yaşında qələmə aldığı bir sevgi şeiri də göstərir ki, İsa Həbibbəyli doğrudan da şeirə ötəri bir hiss kimi yanaşmayıb, ənənəvi mövzuda da təzə söz deməyə çalışıb.

Mətləbi uzatmaq istəmirəm. «Xəmsə – XXI əsr». İsa Həbibbəylinin Ədəbiyyat İnstitutunun Baş direktoru kimi Nizami Gəncəvi İlində nizamişünaslıq sahəsində görülmüş işlərin (məqalələrin, monoqrafiyaların, dünyanın 24 ölkəsində 14 dildə Nizami haqqında çap olunmuş kitabların, keçirilmiş tədbirlərin və s.) rekord səviyyəyə çatması bu Institutun bir əməkdaşı kimi mənim gözlərimin qarşısında baş verib. Və qürur hissilə deyə bilərəm ki, Nizami İlində Nizami ilə bağlı heç bir təşkilat bu qədər ağır zəhmətin altına girməmişdir. Məhz Nizamiyə olan bu böyük məhəbbətin – dahini dahi kimi dərk etməyin real təcəssümü «Xəmsə – XXI əsr» poemasının yazılmasına səbəb olub. İsa Həbibbəyli təvazökarlıqla qeyd edir ki: «təqdim olunan nümunəni şairliyə meyli kimi yox, ədəbiyyatşünaslıq sahəsində uzun bir yol keçmiş elm adamının bir qədər fərqli şəkildə ifadə olunmuş baxışları və düşüncələri kimi qəbul edəcəklər». Təbii qəbul edirik. Amma şeir formasında yazılan hər hansı əsəri qiymətləndirərkən, ilk növbədə, bu əsəri «şairliyə meyil kimi» yox, poeziya qanunları ilə təhlil etmək vacibdir. Hiss olunur ki, İsa müəllim Nizamini dərindən öyrənib və deyim ki, İsa Həbibbəyli Nizami irsini mükəmməl mənimsəyib. Bunun üçün mütləq nizamişünas olmaq tələb olunmur, sadəcə, Nizamini sevmək (özü də bütün varlığı ilə) lazımdır. Və bu sevgi də poemada öz əksini tapıb. Mən bu poemanı geniş təhlil etmək fikrində deyiləm. Amma qısaca bəzi mülahizələrimi bildirmək istəyirəm.

1. «Xəmsə – XXI əsr» poeması, həqiqətən, İsa Həbibbəylinin başçılıq etdiyi Ədəbiyyat İnstitutunun və özünün gördüyü işlərə ümumiləşmiş bir sonluq kimi diqqəti cəlb edir. İsa müəllim sanki dərindən nəfəs alıb Nizami İlini fəxrlə, qürur hissilə yad edir (hərçənd ki, Ədəbiyyat İnstitutunda Nizami yaradıcılığı ilə tədqiqatlar davam edir). Bu baxımdan poema yaxşı mənada təbliğat xarakteri daşıyır, bir növ poeziya elmə minnətdarlıq edir.

2. Naxçıvanda, həmçinin Naxçıvandan kənarda yaşayan, amma şeir odu Naxçıvanda şölələnən bir çox şairlərin şeirlərində böyük şairimiz Məmməd Arazın təsirini görürəm. Məmməd Araz poeziyası naxçıvanlı şairlər üçün bir örnək misalındadır. Amma İsa Həbibbəylinin istər "Əsərləri"nin X cildindəki şeirlərin bir çoxunda, istərsə də «Xəmsə – XXI əsr» poemasında unudulmaz

Xalq şairimiz Rəsul Rzanın «Rənglər» silsiləsinin təsirini açıq-aydın hiss edirsən. Amma mən buna təbii yanaşıram, çünki şeirdə hər hansı poetik ənənəni yaşatmaq yasaq deyil. Təki bu ənənə uğurla davam etsin, özünün yeni çalarları ilə diqqəti cəlb etsin. Baxın:

Nizami Gəncəvi –
Azərbaycan ədəbiyyatının
Makedoniyalı İsgəndəri.

«Xəmsə» –
Azərbaycan ədəbiyyatının
Dünyaya uzanan əli,
Dünya ədəbiyyatının ləli,
Nizami Gəncəvinin ölməzlik heykəli.

«Leyli və Məcnun –
Məhəbbət haqqında poetik Qanun.

"Xosrov və Şirin" –
Kamillik haqqında ballada.

«Yeddi gözəl» –
Yeddi gözəllik üvertürası.

Fitnə – Azərbaycanda qadın
müdrikliyinin heykəli.

Yeddi günbəz –
Rəsul Rzanın «Rənglər»i.

"İsgəndərnamə" –
Nizami Gəncəvinin yaxşı padşah nağılı

Bakıda Nizami metrosu –
Nizami Gəncəvinin yeraltı dünyanı da
Fəth etmək qüdrəti,
Nizami sözünün ildırım sürəti.

Misalların sayını xeyli dərəcədə artırmaq da olar. Bu tipli bənzətmələrin – təşbihlərin əksəriyyəti uğurlu alınıb. Nəyi nəyəsə bənzətmək məsələsində İsa Həbibbəyli həm bədii söz sahibi və həm də nəzəriyyəçi kimi axtarışlar aparıb.

3. İsa Həbibbəylinin "Xəmsə – XXI əsr" intellektual poeması ənənəvi "Xəmsə" mövzusunda yazılmış bədii əsərlərdən fərqlənir. Bu, Nizami Gəncəvinin dünya şöhrəti qazanmış məşhur "Xəmsə"sinin süjetləri və qəhrəmanlarının davamı olaraq yazılan bədii əsər deyildir. İsa Həbibbəyli özü də "Azərbaycan" jurnalında çap olunan ön sözdə yazdığı kimi, o, "Xəmsə" və "Xəmsə" yaradanlar haqqında XX əsrin "Xəmsə"sini yazmışdır. Yəni özünün etiraf etdiyi kimi, İsa Həbibbəylinin yazdığı "Xəmsə – XXI əsr" intellektual poeması mənzum xəmsəşünaslıq elmidir.

4. Böyük rus şərqşünası, akademik Yevgeni Bertels Nizamiyə həsr etdiyi monoqrafiyasında yazırdı ki, Nizami sənəti izah edilməyən bir möcüzədir. Amma Nizamiyə hər müraciət bu möcüzənin sirli qapılarını açır. Məncə, akademik İsa Həbibbəylinin «Xəmsə – XXI əsr» poeması da Nizaminin sənət dünyasına yeni bir YOLdur. Sonda:

Böyük gələcəyə doğru
Əbədi yol gedir Nizami.
Hər yeni əsrlə, Hər gələn nəsillə
Yenidən davam edir NİZAMİ!..

Vaqif YUSİFLİ
filologiya elmləri doktoru

Paşa ƏLİOĞLU

TƏRZİ ƏFŞARIN ANADİLLİ ŞEİRLƏRİ

XVII əsr Azərbaycan poeziyasında yeni üslub, ifadə, deyim tərzinin yorulmaz axtarışları gedirdi. Orijinal üslubu ilə seçilən Tərzi Əfşarın şeirə gətirdiyi yeniliklər məzmuna aid deyildi, sırf dil hadisəsi idi. O, farsdilli əsərlərində fars və türk sözlərindən yeni feillər yaradır və ədəbiyyata yeni tərz gətirməsi ilə fəxr etdiyini bildirirdi:

Əz tərzhaye-köhne məlulid xateraş,
Tərzi, be tərze-taze dər in bağ açilid

(Tərcüməsi:
Köhnə tərzlərdən ürəyin bezmişdir,
Tərzi, təzə tərzlə bu bağ açılmış, çiçəklənmişdir).

Ləfz mükərrər şode, kohne nəmi ləzzətəd.
Quş kon, ey qol ke həst tərzəke, Tərzi ləziz.

(Tərcüməsi:
Söz təkrar edildiyindən köhnəldi, ləzzət vermir,
Ey gül, qulaq as, Tərzinin tərzi ləzzətlidir).

Tərzinin farsca divanında digər şairlərlə müqayisə edilməyəcək dərəcədə çoxsaylı türk sözləri və ifadələrinə, bütöv misra və beytlərə rast gəlirik. Fikrimizcə, bu şairin farsca şeirlərində yazı üslubunun səciyyəvi cəhətlərindən biri türk sözlərinin geniş istifadə edilməsindən ibarətdir. T.Əfşarın farsca şeirlərini oxuduqca bəzən belə təəssürat yaranır ki, sanki, o, farslarla bərabər türklərin də anlayacağı ortaq bir ədəbi dil yaratmaq istəyirmiş. Şairin farsca əsərlərindən bəzi nümunələr verək:

Eyləməz rəhm müsəlmanə ke, in həm Tərzist.
Möhtac nisti betutü bağlavü gətir.
Dinmə, ey tələ ke, ahuye-vəhşi gəldi.

Ənqərib əst ke, rəftid qış ü yaz aməd.
Əmma Xuda nəkərde əgər qaziyan gələnd.

XVII əsrin Azərbaycan türkü belə misraları asanlıqla başa düşə bilərdi.

Görkəmli ədəbiyyatşünas Məhəmmədəli Tərbiyət Tərzi Əfşarın fars və türk sözlərindən yeni feillər yaratması sahəsindəki eksperimentlərini o zaman poeziyada, müəyyən dairələrdə dəbdə olan təzriq poetik fiqurundan istifadə olduğunu bildirmişdir: «Təzriq» bədi elmində olan bir janrdır ki, bu janr Səfəvilər dövründə inkişaf etdirilib, yayılmışdır... II Şah Abbas dövründə Tərzi Əfşar adlı şair yeni və saxta sözlər düzəltmək üçün bu şivədən istifadə edərək, bir sıra qəsidələr və qəzəllər qoşub, bir divan tərtib etmişdir. O, öz şeirlərinin üslubu haqqında bu şiveni izləyən şairlərə xitab olaraq demişdir:

Tərzinin tərzlərini yamsılamaq deyil təzriq,
Tərzi tərzilə sərbəst söyləməkdir əsl təzriq» .

Fikrimizcə, farsca şeirlərindəki ictimai məzmuna, ədəbi dildəki eksperimentlərinə, türkcə şeirlərində canlı danışıq dilinə yaxınlaşmasına, atalar sözləri və xalq deyimlərindən uğurla istifadə etməsinə, söz yaradıcılığındakı fəallığına görə Tərzinin ədəbi irsi XVII əsr şeirimizin diqqətəlayiq hadisəsi kimi nəzərdən keçirilməlidir.

Şeirlərində adlarını dəfələrlə çəkdiyinə əsasən deyə bilərik ki, şair iki Səfəvi hökmdarı – Şah Səfinin (1629-1642) və II Şah Abbasın hakimiyyəti (1642-1666) illərində yaşamışdır. İran alimi M.Təməddün Tərzinin farsca divanını bir neçə əlyazma nüsxəsi əsasında tərtib edərək 1931-ci ildə Urmiyada, 1959-cu ildə Tehranda çap etdirmişdir. M.Təməddün bu kitaba yazdığı ön sözdə Tərzinin bir sıra avtobioqrafik səciyyə daşıyan şeirləri əsasında onun həyat yolunu izləmiş, yaradıcılıq xüsusiyyətlərini təhlil etmişdir. Tədqiqatçı qədim türk-oğuz əfşar elindən olan şairin Urmiya yaxınlığındakı Tərzlu kəndində doğulduğunu yazır. O, göstərir ki, T.Əfşar ömrü boyu dünyanın bir çox yerlərini, demək olar ki, bütün İranı, ərəb ölkələrini, Qafqazı gəzmiş, Hindistana, Kiçik Asiyaya, hətta Avropaya səyahət etmişdir. Ön sözdə Şah Səfi və II Şah Abbasın şairə münasibəti, ona yardımları barədə də ətraflı yazılmışdır. M.Təməddünün bu nəşri Y.Bertels, H.Araslı və digər tədqiqatçılara Tərzi Əfşarın yaradıcılığı barədə fikir söyləmək imkanı vermişdir. Y.Bertels T.Əfşara ayrıca bir məqalə həsr etmişdir. Tərzinin şeirlərinin hər şeydən öncə dil baxımından maraqlı olduğunu söyləyən alim şairin əsrlərlə formalaşmış dil ştampını qıraraq özünün yeni üslubunu tətbiq etmək istədiyini, lakin bu üslubun özünə davamçılar tapmadığını göstərmişdir. «Tərzi Əfşar və onun yaradıcılığı» adlı həmin məqaləsində Bertels şairin əsərlərinin məzmunca da çox maraqlı olduğunu bildirir və onun ictimai məzmunlu əsərlərindən hərbçilərin sadə insanların hesabına rahat yaşamalarını tənqid etdiyi şeirini təhlil edir. Alimə görə, İran şairləri etirazlarını sufi nəsihətləri pərdəsi altında ifadə etdikləri halda, burada müəllifin fərdiyyəti ənənəvi üslubdan fərqlənməkdədir. Tərzinin fars, ərəb və türk sözlərinə fars şəkilçisi əlavə etməklə yeni sözlər yaratdığını, bunun da əsərlərinin orijinal səslənişini təmin etdiyini söyləyən tədqiqatçı bu yeni üslubun meydana

çıxmasını XVII əsr fars ədəbiyyatının reallığı ilə izah edir: Bu zaman şeir texnikası mürəkkəbliyinin son həddinə çatmışdı. Alim Tərzinin yeni tərzini poeziyanın belə bir dövründə meydana çıxmış «bədii dəyəri şübhəli olan islahat» adlandırır, şairin söz yaradıcılığı ilə məşğul olmadığı şeirlərində onun əsl poetik istedadının parladığını göstərir. Tərzinin farsca divanında çoxsaylı türk sözlərinin, Azərbaycan türkcəsində bir neçə şeirinin olduğunu da göstərən Bertels bu əsərləri nəzərdən keçirməmişdir.

T.Əfşar yaradıcılığının dövrün ədəbi və ictimai-siyasi hadisələrini anlamaq üçün maraqlı olduğunu göstərən H.Araslı onun yeni tərzinin meydana çıxmasını zamanının çoxsaylı təqlidçi şairlərinin əsərlərinə tənqidi münasibətlə izah edir: «Tərzi Əfşar təqlidçi şairlərin yaradıcılığını düzgün tənqid edir. Ta qədim dövrdən bəri yaranan ədəbi ifadələri, təşbeh və istiarələri eyni vəzndə, həm də klassik şairlərdən çox sönük bir tərzdə təkrar edən XVII əsr şairləri şeirə, sənətə heç bir yenilik gətirə bilmədiklərindən, onların əsərləri, doğrudan da oxucuya ləzzət vermirdi. Lakin Tərzinin özü bu nöqsanı gördüyü halda, şeir, sənət aləmində heç bir yenilik yaranmadığı bir zamanda bu yeniliyi nədən başlamağı müəyyənləşdirə bilmirdi. O, şeirin məzmun yeniliyi məsələsini deyil, şəkil yeniliyi məsələsini irəli sürür və bu yeniliyi də ancaq fars sözlərinə Azərbaycan şəkilçiləri əlavə etmək yolu ilə, fars şəkilçilərini azərbaycansayağı işlətmək vasitəsilə, sözləri qəribə şəklə salmaqla yaratmaq istəyirdi. O, bu tərzi yenilik adlandırır, heç kəsin belə şeirlər yazmadığını göstərir, özünü başqalarını təkrar etməyən bakir bir ədəbi məktəb başçısı hesab edirdi». Məsiağa Məhəmmədi «Tərzi Əfşar və onun «tərzi» adlı məqaləsində Tərzinin divanından onun tərcümeyi-halına dair maraqlı məqamlar tapmış, buradakı türkdilli onomastik materialı nəzərə çarpdırmış, şairin dildə olduğu kimi, obrazlar sistemində də üslubun demokratikləşməsi, xalq təfəkkürü arsenalından faydalanma sahəsində diqqətəlayiq fəaliyyətini qeyd etmişdir.

T.Əfşarın farsca divanında Azərbaycan türkcəsində bir qəsidə, bir qitə, üç rübai və eləcə də türkcə-farsca iki müləmməsi vardır. Lakin, təəssüf ki, bu az saylı şeirlər də indiyə qədər bütövlükdə tədqiqata cəlb edilməmişdir. Araşdırmaçılar şairin ana dilində ən iri həcmli şeiri olan 37 beytlik qəsidəsinin cəmi bir neçə beytini nəzərdən keçirmiş, əsəri bütövlükdə tədqiq etməmişlər. 2008-ci ildə nəşr etdirdiyimiz «XVII əsr Azərbaycan lirikası» adlı antologiyada Tərzinin digər anadilli şeirləri ilə bərabər, həmin qəsidəsinin də mətnini bütövlükdə vermişik. T.Əfşar bu şeirini Səfəvi padşahı II Şah Abbası şiələrin müqəddəs səcdəgahları olan Kərbəla və Nəcəf şəhərlərinin yerləşdiyi İraqı, Bağdadı tutmağa təşviq etmək məqsədi ilə yazmışdır. Tərzinin bu qəsidəsi XVII əsrdə yazılmış bir sıra qəsidələr kimi nəsib hissəsi ilə başlanmır. Şeir birbaşa müəllifin əsas mətləbindən, II Şah Abbası Bağdada yürüş etməyə həvəsləndirməkdən, Bağdadın əhəmiyyətini, müqəddəsliyini vurğulamaqdan, şəhərin gözəlliyini təsvirdən başlanır:

Pərvazlandı dil yenə bağdadlanmağa,
Ol bürci-övliyayə qonub şadlanmağa.

Ol xaki-pak tək hanı bir sərzəmin dəxi,
Qəm paybəndini qırıb azadlanmağa.
Məcmunəmü o xakdə çapürə eylərəm,
Yox taqətim cilaldə fərhadlanmağa.

Bağdadın Səfəvilər və Osmanlı dövlətləri arasında münaqişə obyekti olduğu, dəfələrlə əldən-ələ keçdiyi tarixdən məlumdur. Şairə görə, şiələri gözəl, dəyəri cənnətdən də üstün olan bu şəhərə qovuşmağa qoymayan «yəzidlər», yəni sünni osmanlılardır. Şeirin mədh hissəsində Bağdadı osmanlıların əlindən qurtaracaq II Şah Abbasdan bəhs olunur:

Bağdadımız xərabdır, əmma ümid var,
Abbas əlilə əl verə abadlanmağa.
Xoş ol ki, tapa nəşvü nüma Bağdaddə,
Şahın nihali-qaməti şimşadlanmağa.
Abbasi-sani ölkəsinin guyi ar edər,
Cəmşid ruzigarilə həmzadlanmağa.
Ol seyyidəl-müluk ki, cəddi-mükərrəmi,
Əflak baisidir icadlanmağa.

Təxəllüsünü qeyd etdiyi tac beytdə bütün Səfəvi hökmdarları kimi, II Şah Abbası da mürşid adlandıran şair onun qapısına irşadlanmaq, doğru yolu tapmaq üçün gəldiyini bildirir:

Şahənşəha, kəminə duaguyi-Tərziyəm.
Mürşid dərinə gəlmişəm irşadlanmağa.

Tərzi qəsidənin sonundakı beş beytlik dua hissəsində şahı ədalətə, zülmün qarşısını almağa çağırır:

Mən həm sitəmkəşideyi-zülmi-zəmanəyəm,
Yet dadə, qoyma bəndəni fəryadlanmağa.
Virdim duayi-şahi-ədalətpənahdır,
Hər ki, əzimət eylərəm övradlanmağa...
Ömrün binası qaim olub, kimsə düşməsin,
Dövründə cövri-zülmlə bidadlanmağa.

Şeirdə ilkin nəzərə çarpan formal cəhət qəsidə janrının tələblərinə tam riayət olunmamasıdır. XVII əsrdə yaşamış şairlərimizdən Əmani, Sadiqi, Məsihi, Vəhid Qəzvini, Məczub Təbrizi və Səfiqulu bəy Səfinin də qəsidələrində bu xüsusiyyət müşahidə olunur.

T.Əfşarın farsca şeirlərindəki söz yaradıcılığından danışdıq. Şairin Azərbaycan türkcəsindəki şeirlərinin dili çox aydın və sadədir. Nəzərdən keçirilən qəsidəsi əsasında onun türkcə əsərlərindəki söz yaradıcılığında uğurlu fəaliyyətini göstərmək istərdik. Əgər bu şeirdəki «şadlanmaq», «adlanmaq», «şimşadlanmaq», «abadlanmaq» sözləri danışıq dilində işlənirsə, «bağdadlanmaq», «fərhadlanmaq», «icadlanmaq», «pərizadlanmaq», «səyyadlanmaq», «ustadlanmaq», «bünyadlanmaq», «cəlladlanmaq», «imdadlanmaq», «fəryadlanmaq» sözləri yeni, qeyri-adi, lakin poetik səslənir, əsərin bədiiliyini artırır. Qeyd etmək istərdik ki, dövrün digər şairlərində də bu tipli söz yaradıcılığı nü-

munələrinə rast gəlirik. Qövsi Təbrizi bir qəzəlində «aftablənür», «sitarələnür», «çarələnür», «kənarələnür», «hiçkarələnür», «qarələnür» kimi feili sifətləri oxucuların ixtiyarına buraxmışdır. XVII əsr sənətkarlarımızın söz yaradıcılığındakı bu cür fəaliyyəti müasir şairlərimizin poetik axtarışlarını xatırladır.

Tərzinin Azərbaycan türkcəsindəki şeirlərindən biri də beş beytlik qitədir. Bu şeirdə şairin həyata, onu əhatə edən mühitə, öz sənətinə münasibəti ifadə olunmuşdur. Özünü ədəbiyyatda yenilikçi, novator sənətkar sayan Tərzi «tazə sözün tazə qılavı», yəni yeni fikirləri yeni formada ifadə edən şair olduğunu, sənətinin paxılları yandırdığını söyləyir. O, bu şeirdə ədəbiyyatda yenilikçilik barədə fikrini aydın və fikrimizcə, çox məntiqli izah edir:

Tərzi mənəm ki, hasidə atəş aloviyəm,
Tazə sözün bilərək tazə qılaviyəm.

Bu beytdə deyilənlər, əlbəttə ki, forma ilə məzmunun bir-biri ilə bağlılığı, vəhdəti fikrinin ifadəsidir. Şeirə gətiriləcək yeni məzmunun nədən ibarət olması isə hər bir şairin istedadı, dünyagörüşü, ədəbiyyat və həyat barədə təsəvvürləri ilə bağlı məsələdir.

Bu qitəsində T.Əfşar deyir ki, onu yetərincə qiymətləndirmirlər, çünki qızılının – sənətinin qiymətini bilən bir xiridar yoxdur. Şair dəyərini bilməyənləri, «ev buzovundan öküz olmaz» deyib onu aşağılayan həmvətənlərini nadanlıqda ittiham edir, başqa diyarlarda yüksək qiymətləndirildiyini deyir:

Kutahnəzər görür məni yerdə günəş kimi,
Surətdə gərçi ərziyəm, əmma səmaviyəm.
Bizayiqə yanında yavan aşə oxşaran,
Ağzı dadın bilənlərə Gilan çilaviyəm.
Tərziya, filməsəl öküzəm hər diyarda,
Əfşar eli içində vəli ev buzaviyəm.

Bu şeirdə nəzərə çarpan cəhətlərdən biri də atalar sözləri və xalq deyimlərindən məharətlə istifadə edilməsidir. Görünür ki, özünün fəxrlə dediyi kimi, ərəb və fars dillərini mükəmməl bilən şair türkdilli mühitdə yaşamış, ana dilinin incəliklərinə bələd olmuşdur.

Tərzi türkcə üç rübaisini müxtəlif səbəblərə görə yazmışdır. Rübailərindən birini şair onu heyran edən bir gözələ həsr etmişdir. Tərzinin digər anadilli əsərlərində olduğu kimi, burada da onun farsca şeirlərində oxucunu çaşdıran dil eksperimentlərinə rast gəlmirik:

Bir gül məni xarü zarü heyran etdi,
Könlümü həzin, didəmi giryan etdi.
Nərgisləri tək eylədi bimar bəni,
Zülfi kibi halımı pərişan etdi.

İkinci rübaisində müəllif adını qeyd etmədiyi bir xana xoş günlər, uğurlar diləyir. Tədqiqatçıların nəzərindən yayınmış üçüncü rübaini T.Əfşarın Həcc səfəri zamanı yazıldığını görürük. Şair burada həmsəfərlərinə ürək-dirək verərək onlara bu çətin ziyarətin uğurla başa çatacağını söyləyir.

T.Əfşarın türkcə və farsca yazdığı müləmmələri də indiyədək araşdırmaya

cəlb edilməmişdir. 11 beytlik «Nəmiqəlyanəm» («Qəlyan çəkmirəm») rədifli qəsidə-müləmməsini şair qəlyan çəkməyə qarşı yazmışdır:

Aqiləm, aqilü fərzanə, nəmiqəlyanəm,
Nistəm əbləhü divanə, nəmiqəlyanəm.

Şair qamışdan çıxan pis qoxulu tüstünü özünə rəva görmür, bu zərəri vərdişin heç bir müsəlmana nəsib olmasını istəmir. Tərzi oxucusunu tütün çəkmək vərdişindən uzaqlaşdırmaq üçün təsirli ifadələr seçir, deyir ki, ağlı olan malını atəşə verməz, susuzluqdan yanana vüsal şərbəti gərəkdir, atəş və tüstüdə xilas yoxdur:

Mütləqa al qəmişindən götürüb ol düdügi,
Qoymuşam mehtərü çobanə, nəmiqəlyanəm.
Buyi-zişti ke, dər in dude-kəsif əst nəsib.
Olmasun heç müsəlmanə, nəmiqəlyanəm.
Aqilü balığ olan atəşə salmaz malın,
Nəqdü cismim nə üçün yanə, nəmiqəlyanəm.
Şərbəti-vəsl gərək süxteyi-təşnələbə,
Atəşü dud ilə kim qanə, nəmiqəlyanəm.

T.Əfşar daha təsirli ifadə tapıb oxucuya deyir ki, ağızla zikr edərək cənnətə düşmək mümkündürsə, nə üçün ağzımı tüstü ilə doldurub, onu nirana – odlu cəhənnəmə bənzətməliyəm:

Zikr ilə cənnət olurkən nə üçün bənzədim,
Ağzımı dud ilə niranə, nəmiqəlyanəm.

«Nəmi Tehranəm» rədifli müləmməsindən görürük ki, hansı səbəbdənsə tehranlılardan incimiş şair müəyyən müddət burada yaşasa da, qəzəblə «mən tehranlı deyiləm» deyir. Şeirin üç beytinin misraları rədifi çıxmaq şərti ilə yalnız Azərbaycan türkcəsindədir:

Sənə məlum ola kim, bəndə nəmi Tehranəm,
Ta rəməq var fəraqətdə, nəmi Tehranəm.

Suyu gər abi-həyat olsa ki, Reydən keçdim,
Dönsə toprağı əgər qanə, nəmi Tehranəm.

Var idim, ta var idi anda bizim mirzalər,
Çün olar durmadılar, mən də nəmi Tehranəm.

Klassik ədəbiyyatın əsrlərlə formalaşmış, ştamplaşmış bədii ifadə vasitələrinə, tez-tez təkrar edilən qafiyələrə qarşı çıxan Tərzi Əfşarın şeirlərindəki yeni üslub, türk alimi N.S.Banarlının sözləri ilə desək, lətifə, zarafat səciyyəli, keçici, qısa ömürlü ədəbi dəbi təmsil etsə də, dövrünün Azərbaycan şeirinə yeni bir rəng qatması ilə diqqətəlayiqdir. Şair türkcə şeirlərinin dilini canlı xalq dilinə, danışıq dilinə yaxınlaşdıran sənətkarlarımızdandır.





QƏZƏNFƏR PAŞAYEV
“AZƏRBAYCANDA VƏ İRAQDA BAYATLAR”
BAKI, “ELM VƏ TƏHSİL” NƏŞRİYYATI, 2022

Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev Bayat tayfa birliyinin Azərbaycanda (Dərbənd daxil) və İraqdakı qəbirlərini tədqiq edərək tarixçi və ədəbiyyatşünaslara, etnoqraf və folklorşünaslara, eləcə də geniş oxucu auditoriyasına tarixi əhəmiyyəti olan maraqlı əsər təqdim etmişdir.

Ön sözünün müəllifi akademik İsa Həbibbəylidir. Nəşrin redaktorları: akademik Möhsün Nağısoylu və Prof. Dr. Süphi Saatçi

RAHİD ULUSEL
“AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ RƏSUL RZA VƏ ANAR”
“AZƏRBAYCAN: BÜTÖV, GÜCLÜ, YENİLMƏZ”
BAKI, “QANUN” NƏŞRİYYATI, 2022

Müəllifin “Azərbaycan mədəniyyətində Rəsul Rza və Anar” və “Azərbaycan: Bütöv, Güclü, Yenilməz (Sabir Rüstəmxanlının həyatı, mühiti, ictimai və ədəbi-mədəni fəaliyyəti)” adlı tədqiqatları onun müasir Azərbaycan ədəbiyyatının öyrənilməsi istiqamətində apardığı araşdırmaların nəticəsidir.

Birinci kitab Rəsul Rza və Anar yaradıcılığının tədqiqinə, hər iki sənətkarın geniş ədəbi-ictimai fəaliyyətinin, onları əhatə edən mədəni-estetik məkanın öyrənilməsinə həsr edilib.

İkinci kitabda isə Sabir Rüstəmxanlının həyatı, ədəbi fəaliyyəti və milli tarix qarşısında vətəndaş məsuliyyətini aktuallaşdıran miqyaslı yaradıcılığından, Azərbaycanı bütöv, güclü və yenilməz etmək çabalarından söz açılır.

Kitabların elmi redaktoru akademik İsa Həbibbəylidir.



RASİM NƏBİOĞLU
MƏDƏNİYYƏT. İNCƏSƏNƏT. ƏDƏBİYYAT
BAKI, "XƏZƏR UNİVERSİTƏSİ" NƏŞRİYYATI, 2021

Rasim Nəbioğlunun "Mədəniyyət, İncəsənət, Ədəbiyyat" ikinci cildiyi müxtəlif illərdə yazdığı ədəbi-tənqidi, nəzəri-estetik, etik, fəlsəfi, sosioloji və publisistik məzmunlu yazılarından ibarətdir. Kitabda müəllifin dünyasını dəyişmiş müəyyən şəxsiyyətlərlə əlaqədar düşüncə və xatirələri də yer almışdır.



MAHMUD ƏHMƏD
DÜNYANI BƏLADAN TÜRK QURTARACAQ
BAKI, "YAZIÇI" NƏŞRİYYATI, 2022

Şair-publisist, professor Mahmud Əhmədin təqdim etdiyi bu kitabda son dövrlərdə yazdığı şeirlər və "Türk oğluyuq, hünərliyik" adlı lirik poeması toplanmışdır.

Şeirlər də, poema da Türkiyə-Azərbaycan qardaşlığından, eyni köklü xalqlarımızın tarixi həmrəyliyindən bəhs edilir.

REDAKSİYA HEYƏTİ:
Ağasəfa, Elçin, Vilayət Quliyev, Afaq Məsud, Vahid Əziz, Firuzə Məmmədli, Məmməd Oruc, Əli Əmirli, Paşa Əlioğlu, Vaqif Yusifli, Vaqif Bəhmənli, Seyran Səxavət, Rüstəm Kamal, Fəxri Uğurlu, Yaşar, Asim Yadigar, Saday Budaqlı, Kamil Əfsəroğlu, Emin Piri, Elşad Barat